AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ ARXİV İDARƏSİ

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN QURUCULARI

***(portret-oçerklər və məqalələr)***

**"Elm və təhsil"**
**Bakı – 2018**

**Redaktoru və**
**ön sözün müəllifi:** ***Əsgər Rəsulov***
*filologiya üzrə elmlər doktoru, professor*

**Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları.**
**(portret-oçerklər və məqalələr)**
Bakı, "Elm və təhsil", 2018, 248 səh.

*Kitab Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" 16 may 2017-ci il tarixli 2867 nömrəli Sərəncamının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin təsdiq etdiyi "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə dair Tədbirlər planı"na uyğun olaraq hazırlanmışdır.*

*Kitabda Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi və Dövlət Arxivləri əməkdaşlarının arxiv sənəd və materialları, eləcə də digər tarixi mənbələr əsasında yazdıqları və müxtəlif illərdə mətbuat səhifələrində çap edilmiş portret-oçerkləri və məqalələri toplanmışdır.*

**ISBN 978-9952-8142-9-3**

**© "Elm və təhsil", 2018**

# MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZİN ETİBARLI SAXLANCI

***"Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır. Tarixi təhrif etmək də olmaz, tariximizdəki qara ləkələri, qara səhifələri unutmaq da olmaz".***

**Heydər Əliyev**

Epiqraf seçilən kəlam müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin xalqımızın tarixinə və bu tarixin yazılmasına ciddi münasibətinin göstəricisidir. Həqiqətən də, xalq öz keçmişini bilməyəndə, gələcəyini də qura bilmir. Keçmiş isə, ilk növbədə, yaddaşlarda yaşayır. Yazılı (kağız əsaslı və rəqəmsal), görüntülü (kino-foto) və səsli (fono) arxiv sənədləri isə xalqın milli-faktoloji yaddaşı, maddi-mənəvi sərvətidir. Mükəmməl arxivi olan xalqın etibarlı qorunan tarixi mirası var deməkdir. Arxiv sənədləri bu baxımdan xalqın öz tarixini öyrənmək, dərk etmək, ondan faydalanmaq və ibrət dərsi götürmək üçün əvəzsiz mənbələrdir. Ümummilli lider Heydər Əliyevin aşağıdakı müdrik düşüncəsi arxiv xidmətinin siqlətini, arxiv sənədinin dəyərini, arxiv işinin siyasi və elmi-tarixi əhəmiyyətini dəqiq və sərrast ifadə edir: *"Arxiv işlərinə gərək çox ciddi fikir verək. Bir tərəfdən ona görə ki, bu, xalqımızın tarixini əks etdirən yeganə mənbədir. İkinci də ona görə ki, tariximizi təhrif edənlərin qarşısını almaq üçün çox mühüm amildir".*

Hal-hazırda bilavasitə Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin tabeliyində sənədlərin istifadə edilmək məqsədilə qəbulunu, saxlanmasını və uçotunu həyata keçirən 6 dövlət arxivi (Azərbaycan Respublikası Dövlət Arxivi, Dövlət Tarix Arxivi, Salman Mümtaz adına Dövlət Ədəbiyyat və İncəsənət Arxivi, Dövlət Elm və Texnika

Sənədləri Arxivi, Dövlət Kino-foto Sənədləri Arxivi, Dövlət Səs Yazıları Arxivi), eləcə də Dövlət Arxivinin 15 filialı, Naxçıvan Muxtar Respublikasının Dövlət Arxivi, habelə 57 rayon (şəhər) dövlət arxivi fəaliyyət göstərir. Bu arxivlərdə 15000-dən artıq fond, 3,7 milyona yaxın saxlama vahidi, 650 milyon vərəqdən artıq kağız əsaslı, 450 minə yaxın kino-foto və fono-video sənəd mühafizə olunur.

Sözügedən arxiv fondlarından 163-ü Azərbaycan Xalq Cümhuriyyətinin may 1918 – aprel 1920-ci illər arasındakı fəaliyyəti dövrünə aiddir. Azərbaycan Respublikasının Dövlət Arxivində qorunan həmin fondlarda Cümhuriyyətin quruluş mərhələsini, Parlamentinin və 5 Hökumətinin Tiflis, Gəncə və Bakıdakı 23 aylıq fəaliyyətini əks etdirən 26299 saxlama vahidindən ibarət arxiv sənədləri qorunmaqdadır. Bu sənədlər, eləcə də dövlət arxivlərinin müxtəlif fondlarında və elmi-məlumat kitabxanasında mühafizə edilən sənəd və materiallar şahidlik edir ki, XX əsrin ilk iki onilliyində xalqımızın tarixində baş verən taleyüklü hadisələr – Azərbaycan Milli Şurasının yaradılması, dövlət müstəqillyimizin rəsmi Aktı olan "İstiqlal Bəyannaməsi"nin qəbulu, Azərbaycan Xalq Cümhuriyyətinin qurulması və Azərbaycanın de-fakto müstəqil dövlət kimi tanınması – Şərqin ilk demokratik və parlamentli dövlətində baş vermişdir. Bu cahanşümul hadisələr millətimizin əsrlərboyu öz içində daşıdığı azadlıq və müstəqillik arzusunun gerçəkləşməsinin, suveren Azərbaycan xalqının milli mənlik şüurunun özünə qayıtmasının və öz müqəddəratını təyin etməyə qadir olmasının sübutu idi.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından 100 il keçməsinə baxmayaraq, dövlətçilik tariximizdəki rolu daima minnətdarlıq və qədirşünaslıqla xatırlanmış, bu mirasa böyük diqqət və ehtiramla yanaşılmışdır. Bu gün də Cümhuriyyətin tarixi, onun görkəmli şəxsiyyətlərinin fəaliyyəti dərindən öyrənilir, ideyaları təbliğ edilir, təcrübələrindən bəhrələnilir. Ulu öndərin Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə münasibət baxımından söylədiyi aşağıdakı sözlər xalqımızın dövlətçilik və müstəqillik fəlsəfəsini izah edir: *"Cümhuriyyətin tarixi təcrübəsi göstərir ki, dövlət müstəqilliyini və suverenliyi əldə etmək kifayət deyil, həm də onu bütün vasitələrlə qorumaq və möh-*

*kəmləndirmək lazımdır. İndiki Azərbaycan dövlətinin yeritdiyi siyasət, qazanılan uğurlar belə bir fikri əminliklə söyləməyə əsas verir ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə itirdiyimiz müstəqilliyi bir də heç zaman əldən verməyəcək, onu qoruyub saxlayacaq, dönməz, sarsılmaz və əbədi edəcəyik."*

Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik ənənələrini davam etdirən xalqımız bu tarixi varislik üzərində öz müstəqil dövlətini yaratdı və ümummilli liderin qətiyyəti sayəsində onu qoruyub saxlamaq mümkün oldu. Heydər Əliyev güclü dövlət yaratmaqla yanaşı, özündən sonra çoxşaxəli mütərəqqi islahatların varisliyini uğurla təmin edəcək peşəkar lider də yetişdirdi. Bu gün respublikamızda bütün sahələrdəki dayanıqlı sosial-iqtisadi inkişaf və uğurlar, ictimai-siyasi sabitlik və dövlətimizin dünyada artan nüfuzu müstəqilliyimizin, eləcə də ulu öndərin müəyyən etdiyi strategiyanı uğurla həyata keçirən və yeni dövrün ruhuna uyğun zənginləşdirən Azərbaycan Prezidenti İlham Əliyevin idarəçilik keyfiyyətlərinin, öz xalqına qəlbən bağlılığının, milli dövlətçilik fəlsəfəsinə, azərbaycançılıq ideologiyasına və bütün demokratik ənənələrə sadiqliyinin bəhrəsidir.

Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti və hökumətlərinin fəaliyyəti dövrünə aid əvəzsiz mənbə olan arxiv sənədləri və materialları ilk dəfə toplu halda 1998-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi haqqında" 1998-ci il 30 yanvar tarixli və "Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinə həsr olunmuş əsərlərin nəşr edilməsi haqqında" 1998-ci il 22 fevral tarixli Sərəncamlarına əsasən işıq üzü görmüşdür. Ümumi həcmi 5000 səhifəyə yaxın olan 6 adda 7 cildlik topluda Azərbaycan Xalq Cümhuriyyətinin dövlət idarəçiliyi, qanunvericilik fəaliyyəti, daxili və xarici siyasəti, ordu quruculuğu, hüquq-mühafizə sistemi və başqa mühüm sahələrdə gördüyü işlər geniş əksini tapmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin tarixini öyrənmək üçün oxucuların və tədqiqatçıların ixtiyarına verilmiş bu misilsiz çoxcildlik mənbə ulu öndərin Azərbaycan tarixinin şanlı səhifələrini yazan dövlət xadimlərinin şərəfinə ucaltdığı ilk möhtəşəm abidə idi.

Azərbaycan Xalq Cümhuriyyəti şərəfinə sonrakı tarixi əhəmiyyətli tədbirlər – 25 may 2007-ci ildə Bakıda ucaldılmış "İstiqlal Bəyannaməsi" abidəsinin açılışı, ikicildlik "Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası"nın nəşri, "Azərbaycan Xalq Cümhuriyyətinin 90 illik yubileyi haqqında" 2008-ci il 15 fevral tarixli və "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" 2017-ci il 16 may tarixli Sərəncamlar ümummilli lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, xalqımızın tarixi keçmişinin öyrənilməsini və dövlət müstəqilliyimizin təbliğini daim diqqət mərkəzində saxlayan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 15 illik fəaliyyəti dövründə həyata keçirilmişdir.

Prezident İlham Əliyevin ölkəmizin ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılanan "2018-ci ilin Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi haqqında" 10 yanvar 2018-ci il tarixli Sərəncamında 100 il əvvəl mayın 28-də Müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin qurulması Azərbaycan xalqının həyatında misilsiz hadisə kimi qiymətləndirilir. Cəmi iki ilə yaxın yaşamış Azərbaycan Xalq Cümhuriyyətinin zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tariximizdə silinməz izlər qoyduğu, xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə respublikanın gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırladığı qeyd edilir. Prezident İlham Əliyevin yanvarın 10-da Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi barədə fikirləri xalqımıza, onun tarixinə və bu gününə verilən ən gözəl dəyərdir: *"Bu il biz müstəqilliyimizin yüz illiyini qeyd edəcəyik. Yüz il bundan əvvəl müsəlman aləmində ilk dəfə olaraq demokratik respublika yaradılmışdır. Biz fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıb və bir daha bütün dünyaya nümayiş etdirib ki, Azərbaycan xalqı böyük xalqdır, istedadlı xalqdır, azad xalqdır. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və iki il ərzində fəaliyyəti tarixi hadisə idi. Azərbaycan o ölkələrdəndir ki, hələ yüz il bundan əvvəl ən ülvi demokratik dəyərləri nəinki bəyan edib, öz praktiki*

*fəaliyyətində onları təmin edib. Bugünkü Azərbaycan, müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Biz Azərbaycan Xalq Cümhuriyyətinin bütün demokratik ənənələrinə sadiqik və bu ənənələri yaşadırıq".*

Müstəqillik illərində Azərbaycan Xalq Cümhuriyyətinə aid arxiv fondlarında mühafizə olunan sənəd və materiallardan 200-dən artıq elmi tədqiqatçı istifadə etmiş, dissertasiya, monoqrafiya və məqalələr yazmışlar. Milli Arxiv İdarəsi və Dövlət arxivləri əməkdaşları tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinə dair çoxcildlik sənəd topluları hazırlanmış, yüzlərlə elmi və publisistik məqalə qələmə alınmışdır. "Azərbaycan Xalq Cümhuriyyəti İli"ndə də çoxşaxəli tədbirlər həyata keçiriləcək, toplular tərtib ediləcək, kitablar və məqalələr yazılacaqdır. Əminik ki, bütün bunlar şanlı tariximizin daha dərindən öyrənilməsinə, xalqımızın, xüsusilə gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsinə, milli dövlətçilik və azərbaycançılıq məfkurəsi ətrafında daha sıx birləşməsinə xidmət edəcəkdir.

* * *

Kitabdakı "İstiqlal bəyannaməsi", "Əlimərdan bəy Topçubaşov", "Fətəli Xan Xoyski", "Nəsib bəy Yusifbəyli", "Məmməd Xan Təkinski" məqalələri Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin rəisi, tarix elmləri doktoru Ataxan Paşayev; "Aslan bəy Kriçinski" məqaləsi Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin Komplektləşdirmə, idarə arxivləri və kargüzarlıq şöbəsinin müdiri Həsən Həsənov; "Azərbaycan Xalq Cümhuriyyəti hökumətlərinin Xalq Maarifi nazirləri", "Həmid bəy Şahtaxtinski", "Azərbaycan Xalq Cümhuriyyətində Milli Ordu quruculuğu", "General-mayor Teymur bəy Novruzov", "General-mayor Süleyman bəy Əfəndiyev", "Əhməd bəy Ağayev", "Firudin bəy Köçərli", "Üzeyir və Ceyhun Hacıbəyov qardaşları" məqalələri Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin Sənədlərin nəşri və istifadəsi şöbəsinin baş məsləhətçisi Rafiq Səfərov; "Şərqdə ilk demokratik hüquq dövləti", "Azərbaycan Xalq Cümhuriyyətində dövlət quruculuğu" məqalələri Azərbaycan Respublikası Dövlət Arxivinin direktoru Emin Sərdarov; "Arxivlər açılanda", "Atasına layiq oğul", "Məmməd Yusif Cəfərov", "Müstəqillik

fədaisi", "Yusif Vəzir Çəmənzəminli" məqalələri Azərbaycan Respublikası Dövlət Arxivinin direktor müavini, filologiya elmləri namizədi Sima Babayeva; "Cavad bəy Məlik-Yeqanov", "Azərbaycan Xalq Cümhuriyyətinin ən gənc mühaciri Ceyhun Hacıbəyli", "Azərbaycan Xalq Cümhuriyyətinin fəal publisisti Üzeyir Hacıbəyov" məqalələri S.Mümtaz adına Dövlət Ədəbiyyat və İncəsənət Arxivinin direktor müavini Aslan Kənan (Qasımov) tərəfindən yazılmışdır.

**Əsgər Rəsulov**
***filologiya elmləri doktoru, professor***

# İSTİQLAL BƏYANNAMƏSİ

"İstiqlal bəyannaməsi" 100 il əvvəl Azərbaycanın istiqlaliyyətinin bütün dünyaya elan edilməsidir. Qəbul edildiyi dövrdə "Əqdnamə" və ya "Misaqi-milli" də deyilən bu sənəd varisi olduğumuz Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasının və dövlət müstəqilliyinin rəsmi Aktıdır.

Zaqafqaziyadan Rusiyanın Müəssislər Məclisinə seçilmiş və Oktyabr inqilabının qələbəsi nəticəsində Petroqrada gedə bilməmiş Zaqafqaziya xalqının nümayəndələri 1918-ci il fevralın 14-də Tiflisdə toplaşır və Zaqafqaziya ali hakimiyyət orqanı olan Zaqafqaziya Seymini yaradırlar.

Azərbaycan nümayəndələrinin təkidilə Zaqafqaziya Seymi aprelin 9-da Zaqafqaziyanın suverenliyini və Zaqafqaziya Qoşma Xalq Cümhuriyyəti yaradıldığını elan edir. Lakin Seymdə iştirak edən Zaqafqaziya xalqlarının – azərbaycanlı, gürcü və erməni nümayəndələri daxili ziddiyyətlər və xarici siyasət məsələlərindəki əksliklər ucbatından ümumi dil tapa bilmirlər. Nəticədə Zaqafqaziya Cümhuriyyətinin yaranması daxili və xarici siyasət sahəsinə heç bir dəyişiklik gətirmir. Zaqafqaziya Seymində və hökumətində fəaliyyət göstərən bu üç millətin nümayəndələrindən hər biri öz millətinin mənafeyini ümumzaqafqaziya mənafeyindən üstün tuturdu. Onların ümumi platforması yox idi.

1918-ci il may ayının 25-də Zaqafqaziya Seyminin son iclası keçirilir. Gürcü nümayəndələri Zaqafqaziya Seymindən çıxaraq may ayının 26-da Gürcüstanın istiqlaliyyətini elan edirlər.

Gürcülərin ardınca, Zaqafqaziya Seyminin dağılmasında «xüsusi xidmətləri» olmuş ermənilər də öz istiqlaliyətini elan etməyə hazırlaşırlar. Belə bir şəraitdə Zaqafqaziya Seyminin müsəlman fraksiyası da hərtərəfli müzakirədən sonra qərara gəlir ki, «əgər Gürcüstan istiqlaliyyətini elan edərsə, onda bizim tərəfimizdən də Azərbaycanın istiqlaliyyəti elan olunmalıdır».

Zaqafqaziya Seymi dağıldıqdan bir gün sonra, mayın 27-də Azərbaycanın istiqlaliyyətini elan etmək və ilk Azərbaycan hökumətini yaratmaq üçün Seymin bütün azərbaycanlı nümayəndələri Tiflisdə toplanırlar. Ətraflı müzakirədən sonra onlar belə ağır zamanda Azərbaycanın idarə olunmasını öz üzərlərinə götürürlər. Həmin nümayəndələrdən ibarət Azərbaycan Milli Şurası yaradılır. Bu iclasda Milli Şuranın rəyasət heyəti seçilir. Görkəmli siyasi xadim və publisist Məmməd Əmin Rəsulzadə gizli səsvermə yolu ilə Azərbaycan Milli Şurasının sədri seçilir.

Ertəsi gün, may ayının 28-də keçmiş Qafqaz canişininin iqamətgahında doktor Həsənbəy Ağayevin sədrliyi ilə Azərbaycan Milli Şurasının iclası keçirilir. Bu iclasda müzakirə edilən ən mühüm məsələ Seymin buraxılması və Gürcüstanın istiqlaliyyətinin elan edilməsi ilə bağlı Azərbaycanın vəziyyəti idi. Milli Şuranın üzvü Xəlilbəy Xasməmmədov bu məsələ haqqında məruzə edərək təxirə salınmadan Azərbaycanın müstəqilliyinin elan edilməsini əsaslandırır. Uzun və hərtərəfli müzakirədən sonra Milli Şura Azərbaycanın istiqlaliyyətinin elanı haqqında qərar qəbul edir və altı bənddən ibarət «İstiqlal bəyannaməsi» elan olunur. Bəyannamədə deyilirdi:

*«Böyük Rusiya inqilabının cərəyanında dövlət vücudunun ayrı-ayrı hissələrə ayrılması ilə Zaqafqaziyanın rus orduları tərəfindən tərkinə mövcüb bir vəziyyəti–siyasiyyə hasil oldu. Kəndi qəvayi-məxsusələrinə tərk olunan Zaqafqaziya millətləri müqəddəratlarının idarəsini bizzat kəndi əllərinə alaraq Zaqafqaziya Qoşma Xalq Cümhuriyyətini təsis etdilər. Vəqaye-siyasiyyənin inkişaf etməsi üzərinə gürcü milləti Zaqafqaziya Qoşma Xalq Cümhuriyyəti cüzindən çıxıb da müstəqil Gürcü Xalq Cümhuriyyəti təsisini səlah gördü. Rusiya ilə Osmanlı imperatorluğu arasında zühur edən müharibənin təsviyyəsi üzündən hasil olan vəziyyət hazireyi-siyasiyyə və məmləkət daxilində bulunan misilsiz anarxiya Cənub-Şərqi Zaqafqaziyadan ibarət bulunan Azərbaycana, dəxi bulunduğu daxili və xarici müşkülatdan çıxmaq üçün xüsusi bir dövlət təşkilatı qurmaq məzmununu təlqin ediyor.*

*Buna binaən arai-ümumiyyə ilə intixab olunan Azərbaycan Şurayi-milliyeyi islamiyyəsi bütün cəmaətə elan ediyor ki:*

*1. Bu gündən etibarən Azərbaycan xəlqi hakimiyyət həqqinə malik olduğu kibi, Cənub-Şərqi Zaqafqaziyadan ibarət Azərbaycan dəxi kamil-əl-hüquq müstəqil bir dövlətdir.*

*2. Müstəqil Azərbaycan dövlətinin şəkili-idarəsi Xalq Cümhuriyyəti olaraq təqərrür ediyor.*

*3. Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlər və bilxassə həmcüvar olduğu millət və dövlətlərə münasibəti-həsənə təsirinə əzm ediyor.*

*4. Azərbaycan Xalq Cümhuriyyəti millət, məzhəb, sinif, silk və cins fərqi gözləmədən qələmrovunda yaşayan bütün vətəndaşlarına hüquqi-siyasiyyə və vətəniyyə təmin eylər.*

*5. Azərbaycan Xalq Cümhuriyyəti ərazisi daxilində yaşayan bilcümlə millətlərə sərbəstanə inkişafları üçün geniş meydan buraxır.*

*6. Məclisi-Müəssisan toplanıncaya qədər Azərbaycan idarəsinin başında arai-ümumiyyə ilə intixab olunmuş Şurayi-milliyəyə qarşı məsul hökuməti– müvəqqəti durur».*

İclasda iştirak edən bütün Milli Şura üzvləri «İstiqlaliyyət bəyannaməsi»ni ayaq üstündə dinləyirlər. Bəyannamənin qəbulundan sonra Milli Şura Azərbaycan Xalq Cümhuriyyətinin ilk hökumətini təşkil etməyi şuranın üzvü, bitərəf Fətəli xan Xoyskiyə tapşırır. Bir saatlıq fasilədən sonra Fətəli xan Xoyski Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin ilk üzvlərinin siyahısını təqdim edir və ətraflı müzakirədən sonra müstəqil Azərbaycan hökumətinin ilk tərkibi təsdiq olunur.

«İstiqlal bəyannaməsi»ni, Azərbaycan Milli Şurasının yaradılmasını və hökumətinin təşkilini, onların məqsəd və vəzifələrini izah etmək məqsədilə Zaqafqaziyanın azərbaycanlılar yaşayan şəhər və qəzalarına nümayəndə heyətləri göndərmək qərara alınır. N.Yusifbəyli, Ş.Rüstəmbəyov və doktor X.Sultanovdan ibarət ilk nümayəndə heyəti Gəncəyə göndərilir.

May ayının 30-da Azərbaycanın istiqlaliyyətinin elanı, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması barədə Nazirlər Şurasının

sədri F.Xoyski tərəfindən imzalanan məlumat radioteleqrafla dünyanın bütün siyasi mərkəzlərinə – London, Paris, Vaşinqton, İstanbul, Berlin, Madrid, Moskva, Roma, Vyana, Buxarest, Tokio, Haaqa, Kopenhagen, Stokholm və b. şəhərlərinə rəsmi bəyanat verilir. Bəyanatda deyilirdi: «Gürcüstanın ittihaddan çıxması üzərinə Məvərayi-Qafqaz Müttəhid Cümhuriyyəti inhilal eyləmişdir. Şəhri-halin 28-ci günü əqdi-ictimai edən Azərbaycan Şurayi Milliyəsi Məvarayi-Qafqazın Cənub-Şərqisində vaqe olan Azərbaycan Xalq Cümhuriyyətini təşkil eyləmişdir. Keyfiyyətdən hökuməti – mətbuənizin xəbərdar edilməsini surəti məxsusda rica eylər və ehtiraməti – faiqəmi təqdim ilə kəsbi şərəf edərəm. Hökumətin şimdilik məqərri müvəqqəti Yelizavetpoldur. 30 mayıs 1918. Azərbaycan Cümhuriyyəti məclisi-nüzzar rəisi Xoyski.»

Azərbaycanın istiqlaliyyətinin elanı və Xalq Cümhuriyyətinin yaradılması xalqımızın taleyində tarixi hadisə idi. M.Ə.Rəsulzadə bu barədə sonralar belə yazırdı: «28 mayıs 1918-ci il Bəyannaməsini nəşr etməklə Azərbaycan Şurayi-Milliyəsi, sözün siyasi mənası ilə, bir Azərbaycan millətinin varlığını təsbit etmişdir. Beyləki, Azərbaycan kəlməsi sadə coğrafı etnoqrafi və linqvistik bir kəlmə olmaqdan çıxaraq siyasi bir aləm olmuşdur».

İstiqlal bəyannaməsi ilə elan olunmuş Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay fəaliyyət göstərsə də, xalqımızın milli mənlik şüurunun oyanmasında, onun ictimai fikir tarixində, Azərbaycan xalqının dövlətçiliyi və suverenliyinin bərpası yolunda şərəfli yer tutur.

## ŞƏRQDƏ İLK DEMOKRATİK HÜQUQ DÖVLƏTİ

Azərbaycan xalqı dünya tarixində azadlığı uğrunda mücadilə edən, suveren dövlət quran, bununla da özünü yaşadan, qədim dövlətçilik ənənəsinə malik şərəfli səhifyə malikdir. XIX əsrin əvvəllərində dövlət müstəqilliyini itirən xalqımız XX əsrdə iki dəfə dövlət müstəqilliyinini bərqərar etməyə nail olmuşdur. Bu faktın özü Azərbaycan xalqının mübarizliyinin və azadlıq mücahidi olduğunun danılmaz dəlilidir. 1918-ci ilin 28 mayında dünya dövlətləri sırasında öz imzasını yazmış Azərbaycan Xalq Cümhuriyyəti nəinki xalqımızın, Şərqin, həm də dünya tarixində çox mühüm islahatlara nail olmuşdur.

Keçmiş SSRİ tərəfindən qaranlıq səhifələr taleyi yaşamış tariximizin qan yaddaşı özümüzə və beynəlxalq aləmə aşkarlandıqca sələflərimizin nə qədər böyük, mütərəqqi, insanpərvər, həm də müasir dillə desək, innovativ inkişafa nail olduqlarının şahidi oluruq. Cəmi 23 il ömrü olmuş Azərbaycan Xalq Cümhuriyyəti o zaman son dərəcə mütərəqqi quruluş sayılan demokratik, hüquqi və dünyəvi dövlət sisteminə malik olmuşdur. Dünyanın böyük güclü siyasi-hərbi qüvvələrinin qütbləşdiyi və dünyanı bölmək uğrunda hərbi Antanta və Üçlər İttifaqı paktlarını yaradaraq Cahan mühribəsinə başladıqları bir zamanda, xalqımızın fədakar və vətənpərvər ziyalıları xalqımızı həm Rusiya istibdadından qurtarmaq və həm də yeni işğala məruz qalmamaq üçün son dərəcə riskli və təhlükəli şəraitdə Azərbaycan Xalq Cümhuriyyətini qurmağa nail oldular. Tarixin qatları açıldıqca, arxiv sənədləri işıq gördükcə bu dövləti quranların əzminə, polad kimi sınmazlığına, təfəkkürünə, Vətən sevgisinin gücünə, zəkasının parlaqlığına, xalqımızın qan yaddaşının qüdrətinə heyran olursan və qəlbin qürur və fəxarət hissi ilə dolur. Və dərk edirsən ki, nə üçün çar Rusiyası, sonra isə onun varisi Sovet İttifaqı Azərbaycan tarixinin bu şan və şərəfli səhifələrini qaranlıqda saxlamağa cəhd edir, ərazimizə köçürdükləri ermənilərin saxta tarixlərini isə hər vasitə ilə şişirdirdilər (Xatırladaq ki, Azərbaycan tarixi orta məktəblərdə 7-8 ci siniflərdə keçildiyi halda, ermənilərin qondarma tarixi isə SSRİ tarixi ilə paralel surətdə eyni həcmdə 4-cü sinifdən başalayaraq son sinfə qədər keçi-

lirdi). İndi arxiv sənədləri öz sözünü dedikcə, yəni həqiqəti ortaya qoyduqca azadlıq mücadiləsinin ağırlığını, gərginliyini bu fonda Vətən oğullarının dönməzliyi, fədakarlığı, əzmi, qətiyyəti və böyük iradəsini görürsən. Aşkar olunan arxiv materialları Azərbaycan Xalq Cümhuriyyəti tarixinin və bu dövləti quranların həyat və fəaliyyətini daha dərindən operativ tədqiq edilməsinin son dərəcə əhəmiyyətli olduğunu meydana çıxarıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hazırkı dünyamızda gedən prosesləri dərinliyinə qədər bilən, baş verə biləcək təhlükələri önləmək üçün vaxtında tədbir görən müdrik siyasi xadimdir. Dövlət başçısının 2017- ci ilin may ayının 16-da Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında imzaladığı Sərəncam bu baxımdan xüsusi əhəmiyyətə malikdir. Sənəddə deyilir: ”Qədim və zəngin dövlətçilik ənənələrinə malik Azərbaycan xalqı keçmişinin müəyyən dövrlərində tarixin hökmü ilə böyük imperiyalar tərkibinə qatılmaq məcburiyyətində qalmışdır. Azərbaycan Xalq Cümhuriyyəti məhz dünyanın siyasi nizamının yenidən qurulduğu bir vaxtda, XIX əsrin axırları və XX əsrin əvvəllərində Azərbaycanın yaşadığı parlaq mədəni yüksəliş mərhələsinin məntiqi yekunu kimi meydana çıxmışdır”.

Məlum olduğu kimi, Azərbaycan Xalq Cümhuriyyəti I Dünya müharibəsinin sonlarında öz müstəqilliyini elan edə bilmişdir. Bu zaman dünya nizamı yenidən qurulur, siyasi təfəkkürlü liderləri olan xalq güclü siyasi iradə nümayiş etdirərək öz dövlətlərini qura bilirdilər. Bu elə bir dövr idi ki, dünyanın böyük dövlətlərinin maraqları fonunda öz xalqının varlığını qorumaq, yaşatmaq üçün dövlət kimi siyasi qurum yaratmaq geniş dünya görüşünə, əzmkarlığa və fədakarlığa malik olmaq lazım idi. Əgər nəzərə alsaq ki, Azərbaycan xalqı çar Rusiyası tərəfindən ayrı-seçkiliyə məruz qoyulmuş, idarəetmədən, dövlətin mühüm strukturlarından təcrid edilmişdi, o zaman Azərbaycan Xalq Cümhuriyyəti kimi öz dövrünün ən demokratik, hüquqi, dünyəvi dövlətini qurmağın nə qədər böyük qəhrəmanlıq və xalqına tarixi xidmət oluduğunu dərk edərik.

Dövlət başçısının Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında imzaladığı sərəncam bu baxımdan xüsusi əhəmiyyətə malikdir. Sənəddə bu gün son dərəcə mühüm həyati əhəmiyyət kəsb edən milli-dini dözümlülük, müasir dillə multikulturalizm dəyərlərini rəsmən reallaşdırdığı barədə deyilir: "Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycanı Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Cümhuriyyət parlamentinin il yarımlıq fəaliyyəti boyunca qəbul etdiyi qanunlar milli dövlətin müstəqilliyinin möhkəmləndirilməsinə, siyasi və iqtisadi inkişafa, mədəniyyət və maarif sahələrində sürətli irəliləyişə imkan verdi. Azərbaycan Xalq Cümhuriyyəti daim sülhsevər siyasət apararaq bütün dövlətlərlə qarşılıqlı əməkdaşlıq əlaqələri yaratmağa və bir-birinin hüquqlarına hörmət prinsipləri əsasında münasibətlər qurmağa cəhd göstərirdi. Dünya birliyi tərəfindən tanınmış Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində Azərbaycanın beynəlxalq hüququn subyekti olması 1920-ci ilin aprel ayındakı bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı".

1917-ci ilin fevral-burjua inqilabından sonra Cənubi Qafqazda siyasi vəziyyət gərginləşdi. Bu regiondakı xalqlar özlərinin gələcək talelərini həll etməli idilər. Yeni dünya düzəni fonunda müstəqilliklərini elan etməli, ya da digər dövlətlərin tərkibinə daxil olmalı idilər. Bu daxilolma isə yenə də parçalanma ilə baş verəcəkdi. Beləliklə, 23 fevral 1918-ci ildə Tiflisdə Cənubi Qafqazın qanunvericilik orqanı kimi, Zaqafqaziya seymi fəaliyyətə başlayır. Azərbaycanın fraksiyasına 44 deputat daxildi. Rəhbər Məmməd Əmin Rəsulzadə idi. 1918-ci ilin aprelin 22-də Zaqafqaziya Federativ Respublikası elan olunur. Azərbaycandan onun tərkibinə 5 nümayəndə daxil idi. Bölgədə millətlərarası iddialar səngimir, xüsusən ermənilərin həm Azərbaycana, həm də Gürcüstana torpaq iddiası var idi. Özü də bu iddia ermənilərin törətdiyi qanlı etnik təmizləmə ilə müşayiət olunurdu. Beləliklə, bu qurum heç bir səmərə vermir, mövcud ziddiyyətləri aradan qaldırmır. 26 may 1918-ci il tarixdə Gürcüstan onun tərkibindən çıxır. Zaqafqa-

ziya seyminin buraxıldığı elan olunur. Təcili addımlar tələb olunur və mayın 27-də Azərbaycan fraksiyası fövqəladə iclas keçirərək Milli Şura yaradır. Milli Şura mayın 28-də Azərbaycanın dövlət müstəqilliyinin rəsmən elanı olan «İstiqlal bəyannaməsi»ni qəbul edərək beynəlxalq ictimaiyyətə çatdırır və zamanın bütün böyük dövlətlərinə göndərir. Bununla da, Azərbaycan Cümhuriyyəti dünya birliyində fəaliyyətə başlayır. Bu zaman Bakıda hakimiyyət Sovet Rusiyasına bağlı bolşevik-daşnakların əlində idi. Proletar inqilabının banisi Lenin nəyin bahasına olursa-olsun Bakını əldə saxlamağa çalışırdı və Bakı Sovetinin rəhbəri erməni Stepan Şaumyana da bu barədə xüsusi tapşırıq vermişdi. Bakı kommunasının Gəncə üzərinə yürüşü dəf olunur və nəhayət, Türkiyə ilə bağlanan müqavilə əsasında Türkiyənin Qafqaz İslam Ordusu ölkəmizin köməyninə gəlir. Sentyabrın 15-də Bakı azad edilir və dövlət idarəçiliyi paytaxat seçilən Bakıda cəmləşir. Lakin dövlət quruculuğu sahəsində ilk ciddi addımlarını atan Azərbaycan Cümhuriyyəti cəmi 23 ay fəaliyyət göstərə bildi. Tarixi faktlara görə onun fəaliyyəti dövrünü 3 mərhələyə bölmək olar: təşəkkülü və hökumətin ilk tədbirləri dövrü (iyun-dekabr 1918-ci il); dövlət quruculuğunun inkişafı və dövlətin möhkəmləndirilməsi dövrü (dekabr 1918 – dekabr 1919-cu illər); Azərbaycan Xalq Cümhuriyyətinin daxili siyasi ziddiyyətlərinin artması nəticəsində zəifləməsi və süqutu dövrü (dekabr 1919 – aprel 1920-ci illər).

1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətinin əsas məqsədi Azərbaycanın müstəqilliyinin gerçəkləşməsindən ibarət idi. Buna görə də Azərbaycan hökuməti Azərbaycanın müstəqilliyinin tanınması və qorunub saxlanmasında Qərb ölkələrinin himayəsini əldə etmək işinə birinci dərəcəli əhəmiyyət verirdi. Azərbaycan hökumətinin üzvü Ə.M.Topçubaşov İstanbul, Vyana və Berlinə, eləcə də Ermənistan və Gürcüstanın mərkəzlərinə səlahiyyətli səfir təyin edilmişdi. Verilən mandata görə Ə.M.Topçubaşov Azərbaycanın maraqları ilə bağlı geniş səlahiyyətlərə malik idi. O, İstanbulda ikən Ukrayna, İran, Rusiya, ABŞ, İtaliya, İsveç, Hollandiya, Ermənistanın rəsmi nümayəndələri ilə görüşmüş, fikir mübadiləsi etmiş və onlara memorandum təqdim etmişdi. Memorandumda Qafqa-

zın coğrafıyası, onun çar dövründə inzibati bölgüsü, regionun demoqrafık vəziyyəti, Azərbaycan Respublikasında mövcud vəziyyət, aparılan quruculuq işləri, erməni probleminin mahiyyəti, mart soyqırımı, Qarabağ məsələsi barədə məlumat verilir, Azərbaycanın müstəqil yaşamağa haqqı olduğu əsaslandırılırdı.

Osmanlı Türkiyəsi də Azərbaycanın müstəqilliyinin tanınması üçün əlindən gələni əsirgiməyəcəyini bildirmişdi. Lakin Mudros sazişindən sonra Osmanlı hökumətinin Azərbaycana köməyi minimuma enmiş, Türkiyə öz müttəfıqlərindən asılı vəziyyətə düşmüşdü. Müttəfıqlər Osmanlının Azərbaycana diplomatik nümayəndə təyin etməsinə pantürkizm kimi baxmış, Osmanlı hökumətinə bunu qadağan etmişdi. 1918-ci ilin iyulunda Azərbaycanın İstanbuldakı nümayəndə heyəti buradakı İran konsulluğuna Azərbaycan Xalq Cümhuriyyətinin yaranması haqqında bəyannaməni təqdim etsə də, İran konsulu Azərbaycan adlı müstəqil dövləti tanımadığını bildirmişdi. İranın narahatçılığını aradan qaldırmaq üçün Azərbaycan hökuməti beynəlxalq sazişləri imzalayarkən Qafqaz Azərbaycanı məfhumunu xüsusi ilə vurğulayırdu. 1919-cu il sentyabr ayında İranın yeni Xarici İşlər naziri Firuz Mirzənin nümayəndə heyətinin başçısı sifəti ilə Avropaya gəlməsindən sonra İran heyətinin Azərbaycan istiqlalına münasibəti tam dəyişdi. Hətta hər iki dövlət arasında siyasi və iqtisadi ittifaqın yaradılmasını nəzərdə tutan sənəd də qəbul edildi.

Azərbycan hökuməti həmsərhəd dövlətlərlə mehriban qonşuluq münasibətlərinin yaranmasına çalışır və mübahisəli məsələlərin danışıqlar yolu ilə həll edilməsi tərəfdarı kimi çıxış edirdi. Gürcüstandan fərqli olaraq Ermənistanla münasibətlər çox çətin qurulurdu. Normal qonşuluq münasibətlərinin yaranmasına ermənilərin torpaq əldə etmək hərisliyi, törətdikləri vəhşiliklər mane olurdu.

Birinci dünya müharibəsindən sonra qalib dövlətlər müharibədən sonrakı dünyanın vacib məsələlərini həll etmək üçün Parisdə sülh konfransının çağrılmasına qərar verdilər. Dekabrın 7-də Azərbaycan parlamentində Parisə getmək üçün seçilən nümayəndə heyəti 1919-cu il yanvarın 20-də İstanbula gəldi. Lakin burada Parisə yola düşmək üçün Fransa hökumətindən üç ay yarım icazə gözləməli oldu. Yalnız

aprelin 22-də ingilislərin köməyi ilə Parisə yola düşə bildilər və may ayında Parisə çatdılar. Mayın 28-də Azərbaycan nümayəndə heyəti ABŞ prezidenti V.Vilsonla görüşə bildi. Vilsondan Azərbaycanın istiqlaliyyətinin tanınması, Vilson prinsiplərinin Azərbaycana aid edilməsi, Azərbaycanın Millətlər Liqasına qəbul olunması, ABŞ ilə Azərbaycan arasında diplomatik və iqtisadi əlaqələrin bərqərar edilməsi xahiş edilirdi. Lakin prezident Vilson sülh konfransının dünyanın kiçik hissələrə parçalanmasının əleyhinə olduğunu bildirmiş və Azərbaycan nümayəndələrinə konfederasiya ideyasını müdafiə etməyi məsləhət görmüşdü. Azərbaycan, Gürcüstan və Dağlılar respublikasının nümayəndə heyətləri konfransın rəhbərlərinə göndərdikləri bütün memorandumlarda Qafqazda konfederasiya ideyasına müsbət yanaşdıqlarını qeyd etmişdilər. Lakin ermənilər ərazi sərhəd məsələsinə daha çox əhəmiyyət verir və konfederasiya ideyasının əleyhinə təbliğat aparır, Qafqazdakı vəziyyət barədə Avropa və ABŞ ictimaiyyətində yanlış təsəvvür yaradırdılar. Azərbaycan və Gürcüstan nümayəndələrinin etirazlarına baxmayaraq, ermənilər Türkiyənin 7 şərq vilayətini, keçmiş İrəvan quberniyası, Tiflis və Yelizavetpol quberniyalarının cənubunu və Qars torpaqlarını tələb edirdilər.

Azərbaycan nümayəndə heyəti ermənilərin təbliğatına qarşı Avropa və Amerikanın özündə əks-təbliğat işini təşkil etməyə məcbur oldu. Azərbaycan nümayəndələri ingilis, fransız dillərində bir neçə kitabça hazırlayıb çap etdirmiş, Avropada və Amerikada yayılmasını təşkil etmişdilər. Bu kitabçalarda Azərbaycanın tarixi, əhalisinin antropologiyası və etnik tərkibi, təsərrüfatı, Azərbaycan Respublikasındakı vəziyyət, ermənilərin təcavüzkar hərəkətləri haqqında məlumatlar verilirdi. Azərbaycan nümayəndə heyətinin ən əhəmiyyətli təbliğat işlərindən biri «Paris sülh konfransına Qafqaz Azərbaycanı sülh nümayəndəliyinin tələbləri» adlı kitabın hazırlanması idi. Kitabda Azərbaycanın tarixi haqqında dəyərli məlumatlar verilirdi. Bu sənəd üç mühüm tələb ilə bitirdi: 1) Sülh konfransı Azərbaycanın müstəqilliyini tanısın; 2) Nümayəndə heyəti sülh konfransının işinə cəlb olunsun; 3) Azərbaycan Respublikası Millətlər Liqasının üzvlüyünə qəbul edilsin.

Azərbaycan nümayəndə heyətinin diplomatik fəaliyyətinin mühüm uğuru 1920-ci il yanvarın 11-də (yanvarın 10-da – red.) Paris konfransının Ali Şurası tərəfindən Azərbaycanın istiqlalının de-fakto tanınması və Azərbaycanın beynəlxalq münasibətlərin subyektinə çevrilməsi idi. Bu dövrdə Bakıda 20-dən artıq xarici dövlətin diplomatik nümayəndəliyi yaradılmışdı.

Müasir dövrümzdə dünyada sosial-siyasi proseslərə nəzər salanda görürük ki, Azərbaycan Xalq Cümhuriyyəti o dövr üçün milli-dini dözümlülüyü rəsmən bərqərar edən, bugünkü istilahla desək, həqiqətən də multikultural dövlət olmuşdur. XXI əsrə qədəm qoymuş bəşəriyyət bu gün irqçilk, islamafobiya, məzhəblərarası toqquşma və s. qarşıdurmaları yaşayır. Avropa ölkələrində qəbul edilən qanunlar insanların irqindən, dinindən asılı olmayaraq, hər kəsə bərabər hüquqlar, yüksək həyat şəraiti vəd etsə də, bir sıra ölkələr miqrantlara dini mənsubiyyətlərinə görə yanaşırlar, ”stop islam”, “multikulturalizmin gələcəyi yoxdur” deyirlər. Belə bir vəziyyət isə siyasi radikalizmə güclü stimul verən prosesdir və biz bunun gücləndiyini müşahidə edirik. Dövlət başçısı İlham Əliyev bəşəriyyəti çox böyük fəlakətə və qarşıdurmaya sürükləyən bu proses və onun qarşısının alınması üçün zəruri amillər barədə deyib: ”Bu isə öz növbəsində miqrantların üz tutduğu ölkələrdə ilkin olaraq cəmiyyətin, daha sonra isə siyasi elitanın radikallaşması ilə nəticələnir. Beləliklə, təəssüflər olsun ki, seçki kampaniyaları zamanı ən cəlbedici siyasi şüarlar milliyyətçi və antimiqrant ruhuna çox yaxındır. Biz son aylar və illər ərzində bunun şahidi oluruq və bu, artıq bir tendensiyaya çevrilib ki, həmin tendensiya vəziyyətin inkişafını əvvəlcədən müəyyən edir. Bu səbəbdən hesab edirəm ki, qlobal gündəlikdə duran mühüm məsələlərdən biri həmin tendensiyanın istiqamətini dəyişdirməkdir. Özgələşdirmə və siyasi qarşıdurma, habelə sivilizasiyalararası dialoqun inkar olunması əvəzinə, daha çox əməkdaşlıq, qarşılıqlı anlaşma və hörmətə üstünlük verilməlidir”.

Diqqət edin, Azərbaycan Xalq Cümhuriyyəti özünün ilk addımlarında məhz bu multikultural dəyərlərə sahib çıxmışdı. Cümhuriyyət hökuməti vicdan azadlığını təmin etmək sahəsində ilk addım-

larındaca dinlərə, mədəniyyətlərə etnik müxtəlifliyə hüquq bərabərliyi çərçivəsində və hörmətlə yanaşdı. Xatırladırıq ki, 1918-ci il mayın 28-də Tiflisdə Azərbaycan milli şurasının müstəqillik haqqında qətnaməsində qeyd edilirdi ki, vətəndaşların hüququ, siyasi, dini azadlıqları təmin edilir, müstəqil Azərbayacan dövləti dünyəvi, hüquqi, demokratik quruluşa malik olan ölkədir. Qətnamədə deyilirdi:"Azərbaycan Xalq Cümhuriyyəti milliyyətindən, dinindən, ictimai vəziyyətindən, cinsindən asılı olmayaraq bütün vətəndaşları öz hüdudları daxilində vətəndaşlıq və siyasi hüquqlarla təmin edir".

Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti müsəlmanlar üçün Qafqaz müsəlmanlarının vahid ruhani idarəsini yaratdı. 1918-ci il dekabrın 11-də çar hökuməti orqanlarının təyin etdiyi Qafqaz Şeyxülislamı M.Ə.Pişnamazzadə vəzifəsindən istefa verdi. Azərbaycan Xalq Cümhuriyyətinin Sosial təminat və dini etiqad naziri Musa bəy Rəfiyevin sərəncamı ilə 48 yaşlı axund Ağa Əlizadə Qafqaz müsəlmanlarının birgə ruhani idarəsinin sədri, Şeyxülislam təyin edildi. Yeni Şeyxülislam məzhəb ayrı-seçkiliyini qəbul etməyən, mütərrəqi fikirli, milli heysiyyətli insan idi və parlamentin fəaliyyətinə kömək edirdi. Molla Ağa Əlizadə Azərbaycanda ilk Demokratik Respublikanın yaranmasını ürəkdən alqışlayan din xadimlərindən idi. Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının birinci ildönümü münasibətilə çıxışındakı bu sözlər onun nə qədər milli olduğunu və həm də insanların özünüifadəsinə yüksək dəyər verdiyini aydın göstərir:”Azadlığı yalnız müstəqil yaşamaq yolu ilə qorumaq və müdafiə etmək olar. Öz əqidəsini və fikrini şövqlə söyləmək və öz bəşəri iradəsini ifadə etmək yalnız müstəqil ölkədə mümkündür. Asılı olmayan tədris ocaqlarında - orta və ali məktəblərdə ölkənin camaatının faydalana biləcəyi bütün biliklərə yiyələnmiş şüurlu adamlar yetişər. Allah-təalanın buyruqlarını yalnız ölkənin istiqlaliyyəti şəraitində müvəffəqiyyətlə intişara yetirmək olar. İstiqlal hər bir tayfaya və hər bir şəxsiyyətə lazımdır". Bu əqidə həm də ADR-in ideoloji məqsədini yəni multikultural dəyərlərin mühafizi olduğunu nümayiş etdirir. Beləliklə, 1918-ci il dekabrın 7-də Bakıda Azərbaycan parlamenti öz işinə başladı. Parlamentin iclaslarında heç bir dini ayin icra edilmədi. Bütün din núma-

yəndələrindən olan deputatlar bərabər hüquqi səlahiyyətlərə malik idilər. Bütün vətəndaşlar Azərbaycan Demokratik Respublikasının milli-dini təbəqələrini, bərabərhüquqlu əhalisini təmsil edirdilər. Xalqın milli mənlik duyğusunun güclənməsi milli şüurun oyanması ilə başlanan dirçəliş ümummilli vicdanı, tarixən birgəyaşayış və mltikultural həyat tərzini yenidən oyatmaya bilməzdi. Gedən prosesdən aydın görünür ki, əvvəlcə Azərbaycan Demokratik Respublikasının Milli Şurası, sonra isə Parlamenti və Hökuməti fəaliyyəti dövründə gənc dövlət üçün çox qısa müddət ərzində iqtisadi, siyasi və sosial həyatın müxtəlif sahələrinə aid çoxlu taleyüklü islahatlar həyata keçirmiş, müstəqil Azərbaycan dövlətinin formalaşıb möhkəmlənməsi üçün misilsiz işlər görmüşdür. İqtisadi, siyasi-ictimai və sosial münasibətlər sahələrində vətəndaşların hüquqlarının təmin edilməsinə yönəldilmiş qərar və tədbirlərin tərkibində əhalinin vicdan azadlığı məsələsi daim diqqət mərkəzində olmuşdur. Düzdür, Azərbaycan Demokratik Respublikası hökuməti və parlamenti fəaliyyətinin çox qısa olduğu səbəbindən milli-dini dözümlülük, tolerantlıq haqqında ayrıca dekret və ya qərar qəbul etməyə imkan tapmamışdır. Lakin onun siyasi və əməli işində bu problemə ən demokratik mövqeyi aşkar idi. Təsəvvür edin ki, Emənistanda qaragüruh millətçi daşnak partiyası aborigen türk-müsəlmanları soyqırımına məruz qoyduğu halda, Azərbaycanda onlar həm parlamentdə, həm də hökumətdə təmsil olunurdular.

Azərbaycan Cümhuriyyətinin əldə etdiyi nailiyyətlər içərisində ölkə ərazisinin nisbətən qorunub saxlanılmasının mənəvi və siyasi əhəmiyyəti son dərəcə böyükdür. Ümumiyyətlə götürüldükdə, Azərbaycan hökuməti ərazi məsələsində 3 tərəfdən təzyiq və təsirlərə məruz qalmışdı. Bir tərəfdən, Lənkəranda yad qüvvələr cəbhədən oraya soxulmuş çar Rusiyası ordusunun hərbi dəstəyi ilə Azərbaycan hökumətini tanımır, digər tərəfdən Qarabağ, Zəngəzur, Naxçıvanda erməni daşnaqlarının təcavüzü artır, üçüncü tərəfdən isə şimaldan denikinçilər Azərbaycanın müstəqilliyinə təhlükə yaradırdılar. Həmin o vaxt qısa, lakin riskli və gərgin dövr ərzində Azərbaycanda tarixi-siyasi coğrafiya baxımından bir sıra işlər görülmüş, müvafiq tədbirlər həyata keçirilə bilmişdir.

Bilindiyi kimi, Cənubi Qafqazda seym buraxıldıqdan sonra yeni yaranmış dövlətlərin sərhədlərini müəyyən etmək vacib şərt idi. İlk günlərdə erməni nümayəndələri İrəvan şəhərinin Ermənistanın paytaxtı edilməsi barədə Azərbaycan hökumətinə müraciət etdi. Batumda 1918-ci ilin mayın 29-da keçirilən danışıqlarda Azərbaycan tərəfi İrəvanın, eləcə də, Eçmiədzin qəzasının Ermənistana verilməsi təklifi ilə razılaşdı. Türkiyənin bu işə müsbət münasibət bəsləməsi də məsələnin həmin şəkildə həllində az rol oynamadı. Bu zaman şərt belə idi ki, bunun əvəzində ermənilər Qarabağın dağlıq hissəsinə olan iddialarından əl çəkməli idilər. Tarix göstərdi ki, ermənilər öz riyakarlıqlarından heç vaxt əl çəkməyəcəklər. Bugünki Ermənistan Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi həmin iddianın davamıdır. Azərbaycan Milli Şurasının razılaşması ümummilli mənafeyə vurulmuş ağır zərbə oldu. Ümumiyyətlə, bu prosesin o vaxtkı siyasi-tarixi şərait baxımından tədqiqə ciddi ehtiyacı vardır. Beləliklə, tarix boyu Azərbaycanın tərkib hissəsi olmuş, sonralar İrəvan xanlığının ərazisi olan torpaqlar – Göycə mahalının qərb hissəsi faktiki olaraq əldən çıxdı. Azərbaycanın qərb sərhədləri Göycə gölü ilə məhdudlaşdı. Göycə gölü iki respublika — Azərbaycan və Ermənistan arasında sərhəd zonasına çevrildi. Gölün şərq hissəsi «Göycə dairəsi» statusu ilə Azərbaycan Cümhuriyyətinin tərkibində qaldı. Onun ərazisi əsrin ilk illərindəki Yeni Bayəzid qəzasının şərq torpaqlarını əhatə edirdi və Göycə gölünün şimalındakı Maralicə dağının qərbindən başlayaraq gölün şərq tərəfi ilə cənuba doğru uzanır və Maraldağın qərbinə çatırdı.

Ermənistan Naxçıvana olan iddialarına nail ola bilmədi. 1918-ci ilin avqustun 7-də Kazım Qarabəkir paşanın başçılığı ilə türk ordusu Naxçıvana daxil oldu. Erməni Andronikin ordusu ağır məğlubiyyətə uğradı və onların özbaşınalığına və qəddarlığına son qoyuldu. Mudros müqaviləsinə görə türk ordusu Naxçıvandan, ümumiyyətlə, Qafqazdan çıxdıqdan sonra vəziyyət yenidən kəskinləşdi. Ermənilərin növbəti həmlələrinin qarşısını almaq üçün 1918-ci ilin noyabrında yerli azərbaycanlı əhalisi Naxçıvanda Araz-Türk Respublikasını yaratdılar. Mərkəzi əvvəlcə Qəmərli idi, sonra isə Naxçıvan oldu. Bu Respublikaya Naxçıvan, Şərur-Dərələyəz və Ordubad qəzaları, Sər-

darabad, Uluxanlı, Vedibasar, Qəmərli və Mehri əraziləri daxil idi. 1919-cu ilin mart ayına kimi fəaliyyət göstərmiş Araz-Türk Respublikası bölgənin ermənilərin əlinə keçməsinin imkan vermədi. Lakin xarci təzyiqlər çox güclü idi. Araz-Türk Respublikasının süqutu ərəfəsində, 1919-cu ilin fevralın 28-də hökumətin qərarı ilə Naxçıvan general-qubernatorluğu yaradıldı. Onun tərkibinə Naxçıvan, Ordubad, Şərur-Dərələyəz, Vedibasar və s. ərazilər daxil idi. 1919-cu ilin may-iyun aylarında ingilis komandanlığının dəstəyi ilə Naxçıvan bölgəsində erməni idarəçiliyi təşkil olundu. Buna ciddi narazılıq edən Naxçıvan əhalisi iyulun 19-25-də hərbi əməliyyatlar keçirərək erməni qoşunlarını darmadağın etdi. Ermənilərin Azərbaycan ərazilərini ələ keçirmək üçün etdikləri sonrakı cəhdlərin, o cümlədən Paris sülh konfransındakı cəhdlərinin də qarşısı alındı.

Ermənistan hökuməti əldə etdiyi güzəştə (İrəvana yiyələnməsinə) baxmayaraq, Azərbaycana qarşı təcavüzünü gücləndirir və yeni ərazləri – Zəngəzuru, Qarabağı, Naxçıvanı ələ keçirməyə cəhd göstərirdi. Ciddi səhvə yol vermiş Azərbaycan hökuməti daha yeni ərazilər itirməmək naminə mühüm tədbirlər həyata keçirirdi və məhz bunun sayəsində hökumət sonrakı fəaliyyəti dövründə Azərbaycanın ərazilərini qoruyub saxlaya bildi.

Qarabağ ermənilərin ən çox iddiasında olduqları ərazi idi. O zaman buranın əhalisinin 400.000 nəfəri azərbaycanlı və kürd, cəmi 170.000 nəfəri erməni idi. Ermənilər «Müstəqil Qarabağ Respublikası», «Vahid Rusiya», «Sovet Rusiyasının Qarabağ hissəsi» və s. kimi ifadələrlə siyasi demaqoqluq edir, nəyin bahasına olursa olsun, öz niyyətlərinə çatmaq istəyirdilər, lakin onların bütün cəhdlərinin qarşısı alınırdı. Bu məqsədlə Azərbaycan hökuməti 1919-cu ilin yanvarın 15-də Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl qəzaları ərazilərində «Qarabağ general-qubernatorluğu» təsis etdi. Xosrov bəy Sultanov qubernator təyin olundu. Erməni tərəfi bu qərarı «ermənilərin ərazi hüquqlarına qarşı qəsd» adlandırdı. Azərbaycan hökuməti bildirdi ki, həmin ərazilər Azərbaycanın mübahisə doğurmayan əraziləridir və Ermənistanın etirazı Azərbaycanın daxili işlərinə qarışmaq kimi qiymətləndirilməlidir. Beləliklə, Qarabağ məsələsində daşnaqlar susdu-

ruldu. Qarabağ general-qubernatorluğunun fəaliyyəti çox müsbət oldu, daşnak Andronikin dəstələri darmadağın edildi. Şuşada da ermənilərin özbaşınalığına son qoyuldu. Bu döyüşlərin nəticəsi o oldu ki, avqust ayında Dağlıq Qarabağ erməniləri ilə danışıqlar aparılaraq onların bu ərazidə Azərbaycanın suverenliyini qəbul etmələri barədə razılıq əldə olundu. Lakin 1919-cu ilin noyabrın 23-də Azərbaycan və Ermənistan hökumətləri arasındakı razılaşmaya görə tərəflər Zəngəzurdan qoşun hissələrini çıxarmalı idi. Azərbaycan hökuməti öz qoşunlarını Zəngəzurdan çıxardı. Riyakar Ermənistan isə vəziyyətdən istifadə edib bölgəyə əlavə qoşun hissələri yeritdi və Zəngəzurda daha iri miqyaslı əməliyyatlar keçirdi. Azərbaycan Qarabağdakı uğurlu döyüşlərlə məsələni müsbət həll etdi.

Tarixi proseslərə diqqət etdikdə istər Zəngəzur, istərsə də Qarabağdakı ermənilərin qiyamı ilə RSFSR-in Azərbaycana işğalçı qoşunlarını yeritməkdə məntiqi bağlılıq aydın görünür. Xalq Cümhuriyyətinin ordu hissələri Qarabağda və Gəncəbasarda qiyamçı erməni qüvvələri ilə döyüşdə idi, azsaylı sərhəd qoşunları isə 70 minlik rus ordusuna müqavimət göstərə bilməmişdi. Gərgin döyüşlər nəticəsində 1920-ci il aprelin 27-də bolşevik Rusiyasının 11-ci ordusu Bakıya daxil oldu. Bolşevik rəhbərliyi - Azərbaycan K(b)P MK və Rusiya K(b)P Qafqaz Diyar Komitəsinin Bakı Bürosu hakimiyyəti təhvil vermək barədə Xalq Cümhuriyyəti Parlamentinə ultimatum verdi. Vəziyyəti real dəyərləndirən Parlament gərgin müzakirələrdən sonra ultimatumla razılaşmağa məcbur oldu və axşam saat 23.45-də hakimiyyətin kommunistlərə verilməsi barədə qərar qəbul etdi. Parlamentin qərarında Azərbaycanın istiqlalının və ərazi bütövlüyünün qorunması, Milli Ordunun saxlanılması, siyasi partiyalara fəaliyyət azadlığı, Cümhuriyyətin dövlət xadimlərinə təqiblərin olmaması barədə şərtlər yer almışdı. Lakin bolşeviklər bu şərtlərin heç birinə riayət etmədi. Şərqdə, İslam aləmində və türk dünyasında demokratik idarə üsulunu tətbiq etmiş ilk Respublika sayılan Azərbaycan Cümhuriyyəti 1920-ci ilin əvvəllərindən etibarən daxili və xarici amillərlə bağlı zəiflədi və həmin ilin aprelin 27-dən 28-nə keçən gecə Bakıya soxulan XI ordu tərəfindən süquta uğradıldı.

Cəmi 23 ay mövcud olmasına baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti inkişaf etmiş dövlətlərin belə on illərlə nail olmadıqları bir sıra islahatları həyata keçirdilər. Şərqdə ilk hüquqi dünyəvi və demokratik dövlət kimi tarixə adlarını yazdılar. Bu səbəbdən də Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın tarixində xüsusi mövqeyə, Azərbaycan dövlətçiliyinin bərpası, demokratik idarə üsulunun tətbiqi baxımından müstəsna əhəmiyyətə malikdir.

Azərbaycan Xalq Cümhuriyyəti yaradıcıları Azərbaycan xalqının mənəvi potensilaına və qan yaddaşının gücünə inanırdı. Cümhuriyyətin süqutundan sonra İosif Stalin Bakıya Məmməd Əmin Rəsulzadəni Moskvaya aparmaq üçün gəlir və ona bu sualı verir: ”Bu bir il yarımlıq hakimiyyətiniz ərzində xalqa nə verə bildiniz?” Məmməd Əmin Rəsulzadə cavabında deyir: “Çox şey verə bilmədik... Amma milli azadlığın nə olduğunu başa saldıq. Azca da olsa, milli istiqlal dadızdırdıq. Yüz illik əsarət dərsi ilə iki illik hürriyyət qovğası bizi özümüzə tanıtdı. Bir kərə yüksələn bayraq bir daha enməz”. Bu tarixi cavab XX əsrin sonunda özünü doğrultdu. Azərbaycan 1991-ci ilin 18 oktyabrında öz müstəqilliyini elan etdi. Xalqın böyük oğlu ulu öndər Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətininnin tarixi-siyasi qiymətini verdi, 28 Mayın Respublika Günü elan olunmasına dair sərəncam imzaladı və müasir Azərbaycanın onun varisi olmasını elan etdi. Dövlət başçısı İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında imzaladığı sərəncamda AXC-nin müstəqillik ideyasının ümumilli lider Heydər Əliyev tərəfindən reallaşdırıldığı barədə deyilir: “Azərbaycan Xalq Cümhuriyyəti təcavüzə məruz qaldığı üçün qarşıya qoyduğu məqsədlərə tam müvəffəq ola bilmədən süquta uğrasa da, onun şüurlarda bərqərar etdiyi müstəqillik ideyası unudulmadı. Azərbaycan xalqı ötən dövr ərzində milli dövlətçilik atributlarının bir çoxunu qoruyub saxlaya bildi. Ümummilli lider Heydər Əliyevin respublikada uğurla gerçəkləşdirdiyi siyasət xalqımızın tarixi-mədəni yaddaşını özünə qaytararaq milli mənlik şüurunu inkişaf etdirdi, azərbaycançılıq məfkurəsi işığında müstəqillik arzularının güclənməsi və yaxın gələcəkdə yenidən həqiqətə çevrilməsinə zəmin yaratdı”.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNDƏ DÖVLƏT QURUCULUĞU

Dövlət Arxivində Azərbaycan Xalq Cümhuriyyətinə aid sənədlər 1918-ci ilin mayından 1920-ci ilin aprelinə qədər olan fəaliyyət dövrünü əhatə edir. Bu gənc bir dövlət üçün çox qısa zaman olan müddəti təhlil edəndə çox böyük işlərin görüldüyünün şahidi olursan. Axivdə Bakıda Dövlət Universitetinin təsis edilməsi, Şuşada pulsuz xəstəxananın açılması, epidemiyaya qarşı mübarizə və qaçqınlara tibbi yardımın təşkili, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması haqqında sənədlər, Qərbi Avropa, Amerika, Almaniya və Sovet Rusiyasında diplomatik nümayəndəliklərin yaradılması və s. barədə təqribən iki min sənəd vardır. Ədliyyə, daxili işlər, hərbi idarəetmə, dövlət strukturları, əmək, torpaq və dövlət mülkiyyəti, nəqliyyat, maliyyə, ticarət və sənaye nazirlikləri haqqında çox mühüm tədqiq ediləsi sənədlər mövcuddur. İstanbulda Azərbaycan nümayəndə heyətinin rəhbəri M.Ə.Rəsulzadənin respublikanın Xarici İşlər naziri M.Hacınskiyə məlumatı, İstanbulda Azərbaycan Cümhuriyyətinin İstanbuldakı fövqəladə və səlahiyyətli nümayəndəsi Ə.Topçubaşovun diplomatik söhbətləri haqqında qeydlər, Paris Sülh Konfransında Ə.Topçubaşovun Azərbaycanın müstəqilliyi, iqtisadiyyatı və etnik tərkibi haqqında memoradumları və digər çox əhəmiyyətli tarixi və irsi sənədlər qorunub saxlanılır. Bir sözlə, bu dövrə aid bütün sənədlər Azərbaycan Xalq Cümhuriyyətinin xalqımızın zəruri taleyüklü işlərinin bünövrə daşlarını qoyduğunu və müasir Azərbaycanın layiqli sələfi olduğunu təsdiq edir.

Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərsə də, sonrakı nəsillərin yaddaşında və xalqımızın tarixinin ən parlaq səhifələrində əbədi yer tutub. Bu gün müstəqil Azərbaycan dövlətçiliyinin təməl prinsiplərini təşkil edən Azərbaycan Xalq Cümhuriyyətinin ideoloji sistemi nə qədər pozitiv mahiyyətə malik olduğunu sübut edir və ölkəmizi daha da gücləndirir, müasir Azərbaycana bir zəmin kimi daha uğurlu gələcəyə yol göstərir. 1918-ci il mayın 28-də Şərqdə qurulan ilk demokratik respublika — Azərbaycan Xalq Cümhuriyyəti öz qısa ömrü

ərzində bir çox sahələrdə həyata keçirdiyi islahatlarla Azərbaycan tarixində mühüm bir mərhələnin əsasını qoymuşdur. AXC demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində atdığı əhəmiyyətli addımlarla qısa müddətdə xalqımızın tarixində silinməz iz buraxdı, milli dövlətçilik ənənələrinin bərpası işində böyük rol oynadı, tarixi irs yaratdı. Beləliklə, əsrin əvvəlində Azərbaycan dünya birliyində ilk addımlarını atdı, dövlətin xarici siyasət prinsipləri formalaşdı və bu siyasi kurs dostluq və əməkdaşlığa əsaslanırdı. Bu dövrün tələbindən bəlkə də irəli gedən siyasət Azərbaycan Milli Şurasının qəbul etdiyi İstiqlal Bəyannaməsində də əksini tapmışdır. Azərbaycan Xalq Cümhuriyyəti millət, məzhəb, sinif və cins fərqi görmədiyini və vətəndaşların siyasi hüquqlarını təmin etdiyini bütün dünyaya bəyan etdi. Bu insan hüquqlarının etibarlı təmini və dünyada hüquqi demokratik dövlət quruculuğunun bəyanı idi. Ən əsası isə Xalq Cümhuriyyəti bəşəri dəyərləri ehtiva edən dövlət kimi mövcud olduğu dövrdə xalqımızda azadlıq, müstəqillik fikirlərini daha da gücləndirdi və onu gələcəyi üçün əvəzedilməz miras qoydu. Bu müstəqillik zəmini o qədər güclü və real əsaslara malik idi ki, düz 70 illik əsarətdən sonra yenidən gün kimi doğdu. XX əsrin 90-cı illərinin əvvəlində Sovetlər Birliyi dağıldı, Azərbaycan qüdrətli azadlıq hərəkatı ilə ikinci dəfə öz müstəqilliyinə qovuşdu.

Ulu öndər Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin tarixi əhəmiyyəti barədə deyib: “Azərbaycan Xalq Cümhuriyyətinin yaranması bizim vaxtilə itirilmiş dövlətçiliyimizi bərpa etdi. Eyni zamanda, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması xalqımızın tarixində ilk dəfə demokratik prinsiplər əsasında müstəqil Azərbaycan dövlətinin, hökumətinin yaranmasının əsasını qoydu... Azərbaycan Xalq Cümhuriyyətinin qısa bir zamanda gördüyü işlər yüksək qiymətləndirilir. Ümidvaram ki, bu dövr Azərbaycanın tarixində parlaq səhifələr kimi daim yaşayacaq və gələcək nəsillər də ilk Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə yüksək qiymət verəcəklər”.

28 May gününü xalqımız hər il böyük təntənə ilə qeyd edir. Çünki həmin gün Gülüstan və Türkmənçay müqavilələrindən sonra müstəqilliyini itirən, yüz ildən artıq müstəmləkə şəraitində yaşayan,

mədəniyyəti, dili, dini sıxışdırılan Azərbaycan azadlığa çıxmışdır. 1918-ci il mayın 28-də İstiqlal bəyannaməsində Azərbaycanın müstəqil dövlət olduğu elan edilirdi. Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində yaranmış ilk demokratik dövlət idi. Hər bir xalqın, millətin ən böyük sərvəti isə onun müstəqil dövlətinin olmasıdır. Lakin müstəqilliyə gedən yol böyük mübarizələrdən keçir. Onu əldə etmək və qoruyub saxlamaq qurban tələb edir. Əldə edilmiş bu azadlıq xalqımızın böyük mübarizəsinin, onun böyük oğlu Məhəmməd Əmin Rəsulzadə başda olmaqla görkəmli ziyalılarımızın təfəkkürünü, güclü iradələrini mübarizə meydanına qoymalarının bəhrəsi idi. Müstəqilliyimizi qoruyub saxlamaq üçün də ciddi tədbirlər görüldü. Azərbaycan Xalq Cümhuriyyətinin ilk hökumət başçısı Fətəli xan Xoyski 1918-ci il mayın 30-da teleqrafla bütün dünya ölkələrinə Azərbaycanın müstəqil olması xəbərini elan etdi. İyun ayının 4-də Osmanlı dövləti ilə sülh və dostluq müqaviləsi bağlandı. Osmanlı dövlətindən hərbi yardım alındı. Beləliklə də 1918-ci il iyunun 26-da Azərbaycanın Milli ordusu yaradılmağa başlandı. Azərbaycan dili dövlət dili elan edildi. Üçrəngli – mavi, qırmızı, yaşıl bayrağımız yaradıldı. Türk-müsəlman Şərqində, hətta digər Avropa dövlətlərinə rəğmən ilk dəfə bizim ölkəmizdə qadınlara seçib-seçilmək hüququ verildi. Xalqımızın savadlanması üçün məktəblər, yaşlılar üçün savad kursları, türk olmayan xalqlar üçün türk dili kursları açıldı. 1919-cu ildə ən böyük ali təhsil ocağı Bakı Dövlət Universiteti yaradıldı. Məktəblər üçün dərsliklər yazılır, kitabxanalar açılır, onlarca qəzet və jurnal nəşr olunurdu. Mətbuat və söz azadlığı vardı. Milli muzeyimiz – "İstiqlal" muzeyi yaradıldı. Bütün bunlar gənc bir dövlət üçün sürətli inkişaf, milli şüurun formalaşması demək idi. Hamısı da qısa vaxt kəsiyində - müstəqillik zamanı əldə edilmiş uğurlar idi.

Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı. Ölkəmizə şimaldan gələn təhdidlər müstəqilliyimizi təhlükə altında qoydu. Azərbaycanın müstəqillik qazanması ilə barışa bilməyən Sovet Rusiyası 1920-ci il aprelin 27-də 11-ci ordunu ölkəmizə yeritdi, müstəqilliyimizə son qoydu. Sovet imperiyasının 70 illik əsarəti dövrü başladı. Lakin xalqımız müstəqillik uğrunda mübarizəni davam etdirdi.

Tarix XX əsrin əvvəllərində Azərbaycan xalqı üçün misilsiz bir hədiyyə bəxş etmişdi və bu qısa müddətdə çox işlər həyata keçirildi. Hər şeydən əvvəl öz milli dövlətçiliyinə qovuşmuş xalqımız istiqlalın nə demək olduğunu bir daha gördü, onun şirinliyini daddı. Bu dövlətin yaradıcıları olan M.Ə.Rəsulzadə, F.Xoyski, N.Yusifbəyli, Ə.Topçubaşov, H.Ağayev və başqa vətənpərvər istiqlalçılar gecəni gündüzə qataraq milli dövlətçiliyimizin əsaslarını möhkəmləndirdilər.

Azərbaycan Milli Şurasının qəbul etdyi "İstiqlal Bəyannaməsi" yeni yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasətinin başlıca prinsiplərini bütün dünyaya bildirdi. "Bəyannamə"-də elan edilmiş prinsiplər – Azərbaycan xalqının öz müqəddəratını təyin etmək, insanların hüquq bərabərliyinə hörmət, bütün xarici dövlətlərlə, habelə qonşu xalqlarla dinclik və əmin-amanlıq şəraitində yaşamaq, birbirinin suverenliyinə hörmətlə yanaşmaq prinsipləri Cümhuriyyətin beynəlxalq nüfuzunu artırdı. "İstiqlal Bəyannaməsi" Azərbaycan demokratiyası və parlamentarizm ənənələri tarixinin ən parlaq hüquqi sənədi olaraq bu gün də öz tarixi və praktiki əhəmiyyətini saxlamaqdadır.

"İstiqlal Bəyannaməsi" bütün türk-müsəlman dünyasında, ümumiyyətlə, bütün Şərqdə, ilk dəfə olaraq Azərbaycanda demokratik idarə üsulunun – parlamentli respublikanın yaradıldığını xəbər verirdi. Gənc Azərbaycan dövləti son dərəcə mürəkkəb daxili və beynəlxalq şəraitdə "doğulmuşdu". Bakıda hakimiyyəti Stepan Şaumyanın başçılıq etdiyi daşnak-bolşevik birləşməsi ələ keçirmiş və Azərbaycanın türk-müsəlman əhalisinə qarşı dəhşətli soyqırımına başlamışdı. Rus generalları tərəfindən silahlandırılmış erməni quldur dəstələri Şərqi Anadolunun və Qərbi Azərbaycanın aborigen əhalisinə qarşı soyqırımını davam etdirirdilər. Azərbaycan xalqının cəlladları olan Şaumyan və Andronik əlbir fəaliyyət göstərirdilər. Azərbaycan xalqı fiziki cəhətdən məhv edilmək təhlükəsi qarşısında idi. Neft Bakısını ələ keçirməyə çalışan xarici qüvvələr arasında rəqabət son həddinə çatmış, bütün Cənubi Qafqaz üçün yeni təhlükə - bolşevik Rusiyasının təcavüzü yaxınlaşmışdı. Azərbaycan xalqı öz tarixinin ağır yolayrıcında qalmışdı: ya milli qurtuluş, ya da ki, məhv edilərək Cənubi Qafqa-

zın etnik-siyasi xəritəsindən tamamilə silinmək. Azərbaycanı müsəqil dövlət elan etmiş Cümhuriyyət xadimləri məhz belə bir tarixi şəraitdə xalqın önünə keçmiş, onun varlığını qorumaq üçün bütün qüvvələrini səfərbər etmişdilər.

Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyət dövrünü üç mərhələyə bölmək olar:

1) Tiflis dövrü (1918-ci il 2 may - 16 iyun)

2) Gəncə dövrü (1918-ci il 16 iyun - 16 sentyabr)

3) Bakı dövrü (1918-ci il 17 sentyabr - 1920-ci il 28 aprel).

Bu gərgin, çox mürəkkəb müddət ərzində dövlət quruculuğunun bütün sahələrində çox mühüm tarixi əhəmiyyətli tədbirlər həyata keçirilmişdir. Cümhuriyyətin mövcudluğu dövründə beş hökumət kabineti fəaliyyət göstərmişdir. Bunların üçünə F.X.Xoyski, ikisinə isə N.Yusifbəyli başçılıq etmişdir. Azərbaycanın üçrəngli, ay-ulduzlu bayrağı qəbul edildi. Türk dili dövlət dili elan olundu. Məktəblər milliləşdirildi. 1919-cu il sentyabrın 1-də Bakı Dövlət Universiteti fəaliyyətə başladı. İlk milli muzey - “İstiqlal muzeyi” təşkil olundu. Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul edildi. Yelizavetpol və Qaryaginin tarixi adları bərpa olunaraq yenidən Gəncə və Cəbrayıl adlandırıldı. Azərbaycan Milli Ordusu və hərbi dəniz donanması təşkil olundu. Ölkəmizin ərazi bütövlüyü qorunub saxlandı.

Dövlət quruculuğu sahəsində həyata keçirilmiş tədbirlərdən ən əhəmiyyətlisi Azərbacan parlamentinin fəaliyyətə başlaması idi. 1918-ci il dekabrın 7-də saat 13:00-da H.Z.Tağıyevin qızlar məktəbinin binasında Azərbaycan parlamentinin təntənəli açılışı oldu. Bu, bütün müsəlman Şərqində o dövrün ən demokratik prinsipləri əsasında formalaşdırılmış ilk parlament idi. Bitərəf hüquqşünas Ə.Topçubaşov parlamentin sədri, H.Ağayev isə müavini seçildi. Azərbaycanda yaşayan bütün millətlərin və xalqların nümayəndələri, hətta xəyanətkar ermənilərin də nümayəndələri orada təmsil olunmuşdular.

Mövcud olduğu dövrdə parlament özünün 145 iclasını keçirmişdir. Bütün iclaslarda parlament “İstiqlal Bəyannaməsi”nin müəyyən etdiyi prinsiplərə sadiq qalaraq çox mühüm qanunlar və qərarlar qəbul etmişdi. Bu qanunlar konkret tarixi şəraiti nəzərə alaraq ölkənin

ərazi bütövlüyünü təmin etmək və müstəqilliyini qoruyub saxlamaq, insan haqları və azadlıqlarının dolğun təmin olunduğu ən müasir hüquqi-demokratik dövlət yaratmaq məzmununu özündə ehtiva edirdi. Hakimiyyətin üç qolu – qanunvericilik, icra və məhkəmə orqanları formalaşdırılırdı. AXC özünün siyasi quruluşuna, həyata keçirdiyi demokratik dövlət quruculuğu tədbirlərinə, qarşısına qoyduğu məqsəd və vəzifələrə görə də Avropanın ənənəvi demokratik respublikalarından qətiyyən geridə qalmırdı.

Cümhuriyyət dövrünün öyrənilməsi zamanı yalnız müsbət deyil, o dövrdəki tənqidi məqamların da üzə çıxarılması əhəmiyyətlidir. Tənqidi məqamlardan biri İrəvanın paytaxt olaraq Ermənistana güzəşt edilməsi ilə bağlıdır. Bu məsələdə müxtəlif fikirlər mövcuddur. Lakin tarixi reallıq həqiqəti deyir. Belə ki, mayın 28-də Tiflisdə müstəqilliyimizi elan etsək də, müstəqilliyimizi qoruyacaq və başqa güclərə qarşı duracaq gücümüz yox idi. Nə ordumuz, nə də iqtisadi gücümüz var idi. Bu baxımdan da bizim İrəvanı paytaxt olaraq verməkdən başqa yolumuz yox idi. Amma həmin qərar İrəvandan olan millət vəkillərinin iştirakı olmadan qəbul olunmuşdu və sonradan onların etirazları da nəzərə alınmadı. Çətin ki, Məhəmməd Əminin, ya da İstiqlal Bəyannaməsini qəbul edən digər liderlərin bunun qarşısını almağa gücü çatardı. Burada əsas rolu Rusiya və Türkiyə oynayırdı, onların qərarları da bu cür olmuşdu. Yəni bu, tarixi bir zərurət idi və Azərbaycanın bunun qarşısını almaq gücü yox idi.

Müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti ölkəmizin çoxəsrlik sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişafının, xalqımızın milli oyanışı və dirçəlişi proseslərinin məntiqi nəticəsi kimi meydana çıxmışdır. Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın siyasi şüur səviyyəsinin, intellektual və mədəni potensialının, yüksək istedad və qabiliyyətinin göstəricisi idi. 1918-ci il mayın 28-də Azərbaycanın istiqlaliyyətinin elan edilməsində, Xalq Cümhuriyyətinin təşəkkül tapmasında və fəaliyyət göstərməsində Cümhuriyyətə rəhbərlik etmiş şəxslərin – Əlimərdan bəy Topçubaşovun, Məhəmməd Əmin Rəsulzadənin, Fətəli xan Xoyskinin, Həsən bəy Ağayevin, Nəsib bəy Yusifbəylinin, Səməd bəy

Mehmandarovun, Əliağa Şıxlinski və başqalarının böyük xidmətləri olmuşdur. Bu görkəmli dövlət xadimlərinin, vətənpərvər ziyalıların, peşəkar hərbçilərin adları xalqımızın yaddaşına əbədi həkk olunmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti Avropanın demokratik dəyərləri ilə Şərq mədəniyyətinin xüsusiyyətlərini üzvi şəkildə birləşdirən yeni dövlət və cəmiyyət nümunəsi idi. Bu dövrdə həyata keçirilən tədbirlər müstəqil dövlətçiliyimizin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdi. Bu tədbirlər Xalq Cümhuriyyəti hökumətinin yürütdüyü siyasətin miqyasını, mahiyyət və mənasını əyani şəkildə səciyyələndirir.

Demokratik Respublika dövründə kitabxana və muzey işinin quruluşunda böyük yeniliklər edilmişdir. Azərbaycan hökuməti geniş oxucu kütləsinin ehtiyaclarını ödəmək üçün Bakıda ümumi kitabxana təşkil etmək məsələsini qaldırmışdır. 1920-ci ilin apreli üçün Azərbaycanda 95 min nüsxə kitab fondu olan 11 kitabxana var idi.

Xalq Cümhuriyyətinin zəngin və rəngarəng, original mətbuatı olmuşdur. 1918-20-ci illərdə Bakıda, Gəncədə və respublikanın digər şəhərlərində onlarca qəzet və jurnal nəşr olunmuşdur.

İstiqlal dövrü milli teatr sənətinin, poeziyanın, dramaturgiyanın, ümumiyyətlə, incəsənətin inkişafında çox mühüm və maraqlı bir dövrdür. 1918-ci ilin oktyabrında Bakıda Hacıbəyli qardaşları tərəfindən teatr truppası yaradılmışdır. Azərbaycan hökuməti türk teatr truppasını öz himayəsinə almışdır. Bütövlükdə bu dövr teatrın inkişafında əsaslı keyfiyyət dəyişiklikləri, dövlətin teatr sənətinə fəal yardımı teatrın cəmiyyətin həyatında rolunun artması ilə əlamətdardır.

Cümhuriyyətin tarixi təcrübəsi göstərir ki, dövlət müstəqilliyini və suverenliyi əldə etmək kifayət deyil, həm də onu bütün vasitələrlə qorumaq və möhkəmləndirmək lazımdır. Azərbaycan Xalq Cümhuriyyəti gərgin beynəlxalq ictimai-siyasi şəraitdə fəaliyyət göstərə bildi. Təəssüflər olsun ki, müstəqil Azərbaycan Cümhuriyyəti iki yaşına dolmadan bolşeviklərin hücumuna məruz qalıb müvəqqəti olaraq devrildi, ilhaq edildi. Bolşeviklər tərəfindən devrilməsinə baxmayaraq istiqlal ideyası yenilmədi və M.Ə.Rəsulzadənin “Bir kərə yüksələn

bayraq bir daha enməz” şüarı öz reallığını XX əsrin sonunda təsdiq etdi. 1991-ci ildə Sovet imperiyasının dağılması ilə Azərbaycan yenidən öz müstəqilliyini qazandı. Ulu öndər Heydər Əliyev gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay yaşamasına baxmayaraq, Azərbaycan Demokratik Respublikasının nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi qalacağını həmişə söyləyirdi. Cümhuriyyətin demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu və s. sahələrdə atdığı addımlar yarımçıq qalmadı. Varislik ənənələrini yaşadan və inkişaf etdirən xalqımız yeni tarixi şəraitdə öz dövlət müstəqilliyini bərpa etdikdən sonra ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında Xalq Cümhuriyyətinin ənənələrini əsas tutaraq, müstəqil Azərbaycan dövlətini yaratdı və ulu öndərin siyasi kursu sayəsində Azərbaycan Respublikası Xalq Cümhuriyyətindən fərqli olaraq, mürəkkəb vəziyyətdə öz müstəqilliyini və suverenliyini qorumağı və möhkəmləndirməyi bacardı. Dövlətçiliyin qorunması üçün qətiyyətli tədbirlər görüldü, ölkədə davamlı ictimai-siyasi sabitlik bərpa edildi. Bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət, vətəndaş cəmiyyəti quruculuğu prosesi uğurla davam etdirilir. Respublikamızda siyasi, iqtisadi və sosial islahatlar davamlı surətdə uğurla həyata keçirilir, ölkə iqtisadiyyatı dinamik inkişaf edir, əhalinin sosial müdafiəsinin gücləndirilməsi üçün təsirli tədbirlər görülür. Ölkə rəhbəri, ulu öndərin layiqli siyasi varisi İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin qəbul etdiyi və bizə azadlıq mübarizəsi üçün miras qoyduğu dövləti təmsil edən bayrağımızın əhəmiyyəti barədə deyib: “Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində dövlət bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli dövlət bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaq. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaq. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq. Eşq olsun, Azərbaycan bayrağına! Yaşasın Azərbaycan!”

## MÜSTƏQİLLİK FƏDAİSİ

Azərbaycan Xalq Cümhuriyyətinin banisi Məhəmməd Əmin Rəsulzadə bütün həyatını Azərbaycanın müstəqilliyi uğrunda mübarizəyə həsr edib. O, 1917-ci il oktyabrın 26-da Musavat partiyasının I qurultayında çıxış edərkən deyib: "Müsəlman Şərqinin bütün türk xalqları düşkünlük dövrünü yaşamış və Şərq xalqının tərəqqisi və mədəniliyinə ümid qalmamışdı. Bu mədəniyyətsizliyin səbəbi vahid ideyanın, fikrin olmaması idi. Əlbəttə, millətdə milli istəyin, fikrin olmaması tənəzzülə, siyasi hərəkatın yox olmasına aparır. Lakin həmişə belə olmayacaq. Son vaxtlar Şərq dünyası artıq bizdə meydana gələn böyük milli duyğular dövrünə qədəm qoyur. Biz milli istəklərə doğru gedirik, lakin bizim istəyimiz digər millətlər üzərində ağalıq etmək, yaxud başqa millətləri susdurmaq deyil. Bizim istəyimiz digər millətlərlə birlikdə sakit və xoşbəxt yaşamaqdan ibarətdir. İnsan cəmiyyətinin üzvü olmaq və bütün millətlərlə birlikdə mədəni və tərəqqipərvər millət olmaq. Türkizm fikri başqalarına basqın etmək deyil..." (ARDA, f.894, siy.10, sax.vah.60, vər.1.)

1918-ci il mayın 28-də Azərbaycan müstəqil dövlət elan olunandan sonra Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti qonşu dövlətlərlə diplomatik münasibətlər yaratmaq sahəsində təcili tədbirlər görmüşdür. Həmin il iyunun 18-də Azərbaycanın müstəqilliyinin tanınması haqqında diplomatik danışıqlar aparmaqdan ötrü M.Ə.Rəsulzadə Azərbaycanın nümayəndə heyətinin sədri kimi Konstantinopola (İstanbula) gedib.

Vətəndən uzaqda olan M.Ə.Rəsulzadə Azərbaycanın mənafeyi ilə bağlı olan bütün hadisələrlə yaxından maraqlanırdı, onlara kəskin reaksiya verirdi. Məlum olduğu kimi, Azərbaycanın müstəqilliyi elan edilən zaman Bakı bolşeviklərin əlində idi. Azərbaycan hökuməti müvəqqəti olaraq Gəncə şəhərinə köçməyə məcbur oldu. Lakin Sovet Rusiyası anlayırdı ki, Bakını uzun müddət saxlamaq ona müyəssər olmayacaq. Ona görə də Almaniya ilə sövdələşməyi qərara aldı.

Ümumiyyətlə, Bakı şəhəri o dövrdə xarici ölkələr arasında mübarizənin əsas obyekti idi. Osmanlı imperiyası, Almaniya, İngiltərə, Sovet

Rusiyası şəhəri ələ keçirməyə çalışırdılar. Həmin dövrdə Konstantinopolda olan Məhəmməd Əmin Bakının Azərbaycan Respublikasında qalması üçün qızğın fəaliyyət göstərirdi. Özünün 1918-ci il 1 avqust tarixli məktubunda yazır: "Berlindən alınan məlumata görə bolşeviklərlə Almaniya arasında əlavə müqavilə bağlanıb. Ona əsasən bolşeviklər Qafqaz dövlətlərindən yalnız Gürcüstanın müstəqilliyini tanıyırlar və almanlar Rusiyanın Bakını və onun neft rayonlarını əldə saxlamaq istəyinə etiraz etmirlər. Çünki bolşeviklər Bakı neftinin bir hissəsini almanlara və onların müttəfiqlərinə verməyi vəd ediblər. Məlumat hamını heyrətləndirdi, qəzetlər onu hiddətlə dərc etdilər... Nəyin bahasına olursa-olsun, Bakını götürməli, götürməli, götürməli...". (ARDA, f.894, siy.10, sax.vah.181, vər.1.)

1918-ci il sentyabrın 6-da M.Ə.Rəsulzadə yenidən xarici işlər naziri Məmməd Həsən bəy Hacınskiyə yazır: "Tələsik "Koriney"ə gedərək Tələt Paşa və Bern-Sdorf ilə görüşlərimin surətini sizə göndərirəm. Məsələ son dərəcə mürəkkəbdir. Bakı məsələsi yalnız gücdən asılıdır. Əgər Bakı götürülməsə, hər şey bitdi. Əlvida Azərbaycan. Hətta onun necə götürülməsindən sonra da bir çox diplomatik çətinliklərlə üzləşəcəyik." (ARDA, f.894, siy.10, sax.vah.181, vər.16.)

Və yenidən Bakının taleyi üçün narahat olan Məhəmməd Əmin 1918-ci il sentyabrın 12-də Kopenhagendə alman elçisi, alman səfirliyi işlərinin vəkili qraf Valdburqa yazır: "Cənab elçi, Bakı ilə əlaqədar bu yaxınlarda Almaniya İmperiyası və Böyük Rusiya arasında bağlanmış müqavilənin sərəncamlarının mənim hökumətimin sərəncamları ilə uyuşmaması ilə bağlı aşağıdakıları sizin nəzərinizə çatdırmağı şərəf duyuram:

Azərbaycan xalqı rus inqilabının elan etdiyi və Brest-Litovskda rus hökumətinin təsdiq etdiyi hər bir xalqın öz müqəddəratını həll etməsi hüququndan istifadə edərək böyük əsarət zəncirini üstündən atıb və Dördlər İttifaqının (Almaniya və onun müttəfiqləri Avstriya-Macarıstan, Bolqarıstan, Türkiyə) rəğbətinə arxalanaraq möhkəm əqidə ilə öz müstəqilliyini elan etmişdir. Buna görə də yuxarıda göstərilən əlavə müqavilə paraqraflarına uyğun olaraq Almaniya İmperator hökumətinin Azərbaycanın təbii paytaxtı, əqli, iqtisadi və siyasi mərkəzi olan Bakı

şəhərinin Rusiyanın ağalığı altında qalmasına razılıq verməsi ona ağır təsir göstərmişdir... Xəritəyə bir nəzər yetirmək kifayətdir ki, Bakının Azərbaycandan ayrılmaz olduğunu etiraf edəsən: Bizim şəhərə etnoqrafik hüquqlarımız da danılmazdır. Əhalinin çox hissəsi müsəlman fəhlələrdir. Ətrafdakı kəndlərin hamısı türk-müsəlman kəndləridir. Daşınmaz və boş əmlakın çox hissəsi müsəlmanlara məxsusdur. Yerli müsəlman kapitalistlər ölkənin varidatının çox hissəsinə malikdirlər. Yüzlərlə müsəlman firması neft sənayesi ilə məşğuldur.

Mədəniyyət nöqteyi-nəzərindən də Bakı Azərbaycana məxsusdur. Bütün siyasi, iqtisadi və sosial təşkilatlar, dini, məktəb və xeyriyyə idarələri, mədəniyyət, müsəlman mərkəzləri, mətbəələr Bakıda yerləşir. Bu, ölkənin müstəqilliyini təşkil etməyə qabil olan bütün maddi və mənəvi qüvvələri birləşdirən mərkəzdir. Öz ölkəsinin müstəqilliyinə nail olmaq ideyalarından heç vaxt ayrılmayan Azərbaycan əhalisi bütün bu dəlillərə əsaslanaraq Bakını qaytarmaq istəyindən imtina edə bilməz.

Bu, Azərbaycan üçün ərazi artımı məsələsi deyil, hər şeydən əvvəl, həyat qabiliyyəti şəraiti məsələsidir. Əksinə, Bakının onlar üçün zəruri olduğunu hesab edən Rusiya üçün, digər xalqlar üçün bu şəhər xalis iqtisadi əhəmiyyət kəsb edir. Hər cür iqtisadi mərkəz üçün işlədilə bilən bu mühakimə heç vəchlə Azərbaycanı qanuni hüququndan məhrum edə bilməz. Bununla belə, mənim hökumətim onunla mehriban münasibətlər quran, xüsusilə Almaniya kimi böyük sənaye ölkəsi kimi ölkələrin kommersiya və iqtisadi maraqlarına heç bir etinasızlıq cəhdi göstərmir.

Yuxarıda yürüdülən mühakimələrə əsaslanaraq Almaniya İmperator hökumətinin diqqətini bu fakta cəlb etmək istəyirəm ki, Bakının Rusiya üçün qalmasını nəzərdə tutan əlavə rus-alman müqaviləsindın irəli gələn sərəncamlar Azərbaycanın həyati mənafeyinə toxunur. Buna görə milli hökumət və Azərbaycan xalqı çox narahatdır ki, böyük dost dövlətin razılığı onlar üçün həyati vacib olan mülk mərkəzindən məhrum olmaq təhlükəsi yaradır. Onlar möhkəm ümüd edirlər ki, bu şəhərə olan şərtsiz hüquqları Almaniya İmperator hökumətinin ciddi diqqətinə qəbul ediləcək". (ARDA, f.894, siy.10, sax.vah.149, vər.1-4.)

Tezliklə Azərbaycan Cümhuriyyəti Nazirlər Sovetinin sədri Fətəli Xan Xoyski M.Ə.Rəsulzadəyə məktubunda məlumat verir: "Yeni şriftlə yazıram. Məlumat üçün bildirirəm ki, Bakıda bolşevik hakimiyyəti devrilib. Rusiya bolşevik hökumətinin nümayəndələri həbs olunublar. Hakimiyyət ingilislərlə birlikdə bolşevik hökumətini tanımayan daşnaküsütyun və menşevik partiyalarının əlinə keçib. Bakını dövrəyə almışıq, mədənlərin bir hissəsi və bütün Abşeron yarımadası bizim əlimizdədir. Biz əminik ki, yaxın günlərdə şəhər süqut edəcək. Almaniya və Avstriya kütlələrinin sədrləri dəfələrlə bizi əmin ediblər ki, onlar Bakını Azərbaycanın ayrılmaz tərkib hissəsi və paytaxtı hesab edirlər. İndi onlar hətta qoşunların daşınmasında bizə kömək göstərirlər. Sizin etirazınızı bəyənirik..." (ARDA, f.894, siy.10, sax.vah.181, vər.5.)

Məktuba cavab olaraq Məhəmməd Əmin bildirib: "Orada nə olubsa, siz Bakının götürülməsi haqqında hətta rəsmi məlumat vermədiniz. İndi hətta Konstantinopol Bakının alınması haqqında təfərrüatları bilmir... Bakının götürülməsi burada əhval-ruhiyyəni yüksəldib. İki dəfə bayram etdik... Ənvər Paşa Bakının götürülməsi haqqında bayram axşamı telefonla xəbər verdi. Dərhal onun yanına getdim. Qucaqlaşdıq, öpüşdük, bayram etdik." (ARDA, f.894, siy.10, sax. vah.31, vər.17.)

Bəli, M.Ə.Rəsulzadə öz Vətəninin əsl vətənpərvəri idi, öz xalqını, millətini ürəkdən, hərarətlə sevirdi. 1918-ci il dekabrın 7-də Azərbaycan Parlamentinin açılışında çıxış edərək demişdir: "...Vaxt ağırdır, məsuliyyətlidir, getdiyimiz yol tikanlıdır, qarşımızda böyük maneələr var. Bu maneələrin öhdəsindən gəlmək bizdən, deputatlardan böyük fədakarlıq tələb edir, biz özümüzü qurban verməyə qabil olduğumuzu sübut etsək, əgər bunu bacarsaq, yolun yarısı keçilmiş olar. Mən sizi Vətənin mənafeyini və xalqın firavanlığını partiya maraqlarından yüksək tutmağa çağırıram. Azərbaycan öz təkində əsrlərdən bəri həqiqət axtaran xalqlar üçün yol göstərən ulduz, müqəddəs od qoruyur. Qoy bu od azərbaycanlıların ürəklərində alovlansın və Vətənimizin azadlığı və yaxşı gələcəyinə gedən tikanlı yolu nurlandiran məşəl yaratsın". (ARDA, f.894, siy.10, sax.vah.87, vər.17.)

# ƏLİMƏRDAN BƏY TOPÇUBAŞOV

Təkcə Azərbaycan xalqının deyil, bütün Rusiya müsəlmanlarının milli-azadlıq hərəkatı tarixində əvəzsiz xidmətləri olmuş nadir şəxsiyyətlərimizdən biri də Əlimərdan bəy Ələkbər bəy oğlu Topçubaşovdur. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qurucularından biri, Cümhuriyyət Parlamentinin ilk sədri, xalqımızın diplomatiya tarixində müstəsna xidmətləri olmuş Əlimərdan bəy 1862-ci il may ayının 4-də Tiflisdə anadan olmuşdur. Hələ uşaq yaşlarında atasını itirən Əlimərdan bəy 1885-ci ildə birinci Tiflis gimnaziyasında orta təhsilini başa vurur. Elə həmin il o, Peterburq Universitetinin hüquq fakültəsinə daxil olur və 1889-cu ildə oranı fərqlənmə diplomu ilə bitirir.

Universteti bitirdikdən sonra bir neçə il Rusiyada işləyən Ə.Topçubaşov 1894-cü ildə Bakıya gəlir və burada görkəmli ictimai xadim Azərbaycan mətbuatı tarixinin yaranmasında müstəsna xidmətləri olmuş Həsən bəy Zərdabinin qızı Pəri xanımla ailə həyatı qurur.

Əlimərdan bəy ilk vaxtlar Bakıda hüquq-mühafizə orqanlarında işə başlayır. O, burada məhkəmə köməkçisi, dairə məhkəməsinin katibi işləyir. Lakin hökumət məmurluğu onun ürəyincə olmadığı üçün tezliklə bu vəzifələrdən imtina edərək Bakıda müstəqil vəkil kimi fəaliyyət göstərməyə başlayır.

Hüquq elmlərinə dərindən bələd olan Əlimərdan bəy rus və Azərbaycan dillərindən başqa fars, fransız, ingilis və gürcü dillərini də mükəmməl bilirdi. Özünün dərin biliyi və geniş dünyagörüşü ilə o, təkcə Bakıda deyil bütün Rusiyada böyük nüfuz sahibi olan görkəmli maarifpərvər H.Z.Tağıyevin diqqətini cəlb edir. 1895-ci ildə H.Z.Tağıyev «Kaspi» qəzeti redaksiyasını və onun mətbəəsini alır. 1898-ci ildə isə onu yeni binaya köçürərək qəzetə redaktorluğu Ə.Topçubaşova həvalə edir. Bu vaxtdan etibarən Əlimərdan bəy Bakının ictimai-siyasi həyatında fəal iştirak etməyə başlayır və tezliklə şəhər ictimaiyyəti arasında sayseçmə ziyalılardan biri olur. Bakı dumasına üzv seçilir və hətta bir müddət dumaya sədrlik də edir. Həmin illərdə

Bakıdakı bir çox məktəblərin himayədarlar Şurasının üzvü seçilən Əlimərdan bəy heç vaxt onlardan öz köməyini əsirgəməmişdir.

XX əsrin əvvəllərində çar hökumətinin ucqarlarda, xüsusilə müsəlman xalqları arasında yeritdiyi müstəmləkəçilik və ayrı-seçkilik siyasəti hüquqları tapdalanan xalqların bütün zümrələrindən olan nümayəndələrini milli zəmində, vahid bir cəbhədə birləşməyə sövq edirdi. Müsəlman xalqlarının azadlıq mübarizəsinə hazırlığının təşkilində Ə.Topçubaşovun əvəzsiz xidmətləri olmuşdur.

1905-ci ildəki birinci rus inqilabı Rusiyada olan digər xalqlarla yanaşı müsəlmanlarında ictimai-siyasi şüurunun oyanmasında mühüm rol oynadı. Həmin il avqustun 15-də Nijni-Novqoroddakı yarmarka zamanı Oka çayında «Qustav Struve» gəmisində ümumrusiya müsəlmanlarının birinci qurultayı açılmışdı. Qurultayda Qafqaz, Krım, Kazan, Ural, Türküstan və Sibirdən 150 nəfərə yaxın nümayəndə iştirak edirdi. Qurultaya hüquq elmlərinin gözəl bilicisi, özünəməxsus dərin siyasi zəkaya və böyük təşkilatçılıq bacarığına malik Ə.Topçubaşov rəhbərlik edirdi. Həmin qurultayda çıxış edən Əlimərdan bəy deyir: «Ey möminlər! Ey qardaşlarım, mən bu gün o qədər məmnun oldum ki, bu məmnunluğumu heç bir vaxt xatirimdən çıxarmaram. Bu günün bundan sonra ümumrusiya müsəlmanları üçün hər il milli bayram olacağı şübhəsizdir. Biz türk balaları, əslimiz bir, nəslimiz bir, dinimiz birdir. Qərbdən Şərqə qədər bizim atalarımızın mülkü idi. Atalarımız o qədər qəhrəman millət olduqları halda, bu gün Qafqaz dağlarında, Krımın bağlarında, Kazanın çöllərində və Orta Asiyanın ovalıqlarında atalarımızın mülkü olan öz vətənimizdə, öz torpaqlarımızda, öz ehtiyaclarımızı bildirməyə imkanımız qalmadı».

Qurultayda Əlimərdan bəyin rusca hazırladığı 23 maddəlik nizamnamə və 79 maddəlik proqram layihələri üzrə «Ümumrusiya müsəlman ittifaqı» - «İttifaqül-Müslimin» partiyasını təşkil etmək qərara alınır. Qurultay Ə.Topçubaşov tərəfindən yazılmış Rusiya müsəlmanları arasında əlaqələr yaratmaq məsələlərinə həsr olunmuş qətnamə layihəsinidə cüzi dəyişikliklərlə qəbul edir. Qətnamədə göstərilirdi ki, Rusiya müsəlmanları türk xalqlarının ictimai, siyasi,

iqtisadi və mədəni həyatına aid bütün məsələlərə münasibətdə həmrəy olmalı, birlikdə mübarizə aparmalıdırlar.

1906-cı il yanvarın 13-23-də Peterburqda gizli şəkildə Rusiya müsəlmanlarının 2-ci qurultayı keçirilir. Qurultayda azərbaycanlılar tərəfindən Əlimərdan bəy Topçubaşov, Q.Qarabəyov və A.H.Axundov iştirak edirdilər. Əlimərdan bəyin sədrliyi ilə keçən bu qurultayda da, yuxarıda göstərildiyi kimi, 1905-ci il avqustun 15-də keçirilən 1-ci qurultayda Əlimərdan bəy tərəfindən hazırlanaraq müzakirəyə verilmiş «Müsəlman ittifaqı» partiyasının 23 maddəlik nizamnaməsi və 79 maddəlik proqramına yenidən baxılaraq qəbul edilir.

1906-cı il avqust ayının 16-21-də isə Nijni-Novqorodda Ə.Topçubaşovun sədrliyi ilə Rusiya müsəlmanlarının 3-cü qurultayı keçirilir. Əvvəlki qurultaylardan fərqli olaraq bu qurultayın keçirilməsinə çar hakimiyyət orqanları rəsmən razılıq verməmişdi. Bu qurultayda Əlimərdan bəyin hazırladığı «İttifaq» partiyasının nizamnamə və proqramına yenidən baxılır. Habelə qurultay yenə də Ə.Topçubaşov tərəfindən hazırlanmış türk müsəlman gənclərinin Rusiyadakı digər millətlərin gəncləri ilə bərabər təhsil hüquqları barədə tələbləri ilə bağlı layihəni də müzakirə edərək qəbul edir. Bu qurultayda digər iki məsələ haqqında da qərar qəbul olunur. Onlardan biri müsəlman qadınlarının seçmək və seçilmək hüququ, ikincisi isə Qafqaz şiyə müsəlmanları ilə sünnü tatarlar arasındakı məzhəb ayrılığının «İttifaq» da iş birliyinin uyğunlaşdırılması idi.

1906-cı il aprelin 27-də Peterburqda açılan I Dövlət dumasına Bakı və Yelizavetpol quberniyalarından həmin ilin mayında seçilmiş azərbaycanlı deputatlar – Ə.Topçubaşov, M.Əliyev, Ə.Muradxanov, İ.Ziyadxanov və Ə.Haqverdiyev yalnız iyun ayının əvvəllərində dumanın işində iştirak etmək imkanı qazanırlar.

Bakı quberniyasından I Dövlət dumasına deputat seçilən Ə.Topçubaşov tezliklə dumanın ən fəal deputatlarından biri olur. Əlimərdan bəyin təşəbbüsü ilə iyun ayının 21-də I Dövlət dumasında olan müsəlman deputatları bir yerə yığılaraq dumanın «müsəlman fraksiyası»nı yaradır və fraksiyanın 7 nəfərdən ibarət bürosunu seçirlər. Azərbaycandan Ə.Topçubaşov və Ə.Ziyadxanov da bu büroya daxil

olur. 22 nəfərdən ibarət fraksiyanın sədri isə Əlimərdan bəy seçilir. Fraksiya qərar qəbul edir ki, müsəlman deputatlar xalq azadlığı partiyası ilə birlikdə hərəkət etsinlər.Ə.Topçubaşov çar hakimiyyətinə müxalifətdə olan qeyri rus millətlərinin Dövlət Dumasında yaratdıqları «Muxtariyyatçılar» qrupunun da fəal iştirakçısı idi. O, müsəlmanların arzu və istəklərini çatdırmaq üçün duma tribunasından məharətlə istifadə edirdi.

Çar II Nikolayın iyunun 22-də Dövlət Dumasını qovmaq haqqında fərmanına etiraz əlaməti olaraq «Müxtariyyatçıların» Vıborq şəhərində imzaladıqları və «Vıborq bəyannaməsi» adı ilə dərc etdirdikləri çara etiraz bəyannaməsini imza edən 167 nəfərə, o cümlədən Topçubaşov və Ziyadxanova üç aylıq həbs cəzası kəsilir və onlar gələcəkdə Dövlət Dumasına deputat seçilmək hüququndan məhrum edilirlər. Bu hadisədən sonra Əlimərdan bəy «Kaspi» qəzetinə rəhbərlikdən də uzaqlaşdırılmış və Bakı şəhər duması toplanaraq onu şəhər duması üzvlüyündən də xaric etmişdi. Seçib və seçilmək kimi siyasi hüquqlardan məhrum edilən Ə.Topçubaşov üçün müsəlman parlament üzvləri və «İttifaq» partiyası üzvləri tərəfindən Moskvada «Daimi təmsilçilik» bürosu açaraq ona fəaliyyət üçün imkan yaradılmışdı. Moskvada Əlimərdan bəyin rəhbərliyi ilə tez-tez toplantılar keçirilərək müxtəlif məsələlər, o cümlədən «Torpaq islahatı» məsələsi də müzakirə olunmuş, hüquq elmləri sahəsində Əlimərdan bəyin bilik və təcrübəsindən geniş istifadə edilmişdir.

Rusiya müsəlmanlarının digər böyük nüfuzlu şəxsiyyəti, uzun illər Krımın Baxçasaray şəhərində nəşr edilmiş «Tərcüman» qəzetinin sahibi və naşiri İsmayıl bəy Qaspirinskinin 1908-ci il aprel ayının 11-də Baxçasaraydan «Tərcüman» qəzeti redaktorunun blankında Ə.Topçubaşova yazdığı məktub Əlimərdən bəyin 1905-ci ildən sonrakı fəaliyyətinə aydınlıq gətirmək üçün çox xarakterikdir. Bu məktubdakı eyhamlar çox şeydən xəbər verir. O yazırdı: «Əzizim Mərdan! Bizim birlikdə əzab çəkdiyimiz və başladığımız işin vəziyyəti, fraksiyanın vəziyyəti, bizim komitənin işi sənin şəxsində mənə məlumdur. Ona görə də sualı bir başa verirəm: Sonra nə? Necə olsun? Doğrudanmı hər şey bitdi… heç vaxt! Hər şeydən əvvəl sən Peterburqda qalmalısan.

Vilayətlərdə isə rus, yaxud da Rusiya böhranının yaşanmış olduğu hərcmərclik dövründən daha ciddi təşkilatçılıq işləri başlanır. Xalqın və ziyalıların fikri daha ciddiləşib. Xalq işində psixoloji dönüş yaranır, nifaq və aludəlikdən uzaq yeni bir dövr başlanır. Bax, küt və yaramazlar istisna olmaqla, sağlam düşüncəli bütün insanlar sənin Peterburqda olmağının əhəmiyyətini anlayır. Ona görə də sənə lazımdır ki, orada qalasan və yaşayasan. Sonra hər hansı hadisə baş verərsə belə səni, sənin biliyini, təcrübəni və ürəyini xalqdan heç kim məhrum edə bilməz və bunu sən bilməlisən ki, sən xalqa daha çox lazımsan».

Lakin məlum olduğu kimi Rusiyada 1905-1907-ci illər inqilabının məğlubiyyətindən sonra irtica yenidən baş qaldırır, əvvəllər verilmiş nisbi azadlıqlar getdikcə geri alınırdı. Belə bir şəraitdə Rusiya müsəlmanları tərəfindən «İttifaq» partiyasının sədri seçilmiş Ə.Topçubaşov müsəlman fraksiyasının daimi təmsilçisi olaraq Moskvada fəaliyyət göstərərkən idarənin maddi çətinliklərinin artmasına görə 1910-cu ildə Moskvanı tərk edərək Bakıya dönməyə məcbur olur.

İrtica illərində belə Bakıda keçirilən ictimai və mədəni-kütləvi tədbirlərdə fəal iştirak edən Ə.Topçubaşov 1914-cü ildə Bakıda 45 nəfərdən ibarət bir «Məşvərət» məclisi təşkil edərək müsəlmanların həllini gözləyən tələbləri barədə Dövlət Dumasına təqdim etmək üçün «Tələblər paketi» hazırlayaraq həmin heyət adından çar hakimiyyət orqanlarına göndərir.

Ə.Topçubaşov 1916-cı ildə Tiflisdə toplanan Qafqaz millətləri yığıncağında Azərbaycanı təmsil etmiş, 1917-ci ildə isə əvvəlcə Bakıda, sonra isə Moskvada keçirilmiş müsəlmanların qurultayına sədrlik etmişdi.

Rusiyada 1917-ci il fevral inqilabı nəticəsində mütləqiyyət üsuli-idarəsinin devrilməsi nəticəsində yaranmış müvəqqəti hökumət özünün 1917-ci il 2 mart tarixli deklarasiyası ilə geniş demokratik dəyişikliklər ediləcəyinə – söz, mətbuat, yığıncaq, ittifaq, tətil və s. kimi siyasi azadlıqlar veriləcəyinə, silki, irqi, milli, dini bərabərsizliklərin aradan qaldırılacağını elan edir. Ümumi, bərabər, müstəqil və gizli səsvermə yolu ilə Müəssislər Məclisi çağıracağına söz verir. Lakin tezliklə bu vədlərin tətbiqi prosesi heçə endirilir. Cəbhədə geniş

miqyaslı hərbi hücum əməliyyatları məğlubiyyətlə nəticələnir, həmin ilin iyulunda Petroqradda baş verən hadisələr hökumət böhranı yaradır. Belə mürəkkəb bir şəraitdə 1917-ci il avqustun 12-15-də hökumət Moskvada Dövlət Şurasının müşavirəsini çağırır. Məqsəd isə ölkədə yaranmış siyasi vəziyyəti öyrənmək idi.

Rusiya müsəlmanlarının 8 demokratik təşkilatının – Ümumrusiya Müsəlman Şurası, Ümumrusiya Müsəlman Hərbi Şurası, Zaqafqaziya Müsəlmanları Mərkəzi Komitəsi funksiyasını yerinə yetirən Müsəlman İctimai Təşkilatlarının Bakı Komitəsi, Şimali Qafqaz və Dağıstan dağlılarının birləşmiş Mərkəzi Komitəsi, Türküstan Ölkə Şurası, Krım Vilayət Komitəsi, Qırğızıstan və Başqırdıstan Vilayət Şuraları adından onların ümumi mövqeləri barədə avqust ayının 14-də Dövlət Şurasının müşavirəsində Ə.Topçubaşov geniş nitq söyləyir. O, öz çıxışında Rusiyada «dövlət quruluşunun əsasına müsəlman xalqlarının öz müqəddəratlarının təyini şuarının qoyduğunu» da bəyan edir. Əlimərdan bəy öz nitqini bu sözlərlə bitirir:«Onlar (yəni müsəlmanlar – A.P.) əmindirlər ki, azad, demokratik Rusiya özündə bütün xalqların, o cümlədən də müsəlman xalqlarının bərabərlik və qardaşlığının bərqərar ediləcəyi gün üzaqda deyil… O vaxt biz də bir səslə sevinclə deyəcəyik: Günəş Şərqdən doğur!»

1917-ci ilin sonuna qədər Bakıda Azərbaycan Milli Komitəsinə sədrlik edən Əlimərdan bəy elə həmin il Gəncədən Rusiya Müəssislər Məclisinə nümayəndə seçilir.

Onu da qeyd edək ki, sonralar çox məsul siyasi və dövlət vəzifələri tutmasına baxmayaraq Ə.Topçubaşov 1917-ci ilin fevralından ömrünün sonuna kimi heç bir siyasi partiyanın üzvü olmamışdır.

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti elan olundu. Yeni yaranmış Müstəqil Azərbaycan Cümhuriyyətinin bütün dünyada tanıdılmasında Əlimərdan bəyin xidmətləri əvəzsizdir. F.X.Xoyskinin 1918-ci il iyunun 17-də Gəncədə təşkil etdiyi ikinci hökumətdə əvvəlcə portfelsiz nazir, avqustun 20-dən isə Xarici İşlər naziri vəzifəsini tutan Ə.Topçubaşov avqustun 23-də Azərbaycan Cümhuriyyəinin fövqəladə elçisi və səlahiyyətli naziri kimi İstanbula yola düşmüşdü. Lakin, ondan asılı olmayan səbəblərə görə o, yolda

ləngiyərək Tiflis və Batumda qalmalı olmuş və yalnız sentyabrın 28-də İnstanbula gedib çıxa bilmişdi.

İnstanbula gələn kimi Əlimərdan bəy qızğın diplomatik fəaliyyətə başlamışdır. 1918-ci il oktyabrın 2-dən 1919-cu il yanvarın 16-dək o, İstanbulda 36 rəsmi görüş keçirmiş, danışıqlar aparmışdır. Danışıqlar barədə onun ətraflı qeydləri bu gündə arxivlərimizdə qorunub saxlanılır. Əlimərdan bəyin qeydlərində onun Türkiyə hökumətinin Baş nazirləri Tələt paşa, İzzət paşa, Tofiq paşa ilə, Türkiyənin Xarici İşlər, Ədliyyə, Hərbi, Xalq Maarifi, Maliyyə nazirləri və digər yüksək rütbəli hökumət nümayəndələri ilə və Şeyxülislamla görüşləri barədə ətraflı məlumat verilir. 1919-cu il yanvar ayının 10-da isə onu Sultan Mehmed qəbul edir. Əlimərdan bəy deyəndə ki, «…biz azərbaycanlıların bədxahları həmişə olub və yenə də var. Amma sizi əmin etməyə cürət edirəm ki, Azərbaycan türkləri heç vaxt bu düşmənlərdən qoxmamışlar. Ona görə bilirdilər ki, onların Türkiyə kimi «böyük dostu var». Sultan Mehmed Əlimərdan bəyin sözlərinə düzəliş edərək «Dostu yox, qardaşı!» - deyir.

İstanbulda olarkən Əlimərdan bəy İngiltərənin, ABŞ-ın, İtaliyanın, Hollandiyanın, İsveçin, İranın, Ukraynanın İstanbulda olan səlahiyyətli nümayəndələri ilə, İranın Xarici İşlər naziri M.Əliqulu xanla, Rusiyanın keçmiş Xarici İşlər nazirləri P.Milyukov və S.Sazonovla, Ermənistanın Paris Sülh Konfransına gedən nümayəndə heyətinin rəhbəri A.Ağaronyan və başqaları ilə görüşür, söhbət aparır. Bu görüşlər və söhbətlər barədəki qeydlər Ə.Topçubaşovun dərin biliyə, geniş dünyagörüşünə, diplomatik danışıqlar aparmaq səriştəsinə, beynəlxalq hüquq və diplomatiya elmi ilə dərindən tanışlığına bir daha əyani sübutdur.

Əlimərdan bəy burada İstanbulda «Azərbaycan mətbuat bürosu» da yaratmışdı. Bu büronun Azərbaycan haqqında məlumatlar toplamaq, yaymaq və Azərbaycanın xaricdə tanıdılmasında mühüm xidmətləri olmuşdur.

Ə.Topçubaşov Azərbaycan, Gürcüstan, Ermənistan və Şimali Qafqaz xalqları arasında olan dini və milli fərqlərə baxmayaraq müştərək mənafeləri naminə birlikdə federasiya şəklində yaşamalarının

qızğın tərəfdarı idi. O, 1918-ci ilin sonlarında İstanbulda nəşr etdirdiyi «Azərbaycanın təşəkkülü» kitabında bu barədə öz fikrini belə izah etmişdi: «Zaqafqaziya seymi bu məmləkətin tarixində ən parlaq bir şanlı səhifə olaraq öz işinə 1918-ci il aprelin 9-da Zaqafqaziya istiqlalını elan etməklə bildirmişdi. Zaqafqaziya seyminin təşəbbüsü ilə Azərbaycan türklərini, erməniləri və gürcüləri bir dərəcə daha birləşdirilmiş və Gürcüstan, Azərbaycan və Ermənistan adı ilə hər birini ayrılıqda müstəqil və eyni zamanda hər üçündən bir mürəkkəb Zaqafqaziya Cümhuriyyəti birliyi vücuda gətirməklə üç müstəqil hüquqi əlaqələrlə bir-birlərinə daha ziyadə bağlanmışlar».

Onu qeyd edək ki, Ə.Topçubaşov Qafqazdakı millətlərin vahid bir federasiyada birləşməsi arzusunda idi. O, hesab edirdi ki, bununla da bu xalqlar öz aralarındakı münasibətləri daha yaxşı qura və kənar müdaxilələrə qarşı birlikdə daha müvəffəqiyyətlə cavab verə bilərlər. Beləki o, 1918-ci il dekabrın 16-da İstanbuldan Azərbaycan Cümhuriyyəti hökumətinin sədri F.X.Xoyskiyə yazdığı məktubunda bir daha təklif edirdi ki, bütün Zaqafqaziya Cümhuriyyətlərinin nümayəndələri Paris Sülh Konfransında vahid nümayəndə heyəti ilə çıxış etməlidirlər. Əlimərdan bəy öz məktubunda F.X.Xoyskiyə bu məsələ barədə sülh konfransı ölkələrinə xüsusi memorandumla müraciət etdiyini də bildirirdi.

Maraqlıdır ki, ermənilərin bu işə razı olacaqlarına Ə.Topçubaşov şübhə ilə yanaşırdı. Belə ki, o hələ 1918-ci il oktyabrın 2-də Türkiyənin Xarici İşlər naziri Əhməd Nəsim bəylə görüş zamanı Zaqafqaziya Cümhuriyyətlərinin birlikdə hərəkət etməsinin mümkünlüyünə ermənilərin ərazi iddialarına görə mane olacaqlarını bildirirdi. Əhməd Nəsim bəyin Paris Sülh Konfransına Azərbaycan, Gürcüstan və Ermənistanın birlikdə getmək təklifi zamanı Əlimərdan bəy ona belə cavab vermişdi: «Cənab nazir, biz də qonşularımızla dostluq şəraitində bu işi görmək istəyirik. Ancaq qorxuram ki, ermənilərlə razılığa gələ bilməyək, çünki ermənilərin iştahası çox böyükdür və həm də bu iştahaları özgələrinin, ilk növbədə isə bizim hesabımıza doydurmaq istəyirlər. Az qala bütün paytaxtlarda bizim mənafeimizin

zərərinə təbliğat aparır, bizi dövlət həyatı qurmağa qabil olmayan və başqa millətlərlə barışmaz millət kimi qələmə verirlər».

Ə.Topçubaşov İstanbulda Azərbaycanın fövqəladə elçisi və səlahiyyətli naziri kimi fəaliyyət göstərdiyi dövr Osmanlı dövlətinin hərbi və sosial-iqtisadi vəziyyətinin ən böhranlı zamanlarına təsadüf edir. Almaniya-Osmanlı ittifaqı dünya müharibəsində məğlub olur. 1918-ci il oktyabrın 30-da İngiltərə ilə Türkiyə nümayəndə heyəti arasında Mudros limanında saziş imzalanır. Bu sazişə görə Zaqafqaziyanın qapıları ingilis müdaxiləçilərinin üzünə açıq elan edilir. Həmin sazişin 11-ci maddəsinə əsasən Azərbaycan İngiltərənin nüfuz dairəsində elan olunur, 15-ci maddəsinə əsasən isə Azərbaycanın dəmiryolları və neft mənbələri ingilis komandanlığının ixtiyarına keçirdi.

Bu sazişlə bağlı Ə.Topçubaşov noyabrın 3-də İstanbulda həmin sazişi imzalamış Dənizçilik naziri, Batum və Trabzon konfranslarında Türkiyə nümayəndə heyətinin rəhbəri Rauf bəylə, noyabrın 4-də Xarici İşlər nazirinin müavini Rəşid Hikmət bəylə və noyabrın 5-də isə Xarici İşlər naziri Naib bəylə görüşərək Mudros sazişinin Azərbaycana aid 11 və 15-ci maddələriilə əlaqədar öz etirazını bildirir. Onlar öz cavablarında məğlub tərəf kimi Türkiyənin bu sazişi bağlamağa məcbur olduğunu bildirir və qeyd edirlər ki, siz müstəqil dövlət kimi öz hüquqlarınızı qorumağa haqlısınız.

1918-ci il sentyabr ayının 15-də Qafqaz İslam Ordusu tərəfindən Bakı azad edildikdən sonra Azərbaycan Cümhuriyyəti hökuməti Gəncədən Bakıya köçür, noyabrın ortalarında Azərbaycan Cümhuriyyəti Milli Şurası öz fəaliyyətini bərpa edir və noyabrın 19-da 120 nəfərdən ibarət Azərbaycan Cümhuriyyət Parlamentinin yaradılması barədə Qanun qəbul edir.

1918-ci il dekabr ayının 7-də təntənəli şəraitdə öz işinə başlayan Cümhuriyyətin Parlamenti özünün ilk iclasında M.Ə.Rəsulzadənin təklifləri ilə həmin vaxt İstanbulda olan Əlimərdan bəyi qiyabi olaraq yekdilliklə özünün sədri seçir. Sədr burada olmadığı üçün parlamentin işini onun birinci müavini seçilən Həsən bəy Ağayev idarə edir.

Elə həmin il dekabr ayının 28-də isə Ə.Topçubaşov Paris Sülh Konfransına göndəriləcək Azərbaycan Cümhuriyyətinin nümayəndə heyətinə sədr təyin olunur və İstanbuldan birbaşa Parisə gedir. 1919-cu ilin dekabrında o, yenidən Cümhuriyyət Parlamentinə sədr seçilirsə də, taleyin hökmü ilə ömrünün sonuna qədər doğma vətəni Azərbaycana qayıda bilmir.

1918-ci il dekabr ayının axırlarında Paris Sülh Konfransına göndəriləcək nümayəndə heyətinin Parisə getməsi üçün viza verilməsinə böyük əngəllər törədilir. Bu işdə uzun illər Avropa ölkələrinin paytaxtlarında lövbər salmış ermənilərin xalqımıza və Azərbaycan nümayəndə heyətinə qarşı apardığı təbliğatın böyük rolu olmuşdur.

Nəhayət ki, Əlimərdan bəyin səyləri, yorulmadan apardığı təşkilatçılıq işlərinin nəticəsində yalnız üç aylıq mübarizədən sonra Parisə getmək üçün viza alan nümayəndə heyəti 1919-cu il aprel ayının 22-də dəniz və dəmir yolu ilə Parisə yola düşür və may ayının birinci ongünlüyündə böyük çətinliklərlə Parisə çatır.

Parisdə Ə.Topçubaşovun başçılıq etdiyi nümayəndə heyətinin gecə-gündüz yorulmadan apardıqları diplomatik görüşlər, danışıqlar getdikcə öz nəticəsini verməyə başlayır. Beləki, ABŞ Prezidenti V.Vilsonun təşəbbüsü ilə İngiltərə, Fransa və İtaliya dövlət başçıları səviyyəsində Azərbaycan məsələsi gündəliyə salınaraq müzakirə olunur. Yığıncaqda bilavasitə Prezident Vilsonun Ə.Topçubaşovu Azərbaycan nümayəndə heyətinin başçısı olaraq tanıdığı və Azərbaycanın Paris Sülh Konfransına qatılması təklifi qəbul olunur. Bu isə nümayəndə heyəti üzvlərinə rahat nəfəs almağa və böyük həvəslə fəaliyyət göstərməyə imkan verir.

1919-cu il may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyəti yaranmasının birinci ildönümü günündə ABŞ Prezidenti V.Vilson Ə.Topçubaşov başda olmaqla Azərbaycan nümayəndə heyətini qəbul edir. Qəbul zamanı nümayəndə heyətinin irəli sürdüyü təkliflərə cavab olaraq V.Vilson bildirir ki, onlar dünyanın kiçik hissələrə bölünməsini istəmirlər, Qafqazda federasiya yaradılması ideyasına tərəfdar çıxırlar. Bu federasiya Millətlər liqasının tapşırığı ilə hər hansı bir dövlətin himayəsində ola bilər, Qafqazda federasiya və ya Azərbaycanın müs-

təqilliyinin tanınması məsələsi isə rus məsələsindən əvvəl həll edilə bilməz.

Görüşdə Ə.Topçubaşov Vilsondan xahiş edir ki, konfransda ABŞ nümayəndə heyəti Azərbaycana dəstək versin və Azərbaycan haqqında yalnız bizim nümayəndə heyətinin verdiyi səhih məlumatlara istinad edilsin. Başqa mənbələrdən alınan məlumatlara etibar edilməsin. Görüşün sonunda Əlimərdan bəy nümayəndə heyətinin memorandum-xatırlatmasını da Vilsona təqdim edir. ABŞ Prezidenti Vilsonla görüş zamanı nümayəndə heyəti Azərbaycan ərazisində Kolçakın hakimiyyətinin tanınmasının qeyri-mümkünlüyünü də elan edir və həmin il iyun ayının 5-də nümayəndə heyəti adından Sülh Konfransının sədrinə və Müttəfiq Dövlətlərin Baş nazirlərinə keçmiş Rusiyanın bütün ərazisində Kolçakın hakimiyyətinin tanınması ehtimalı ilə əlaqədar etiraz notası göndərilmişdir.

Bundan sonra nümayəndə heyəti geniş şəkildə təbliğat işlərinə başlayır. Onlar çoxlu görüşlər keçirməklə, geniş təbliğat işi aparmaqla yanaşı, qısa bir vaxtda, sonunda Azərbaycan Cümhuriyyətinin xəritəsi də verilməklə «Qafqaz Azərbaycanı Cümhuriyyəti» adlı 50 səhifəlik Azərbaycanı tanıdan kitabçanı nəşr edərək Sülh Konfransının bütün iştirakçılarına paylamışlar. Bundan əlavə Sülh Konfransına gənc Azərbaycan Cümhuriyyətinin tələbləri və Azərbaycan haqqında digər məlumat kitabçaları da hazırlayıb ingilis və fransız dillərində nəşr etdirərək Sülh Konfransı nümayəndələrinə paylayırlar. Bu ədəbiyyatlar arasında Ə.Topçubaşov tərəfindən hazırlanmış Azərbaycanın siyasi vəziyyəti və bizim tələblərimiz haqqındakı memorandum, M.H.Hacınski tərəfindən hazırlanmış Azərbaycanın iqtisadi və maliyyə vəziyyəti haqqında broşüra, Ə.Şeyxülislamov tərəfindən hazırlanmış «Qafqaz Azərbaycanı əhalisinin antropoloji və etnik tərkibi» broşürası, habelə Paris Sülh Konfransında iştirak edən Azərbaycan nümayəndə heyətinin fransız dilində nəşr etdiyi Azərbaycan haqqında məlumat bülletenləri və s. var idi.

Ə.Topçubaşov başda olmaqla Versal Sülh Konfransında iştirak edən Azərbaycan nümayəndə heyətinin fəaliyyəti tezliklə öz nəticələrini verir. Onu da qeyd edək ki, nümayəndə heyəti müxtəlif partiyala-

rın və fraksiyaların üzvləri olmasına baxmayaraq, Sülh Konfransında vahid mövqedən – gənc Azərbaycan Cümhuriyyətinin mənafeyi mövqeyindən çıxış edirdilər. Paris Sülh Konfransına göndərilmiş nümayəndə heyətinin tərkibində olan parlamentin sosialist fraksiyasının üzvü M.Məhərrəmovun sosialistlər bloku tərəfindən geri çağırılması ilə bağlı məsələ barədə Ə.Topçubaşov Cümhuriyyət hökumətinin sədrinə ünvanladığı 1919-cu il 6-10 noyabr tarixli məktubunda bu çağırışa etirazını bildirərək yazırdı: «Nümayəndə heyəti ayrı-ayrı partiyalara mənsub şəxslərdən təşkil olunsa da, özünün indiyə qədərki fəaliyyətində bütünlüklə partiya maraqlarına deyil, Azərbaycanın mənafelərini əsas tutan ümumi mülahizələrə əsaslandığını bildirməyi özümə borc sayıram. Məncə bu bizim nümayəndə heyəti üçün müsbət haldır və onun üzvlərinə şərəf gətirir».

Artıq 1919-cu ilin axırlarına yaxın Rusiyada bolşeviklərin vəziyyətinin getdikcə möhkəmlənməsi, habelə müttəfiq ölkələrinin son ümidi olan Denikinin, Yudeniçin və Kolçakın məğlubiyyətləri, qalib müttəfiq ölkələrinin Rusiyanın bütövlüyünü bərpa etmək arzusunu puç edir. Belə olduqda onların keçmiş çar Rusiyasına daxil olan və Rus inqilabından sonra öz müstəqilliklərini elan etmiş ölkələrə münasibətləri dəyişir. Belə ki, İngiltərənin Baş naziri Lloyd Corc 1919-cu il noyabrın 17-də İcmalar Palatasında söylədiyi nitqində yenidən Rusiyaya daxil olmaq istəməyən ölkələr kimi iki dəfə Azərbaycanın, Gürcüstanın və Ermənistanın adını çəkmişdir. Münasibətin bu cür dəyişməsi özünün müstəqilliyini elan etmiş ölkələrin nümayəndələrinin ümidini artırır və onların tanınacağına əlverişli şans yaradırdı. Nəhayət, 1920-ci il yanvar ayının 11-də Paris Sülh Konfransı iştirakçı dövlətlərinin Ali Şurası çox gərgin şəraitdə Qafqaz məsələsini müzakirə edir və Corc Kerzonun təklifi ilə Azərbaycan və Gürcüstan hökumətlərinin müsləqilliyini de-fakto tanıdıqlarını elan edirlər. Hazırlanan sənəd yanvarın 12-də ali şura üzvləri tərəfindən imzalanır, yanvarın 15-də isə Azərbaycan Cümhuriyyəti nümayəndə heyətinin rəhbəri Ə.Topçubaşov və M.Məhərrəmov Fransa Xarici İşlər Nazirliyinə dəvət olunaraq qərar onlara rəsmən təqdim olunur. Azərbaycan Cümhuriyyətinin de-fakto tanınması barədə məlumat alan Azərbaycan

xalqı yanvarın 14-15-də bu hadisəni böyük bayram kimi qeyd edir. Bu hadisə xalqımızın və xüsusilə Ə.Topçubaşovun rəhbərliyi ilə çox gərgin fəaliyyət göstərmiş sülh nümayəndə heyətinin böyük qələbəsi idi.

Təəssüflər olsun ki, bu qələbə sevinci uzun sürmədi. 1920-ci il aprel ayının 27-də Sovet Rusiyasının XI Ordusu Bakını, sonra isə bütün Azərbaycanı işğal etdi. Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi.

İşğaldan sonra bir daha Azərbaycana qayıtmayaraq Parisdə yaşayan Əlimərdan bəy 1920-ci ilin noyabrında Cenevrədə Millətlər Cəmiyyətinin toplantısında, 1920-ci ildə London və Genuya, 1923-cü ildə isə Lozanna konfranslarında Sovet nümayəndə heyətinin etirazlarına baxmayaraq, Cümhuriyyət hökuməti tərəfindən ona verilmiş mandatla iştirak etmiş, Azərbaycanın bolşevik Rusiyası tərəfindən işğal olunması və bolşeviklərin Azərbaycanda törətdikləri cinayətlər haqqında geniş məlumatlar vermişdi.

Ə.Topçubaşov ömrünün sonuna qədər xaricdə olan mühacirlərlə birlikdə Azərbaycanın müstəqilliyi uğrunda mübarizəni davam etdirmişdir.

Ə.Topçubaşov 1934-cü il noyabr ayının 5-də Parisin Sen-Deni rayonunda vəfat etmiş və Sen-Klu (Saint Cloud) qəbirstanlığında dəfn olunmuşdur.

# FƏTƏLI XAN XOYSKİ

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin yaradıcılarından və bütün əziyyətlərini öz çiyinlərində daşıyanlardan biri də dövrünün görkəmli siyasi və ictimai xadimi Fətəli Xan Xoyski olmuşdur. Fətəli Xan İsgəndər Xan oğlu Xoyski 1875-ci il noyabr ayının 25-də Şəki şəhərində anadan olmuşdur. Fətəli Xanın atası İsgəndər Xan əslən Cənubi Azərbaycanın Xoy şəhərindəndir. Soyadları da buradan götürülmüşdür. Qafqaza köçmüş İsgəndər Xan Şəkidə ailə həyatı qurmuş, çar ordusunun general-leytenantı rütbəsinə qədər yüksəlmişdir.

Gəncə (keçmiş Yelizavetpol) klassik gimnaziyasını, 1897-ci ildə isə Moskva Universitetinin hüquq fakultəsinin tam kursunu 1-ci dərəcəli diplomla bitirən F.X.Xoyski Tiflis Məhkəmə Palatasının sərəncamına göndərilir. Tiflis Məhkəmə Palatasının 1897-ci il 26 avqust tarixli 56 saylı əmrilə Fətəli Xan Yelizavetpol dairə Məhkəməsi yanında kiçik məhkəmə məmuru vəzifəsini təyin olunur.

1898-ci il fevralın 27-də ali əmrlə ona kollej katibi rütbəsi verilir.

F.X.Xoyski Tiflis Məhkəmə Palatası sədrinin 1899-cu il 24 mart tarixli 15 saylı əmri ilə böyük məhkəmə məmuru vəzifəsinə keçirilir və Palatanın elə həmin il 16 iyul tarixli əmri ilə Kutaisi dairə məhkəməsinə böyük məhkəmə məmuru vəzifəsinə dəyişdirilir.

Kutaisi dairə məhkəməsi ümumi iclasının 1899-cu il 4 sentyabr tarixli qərarı ilə Fətəli Xan Ozurket istintaq sahəsinin, 1900-cu il martın 8-də isə Kutaisi qəza istintaq sahəsinin müdiri təyin olunur. Həmin il aprelin 4-də ona 3 aylığa Kutaisi qəza məhkəməsi prokurorunun müavini vəzifəsini icra etmək tapşırılır. Ədliyyə nazirliyinin

1900-cu il 27 iyun tarixli 27 saylı əmri ilə o, Zuqdidi barışıq məhkəməsinin köməkçisi vəzifəsinə təyin olunur.

Vətəndaş idarələri üzrə 1901-ci il 9 iyun tarixli 48 saylı ali əmrlə ona Titulyar müşavir rütbəsi verilir.

Ədliyyə nazirliyinin 1901-ci il 18 sentyabr tarixli 33 saylı əmri ilə Fətəli Xan Suxumi barışıq məhkəməsinin köməkçisi vəzifəsinə dəyişdirilir.

Ədliyyə nazirliyi özünün 1903-cü il 22 aprel tarixli 12 saylı əmri ilə F.X.Xoyskini Yekaterinodar dairə məhkəməsi Yekaterinodar şəhəri birinci sahəsinin məhkəmə müstəntiqi vəzifəsinə təyin edir.

Yekaterinodar dairə məhkəməsi ümumi yığıncağının 1903-cü il 29 sentyabr tarixli qərarı ilə isə Yekaterinodar şəhəri üçüncü sahəsinə müdirlik vəzifəsinin icrası Fətəli Xana tapşırılır.

Vətəndaş idarələri üzrə 1904-cü il 11 sentyabr tarixli, 70 saylı ali əmrlə Fətəli Xan Titulyar müşaviri rütbəsindən kollej assesoru rütbəsinə keçirilir və 1904-cü il oktyabrın 25-də, 79 saylı əmrlə Yekaterinodar dairə məhkəməsi prokurorunun müavini vəzifəsinə təyin olunur. 1907-ci il fevral ayının 20-dək yəni II Dövlət Dumasına deputat seçilənə qədər həmin vəzifədə qalır.

1907-ci ildə F.X.Xoyski Yelizavetpol quberniyasından II Dövlət Dumasına deputat seçilir. II Dövlət Dumasının müsəlman deputatları fraksiyasına daxil olan F.X.Xoyski Duma iclaslarında aqrar məsələlərə dair çar hökumətinin yeritdiyi ayrı seçkilik və köçürmə siyasətinə qarşı kəskin çıxışlar etmişdir.

Həmin il may ayının 18-də F.X.Xoyskinin də iştirak etdiyi 173 deputatın imzaladığı Rusiyada milli və dini fərqlərə görə vətəndaşların siyasi və mülki hüquqlarını məhdudlaşdıran qanunların ləğv olunması haqqında Dövlət dumasına qanun layihəsi təqdim edilir. Təqdim olunmuş qanun layihəsində bütün Rusiya vətəndaşlarının hüquq bərabərliyi, daimi yaşayış üçün yer seçmə azadlığı, dövlət və ictimai xidmət sahələrində bərabərlik, şəxsiyyət toxunulmazlığı, söz və mətbuat azadlığı, təhsil hüququ tələb olunurdu. Dumanın sədri bu qanun layihəsi haqqında deputatlara məlumat verərək onun müzakirə olunacağını bildirmişdi. Lakin II Dövlət Dumasının da ömrü çox qısa oldu və cəmi 103 gün fəaliyyət göstərdi. 1907-ci il iyunun 3-də II Dövlət Dumasının buraxılması haqqında çar manifesti elan olundu.

Bundan sonra Yelizavetpola qayıdan Fətəli Xan iyulun 17-də Yelizavetpol dairə məhkəməsinə müraciət edərək, Yelizavetpol şəhəri-

ni daimi yaşayış məskəni seçdiyi üçün onun Tiflis məhkəmə palatasının Yelizavetpol dairə məhkəməsinə andlı iclasçı qəbul olunmasını xahiş edir. Yelizavetpol dairə məhkəməsinin 1907-ci il 21 iyul tarixdə keçirilən ümumi iclası qərara alır ki, istefada olan kollej assesoru Fətəli Xan Xoyski Tiflis Məhkəmə Palatası Yelizavetpol dairəsinin andlı iclasçıları sırasına qəbul edilsin.

Bununla əlaqədar həmin il iyulun 24-də Yelizavetpol dairə məhkəməsinin sədri raportla Rusiya ədliyyə nazirinə müraciət edərək II Dövlət Dumasının keçmiş üzvü, istefada olan kollej assesoru Fətəli Xan Xoyskinin Yelizavetpol dairə məhkəməsinə müraciət edərək onu Tiflis Məhkəmə Palatası andlı iclasçılarının siyahısına daxil etməyi və dairə məhkəməsinin ümumi iclasının Fətəli xanın xahişini qəbul etməyin mümkün olduğu haqqında qərar çıxardıqlarını bildirərək, onu göstərilən dairə üzrə Tiflis Məhkəmə Palatasının andlı iclasçıları siyahısına daxil etməyə icazə verməyi xahiş edir.

1907-ci il avqustun 27-də Tiflis Məhkəmə palatasının böyük sədri V.R.Zavadski Yelizavetpol dairə məhkəməsinin sədrinə məktubunda bildirirdi ki, Ədliyyə nazirliyinin ikinci departamenti özünün 9 avqust tarixli məktubu ilə bildirir ki, Yekaterinodar dairə məhkəməsi prokurorunun keçmiş müavini Fətəli Xan Xoyskinin Tiflis Məhkəmə Palatasının andlı iclasçıları sırasına qəbul olunmasına icazə verilir.

Yelizavetpol dairə məhkəməsinin sədri 1907-ci il sentyabrın 3-də Tiflis Məhkəmə Palatasına məlumat verirdi ki, dairə məhkəməsi Fətəli Xanı Tiflis Məhkəmə Palatasının iclasçıları siyahısına daxil edərək ona 1551 saylı şəhadətnamə vermişdir. Həmin şəhadətnamə Tiflis Məhkəmə Palatası tərəfindən təsdiq edilərək Yelizavetpol dairə məhkəməsinə qaytarılmış və qəbz almaq şərtilə həmin şəhadətnamənin F.X.Xoyskiyə çatdırılması tapşırılmışdır. Məktubun üzərində sentyabrın 17-də Fətəli Xanın göstərilən şəhadətnaməni aldığı haqqında qeyd də vardır.

Həmin il sentyabrın 17-də Yelizavetpol şəhərində Yelizavetpol dairə məhkəməsinin məhkəmə sədri vəzifəsini icra edən A.K.Moseviç, məhkəmə üzvləri İ.S.Stradomski, M.İ.Yankovski, prokuror müavini

V.İ.Frizir və katibi F.F.Lorentsinin iştirak etdiyi ümumi yığıncaqda F.X.Xoyskinin andlı iclasçı kimi and içməsi mərasimi keçirilir.

Molla Hacı Həsən Mollazadə «Qurana» əl basdıraraq Fətəli Xana and içdirir. Andda deyilirdi: «Söz verir və hər şeyə qadir Allahın Müqəddəs Quranı qarşısında and içirəm ki, bütün Rusiyanın əlahəzrət İmperatoru və hökmdarına sədaqətlə xidmət edəcək, imperiyanın qanunlarını öz dərrakəmlə son dərəcə dəqiq icra edəcək, məhkəmədə Pravoslav kilsəsinə, dövlətə, cəmiyyətə, ailəyə və xoş əxlaqa zərər gətirən heç bir söz deməyəcək və yazmayacağam, öz üzərimə götürdüyüm vəzifəni namusla və vicdanla yerinə yetirəcəyəm, məhkəmə və hakimiyyət orqanlarına qarşı sədaqətimi pozmayacaq, mənə etibar edənlərin və ya işi mənə tapşırılacaq şəxslərin mənafelərini qoruyacaq və yadda saxlayacağam ki, bütün bunlar üçün qanun və Allahın ədalət məhkəməsi zamanı onun qarşısında cavab verəcəyəm. Dediklərimi təsdiq üçün əl-Quranın Müqəddəs kalamlarını öpürəm. Amin».

Andın mətninin altında Fətəli Xan öz dəsti xətti ilə «Bu and vərəqəsi əsasında and içdim» sözlərini yazmış və imzalamışdır. Sonra isə orada iştirak edənlərin hamısı o cümlədən Molla Hacı Həsən Mollazadə də həmin vərəqi imzalamışlar.

1913-cü ilə qədər Yelizavetpolda andlı iclasçı kimi işləyən və ictimai xadim kimi fəaliyyət göstərən F.X.Xoyski həmin ildən Bakıya köçərək dairə məhkəməsində andlı iclasçı kimi öz fəaliyyətini davam etdirir. Bununla əlaqədar Yelizavetpol dairə məhkəməsinin sədrinin 1913-cü il 7 sentyabr tarixli məktubu ilə Bakı dairə məhkəməsi F.X.Xoyskinin andlı iclasçı kimi həmin məhkəmə heyətinin siyahısında olub-olmamasını soruşur. Bakı dairə məhkəməsi sədri vəzifəsini icra edən K.Kolbasin isə özünün 30 oktyabr tarixli cavabında bildirir ki, Fətəli Xan Xoyski 1913-cü il 3 sentyabr tarixli ərizəsi ilə öz yaşayış yerini Yelizavetpoldan Bakıya dəyişdirdiyi haqqında məlumat verib. Həmin vaxtdan başlayaraq Fətəli Xan 1917-ci ilə qədər Bakı dairə məhkəməsində andlı iclasçı kimi çalışmaqla yanaşı Bakının ictimai və mədəni həyatında, xüsusilə Bakıda yaradılmış Xeyriyyə cəmiyyətlərinin işində də fəal iştirak etmiş və onlara köməkliklər göstərmişdir.

1917-ci ildə Rusiyada baş verən fevral inqilabından və çarizm üsul-idarəsi devrildikdən sonra F.X.Xoyskinin fəaliyyətinin yeni ən məhsuldar dövrü başlayır. Cəmi 3 ildən bir az artıq vaxtı əhatə edən bu illərdə F.X.Xoyskinin bacarıqlı bir siyasi xadim, hökumət rəhbəri və təşkilatçı kimi fərdi keyfiyyətləri üzə çıxır. Məhz bu qısa vaxt Fətəli Xanı Azərbaycanın ən görkəmli siyasi xadimlərindən biri kimi öz xalqına tanıtdı və sevdirdi.

Fevral inqilabından sonra F.X.Xoyski fəal siyasi fəaliyyətə qoşulur. O, Bakıda yaranmış milli müsəlman şurası müvəqqəti icraiyyə Komitəsinin üzvü seçilir. Həmin ilin aprelində Bakıda çağrılmış Ümumqafqaz müsəlmanlarının qurultayında fəal iştirak edir və onun təşkilatçılarından biri olur.

Oktyabr inqilabının qələbəsindən sonra 1917-ci ilin noyabrında Tiflisdə Zaqafqaziya komissarlığı yaradılır. 1918-ci il fevralın 23-də isə Tiflisdə Zaqafqaziyada qanunvericilik orqanı olan Zaqafqaziya seymi işə başlayır. Zaqafqaziya seyminə Zaqafqaziyadan Ümumrusiya müəssislər məclisinə seçilmiş deputatlar daxil idi. Seymin Azərbaycan fraksiyasına 44 deputat, o cümlədən F.X.Xoyski də daxil idi.

1918-ci il aprelin 22-də Zaqafqaziya müstəqil federativ respublikası elan olunur, aprelin 22-də isə Zaqafqaziya federasiyasının yeni hökuməti təşkil edilir və bu hökumətdə F.X.Xoyski ədliyyə naziri vəzifəsini tutur. Zaqafqaziyanın müstəqilliyinin elanı və yeni hökumətin yaradılması ölkəyə nə daxili və nə də xarici siyasət sahəsində heç bir yenilik gətirmədi. Zaqafqaziya komissarlığında, sonra isə nazirliklərində fəaliyyət göstərən hər üç millətin nümayəndələri hərə öz qurumunun mənafeini Ümumzaqafqaziya mənafeindən üstün tuturdu. Belə bir şəraitdə gürcülər Zaqafqaziya federasiyasından çıxıb öz istiqlaliyyətlərini elan etmək qərarına gəlirlər.

1918-ci il mayın 25-də İ.Sereteli bu məsələ ilə əlaqədar seymin Azərbaycan fraksiyasının iclasında çıxış edir. Onun çıxışına cavab olaraq F.X.Xoyski bildirir ki, «Zaqafqaziya xalqları ümumi mənafelərinə görə bir-birləri ilə o qədər sıx bağlıdırlar ki, onların ayrılması asan olmayacaqdır. Əgər ayrılmaq gürcü xalqının iradəsidirsə, bizim ona mane olmağa heç bir haqqımız yoxdur. Əlbəttə, belə bir şəraitdə

Azərbaycan türklərinə də müvafiq qərar qəbul etməkdən başqa yol qalmır». Sonra F.X.Xoyski məlumat verir ki, seymin və hökumətin üzvü X.Korçikyanla söhbət zamanı o da bildirmişdir ki, gürcülər ayrılacaqları halda erməni deputatları da Ermənistanın istiqlaliyyətini elan etməyə hazırlaşırlar.

1918-ci il mayın 26-da Zaqafqaziya seyminin son iclası keçirilir və seym buraxılır. Elə həmin gün Gürcüstan öz istiqlaliyyətini elan edir. Ertəsi gün, mayın 27-də keçmiş Zaqafqaziya seyminin azərbaycanlı deputatlarının fövqəladə iclası keçirilir. Hərtərəfli və uzun sürən müzakirədən sonra onlar özlərini Azərbaycan Mili Şurası elan edir və Azərbaycanın idarəsini öz üzərlərinə götürürlər. Mayın 28-də keçmiş Qafqaz canişinin iqamətgahında keçirilən birinci iclasında Azərbaycan Milli Şurası ətraflı müzakirələrdən sonra Zaqafqaziyanın Cənubi-Şərq ərazisində Azərbaycan Xalq Cümhuriyyəti elan etmək haqqında qərar qəbul edir və Azərbaycanın istiqlaliyyəti haqqında bəyanat verilir. Milli Şura, şuranın üzvü F.X.Xoyskini yekdil səslə ilk Azərbaycan hökumətinin sədri seçir və ona ilk Azərbaycan Xalq Cümhuriyyəti hökumətini təşkil etməyi tapşırır. Bir saatlıq fasilədən sonra F.X.Xoyski öz hökumətinin tərkibini elan edir. Bu hökumətdə Fətəli Xan baş nazir vəzifəsi ilə yanaşı daxili işlər naziri vəzifəsini də tutur.

Tiflisdə yeni müstəqil dövlətin yaradılması ilə əlaqədar bütün təşkilati tədbirləri həyata keçirdikdən və onu bütün dünyaya bəyan etdikdən sonra Milli Şura və Azərbaycan hökuməti bilavasitə öz ölkəsi ərazisində fəaliyyətini genişləndirmək məqsədilə 1918-ci il iyunun 16-da Gəncəyə köçür. Gəncəyə gələn Milli Şura və Azərbycan hökuməti mürəkkəb daxili və xarici çətinliklərlə üzləşir. Hələ mayın ortalarında 300 nəfər təlimatçı ilə Gəncəyə gəlmiş Türkiyənin Qafqaz ordusunun baş komandanı Nuru Paşa şəhərdə real hakimiyyəti öz əlində cəmləşdirmişdi. O, Gəncəyə gəlmiş Azərbaycan Milli Şurası və hökumətinə şübhə ilə yanaşır. Belə bir şəraitdə iyunun 17-də keçmiş şəhər idarəsinin binasında milli şuranın sayca yeddinci iclası keçirilir. Hökumətin sədri F.X.Xoyski hökumətin istefası bəyanatı ilə çıxış edir. Geniş müzakirədən sonra hökumətin istefası qəbul olunur və F.X.Xoyskiyə yeni hökumət təşkil etmək tapşırılır. Müxtəlif partiya-

ların nümayəndələrindən ibarət təşkil olunmuş yeni hökumətdə F.X.Xoyski baş nazir vəzifəsi ilə yanaşı Ədliyyə naziri vəzifəsini də tutur. Özünün yeni hökumət proqramı ilə çıxış edən F.X.Xoyski bildirir ki, onun hökumətinin başlıca vəzifəsi Azərbaycanın azadlıq və istiqlaliyyəti uğrunda mübarizə olacaqdır.

Azərbaycan Milli Şurasının bu iclasında onun buraxılması, bütün qanunverici və idarəedici hakimiyyətin Azərbaycanın müvəqqti hökumətinin əlində cəmləşdirilməsi haqqında iki mühüm qətnamə qəbul olunur.

Milli Şuranın buraxılması haqqındakı birinci sənəddə göstərilirdi ki, həm daxili, həm də xarici siyasət sahəsində Azərbaycanda yaranmış ağır vəziyyəti nəzərə alaraq Azərbaycan Milli Şurası bütün hakimiyyəti F.X.Xoyskinin sədrliyi ilə yaradılmış hökumətə həvalə edir və ona tapşırır ki, öz hakimiyyətini qısa müddətdə çağırılacaq Müəssislər Məclisindən başqa heç kimə güzəştə getməməlidir.

F.X.Xoyskinin başçılıq etdiyi hökumətin hüquq və vəzifələrindən bəhs edən ikinci sənəddə isə qeyd olunurdu ki, Azərbaycan hökuməti Azərbaycanın istiqlaliyyətini və siyasi azadlıqları ləğv edə bilməz, aqrar və digər bu kimi mühüm inqilabi əhəmiyyətli qanunları dəyişməyə hökumətə səlahiyyət verilmir. Qalan məsələlərdə hökumətdə bütün hüquqlardan istifadə etmək səlahiyyəti verilir. F.X.Xoyski hökuməti altı ay müddətindən gec olmayaraq müəssislər məclisi çağırmalıdır.

F.X.Xoyskinin ikinci hökuməti Gəncədə çox çətin və mürəkkəb bir dövrdə fəaliyyətə başladı. Yaranmış mürəkkəb şəraitdə ilk növbədə Fətəli Xan hökuməti dövlət aparatının təşkili işini davam etdirir. Nazirlər Şurası və ayrı-ayrı nazirliklərin idarə aparatı yaradılır.

İyunun 27-də Azərbaycan dili dövlət dili elan olunur. Avqustun 28-də tədris müəssisələrinin milliləşdirilməsi haqqında qərar qəbul olunur. Fətəli Xan hökumətinin Gəncədə ilk tədbiri iyunun 19-da bütün Azərbaycanda hərbi vəziyyət elan etmək oldu. Müstəqil Azərbaycanın qoşun hissələrinin yaradılması işinə başlandı. Azərbaycanın tam istiqlaliyyəti üçün onu müdafiə edəcək ordunun yaradılmasının müstəsna əhəmiyyəti var idi. Avqustun 11-də qəbul olunmuş hərbi

mükəlləfiyyət haqqında qanuna müvafiq olaraq tam 19 yaşına çatmış vətəndaşların ordu sıralarına səfərbər olunması elan olunur.

F.X.Xoyski kabinəsinin mühüm tədbirlərindən biri də iyulun 15-də yaradılmış Fövqəladə Təhqiqat Komissiyası idi. Bu komissiyanın qarşısında birinci dünya müharibəsi illərində, xüsusilə Bakıdakı mart hadisələri zamanı və ondan sonra Zaqafqaziya ərazisində yerli müsəlmanlara qarşı törədilmiş vəhşiliklər, onların əmlaklarına qəsd ilə bağlı məsələləri araşdırmaq, bu işdə günahkar olanları aşkar etmək və onları məsuliyyətə cəlb etmək vəzifəsi qoyulmuşdur.

Gəncənin çarizm hakimiyyəti zamanı ləğv olunmuş adı Azərbaycan hökumətinin 30 avqust tarixli qərarı ilə özünə qaytarıldı. Elə həmin qərarla Qaryagin qəzası da Cəbrayıl qəzası adlandırıldı.

Ümumiyyətlə, paytaxt Bakıya göçürülənə qədər F.X.Xoyski hö.kuməti Gəncədə ölkənin iqtisadi həyatı, dəmiryolunun, poçtanın bərpası və s. ilə bağlı bir sıra digər mühüm tədbirlər də həyata keçirmişdir.

Qeyd etmək lazımdır ki, bu dövr Azərbaycan üçün ən ağır və mürəkkəb dövr olmuşdur. O vaxt sözün əsil mənasında Azərbaycanın varlığı, onun olum və ölüm məsələsi həll olunurdu. Belə bir dövrdə ölkəyə rəhbərlik etmək ağlagəlməz dərəcədə çətin bir iş idi. Fətəli Xan hökumətinin o dövr fəaliyyəti haqqında Üz.Hacıbəyov yazırdı: «Yeni vücuda gəlmiş olan Azərbaycan hökumətinin birinci rəisi-vüzərəsi olmaqla, Azərbaycan tarixində mühüm bir mövqe tutmuş olan Fətəli Xan həzrətləri bu yeni dövlətin vəziyyətini taxta paralarından əmələ gəlmiş bir gəmiyə bənzədir ki, bu kimi fırtınalı bir gündə dərya üzərində hər saat, hər an dağa-daşa çırpılıb dağıla bilmək təhlükəsi qarşısında qalmış, bütün ümidini gəmiçinin istedad və məharətinə bağlamışdır... Bu zəif gəmini, bu fırtınalı gündə bu dağın, bu daşın arasından salamat keçirmək və sahili-nicata çıxarmaq kimi çətinliyi Fətəli Xan həzrətləri öz boynuna götürməyi qəbul etdi və qəbul edibdə gəmisini kamali-ehtiyat və ehtimal ilə aparıb hələ sahili-nicata çıxarılmasında, fırtına sakit olana qədər dağa və daşa vurmayıb bunların arasından keçirdi və bu ustalığında böyük bir məharət göstərdi».

1918-ci il sentyabrın 15-də türklərdən və azərbaycanlılardan ibarət Qafqaz islam ordusu Bakıya daxil olur, sentyabrın 17-də isə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Bakıya köçür. Bakı Azərbaycanın paytaxtı elan olunur. Bütün Şimali Azərbaycan ərazisi F.X.Xoyskinin başçılıq etdiyi Azərbaycan hökumətinin hakimiyyəti altına keçir.

Bakıya köçdükdən sonra F.X.Xoyski hökuməti istər ictimai-siyasi istərsə də təsarrüfat və mədəni quruculuq sahəsində daha mühüm tədbirlər həyata keçirməyə başlayır. Müəssislər məclisinin çağırılması işinin təşkili üçün Nazirlər Şurasının sədri, Daxili İşlər və Xalq Maarifi nazirlərindən ibarət komissiya yaradılır.

1918-ci il noyabrın 9-da F.X.Xoyskinin məruzəsi əsasında Azərbaycan hökuməti Azərbaycanın üç rəngli bayrağını təsdiq edir.

Beş aylıq fasilədən sonra 1918-ci il noyabrın 16-da Azərbaycan Milli Şurasının Bakıda birinci iclası toplanır. İclasda çıxış edən Azərbaycan hökumətinin sədri F.X.Xoyski bildirir ki, hökumətin Müəssislər məclisini çağırmaq üçün hazırlıq işlərinə vaxtı çatmadığı üçün Milli Şura bu işi öz öhdəsinə götürsün. Milli Şura bu təkliflə razılaşır. Noyabrın 19-da keçən iclasında Milli Şura 120 nəfərdən ibarət Azərbaycan Parlamentini yaratmaq haqqında Azərbaycan hökuməti tərəfindən təqdim olunmuş qanun layihəsini bəyənir.

Azərbaycan parlamentinin ilk iclası 1918-ci il dekabrın 7-də açılır, Azərbaycan hökumətinin sədri F.X.Xoyski öz hökumətinin çox mürəkkəb tarixi şəraitdə gördüyü işlər haqqında geniş hesabat verir və hökumətin istefasını qəbul etməyi parlamentdən xahiş edir. Parlament hökumətin istefasını qəbul edib, yeni hökumətə rəhbərliyi və onun tərkibini müəyyənləndirmək işini yenidən F.X.Xoyskiyə tapşırır. Dekabrın 26-da Fətəli Xan hökumət proqramı və hökumətin tərkibi barədə parlamentdə çıxış edir. Geniş müzakirədən sonra parlament F.X.Xoyski hökumətinin proqramını bəyənir və hökumətin yeni üzvlərinə etimad göstərir. Bu hökumətdə F.X.Xoyski Baş nazir portfeli ilə yanaşı Xarici İşlər naziri vəzifəsini də tutur.

Azərbaycan Parlamentindəki bir sıra partiya fraksiyaları elə ilk aylardan Fətəli Xan hökumətinə qarşı kəskin müxalif mövqe tuturlar.

Bu partiyalar hökuməti fəaliyyətsizlikdə taqsırlandırır, Azərbaycanda baş verən bütün qanunsuzluqları və hərcmərclikləri onun adı ilə bağlamağa çalışırdılar. «İttihad», «Əhrar» və Sosial-demokrat partiyalarının parlament fraksiyaları daha barışmaz mövqedən çıxış edirdilər.

1919-cu il yanvarın 28-də keçirilən Parlament iclasında çıxış edən «İttihad» partiyasının lideri Qarabəy Qarabəyov ölkədə neft, taxıl, H.Z.Tağıyevin mahud fabrikasının istehsal etdiyi bezlə bilavasitə möhtəkirlərin alver edərək, böyük qazanclar götürdüklərini tənqid edir. Bu işdə bütün günahları hökumətin fəaliyyətsizliyində görür.

1919-cu il fevralın 4-də keçirilən parlamentin digər iclaslarında Ermənistanda Azərbaycan hökumətinin nümayəndəliyini yaratmaq haqqında məsələ müzakirə olunarkən yenədə Q.Qarabəyov Fətəli Xan hökumətini kəskin tənqid edir. Buna cavab olaraq F.X.Xoyski deyir: «Bu barədə hökumət heç bir nöqsan buraxmamışdır. Böylə olmaz ki, biz müqəssir kimi əyləşək, sizdə mümkün olmayan hər məsələ barəsində bizi niyə belə oldu, nə üçün belə olmadı deyə töhmətləndirəsiniz. Hər işdə qüsur mümkündür. Amma bu barədə hökumət əsla nöqsan qoymamışdır».

Elə həmin iclasda yenidən çıxış edən Q.Qarabəyov, «Əhrar» partiyasından Aslanbəy Qardaşov hökuməti alveri şirnikdirməkdə, alveriçilərə qarşı heç bir cəza tədbirləri görməməkdə taqsırlandırırlar. Bu işdə Daxili İşlər nazirliyi məmurlarının əli olduğu da vurğulanır. Onlara cavab verən M.Ə.Rəsulzadə bildirir ki, hökumət «bu az müddət ərzində imkan daxilində nə etmək mümkün olardı etmişdir». O, qeyd edir ki, bugün biz cəmi beş həftədi fəaliyyət göstərən hökumətdən bütün işlərin dəyişdirilməsini və yeni işlər görülməsini tələb edirik. Amma «insandan imkan xaricində şeylər tələb edilərsə şübhəsiz təbiət onu verməz və nəticədə insan məyus olar».

Parlamentin 1919-cu il fevralın 5-də keçirilən iclasında çıxış edən Hacı Kərim Sanılı, Səmədağa Ağamalı oğlu, Qarabəy Qarabəyov, İbrahim Əbilov, Murtuza Axundzadə, Əhməd Cövdət Pepinov, Aslanbəy Qardaşov cəmi beş həftə fəaliyyət göstərən hökuməti yenədə kəskin tənqid edirdilər. Onlara cavab verən F.X.Xoyski bildirir ki, o günlərki siz neçə dəfə mənə müraciətlə hökumət təşkilinə məni

vadar etdiniz. Mən birinci bəyanatımda demişdim ki, belə ağır bir zamanda heç kəs cəsarət edib hökuməti ələ ala bilməz. O vaxt mən dedim ki, «Sizin sidqi dil ilə hökumətin arxasında durub kömək edəcəyinizə ümid oluruq... Əgər görsəm ki, hökumətə sədaqət yoxdur bir dəqiqədə hökumət başında durmaram». Sonra Fətəli Xan öz nitqində qeyd edir ki, bir var sorğu ilə hökumətə kömək edilsin, onun nəzərindən qaçırdıqları yada salınsın, heç vaxt hökumət belə sorğudan inciməz. «Amma bir sorğuda zəhərli, bədxahlıq sorğusudur... Bu sorğu hökumətə badalaq vurmaq, biz soxmaq deməkdir... Ayə bu müqəssirlər skamyasıdırmı ki, hərə gəlib bir söz desin, bir ləkə yapışdırsın?... Hərə bir söz deyir, hətta ixtiyarımız yoxdur onlardan bir qədər ehtiramlı davranmağı tələb edək».

Daha sonra Fətəli Xan öz çıxışında bildirir ki, «siz bunu bilməlisiniz ki, Azərbaycanın istiqlalı hər dəqiqə təhlükəlidir. Biliniz indi elə vaxtdır ki, nəinki bez və çit, hətta elə əhval çıxa bilər ki, Azərbaycan belə qalmaz, istiqlalımız gedər. Belə mühüm zamanda hökumət işlərini Tağıyev fabrikasının bezi ilə ölçmək olmaz».

Yaranmış vəziyyətlə əlaqədar olaraq F.X.Xoyski öz hökumətinin istefası haqqında Parlamentə məktub göndərir və 1919-cu il fevral ayının 25-də Parlamentin iclasında həmin məktub elan edilir. Parlament F.X.Xoyski hökumətinin istefasını qəbul edir və yeni hökumət təşkilinə qədər onlardan öz fəaliyyətlərini davam etdirmək xahiş olunur. Aprelin 14-də N.B.Yusifbəylinin sədrliyi ilə yeni 4-cü hökumət kabinəsi yaradılır.

İstefaya çıxdıqdan sonrada F.X.Xoyski fəal siyasi fəaliyyətindən qalmır. Azərbaycan parlamentinin üzvü kimi, o, 1919-cu ilin aprelində siyasi, iqtisadi və maliyyə məsələlərində, habelə Zaqafqaziya respublikaları arasında mübahisəli sərhəd məsələlərini həll etmək üçün Qafqaz konfransının hazırlanması və keçirilməsində fəal iştirak edir.

F.X.Xoyski 1919-cu ilin noyabrında Azərbaycan və Ermənistan arasında mübahisəli ərazi məsələlərini həll etmək üçün çağırılacaq konfransda iştirak edəcək Azərbaycan nümayəndə heyətinin sədri təyin olunur. Həmin il dekabrın 22-də N.B.Yusifbəylinin təşkil etdiyi

hökumət kabinəsində F.X.Xoyski xarici işlər naziri vəzifəsini tutur və 1920-ci ilin aprelinə qədər həmin vəzifədə qalır.

1920-ci il yanvarın 12-də Birinci dünya müharibəsində qalib gələn müttəfiq dövlətlərin ali şurası Azərbaycanın müstəqilliyini de-fakto tanıyır. Həmin ilin yanvarından aprelinə qədər Azərbaycan Cümhuriyyəti Xarici İşlər naziri F.X.Xoyski və RSFSR Xalq Xarici işlər komissarı G.V.Çiçerin dəfələrlə nota mübadiləsi edirlər. Bu notalarda F.X.Xoyski Azərbaycan Cümhuriyyəti istiqlaliyyətinin Sovet Rusiyası tərəfindən tanınmasına nail olmağa çalışır, G.V.Çiçerin isə Azərbaycanı Denikin qüvvləri ilə mübarizə ittifaqlarına cəlb etmək istəyirdi. Onun bu tələbinə cavab olaraq F.X.Xoyski bildirirdi ki, Azərbaycan hökuməti Sovet Rusiyasının Denikin orduları ilə mübarizəsini rus xalqının daxili işi hesab edir və ona qarışmağı yolverilməz hesab edir.

1920-ci il aprelin ortalarında XI Qızıl Ordu Şimali Qafqazda Denikin ordularının qalıqlarını məğlub edərək Azərbaycan Cümhuriyyətinin şimal sərhədlərinə yaxınlaşdı. F.X.Xoyski öz hökuməti adından aprelin 15-də Sovet Rusiyası hökumətinə nota verərək ölkəsinin təhlükəsizliyindən narahat olduğunu bildirdi. Onun bu notası cavabsız qaldı, aprelin 27-də XI Qızıl Ordu Azərbaycan sərhədlərinin keçərək Bakıya doğru hərəkət etdi. Həmin gün axşam Azərbaycan Parlamenti hakimiyyəti kommunistlərə təhvil vermək haqqında qərar qəbul etdi.

Azərbaycan Cümhuriyyətinin süqutundan sonra F.X.Xoyski Tiflis şəhərinə getmiş və həmin il iyunun 19-da orada muzdlu erməni quldurları tərəfindən sui-qəsd nəticəsində qətlə yetirilmişdir.

## NƏSİB BƏY YUSİFBƏYLİ

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin və Azərbaycanın müstəqilliyinin təməl daşını qoyanlardan biri də görkəmli ictimai-siyasi xadim Nəsib bəy Yusifbəyli idi.

Nəsib bəy Yusif oğlu Yusifbəyli 1881-ci ildə Gəncədə ziyalı ailəsində anadan olmuşdur. Öz doğma şəhərində klassik gimnaziyanı bitirən Nəsib bəy 1902-ci ildə Odessa Universitetinin hüquq fakültəsinə daxil olur. Birinci rus inqilabı ərəfəsində Odessa tələbələrinin siyasi tətillərində digər azərbaycanlı tələbələrlə birlikdə Nəsib bəy də fəal iştirak etmişdir.

1907-ci ildə tələbələrin inqilabi mübarizəsindən qorxuya düşən çar hökuməti Odessa universitetini müvəqqəti bağlayır. Nəsib bəy Krımın Bağçasaray şəhərinə gedərək, İsmayılbəy Qasprinskinin nəşr etdiyi «Tərcüman» qəzetində əməkdaşlıq etmiş və məqalələr dərc etdirmişdir. Həmin vaxt o, İsmayıl bəyin qızı Şəfiqə Soltan xanımla evlənərək bir müddət Bağçasarayda yaşamışdır. Burada o, Krım tatarlarının ədəbi-mədəni həyatında fəal iştirak edir və teatr həvəskarları tərəfindən tamaşaya qoyulan Ə.B.Haqverdiyevin «Dağılan tifaq» əsərində Nəcəfbəy rolunda çıxış edir. Ehtiyac üzündən təhsilini başa çatdıra bilməyən Nəsib bəy 1908-ci ildə çar xəfiyyələrinin təqiblərindən yaxa qurtarmaq üçün bir müddət Türkiyəyə mühacirət etməyə məcbur olur. 1909-cu ildə isə o, yenidən Gəncəyə qayıdır. Burada şəhər bələdiyyə idarəsində fəaliyyət göstərən Nəsib bəy xidməti işlər üçün tez-tez Bakıya gəlir, hər gələndə də o, «Açıq söz» qəzeti redaksiyasına gedərək onun redaktoru, dövrünün görkəmli ictimai xadimi M.Ə.Rəsulzadə ilə görüşür. Sonralar M.Ə.Rəsulzadə Nəsib bəy Yusifbəyli haqqındakı məqaləsində yazırdı ki, «Daha ilk görüşümüzdə rəhmətliklə aramızda özündən ayrıldığımız son may 1920-ci ilədək zərrə qədər xələldar olmayan bir səmimiyyətlə davam edən dostluq təsis etmişdi. Bu dostluq o qədər mətin bağlarla, bir görüşmədə başlayan şey şübhəsiz, müştərək bir səyə, müştərək bir ruh daşıdığımızı mütəğabilən kəşf edişimiz idi».

1917-ci il fevral burjua inqilabından sonra Nəsib bəy Yusifbəylinin rəhbərliyi ilə həmin ilin mart ayıfnda Gəncədə «Türk ədəmi-mərkəziyyət partiyası» yaradılır. Bu partiya Rusiyanı federativ şəkildə qurmaq və Azərbaycana muxtariyyat verməyi tələb edirdi. Bu fikri Nəsib bəy 1917-ci ilin aprelində Bakıda keçirilən Qafqaz müsəlmanlarının qurultayındakı çıxışında da qəti şəkildə qoyur. O göstərir ki, bu vəzifəni yerinə yetirmək üçün mövcud olan bütün qüvvələri bu və ya digər şəkildə birləşdirməliyik. Həmin ilin mayında Moskvada keçirilən Rusiya müsəlmanlarının qurultayında da Nəsib bəy Yusifbəyli fəal iştirak edir.

M.Ə.Rəsulzadənin rəhbərlik etdiyi «Müsəlman demokratik müsavat partiyası» ilə Nəsib bəy Yusifbəylinin rəhbərlik etdiyi «Türk ədəmi-mərkəziyyət partiyası» birləşərək «Türk federalist müsavat partiyası» adını alır. İyun ayında həyata keçirilən bu tədbir həmin il partiyanın oktyabr ayının 26-31-də keçirilən I qurultayında rəsmiləşdirilir. Azərbaycanın siyasi həyatında böyük hadisəyə çevrilən qurultay Rusiyanın gələcək dövlət quruluşunu «milli ərazi muxtariyyatı əsasında federativ demokratik respublika formasında olmasını» nəzərdə tutan proqramını qəbul edir. Qurultayın hazırlanması və keçirilməsində fəal iştirak edən və onun proqramının nəzəri məsələlərini hazırlayanlardan biri də Nəsib bəy Yusifbəyli idi. Nəsib bəy qurultay tərəfindən seçilən Müsavat partiyasının Mərkəzi Komitəsinə daxil olur və partiyanın Gəncə şöbəsinə rəhbərlik edir.

Rusiya Müəssislər Məclisinə nümayəndə seçilən, lakin Oktyabr inqilabının qələbəsi nəticəsində Petroqrada gedə bilməyən Nəsib bəy Yusifbəyli Zaqafqaziyada qanunverilicillik orqanı olan Zaqafqaziya seyminin yaradılmasında fəal iştirak edir. 1918-ci il aprelin 22-də Zaqafqaziya Demokratik Federativ Respublikası elan olunur. Aprelin 26-da təşkil olunan Zaqafqaziyanın yeni hökumətində N.Yusifbəyli Xalq Maarifi naziri vəzifəsini tutur.

Lakin Zaqafqaziya Federasiyasının yaradılması bu əraziyə heç bir yenilik gətirmir. Zaqafqaziyada vəziyyət mürəkkəb olaraq qalırdı. Belə bir şəraitdə türklərlə danışıq aparmaq üçün Batuma gedən nümayəndə heyəti qarşısında çıxış edən Nəsib bəy Yusifbəyli demişdir ki,

“biz ölkəmizin daxili və xarici vəziyyətini dərindən götür-qoy etməliyik. Biz daxili vəziyyətimizi nəzərə alaraq dost Türkiyəyə müraciət etməliyik. Ola bilsin ki, bu qonşularımızın xoşuna gəlməyəcək. Lakin bizim başqa çıxış yolumuz yoxdur. Kürdəmir hadisələri zamanı Tiflis silah cəbbəxanasından bizə silah verən dost gürcü xalqının xeyirxah niyyətlərini qeyd etməmək olmaz. Ancaq xatir üçün xəstə düşə bilmərik. Biz Batuma gedib Türkiyə hökumətindən kömək istəməliyik”. Nəsib bəy axırda xəbərdarlıq edirdi ki, “bütün bunlarla bərabər heç vaxt müstəqil Azərbaycanın sərbəst yaşaması ideyası da nəzərdiqqətdən yayınmamalıdır”.

1918-ci il may ayının 26-da Zaqafqaziya seyminin son iclası keçirilir. Gürcüstan öz müsiəqilliyini elan edir. Mayın 27-də isə Seymin azərbaycanlı nümayəndələrinin fovqəladə iclası keçirilir. İclas Azərbaycan Milli Şurasını yaradır. Nəsib bəy Milli Şuranın rəyasət heyətinə üzv seçilir. Milli Şura Azərbaycanın istiqlaliyyətini elan edir və bitərəf Fətəlixan Xoyskiyə Azərbaycan Xalq Cümhuriyyətinin ilk hökumətini təşkil etməyi tapşırır. F.Xoyskinin təşkil etdiyi yeni hökumətdə N.Yusifbəyli Maliyyə və Xalq Maarifi naziri vəzifələrini tutur. Sonralar F.Xoyskinin təşkil etdiyi ikinci və üçüncü hökumət cabinetlərində də Xalq Maarifi naziri vəzifəsini Nəsib bəy icra edir. Onun başçılıq etdiyi Azərbaycan Xalq Maarif Naziriliyi öz fəaliyyətinə Xalq Cümhuriyyəti yaranana qədər Azərbaycanda xalq maarifinin vəziyyətini öyrənmək və onu yaxşılaşdırmaq üçün konkret təkliflər planı hazırlamaq işindən başlayır. Xalq maarifi sahəsində həyata keçiriləcək istahatlara dair təkliflər baxılmaq üçün hökumətə təqdim edilir. İslahatların məqsədi bu iş üçün sərf olunacaq xərclərə maksimum qənaət etməklə qısa müddətdə xalq maarifi işini sürətlə inkişaf etdirmək idi.

Xalq Cümhuriyyəti hökumətinin maarif işi sahəsində həyata keçirdiyi ilk tədbirlərdən biri Azərbaycan dilinin dövlət dili elan edilməsi idi. Bu vəzifəni həyata keçirmək üçün başlıca yol təhsil işini tamamilə yenidən qurmaq və Azərbaycan dilini mükəmməl bilən ixtisaslı milli kadrlar yetişdirmək idi. Xalq təhsilini milli zəminlər üzərində qurmaq üçün ixtisaslı müəllim kadrlarına və dərs vəsaitinə də böyük ehtiyac var idi.

Xalq Maarifi naziri Nəsib bəy Yusifbəylinin təqdimatı ilə 1918-ci il avqustun 28-də Azərbaycan hökuməti məktəblərin milliləşdirilməsi haqqında qərar qəbul edir. Həmin il sentyabrın 7-də və noyabrın 13-də Xalq Maarifi Nazirliyinin təqdimatı ilə Azərbaycan hökuməti xalq təhsili haqqındakı əvvəlki qərarına əlavələr edir. Bu qərarlara görə azərbaycan dili ölkə ərazisindəki bütün məktəblərdə məcburi fənn kimi tədris olunmalı idi. Nəsib bəy Yusifbəyli 1918-ci il dekabrın 31-də Azərbaycan qubernatorlarına yazdığı məktubunda bildirirdi ki, indi respublikamızda maarif işi sahəsində qarşıda böyük və çətin vəzifələr durur. Nazirlik bütün qüvvələri səfərbər edir ki, mümkün qədər qısa müddətdə respublikada yeni məktəblər açılsın, müəllimlər hazırlayan kurslar təşkil etməklə maarif işi sahəsində ölkəni qısa vaxtda lazımi səviyyəyə qaldıra bilən kadrlar hazırlansın. O, öz məktubunda daha sonra göstərirdi ki, müasir zəmanəmizdə yalnız yüksək maarifli xalqların yaşamağa haqqı vardır. Ona görə də Azərbaycanın bütün quberniya və qəzalarında xalq maarifi işinə ciddi fikir verilməlidir.

Məhz Xalq Maarifi Nazirliyinin ciddi səyləri nəticəsində 1919-cu ilin əvvəllərində artıq Azərbaycanda dövlət hesabına 637 ibtidai və 23 orta ixtisas təhsili məktəbləri fəaliyyət göstərirdi.

1919-cu ilin martında Fətəlixan Xoyskinin başçılıq etdiyi nazirlər kabineti istefa verir. Yeni kabinetin təşkili Nəsib bəy Yusifbəyliyə tapşırılır və aprelin 14-də o, özünün yeni hökumətinin tərkibini elan edir. Burada Nəsib bəy Baş nazir vəzifəsi ilə yanaşı, Daxili İşlər naziri vəzifəsini də tutur.

Öz hökumətinin daxili və xarici siyasət məsələləri haqqında parlamentdə hökumət proqramı ilə çıxış edən Nəsib bəy elan edir ki, xarici siyasət sahəsində onun hökumətinin başlıca məqsədi böyük dövlətlər tərəfindən Azərbaycanın istiqlaliyyətinin tanınmasına nail olmaq, Azərbaycanın ərazi bütövlüyünü qoruyub saxlamaq uğrunda mübarizə olacaqdır.

Daxili siyasət sahəsində isə hər bir mədəni və demokratik ölkə üçün zəruri olan söz, mətbuat, yığıncaq və s. azadlıqların təmin olunması, fəhlələrin həyati tələblərini təmin etməklə onlara əmək azadlığı

vermək, kəndlilərin torpaqla təmin olunmasını isə hökumət özünün başlıca vəzifəsi hesab edir. Milli məsələdən bəhs edən N.Yusifbəyli qeyd edir ki, hökumət özündən asılı bütün qüvvəsini sərf edəcək ki, Azərbaycan burada yaşayan bütün millətlərin sevimli vətəni olsun.

N.Yusifbəylinin təşkil etdiyi hökumət bu dövrdə Denikin könüllülərinin xaricdən və bolşeviklərin isə daxildən törətdikləri təhlükələrlə qarşılaşır. Belə ki, 1919-cu il may ayının 6-da bolşeviklərin gizli təşkilatının təşəbbüsü ilə Bakı fəhlə konfransı tərəfindən hazırlanan tətil şəhəri bürüyür. Hətta iş o yerə çatır ki, Azərbaycan Cümhuriyyəti Parlamenti həmin gün keçirdiyi iclasda başqa məsələlərin müzakirəsini dayandıraraq Bakıda keçirilən fəhlə tətili haqqında məsələni müzakirə etməli olur. Özü də tətil guya iqtisadi tətil idi. Əslində isə çıxış edən parlament üzvləri bildirirlər ki, tətili təşkil edənlər onun iqtisadi tətil olduğunu qeyd etsələr də, əslində, onların məqsədlərinin nədən ibarət olduğu aydındır. Bu məsələ ilə bağlı hökumət məlumatı ilə çıxış edən Cümhuriyyət Hökumətinin Sədri və Daxili İşlər naziri N.Yusifbəli deyir: «Bu tətilin iqtisadi deyil, siyasi olduğunu, güman edirəm, bilməyən yoxdur. Bu tətilin siyasi olduğunu tətil edənlər və tətil etdirmək istəyən adamların özləri də inkar etmirlər. Onlar öz məclislərində açıq deyirlər ki, biz gərək bütün Rusiyada, o cümlədən Azərbaycanda da onlar onu Rusiyanın bir parçası hesab edirlər, Sovdep (deputatlar Sovetləri – A.P.) Şura Hökuməti təşkil edək». Sonra öz nitqinə davam edən natiq qeyd edir ki, «onlar hər vasitə ilə Azərbaycanı Rusiyaya ilhaq etmək istəyirlər». Belələrinə xəbərdarlıq edən Nəsib bəy bildirir ki, «Lazım gələrsə və çox inad edilərsə, ətrafdan gələrək burada Sovdep lehinə işləmək istəyənlərə təklif olunacaq ki, gedib öz sovdeplərində əyləşib işləsinlər».

Vəziyyət son dərəcə mürəkkəb idi. 1919-cu ilin mayında Şimali Qafqaz və Dağıstanı tutan Denikin orduları Zaqafqaziyanı, xüsusilə Azərbaycan və Gürcüstanı işğal təhlükəsi altında saxlayırdı. Mayın axırlarında Bakıda xəbər yayılır ki, Denikin orduları Azərbaycan Cümihuriyyətinin hüdudlarına qədər gəlib çıxıblar. Hətta guya Qubaya yürüşə də hazırlaşırlar. Belə bir şəraitdə xalq böyük təşviş və həyacan hissi keçirir.

1919-cu il may ayının 26-da Azərbaycan Cümhuriyyəti Parlamentinin 41-ci iclasında «Müsavat» fraksiyasının parlamentə ünvanladığı suala cavab vermək üçün hökumət sədrinin iclasa dəvəti təklif olunur. «Müsavat» fraksiyasının sualında soruşulurdu: «Denikin ordusunun Petrovsk (Mahaçqala – A.P.) ilə Dərbəndi işğal etdiyi hökumətə məlumdurmu? Məlum olduğu təqdirdə, Azərbaycanın istiqlalını təhdid edən bu hadisəyə hökumət nə nəzərlə baxır və bu xüsusda nə kimi tədbirlər görülməlidir?».

Parlamentə dəvət edilmiş hökumətin sədri N.Yusifbəyli bu barədə geniş məlumat verərək bildirir ki, verilən «suala cavab verməzdən əvvəl Sizə ərz edirəm ki, bizim hüdudlarımızı heç kəs keçməmişdir. Və ancaq meyitlərimiz üzərindən keçə bilərlər».

Sonra o, nitqinə davam edərək bildirir ki, ingilis hökuməti nümayəndələri həmişə bizə söz vermişlər ki, könüllü ordu əsgərləri Azərbaycanın hüdudlarını keçməyəcəkdir. Nəsib bəy bu məsələ ilə bağlı yenicə ingilis generalı D.Şatelvorq ilə görüşdüyünü və general bu məsələ barədə ingilis hərbi qüvvələrinin fikirlərinin dəyişmədiyini bildirmişdir. Belə ki, könüllü ordu Petrovskdən bu tərəfə keçməməlidir. Eşalonun Yalamaya qədər gəlməsinə kiminsə icazə verdiyindən onun xəbəri yoxdur.

N.Yusifbəyli Parlamentə məlumat verir ki, ingilis nümayəndəliyinə etiraz edərək bildirdim ki, «Biz bu vədlərdən artıq doymuşuq. Bundan belə biz özümüzə güvənəcəyik. Və lazım gələrsə, bir nəfər kimi hürriyyət və istiqlalımızı müdafiəyə qalxacağıq (ümumi alqış). Kim olursa olsun, dünyanın böyük və qüvvətli dövləti də olursa-olsun, qarşısına çıxıb müdafiə edəcəyiz (alqış). Əlbəttə ingilislərin mənim sözümə ayrı cavabları olmazdı. İngilis komandanlığı dedi ki, «Bu sözlərə haqqınız var. Vətəni müdafiə etmək vəzifənizdir».

Nəsib bəy həm də məlumat verir ki, İngilis komandanlığı yanında Denikinin nümayəndəsi polkovnik Lazarev isə bir neçə gün əvvəl mənə məktubla bildirmişdir ki, «Cənubi Rusiya könüllü ordusu Azərbaycana qarşı heç bir təcavüzkar hərəkətdə bulunmaq fikrində deyil. Əksinə Azərbaycanın istiqlalını münasib görür və onu tanıyır».

N.Yusifbəylinin məlumatından sonra parlamentin sosialist fraksiyasından İbrahim Əbilov, «Əhrar» fraksiyasından Muxtar Əfəndizadə, «Musavat» fraksiyasından M.Ə.Rəsulzadə çıxış edərək bütün qüvvələri Denikinlə mübarizəyə yönəltməyə çağırırlar.

Parlamentin bu münasibətlə qəbul etdiyi qərarda isə oxuyuruq: «Konüllü ordunun Azərbaycan hüdudlarında dayanması Azərbaycan xalqının canına qəsd, inqilabın səmərələrini məhv edəcəyindən, bizim Cümhuriyyətimiz üçün böyük bir təhlükə kəsb etdiyindən Azərbaycan Məclisi-Məbusanı elan edir ki, Azərbaycan xalqının elan etmiş və [bir] sənə mütəmadiyyən müdafiə etdiyi istiqlaliyyətini bütün xalq bir nəfər kimi əldə silah olaraq indidə əks-inqilabçı könüllü ordusu tərəfindən qəti və şiddətli müdafiə olunacağını elan edir».

Maraqlıdır ki, iyunun 5-də keçirilən Parlamentin 45-ci iclasında təkrarən Denikin könüllü orduları ilə bağlı məsələ müzakirə olunur. Hökumətin sədri N.Yusifbəyli ölkənin hazırkı vəziyyətinə dair məlumat verərək bildirir ki, «Möhtərəm məbuslar! Bir neçə gün bundan əvvəl sizə ərz elədim ki, Denikin nümayəndəsinin tərəfindən kağız aldıq. Gördünüz ki, rəsmi kağızda istiqlalımızı tanıyırlar. Ancaq nə mən oxuyan zaman, nə də siz eşitdiyiniz zaman buna etibar etmədiniz. O kağız ki, yazılmışdır onun mürəkkəbi qurumamış bir kağız da gəldi ki, hüzurunuza ərz etmək istəyirəm. Oxuyur:

«Azərbaycan Cümhuriyyətinin Heyəti-Vükalə Rəisinə. Surəti: İngiltərə komandanlığına və Qroznı-Petrovsk qrupu komandanlığına.

Məsələnin gələcəkdə Rusiyada təşkil olunacaq Ali hakimiyyət tərəfindən həllinə qədər Azərbaycanın istiqlalını münasib görür və tanıyırıq. Polkovnik Lazarev».

Bu məsələ ətrafında M.Ə.Rəsulzadə, Ə.C.Pepinov, S.Ağamalıoğlu, Əsədulla Əhmədzadə, Abdulla bəy Əfəndizadə, Q.Qarabəyov, A.Malaxazyan, V.Bakaradze çıxış edirlər. Bütün natiqlər vurğulayırlar ki, partiya və fraksiya mənsubiyyətindən asılı olmayaraq parlamentin üzvləri və xalq bütün qüvvələrini Denikin ordularına qarşı mübarizəyə yönəltmişdir. Onu qeyd etmək yerinə düşərdi ki, Cümhuriyyətin hakimiyyəti illərində – yalnız bu hadisə ilə bağlı iyun ayında «Müsavat»

partiyası ilə Sosialistlər bloku birlikdə Bakıda izdihamlı mitinq-yürüş təşkil etmişdilər.

Denikin təhlükəsi ilə bağlı Parlament belə bir qərar qəbul edir ki, mövcud hökumət daxilində bir heyət seçilsin və həmin heyət ölkənin müdafiəsini təşkil etsin. Belə bir heyət isə 5 nəfərdən ibarət «Dövlət Müdafiə Komitəsi» oldu. Dövlət Müdafiə Komitəsinin yaradılması haqqında Azərbaycan Cümhuriyyəti hökuməti 1919-cu il iyun ayının 9-da xüsusi qərar qəbul edir. Qərarda göstərilirdi:

«1. Dövlətin Müdafiəsi üçün yaradılan xüsusi orqan – Dövlət Müdafiə Komitəsi adlandırılsın.

2. Dövlət Müdafiə Komtəsi 5 nəfər üzvdən ibarət müəyyən edilsin. Komitəyə – Nazirlər Şurasının sədri, Hərbi nazir, Yollar naziri, Xarici İşlər naziri və Ədliyyə naziri daxil edilsinlər».

1919-cu il iyun ayının 11-də isə Dövlət Müdafiə Komitəsi fövqəladə vəziyyət dövrünə uyğun olaraq məcburi qərar qəbul edir. Həmin qərarla Azərbaycan Cümhuriyyəti ərazisində hərbi vəziyyət elan olunur. Habelə qərarda hərbi vəziyyət dövrü üçün tətbiq olunacaq tədbirlər də sadalanır. Elə həmin gün ölkədə Dövlət Müdafiə Komitəsinə tabe olan Əks-inqilab ilə Mübarizə təşkilatı da yaradılır.

1919-cu ilin avqustunda ingilislər Azərbaycanı tərk edirlər. Azərbaycan hökumətinin bütün cidd-cəhdlərinə baxmayaraq onlar öz donanma gəmilərinin bir hissəsini Azərbaycana deyil, Denikinə verirlər. Bununla bağlı 1919-cu il avqustun 28-də keçirilən Parlament iclasında «Sosialistlər» fraksiyası hökumətə sorğu verir və həmin iclasda bu barədə çıxış edən sosialistlər Əhməd Cövdət Pepinova cavab verən Baş nazir Nəsib bəy Yusifbəyli deyir ki, burada sosialistlərin qaldırdığı məsələlər haqqında düşünəndə görürük ki, «Əhmədbəy iki cür arşın qollayır. Birisi Denikin, ikincisi bolşevik. Birinci məsələyə gələndə Denikinin Bakıda qərargahı var, rəsmi möhürləri var. Millətə (rus milləti nəzərdə tutulur – A.P.) işləyir deyir. Fəqət bolşeviklərdən bəhs olunanda deyirlər ki, xeyr, onlara toxunmaq olmaz. Hürriyyəti-vicdan var, hürriyyəti-kəlam var… Məlumunuzdur ki, cəmiyyətimiz arasında bolşevizmin artmasına çalışanlar və hökuməti yıxmaq istəyənlər də vardır. Bolşevikləri buraya dəvət edəlim deyənlər də var,

hətta bizim içimizdə də var. Onun üçün mən yenə təkrar edirəm ki, bolşevizm bizim üçün bir təhlükədir, bəlkə də böyük təhlükədir».

Öz nitqində Nəsib bəy Yusifbəyli bildirir ki, Əhməd əfəndi bir tərəfə tam sərbəstlik vermək istədiyi halda, digər tərəfi boğmaq istəyir. Lakin hər şeyin bir həddi var. İstər bolşevik olsun, istər menşevik olsun, istər Denikin tərəfdarı olsun, hüdudu keçərsə, onun hərəkəti bizim tərzi-idarəyə sədəmə vurarsa, onu orada dayandıraram.

Sonra o, deyir: «Mən heç görmədim ki, Əhməd əfəndi bir kərə də olsun hətta ədalətsiz olaraq tutduğum Denikin adamlarından birinin xilası üçün xahişə gəlsin. Lakin hətta tam ədalətli şəkildə də olsa, elə bir bolşevik tutmadım ki, Əhməd əfəndi onun xilası üçün xahişə gəlməsin».

1919-cu ilin dekabrında özünün ikinci hökumətini təşkil edən Nəsib bəy 1920-ci il martın axırına qədər bu hökumətə başçılıq etmişdir. Nəsib bəy Baş nazir olduğu vaxt xalqımızın tarixində ən böyük hadisə 1920-ci il yanvarın 11-də böyük dövlətlər tərəfindən Azərbaycanın istiqlaliyyətinin de-fakto tanınması olur. Bu münasibətlə 1920-ci il yanvar ayının 14-də Cümhuriyyət hökumətinin sədri N.Yusifbəyli Azərbaycan xalqına müraciət edir. Müraciətdə belə bir əlamətdar gün münasibətilə bütün Azərbaycan xalqını təbrik edən N.Yusifbəyli yazırdı: «Böyük Avropa millətlərinin Ali Şurası tərəfindən yekdilliklə Azərbaycanın müstəqilliyi tanınmışdır. Azərbaycanın Qərb xalqları ailəsinin tam hüquqlu üzvlüyünə daxil olması onun tarixində ən işıqlı gündür. Bu gündən onun mənəvi qüvvələrinin yeni çiçəklənmə dövrü başlanır. Hökumət inanır ki, bütün vətəndaşlar yenidən hər hansı bir maneə və təhlükə yaranarsa belə, azad və müstəqil Vətənin xoşbəxtliyini təmin etmək üçün birləşəcəklər. Yaşasın Mustəqil Azərbaycan Xalqı!»

N.Yusifbəyli hökumət kabinələri dövründə Bakı Dövlət Universiteti açılır, müxtəlif ixtisaslar üzrə ali təhsil almaq üçün 100 nəfərə yaxın azərbaycanlı gənc Avropanın müxtəlif ali məktəblərinə göndərilir, torpaq islahatları haqqında 29 maddədən ibarət qanun layihəsi hazırlanaraq 1920-ci ilin fevralında xalqın müzakirəsinə verilir, savad-

sızlıqla mübarizə üçün müvəqqəti pedaqoji kurslar açılır. İbtidai və orta məktəblər üçün dərsliklərin hazırlanması və nəşri işinə başlanır və s.

N.Yusifbəyli hökumətinin son qərarlarından biri də 1920-ci il yanvarın 30-da hərbi ordenlərin, Milli himnin, dövlət gerbi və möhürün layihələrinin hazırlanması barədəki qərar idi. Bu qərar ilə Hərbi nazirə tapşırılırdı ki, ordenlərin layihələrinin hər biri üçün 25 min manat mükafat olmaqla müsabiqə elan etsin. Müsabiqədə iştirak edənlərə tapşırılsın ki, ordenlərin layihələrində Azərbaycanın müstəqilliyi simvolu öz əksini tapmalıdır.

Xalq Maarifi Nazirliyinə isə Milli himn, dövlət gerbi və möhürü barədə müsabiqə elan etmək tapşırılır. Himn üçün 50 min manat, dövlət gerbi və möhürünün hər biri üçün isə 25 min manat mükafat müəyyən edilir. Müsabiqələr elan olunmuş, lakin XI Ordunun Azərbaycanı işğal etməsi bu işi başa çatdırmağa imkan verməmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti öz planlarını axıra qədər yerinə yetirə bilmədi. 1920-ci ilin əvvəllərində Şimali Qafqazda və Dağıstanda Denikin ordularını məğlub edən Sovet Rusiyasının Orduları Zaqafqaziyanı, ilk növbədə isə Azərbaycanı, xüsusilə Bakını təhlükə altına alır. Diplomatik əlaqə yaratmaq haqqında Azərbaycan hökumətinin bütün təkliflərini cavabsız qoyan Sovet Rusiyası Azərbaycanın öz daxilində də bolşeviklər vasitəsilə ilə bu işə hazırlıq görürdü. Bunun nəticəsi idi ki, 1920-ci il mart ayının axırlarında N.Yusifbəylinin ikinci hökuməti istefa verməyə məcbur olur. Hökumət böhranı yaranır. Yeni hökumətin təşkili M.H.Hacınskiyə tapşırılır. Onun Azərbaycan Parlamentindəki fraksiyalarla apardığı danışıqlar bir səmərə vermir. Xüsusilə kəskin fikir ayrılıqları «Müsavat» fraksiyası ilə sosialist fraksiyası arasında gedirdi. Solsialistlər yeni hökumətdə əsas aparıcı nazirliklərin – hərbi, xarici və daxili işlər nazirliklərinin portfellərini tələb edirdilər. «Müsavat» partiyası isə M.H.Hacınskiyə yeni kabinetin təşkilində sərbəst hərəkət etməyə imkan vermirdi. Digər tərəfdən isə bolşeviklərlə gizli şəkildə görüşən M.H.Hacınski özü də yeni hökumət yaratmaq işinin təşkilinə təşəbbüs göstərmirdi.

Azərbaycan ordusu isə martın axırlarında Qarabağda ermənilərin qaldırdıqları qiyamı yatırmaqla məşğul idi. Bütün bu şəraitdən

istifadə edən XI Qızıl Ordu 1920-ci il aprelin 27-də Azərbaycanın sərhədlərini keçərək Bakıya doğru hərəkət edir. Elə həmin gün yaranmış siyasi vəziyyəti müzakirə edən Azərbaycan Parlamenti hakimiyyəti qan tökülmədən bolşeviklərə təslim edir. Hakimiyyəti təslim edərkən Azərbaycan parlamentinin tələblərindən biri bu idi ki, keçmiş hökumət üzvləri təqib olunmayacaqlar. Lakin onların bu tələblərinə əməl olunmur. Arxivdə saxlanılan bir sənəddən məlum olur ki, guya xalq pulunu talayaraq qaçmaq istəyən Məlik-Aslanovlar ailəsi, Yusifbəylinin həyat yoldaşı və başqaları dəmiryol vağzalında həbs olunurlar. Təqibdən yaxa qurtarmaq üçün Bakını tərk edən Nəsib bəy Yusifbəyli isə yolda faciəli surətdə qətlə yetirilir. Xalqımızın azadlığı uğrunda mübarizədə şərəfli yer tutan görkəmli milli xadimlərimizdən biri Nəsib bəy Yusifbəylinin həyat yolu da bu cür faciəli şəkildə sona yetir.

## MƏMMƏD XAN TƏKİNSKİ

Onun adı Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyəti illərində fəaliyyət göstərmiş siyasi xadimlərdən biri kimi bizə məlumdur. "Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası"nın II cildində Məmməd Təkinskinin yalnız Cümhuriyyət hakimiyyəti illərindəki fəaliyyəti barədə qısa məlumat verilmiş, hətta onun şəkli belə tapılmamış, anadan olma və ölüm tarixləri məlum olmadığı üçün onların yerlərində sual işarəsi qoyulmuşdur.

Ukraynanın Odessa vilayəti dövlət arxivindən surətlərini əldə etdiyimiz Novorossiysk Universitetində təhsil almış azərbaycanlı tələbələrin şəxsi işlərinin arasında hüquq fakültəsinin tələbəsi olmuş Məmməd (Məhəmməd) Xan Təkinskinin də şəxsi işi var. Tiflis şəhəri birinci gimnaziyanın şagirdləri haqqında verilmiş məlumatda M.X.Təkinskinin atasının adı qrafasında - "Ehsan xan Təkinski", qəyyumu adlı qrafada isə göstərilir: "Cəfərqulu xan Naxçıvanski", milliyyəti - türkmən, dini etiqadı - müsəlman, təvəllüdü - 1879-cu il.

Şəxsi işində sinif rəhbəri Avilovun tərtib etdiyi, Tiflis birinci gimnaziyasının direktoru Markovun imzaladığı M.X.Təkinskiyə verilmiş xasiyyətnamə də var. Rus dilində yazılmış həmin xasiyyətnaməni olduğu kimi tərcümə edərək burada veririk: "Məmməd Təkinskinin xüsusi taleyi olmuşdur. O, öz valideynləri haqqında heç nə deyə bilmir. Ona görə ki, onları görməyib. O, 1879-cu ildə Axal-Təki vadisində rusların türkmənlərlə müharibəsi zamanı anadan olmuşdur. Maraqlıdır ki, cəmi iki yaşı olarkən 1881-ci il yanvar ayının 12-si günü baş vermiş hadisə onun yaddaşına əbədilik olaraq həkk olunmuşdur. Xatırlayır ki, çayı keçərkən az qala boğulacaqmış, valideynləri onu ruslardan ot tayasında necə gizlətmişdilər, bir köynəkdə daşın üzərində necə oturmuşdu, ruslar küçələrdə türkmənləri necə doğrayırdılar, süngünü ona tuşlamış rus soldatının əlinə necə keçmişdi. Həmin gün onun bütün doğmaları məhv olmuşdu. O, rus ordusunun polkovniki Ehsan xan Naxçıvanski tərəfindən oğulluğa götürülmüş, hərbi hissədə hamının sevimlisinə çevrilmiş və hərtərəfli qayğı ilə əhatə olunmuşdur".

Lakin dəhşətli təəssüratlar Təkinskinin həyatında öz izlərini də buraxmışdı. Bir vaxt onun bədəni tamamilə şişir. Bunu əsəb sisteminin pozulması əlaməti hesab edirlər. Bundan sonra müəyyən müddət onun dili dolaşır, topuq vururdu. Lakin müalicə olunmaqla o sağalmışdı. Son vaxtlarda isə onun bədəninin sol tərəfi yüngül şəkildə iflic olmuşdu. Xasiyyətindəki bir sıra kobudluqlara baxmayaraq, Təkinski hər halda yumşaq ürəkli, orta qabiliyyətlidir. Öz yaş həddinə görə kifayət qədər inkişaf etməmişdir. Hesab etmək olar ki, onun əsəb xəstəliklərinin əsas səbəbi gərgin əmək və asan olmayan gimnaziya kurslarının keçirilməsi zamanı beynində yaranmış əsəb gərginliyi olmuşdur. Hər halda Təkinski kifayət qədər bilikli, kifayət qədər ümumi inkişafa malik şəxs kimi gələcəkdə əgər özünə, öz qüvvəsi və zövqünə uyğun peşə seçərsə, cəmiyyət üçün yararlı şəxs ola bilər."

Xasiyyətnamə ilə yanaşı, M.X.Təkinski Novorossiysk Universitetinə aşağıdakı məzmunda "Şəhadətnamə" də təqdim etmişdir: "Bununla təsdiq edirəm ki, 1881-ci il yanvar ayının 12-də general-adyutant Skovelevin rəhbərlik etdiyi ordu Köy-Təpədə Axal-Təkə qalasına hücumdan sonra çoxlu Təkin uşaqları valideyinsiz qalmışdı. Onlardan biri də Məmməd Xan Təkinski idi ki, o vaxt onun bir yaşı olardı. Müsəlman dininə mənsub olan bu uşağı qalaya hücum zamanı mənim rəhbərlik etdiyim polkun batalyonlarından birinə rəhbərlik edən podpolkovnik Xan Naxçıvanski tərəfindən tərbiyə etmək üçün götürülmüşdü.

Qeyd: Mənim polkumda olanlardan heç kimə məlum deyil ki, həmin uşağın o vaxt "Xan" titulu olmuşdur, yoxsa bu titul ona sonradan verilmişdir. 1890-cı il 26 may. Tiflis şəh. 81№-li Apşeron polkunun komandiri polkovnik N, polkun adyutantı adından poruçik Korobkov".

Tiflis birinci kişi gimnaziyasında 11 il oxuyan M.X.Təkinski (8-ci sinifdə təkrarən 2-ci il qaldığı üçün) 1901-ci ildə oranı bitirərək 1514 №-li attestat alır. Həmin ilin avqustunda isə o, Novorossiysk İmperator Universitetinin rektoruna ərizə ilə müraciət edərək onu həmin universitetin fizika-riyaziyyat fakültəsinin riyaziyyat bölməsinə qəbul etmək barədə xahiş edir. Universitetə qəbul olunaraq iki il həmin fakültədə oxuduqdan sonra 1903-cü il avqustun 20-də M.X.Təkinski

yenidən həmin universitetin rektoruna ərizə ilə müraciət edərək onu fizika-riyaziyyat fakültəsindən hüquq fakültəsinin birinci kursuna keçirməyi xahiş edir.

Onun ərizəsi üzərində tələbələrlə iş üzrə inspektor tərəfindən yazılmış arayışda bildirilirdi ki, "Məmməd Xan Təkinski – müsəlman dininə mənsub olmaqla, Tiflis 1-ci gimnaziyasının 1901-ci ildə verdiyi kamal attestatı ilə həmin ilin sentyabrından Novorossiysk universitetinin riyaziyyat bölməsinin tələbəsidir. 1901/1902-ci tədris ilinin mart ayına qədər I və II semestrində mühazirələr oxumaq üçün haqq ödəmədiyindən 1902-ci ilin martında universitetdən xaric edilmişdir. Universitetdə oxuduğu müddətdə isə ona qarşı heç bir ciddi tənbeh və irad olmamışdır." Həmin ərizənin üzərində yazılmış digər arayışda isə idarə heyətinin 9 sentyabr 1903-cü il tarixli qərarı ilə Məmməd Təkinskinin universitetə gəldiyi, üzvülük və mühazirələr üçün qonarar haqlarını ödədiyinə görə onun hüquq fakültəsinin birinci kursuna qəbul olunduğu barədə idarə heyəti katibinin imzaladığı arayış da vardır.

1903-cü ilin dekabrında hüquq fakültəsinin I kurs tələbəsi Məmməd Xan Təkinski Novorossiysk universitetinin tələbə məsələləri üzrə inspektoruna ərizə ilə müraciət edərək bildirir ki, universitetdə oxuduğu müddət ərzində heç bir qadağan olunmuş işlərlə məşgul olmamış, əla əxlaq nümunəsi göstərmiş, heç bir kənar vəsaitdən və dövlət təqaüdündən də istifadə etməmişdir.

M.X.Təkinski Novorossiysk universitetinin rektoruna növbəti ərizəni 2-ci kurs tələbəsi kimi 1906-cı il oktyabrın 20-də yazıb. Öz ərizəsində o, göstərirdi ki, 1905-ci ildə universitetin xeyrinə üzvlük haqqını ödəyə bilmədiyim üçün universitetdən xaric olunmuşam. Sizdən acizanə xahiş edirəm ki, məni hüquq fakültəsinin 3-cü kursuna yenidən bərpa edəsiniz. Bərpa olunan kimi həm mühazirələr barədə, həm də universitetin xeyrinə vəsaiti ödəyəcəyimə söz verirəm.

M.X.Təkinski Novorossiysk Universitetinin rektoruna son ərizəni isə 1908-ci il iyunun 3-də yazaraq ona universiteti bitirməsi haqqında sənədlərin verilməsi barədə göstəriş verməyini xahiş edir. Bütün bunlarla bərabər M.X.Təkinskinin Novorossiysk universitetinin tələbəsi kimi tərtib olunmuş şəxsi işində müxtəlif illərdə onun universitetin professor

və müəllimlərinin mühazirələrində iştirakının siyahıları, bunun üçün ödədiyi təhsil haqqı barədə çoxlu sənədlər də qorunub saxlanılır. Bu sənədlər arasında M.X.Təkinskinin 1901-ci il iyun ayının 12-də Tiflisdə A.Hordşteynin foto studiyasında çəkdirdiyi və Novorossiysk universitetinə təqdim etdiyi foto şəkil də qorunub saxlanılır.

Təəssüflər olsun ki, M.X.Təkinskinin Novorossiysk universitetinin hüquq fakültəsini bitirdikdən sonra 1918-ci ilə qədər harada işlədiyi barədə əlimizdə əsaslı bir məlumat yoxdur. Ancaq güman etmək olar ki, o, bu illər ərzində Güney Qafqazda hüquq-mühafizə orqanlarında fəaliyyət göstərmişdir. Bunu 1918-ci il iyul ayının 15-də Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Gəncədə yaratdığı Fövqəladə Təhqiqat Komissiyasına sonralar andlı iclasçı kimi M.X.Təkinski də bu komissiyanın işinə cəlb olunması, buradakı və sonrakı fəaliyyətləri göstərir ki, o həqiqətən də Güney Qafqazda hüquq-mühafizə, məhkəmə, prokurorluq orqanları sistemində fəaliyyət göstərib.

1918-ci ildən 1920-ci ilin aprelində Xalq Cümhuriyyətinin süqutuna qədər isə M.X.Təkinski əvvəlcə Cümhuriyyət hökumətinin Ermənistan Respublikasında səlahiyyətli nümayəndəsi, sonra isə Xarici İşlər Nazirliyində nazirin müavini olmuşdur. Təəssüflər olsun ki, Azərbaycanın türkmən oğlunun Cümhuriyyət dövründəki fəaliyyəti də lazımınca öyrənilməyib. Onun cümhuriyyət dövründən sonrakı taleyi barədə isə əlimizdə heç bir məlumat yoxdur.

1918-ci il dekabrın 7-də Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin ilk iclasında parlament qarşısında öz hökuməti adından F.X.Xoyski hesabat verdikdən sonra hökumət buraxılaraq yeni hökumətin parlament tərəfindən təşkili yenidən F.X.Xoyskiyə tapşırılır. Sənədlərdən görünür ki, həmin vaxt Xarici İşlər naziri vəzifəsinin müvəqqəti icrası M.X.Təkinskiyə həvalə olunur. Belə ki, dekabrın 9-da o, Cümhuriyyət hökumətinin Gürcüstandakı nümayəndəsi M.Y.Cəfərova göndərdiyi təlimatda Ermənistanın Tiflisdəki nümayəndəsinə Qazax qəzasının Qaraqoyunlu kəndinin Azərbaycanın ayrılmaz hissəsi olduğunu və heç bir vaxt Ermənistan Respublikasının tərkibinə daxil olmaq istəmədiyini bildirməyi tapşırır.

M.X.Təkinski 1919-cu il yanvar ayının 29-da Azərbaycan Cümhuriyyəti hökumətinin Ermənistan Respublikası hökuməti yanında diplomatik nümayəndəsi təyin olunur. O, bu vəzifədə həmin il oktyabrın 1-də Xarici İşlər nazirinin müavini vəzifəsinə təyin olunan vaxta qədər fəaliyyət göstərmişdir.

Cümhuriyyət hökumətinin Ermənistan Respublikasında diplomatik nümayəndəsi kimi M.X.Təkinski Ermənistan hökumətinə 1919-cu il mart ayının 24-də etiraz notası verib. Notada deyilirdi ki, "türklər İrəvan quberniyasından getdikdən bir neçə gün sonra erməni silahlı dəstələri erməni zabitlərinin rəhbərliyi ilə Naxçıvan istiqamətində hərəkət edərək öz yolunda olan Səib, Kataklı, Şalabl, Xaraba Kataklı kəndlərini dağıdaraq bu kəndlərdə olan mülki müsəlman əhalini, o cümlədən də qaçqın müsəlmanları, qoca, qadın və uşaqları doğrayıblar. Şərurda müqavimətə rast gələn erməni dəstələri Qırovluya geri çəkiliblər. Eyni vaxtda digər erməni dəstələri Cirmansdan, Qaraxaç, Şaqanlı, Kadilli, Yuxarı Qarabağlar, Ağasıbəyli, Dəhnaz və Şişi Dağ kəndlərinə doğru hərəkət edərək bu kəndlərin mülki müsəlman əhalisini qırmış, əvvəlcədən seçdikləri bir neçə yüz gözəl müsəlman qız və qadınlarını aparmış və bu günə qədər də onlar erməni əsgərlərinin əlində girovdurlar. Erməni əsgərlərinin müsəlmanlara qarşı bütün bu yaramaz hərəkətləri haqqında Ermənistan Respublikası hökumətinə vaxtında məlumat verilmişdir. Mənim hökumətimin tapşırığı ilə Ermənistan Respublikası hökumətinə təklif edirəm ki, girov aparılmış bütün müsəlman qadın və qızları təxirə salmadan erməni əsgərlərinin əlindən azad edilsinlər. Yuxarıda göstərilən bütün kəndlərdə müsəlmanlara vurulmuş ziyanları dəqiqləşdirmək üçün ingilis, müsəlman (azərbaycanlı - A.P.) və ermənilərdən ibarət birləşmiş komissiya yaradılsın".

Həmin il aprel ayının 2-də M.X.Təkinski Xarici İşlər naziri M.Y.Cəfərova göndərdiyi teleqraf məlumatında bildirirdi ki, martın 18-də Eçmiadzinə gedərək orada katalikosla görüşdüm. O, ermənilərlə müsəlmanların dostluq etməsinin vacibliyini vurğuladı və söz verdi ki, erməni xalqına müraciət edəcək ki, müsəlmanlarla dostluqla yaşasınlar. Katalikos məni nahara dəvət etdi və mən gedənə qədər məndən ayrılmadı. Mazut olmadığı üçün Eçmiadzin kilsəsi və katalikosun evi

elektrik işığı ilə işıqlandırılmır. O, məlumat verdi ki, mən katalikosa mazutla kömək edəcəyim barədə söz vermişəm.

Habelə o, bildirirdi ki, gəlir mənbəyi olmadığı üçün Ermənistan müstəqil yaşaya bilməz. Qaçqınların vəziyyəti olduqca çətindir və onlara ətraflı kömək lazımdır. Hind əsgərləri Naxçıvan istiqamətində yola düşüb. Əgər vacibdirsə, Kars hökuməti ilə əlaqə yaradın. Yuxarı siniflərdə olan 14 gənc əgər gimnaziyaya qəbul edilsələr, öz təhsillərini davam etdirmək üçün Azərbaycana gəlmək istəyirlər.

M.X.Təkinskinin məlumatı üzərində elə həmin gün Fətəli Xan Xoyski belə bir dərkənar qoymuşdu. "Neft (bir sistern) buraxılsın, əlaqə yaradılsın, gimnazistlər qəbul edilsin".

M.X.Təkinskinin İrəvandan növbəti məlumatı 1919-cu il mayın 3-də Cümhuriyyət hökumətinin yeni Baş Naziri N.Yusifbəyova erməni ordusunun Naxçıvana müdaxiləsi ilə əlaqədar olaraq Ermənistan hökumətinə verdiyi nota barədəki məlumatdır. Notada deyilirdi: "Mənim hökumətimin tapşırığı ilə mən Ermənistan Respublikasının ordusunun Azərbaycan Respublikasının ayrılmaz hissəsi olan Naxçıvan rayonuna göndərilməsinə qarşı öz etirazımı bildirirəm".

Öz notasında M.X.Təkinski bildirirdi: "Ümid edirəm ki, Ermənistan Respublikası hökuməti iki respublika arasındakı sərhəd məsələlərini eyni vaxtda həm silah gücünə, həm də başlıca vəzifəsinin sərhəd məsələlərinin sülh yolu ilə həll etməli olan Qafqaz konfransında iştirak edəcək öz nümayəndələri vasitəsilə həll etməyəcək. Özü də Ermənistan Respublikasının hökuməti özünün 1919-cu il 4 aprel tarixli 1075 №-li notası ilə ərazi məsələlərinin məhz Qafqaz konfransında həll edilməsini təklif edir".

1919-cu il mayın 10-da M.X.Təkinski Cümhuriyyət hökumətinin Baş Naziri N.Yusifbəyova şifrəli məktubla bildirirdi ki, dolaşan şaiyələrə görə ingilislər əgər Ermənistan Qarabağın Azərbaycana verilməsi ilə razılaşarsa, Şərur-Naxçıvan rayonunu da Ermənistana verməyə hazırlaşır. Bu şaiyələr ermənilər tərəfindən yayılır. Mən hesab edirəm ki, ermənilər üçün Kars kifayətdir. Əhalisi tamamilə müsəlmanlardan ibarət olan Şərur-Naxçıvanı ermənilərə vermək olmaz. O zaman onların da əhalisi Ermənistanda olan digər müsəlman əhalisi kimi olduqca ağır vəziyyətə

düşər. Müsəlman əhalisinin acınacaqlı vəziyyəti haqqında əlimdə kifayət qədər dəlillərim var. Bütün bunları Tiflisdə Müttəfiqlərin komandanlığına başa salmaq və onlarla daim əlaqə saxlamaq lazımdır, yoxsa bizim diplomatiyamız uduzacaqdır".

M.X.Təkinski 1919-cu il mayın 29-da Xarici İşlər naziri M.Y.Cəfərova göndərdiyi növbəti şifrələnmiş məktubunda bildirirdi ki, "Azerbaydjan" qəzetinin 105-ci nömrəsində xəbər verilir ki, Naxçıvan əhalisi erməni ordularını ruh yüksəkliyi ilə qarşılayıb. Şərur-Naxçıvan rayonunun əhalisi ingilislərin tələbi ilə tabe olub. Kalbali xan Naxçıvanski Xatisovun dəvətini qəbul etməyərək onun yanına gəlməmiş və bildirmişdi ki, o, Ermənistanı tanımır. Yalnız general Delinin dəvəti ilə Xan gəlmiş, general ona elan etmişdir ki, rayon Ermənistana birləşdirilir. Xan cavab vermişdir ki, yalnız ingilislərin tələbini qəbul edir. Müsəlmanlar erməniləri baykot edir və inzibati vəzifə tutmaq barəsindəki erməni təkliflərini rədd edirlər".

M.X.Təkinski 1919-cu il iyunun 7-də Xarici İşlər naziri M.Y.Cəfərova göndərdiyi məktubunda bildirirdi ki, ermənilər Denikinin könüllü ordusunun Bakını tutacaqları ümidi ilə sevinirlər. Baxmayaraq ki, iyunun 1-də mənim yanımda nahar vaxtı Xatisov Ermənistanın və Azərbaycanın özlərini müdafiə və müstəqilliklərini saxlamaq üçün mənafelərinin eyni olduğuna məni inandırmağa çalışırdı. Könüllü ordu ilə münasibətlərimiz pisləşərsə, Ermənistan bizə qarşı düşmən mövqe tutacaq. Ona görə də Şərur- Naxçıvan bölgəsində Ermənistan üçün təhlükə yaratmaq lazımdır. Bunun üçün hərbi təşkilata pul buraxılmalıdır. Mənim həyata keçirdiyim tədbirlər nəticəsində Şərur-Naxçıvan və Ordubad vahid Milli Şurada birləşərək daim mənimlə əlaqə saxlayırlar.

1919-cu il iyun ayının 21-də M.X.Təkinski İrəvandan göndərdiyi təcili şifrələnmiş məlumatında bildirirdi ki, Naxçıvan, Şərur, Vedibasar və Şahtaxtı rayonları erməni orduları tərəfindən tutulmuş və orada erməni idarə sistemi yaradılmışdır. Naxçıvan Milli Şurası məndən xahiş edir ki, Müttəfiqlər komandanlığına bildirim ki, erməni hakimiyyəti ingilis generalı Deli və Xatisova söz verməlırinə baxmayaraq axtarışlar aparmaqla, əhalidən silahları, mebelləri, dirəkləri, taxtaları və sairəni müsadirə edirlər. Müttəfiq ordu komandanlığından xahiş edin ki, bu cür

qeyri-qanuni və düzgün olmayan hərəkətlərə son qoyulsun. Culfa da ermənilərin əlindədir. Naxçıvan Milli Şurasının xahişini yerinə yetirməyi mümkün hesab edirsinizmi? Ordubadlılar hələ ki erməniləri yaxın buraxmırlar. Bu barədə 11 gün əvvəl ordubadlılar ermənilərə açıqca bildirmişlər. Müsəlman orduları buraxılmışdır. Yalnız 300 nəfərdən ibarət partizan dəstəsi var.

Həmin il iyul ayının 21-də M.X.Təkinski İrəvandan Xarici İşlər Naziri M.Y.Cəfərova göndərdiyi növbəti teleqramda bildirirdi ki, bu gün Britaniyanın hərbi nümayəndəsi polkovnik Plauton mənə yazılı və şifahi surətdə bildirdi ki, o, general Koridən əmr alıb ki, Böyük Vedidə və Naxçıvanda bütün hərbi əməliyyatlar dayandırılsın. Bu gün polkovnik Plauton və general Kori bizim diplomatik nümayəndə ilə görüşmək üçün Tiflisə gedir. Yeni vəziyyətlə əlaqədar olaraq mən Bakıya səfərimi təxirə salıram”.

M.X.Təkinski 1919-cu il avqust ayının 2-də öz hökuməti adından Ermənistan Respublikası Xarici İşlər Nazirinə ətraflı notasında həmin il iyunun 12-də Ermənistan Respublikasının Azərbaycan Respublikasındakı nümayəndəsi Bekzadyanın Böyük Vedidə baş vermiş hadisələr barədə protestinə cavab olaraq bildirirdi ki, Bekzadyan bilərəkdən faktları saxtalaşdırır. Onun verdiyi məlumatlardan bilinmir ki, Ermənistan hökuməti Böyük Vediyə hansı sayda hərbi dəstə göndərib. Hərbi dəstə rəisinin göstərişi ilə Böyük Vedi silah və pulemyot atəşinə tutulub. Məlum deyil bu dəstənin cəza dəstəsindən fərqi nə idi? Əslində erməni hərbi hissələri iyunun 4-də səhər Böyük Vediyə çatır. Danışıqlar zamanı ilk atəş səsi erməni hərbi hissələri tərəfindən eşidilir. Bu güllələrlə Böyük Vedidən danışıq üçün gəlmiş Zeynal Abdin Şıxəli oğlu və Nəsrulla bəy Bəşirbəy oğlu adlarında iki nəfər nümayəndə öldürülür. Nümayəndələrinin öldürüldüyünü görən Böyük Vedililər tərəfindən də atəş açılır və bütün günü atışma davam edir. Böyük Vedililərə qarşı artilleriya və piyada polkun hissələrindən istifadə olunur. Həmin günün axşamı erməni hərbi hissələri pulemyotları, tüfəngləri, mərmiləri, arabaları, hətta dəftərxanalarını da Böyük Vedi müsəlmanlarına qoyaraq geri çəkilməyə məcbur olurlar.

M.X.Təkinski öz notasında qeyd edirdi ki, Böyük Vedinin nə səbəbə Ermənistana qatılmasına cavab olaraq Böyük Vedililər bildirirlər ki, Ermənistan Respublikası ərazisində ermənilər tərəfindən 300-dən yuxarı müsəlman kəndi dağıdılıb, bir neçə min müsəlman kişi, qadın və uşaqlar məhv ediliblər. Öz notasının sonunda M.X.Təkinski bildirirdi ki, əgər Ermənistan hökuməti ermənilərlə müsəlmanlar arasında xeyirxah qonşuluq münasibəti yaratmaq istəyirsə, Ermənistanda yaşayan müsəlmanlar üçün hüquqi şərait yaratmalıdır. Ermənistan hökuməti müsəlmanlara qarşı tətbiq olunan zorakılıqları əyani surətdə yoxlamaq istəyirsə, qoy İttifaq dövlətlərinin, Ermənistan və Azərbaycan respublikalarının nümayəndələrindən ibarət komissiya yaradılsın. Qatillər və soyğunçular isə ciddi surətdə cəzalandırılsınlar.

1919-cu ilin oktyabrından Xarici İşlər nazirinin müavini işləyən M.X.Təkinski dekabrın 28-də Tiflisdən Bakıya gələn Polşa Respublikasının Qafqazdakı nümayəndəsi Vaslav Ostrovskini Bakıdakı Polşanın konsul agenti və polyak nümayəndələri ilə dəmiryol vağzalında qarşılayır. 1920-ci il yanvarın 23-də digər yüksək vəzifəli şəxslərlə birlikdə xüsusi qatarla Azərbaycan Xarici İşlər naziri F.X.Xoyskinin müşayiəti ilə Tiflisdən Bakıya gələn Müttəfiq Dövlətlərin ali komissarı Oliver Yordponu qarşılayanlar arasında o da vardı.

1920-ci il aprel ayının 28-də Sovet Rusiyasının XI ordusunun Azərbaycanı işğalından sonra Xalq Cümhuriyyəti hökumətinin rəhbərlərinə və fəallarına qarşı ciddi repressiya siyasəti həyata keçirilir. M.X.Təkinskinin repressiyalardan sonrakı taleyi naməlumdur. XIX əsrin 80-cı illərində bütün ailəsi Türkmənistanda Çar Rusiyası orduları tərəfindən qətlə yetirilmiş iki yaşlı yetim türkmən uşağı Ehsan Xan Naxçıvanski (Kəngərlilər nəslinin ən qüdrətli nümayəndələrindən biri – red.) tərəfindən oğulluğa götürülərək Məmməd (Məhəmməd) Xan Təkinski adı verilmişdi. Naxçıvanskilər nəsli ona tam ali təhsil verərək Azərbaycan üçün görkəmli bir siyasi xadim yetişdirmişdilər. Təəssüflər olsun ki, taleyin hökmü ilə M.X.Təkinski yenə də imtahana çəkilmiş, yenə də Rusiyanın bolşevik donu geymiş əsgərləri tərəfindən repressiyaya məruz qalmışdı.

# CAVAD BƏY MƏLİK-YEQANOV

28 may 1918-ci il tarixdə Tiflis şəhərində Azərbaycanın müstəqil dövlət elan edilməsi haqqında Həsən bəy Ağayevin sədrliyi, Mustafa Mahmudov (katib), Fətəlixan Xoyski, Xəlil bəy Xasməmmədov, Nəsib bəy Yusifbəyli, Mir Hidayət Seyidov, Nəriman bəy Nərimanbəyov, Mehdi bəy Hacınski, Heybətqulu Məhəmmədbəyov, Ələsgər bəy Mahmudbəyov, Cəmo bəy Hacınski, Aslan bəy Qardaşov, Sultan Məcid Qənizadə, Əkbər ağa Şeyxülislamov, Mehdi bəy Hacıbababəyov, Məhəmmədyusif Cəfərov, Xudadad bəy Məlikaslanov, Rəhim bəy Vəkilov, Həmid bəy Şaxtaxtinski, Firidun bəy Köçərli, Mustafa Mahmudov, Şəfi bəy Rüstəmbəyov, Cəfər Axundov, Məhəmməd Məhərrəmov, Xosrov Paşa bəy Sultanov, Cavad bəy Məlik-Yeqanov, Hacı Mirzə Səlim Axundzadənin iştirakı ilə keçirilmiş Azərbaycan Milli Şurasının iclasında Azərbaycanın İstiqlal bəyannaməsi qəbul edildi.

Həmin İstiqlal bəyənnaməsini Həsən bəy Ağayev, Fətəlixan Xoyski, Nəsib bəy Yusifbəyli, Cəmo bəy Hacınski, Nəriman bəy Nərimanbəyov, Mustafa Mahmudov, Şəfi bəy Rüstəmbəyov, Cavad bəy Məlik-Yeqanov imzaladılar. Zaqafqaziya seymi müsəlman fraksiyasının və Azərbaycan Milli Şuranın protokollarına imza atan bir çox şəxslərin sonrakı həyatı haqqında müəyyən məlumata malik olsam da, Azərbaycan Xalq Cümhuriyyətinin Həmkarlar İttifaqı Təşkilatının yaradıcısı, görkəmli ictimai xadim Cavad bəy Məlik-Yeqanovun sonrakı dövrlərdəki həyatı haqqında müəyyən məlumat toplamaq marağı məni sakit buraxmırdı.

Repressiyaya məruz qalmış insanlar haqqında Dövlət Təhlükəsizlik Xidmətində məlumat topladığım zaman Cavad bəyin istintaq işi qarşıma gətiriləna qədər həmin şəxs barəsində hər hansı bir sənədlə üzləşəcəyimə əmin deyildim.

Bu təsadüfə sevinsəm də, vərəqləri çevirdikcə həyəcanımın durmadan artdığını hiss edirdim. Vaxtilə repressiyaya məruz qalmış insanlar haqqında nəşr etdirdiyim kitabı hazırlarkən eşitdiyim ah-nalə-

ləri yenidən "eşitməmək" üçün bir müddət bu mövzudan uzaq olmaq qərarına gəlmişdim. Lakin repressiya qurbanı olan şəxslərin ruhu məni rahat buraxmırdı. Onlar bu mövzunu davam etdirib sona çatdırmağı məndən sanki tələb edirdilər. Lakin bunun sonu görünmürdü...

Sənədlərlə yaxından tanış olduqca aydın olurdu ki, vətənimiz "sapı özümüzdən olan baltaların" xəyanəti nəticəsində düşmən əlinə keçdikdən sonra ağır, əzablı yollar keçmiş, Azərbaycanda müstəqilliyin qurulmasında kifayət qədər xidmətləri olmuş Cavad bəy Məlik-Yeqanova qarşı təqiblər durmadan davam edirmiş. O, bu illər ərzində heç bir maddi sübut göstərilmədən dəfələrlə həbs edilmişdi.

Cavad bəy ilk dəfə 1909-cu ildə inqilabi fəaliyyətinə görə Bakı general-qubernatoru R.Martınovun əmrilə həbs olunub. Həbsdən çıxdıqdan sonra o, doğma kəndinə gedir və Baxşəli bəy Məlik-Aslanovun qızı Rəna xanımla ailə həyatı qurur. Bu izdivacdan oğlu Ənvər, qızı Tamara dünyaya gəlir. Lakin tale Cavad bəydən bir müddət "üz çevirir". Onun iki yaşlı oğlu Ənvər, sonra isə gənc həyat yoldaşı Rəna xanım vaxtsız dünyasını dəyişir. Bu itkiyə dözə bilməyən Cavad bəy qızını anası Mina xanıma tapşırıb, bir müddət kənddən uzaqlaşır və yenidən Bakıya qayıdır. O, burada milyonçu Şibayevin mədənlərində işləməyə başlayır. 1917-ci ildə M.Ə.Rəsulzadənin məsləhəti ilə "Müsavat" partiyasının üzvlüyünə qəbul olur və partiyanın I qurultayında fəhlələr adından çıxış edir: *"Bu vaxta qədər biz mazut və çirk içində yaşamışıq. Heç kim öz vəziyyəti haqqında danışa bilmirdi. Artıq indi bizim yerli Milli Muxtar vilayətimiz var. Yaşasın türk partiyası olan Müsavat!"* (ARDA, fond 894, siyahı 1, saxlama vahidi 10)

Azərbaycan Respublikası Dövlət Arxivində saxlanılan sənədlərdən aydın olur ki, C.Məlik-Yeqanov Azərbaycan Cümhuriyyətinin müstəqilliyi naminə çalışan fəhlələrin təmsilçisi idi. O, Azərbaycanın müstəqilliyinin Avropa dövlətləri tərəfindən tanınması təntənələrindəki məşhur çıxışında demişdi: *"Elan olunmuş müstəqilliyi Avropa tanımasaydı belə, fəhlələr onun uğrunda öz həyatlarını qoymağa həmişə hazır olmuşlar"* (ARDA, fond 894, siyahı 1, saxlama vahidi 46).

C.Məlik-Yeqanov 1919-cu ildə Lənkəranın general-qubernatoru təyin edilir. Yuxarıda qeyd edilən fondda qorunan sənəddə göstəri-

lir ki, 1919-cu ilin 15 avqust tarixində Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin təmsilçisi kimi C.Məlik-Yeqanov və Məmmədov "Muğanın Azərbaycan hakimiyyətini tanıması haqqında tapşırıq şərtləri"ni imzalamış, bütün diyarda hərbi vəziyyət elan etmişdi. O, Lənkəranın və Muğanın Azərbaycan hakimiyyətinə tabe edilməsində müstəsna rol oynamışdı.

Azərbaycan Xalq Cümhuriyyətinin 8 mart 1920-ci il saat 12.15-də keçirilən, Məmməd Yusif Cəfərovun sədrlik, Qaraşarovun katiblik etdiyi Parlament iclasında C.Məlikyeqanovun çıxışı maraqla qarşılanır: *"Möhtərəm məbuslar! Burada bu gün bir layiheyi-qanuniyyə gəlib, orada göstərilir ki, məmurlara maaş 80 faiz artırılsın. Bu qanun necə ki, dedilər, üçüncü dəfədir ki gəlir. Burada kooperativ təklif etdilər, əgər bu koperativlər düz işləsələr spekulyantlarla mübarizə etmək olar. Hökumət bir ay qabaq qərar vermişdir ki, ehtikarlıq edənlərin malları tutulsun, zəbt olunsun və özləri məmləkətdən xaric olunsunlar. Bunun nəticəsi nə oldu? Neçəsi tutuldu? Mallarından 30 faizi alındı, özləri buraxıldı. Mən bilmək istərdim ki, bu qanun dəmiryol məmurlarından başqa əmələlərinə də aiddir, ya yox? İşarə ilə aiddir. Görünür ki, aiddir. Səksən faizdən 10 faiz çıxırlar sığorta üçün, 10 faiz ev kirayəsi. Onda onların maaşı səksən deyil, altmış, yaxud yetmiş faiz artır. Mən təklif edirəm ki, komisyon və hökumət bu xüsusda təşəbbüsatda bulunsun. Əskidən olduğu kimi hökumət əmələlərin sığortasını və ev kirayəsini öz öhdəsinə alıb faiz çıxarılmasın. Dəmiryol qulluqçuları çörək alırlar, fəqət çörəkləri çox xarabdır. O bir az düzəlsin və kafi miqdarda başqa şeylər də verilsin".* (ARDA, fond 895, siyahı 1, iş 277)

Bolşeviklər hakimiyyəti ələ keçirdikdən qısa müddət sonra Cavad bəy həbs edilir, lakin ay yarım saxlandıqdan sonra ittiham sübuta yetirilmədiyindən onu azad etməyə məcbur olurlar. Növbəti dəfə Cavad bəy 19 sentyabr 1920-ci ildə komissar Nersesovun əmri ilə nəzarət altına alınır və bir neçə ay saxlandıqdan sonra 1921-ci ilin əvvəllərində həbsdən azad edilir. Ümumilikdə, dövlət çevrilişi ilə hakimiyyəti zəbt etmiş bolşeviklər tərəfindən C.Məlik-Yeqanov 6 dəfə həbs olunmuşdur.

DTX-nin arxivində bu həbslərdən yalnız Cavad bəyin adına 1923-cü ildə tərtib olunmuş 779 saylı istintaq anketi saxlanılır:

"1888-ci ilin yanvar ayında Şuşada anadan olmuşdur. (Azərbaycan Respublikası Dövlət Tarix Arxivində saxlanan zahirdən görünən siyahıyaalınma kitabında Cavad bəy Rza bəy oğlunun 1886-cı ildə üç yaşı olduğu qeyd olunur (Fond 43, siyahı 2, saxlama vahidi 7344). Biz bu tarixi sənədi əsas tutaraq Cavad bəyin 1883-cü ildə doğulduğu qənaətinə gəlirik – A.K.).

Türk, ali təhsilli, evli, texniki universiteti bitirmiş, Məlikyeqanov Cavad bəy Rza bəy oğlu 1909-cu ildə "Müsavat"ın üzvü olub. Balaxanıda – Şibayevin mədənində işləyib. Həyat yoldaşı – Məryəm, 24 yaşında. Qızı: Tamara – 7 yaşında, məktəbli; Əzizə – 2 aylıq (7 yaşlı Tamara Cavad bəyin birinci, Əzizə (həqiqətdə adı Azarə) ikinci nikahdandır – A.K.)"

C.Məlik-Yeqanov 21 iyun 1923-cü il tarixdə 230 saylı orderlə növbəti dəfə həbs edilir və 40 gündən sonra yenidən azad edilir. Bu barədə N №PR 1806 saylı arayışda oxuyuruq: "3700 saylı istintaq işi ilə əlaqədar Məlikyeqanov Cavad bəy Rza bəy oğlu haqqında istintaqla əlaqədar iş dayandırılsın və 29 iyul 1923-cü il tarixdən mühafizə üzərindən götürülsün".

Cavad bəy Məlikyeqanovun istintaq materiallarını nəzərdən keçirərkən məlum olur ki, o, Azərbaycan Fövqəladə Komissarlığı tərəfindən verilən orderə əsasən həbs edilib. Ona qarşı həbs qətimkan tədbiri seçilməsinə "Müsavat" partiyasının üzvü və bir qrup qeyri-leqal təşkilatlarla əlbir olmaqda günahlandırılması səbəb olub.

Hələ növbəti həbsdən öncə bir çox şəxslər kimi Cavad bəy Məlikyeqanovun da adı xüsusi göstərişlə məhbuslar tərəfindən məcburi olaraq hallandırılır və əleyhinə sənədlər toplanılırdı. Həmçinin agenturanın 09.06.1923-cü il tarixli məlumatına görə bolşevik hökumətinin Cavad bəy Məlikyeqanovu günahlandırmaqda məqsədi, onun keçmiş müsavatçı kimi 1919-cu ildə Lənkəranda general-qubernator olması idi.

10.07.1923-cü il tarixdə növbəti istintaq materialı tərtib ediləndə Cavad bəyin tərcümeyi-halı Azərbaycan Fövqəladə Komissarlığı-

nın əməkdaşları – Şahverdiyanın, Qamayakın imzaları ilə tərtib edilmiş qovluqdakı izahatda aşağıdakı kimi qeyd edilib:

"1888-ci (1883-cü – A.K.; Bəzi mənbələrdə – 1878-ci il – red.) ildə Şuşa uyezdinin Tuğ kəndində anadan olmuş Cavad bəy Məlik-Yeqanov həbs olunana qədər iqtisadiyyat fakültəsində oxumuş və Əmək Komissarlığında birja rəisinin müavini vəzifəsində işləmişdir. Ailə tərkibində həyat yoldaşı Məryəm Bayraməlibəyova, iki qızı Tamara 7 yaş, İzurə (Azarə – A.K.) iki aylıq uşaqdan ibarətdir. Sənəti çilingər, 1909-cu ildən "Müsavat"ın üzvü, həbs olunan zaman isə bitərəf olmuşdur".

C.Məlik-Yeqanov 1909-cu ildə, həmçinin 1920-1922-ci illərdə Azərbaycan Fövqəladə Komissarlığı tərəfindən həbs edilib. Onun yazılı izahatından məlum olur ki, 1920-ci ilin may ayından Xüsusi İdarə tərəfindən "Müsavat" partiyasının keçmiş üzvü kimi saxlanılsa da, işində cinayət tətkibi olmadığından həbsdən azad edilmişdir. Protokollarda heç bir şahid ifadələrinə rast gəlinmir. Xatırladaq ki, 1923-cü ildə Mir Cəfər Bağırov Azərbaycanın Fövqəladə komissarı təyin olunanda Cavad bəy Məlik-Yeqanovu şəxsən təqib etmiş və bu ailəni hər zaman işgəncələrə məruz qoymuşdur.

C.Məlikyeqanova qarşı uzun müddətli təqiblər, əsassız həbslər olmasına baxmayaraq o, bir çox məsul vəzifələrdə çalışmışdır. Yeni qurulmuş dövlətin Cavad bəy kimi kadrlara ehtiyacı olduğundan bir müddət onlar bu cür mütəxəssislərdən istifadə etmişlər. Yuxarıda qeyd edildiyi kimi, o, Azərbaycan Xalq Cümhuriyyəti dövründə Lənkəran-da idarə rəisi, general-qubernator, Sovet hakimiyyəti illərində tikinti trestində, əmək birjasında işləmişdi. Respublika Əmək Xalq Komissarlığında qaçqınlar şöbəsinin müdiri, neft məhsulları satışı idarəsinin rəisi və digər dövlət idarələrində məsul vəzifələrdə çalışmışdı. Çox təəssüf ki, özünün bilik və bacarığından lazımi qədər istifadə etməyə ona imkan verilməmiş və o hər addımda təqiblərə məruz qalmışdı. Bu azmış kimi M.C.Bağırov 1933-cü ildə Respublikanın rəhbəri təyin olunandan sonra 1937-ci ildə Cavad bəyin həyat yoldaşı Məryəm xanımı həbs etdirmiş, qardaşı Bəhram bəy Məlik-Yeqanov da onun "fəaliyyətinin" qurbanı olmuşdur.

M.C.Bağırov tərəfindən belə amansız təqiblərə məruz qalmaqda Məlik-Yeqanovlar hansı suçun sahibi idilər? Onlara qarşı xüsusi amansızlıq nədən irəli gəlirdi? Bu suala cavab verməkdən ötrü bir az gerilərə baxmaq lazımdır.

1915-ci ildə Suxumidə ibtidai məktəbi bitirən bir gənc acından ölməmək üçün qoca anası və lal-kar doğulmuş bacısı ilə birgə Bakıya pənah gətirir. O, 1916-cı ildə Nobel qardaşlarının neft şirkətində işləməklə bərabər, 1917-ci ildə Cavad bəyin kiçik qardaşı Bəhram Məlik-Yeqanovun qrup nümayəndəsi olduğu 4 sinifli orta Texniki-Mexanika məktəbinin “mexanika-inşaat” üzrə şöbəsinə daxil olur və oranı 1919-cu ildə bitirir. 1918-ci ildən bura Bakı Politexnik Məktəbi adlanırdı. Sonralar həmin məktəb Bakı Politexnik İnstitutuna (sonralar Azərbaycan Neft-Kimya İnstitutu, hazırda isə Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) çevrilir. Suxumidən gələn, Bəhram bəyin tələbə yoldaşı olmuş bu şəxs, sonralar Sovet dövləti və partiya xadimi, Baş Təhlükəsizlik Komissarı, Sovet İttifaqı Marşalı, nəhayət SSRİ-də repressiyalara başçılıq edənlərdən biri, Azərbaycan xalqının qatı düşməni, Mir Cəfər Bağırovun yaxın dostu Lavrenti Pavloviç Beriya idi. Görünür, nə vaxtsa Cavad bəy və ya qardaşı Bəhram bəylə Beriya arasında hər hansı bir “soyuqluq” yaranmışdı. Nəticədə, sonuncu uzun müddət qəlbində saxladığı “soyuqluğu” kinə çevirmiş, ehtimal ki, sonralar bu kin-küdurət Məlik-Yeqanovların faciəsinə gətirib çıxarmışdı.

L.P.Beriya 1919-cu ildə daşnak A.İ.Mikoyanın tapşırığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin Dövlət Müdafiə komitəsində əks-inqilabçılara qarşı kəşfiyyat aparıb. O, bu barədə öz xatirələrində yazır ki, doğrudan da partiyanın tapşırığı ilə müsavata qarşı əks-kəşfiyyatda olmuşdur. 1921-ci ilin aprel ayında isə L.Beriya Azərbaycan SSR-də Xalq Komissarları Soveti nəzdindəki Fövqəladə Komissiyaya müavin təyin edilir. M.C.Bağırov isə artıq Fövqəladə Komissiyanın sədri vəzifəsində çalışırdı. Xatırladaq ki, Stalinin ölümündən sonra Beriya hakimiyyəti ələ keçirməkdə, casusluqda və ölkədə işgəncələrə başçılıq etməkdə günahlandırılaraq güllələnməyə məhkum edilmişdir.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin Xarici İşlər naziri təyin olunması ilə əlaqədar Azərbaycanın ilk folklorşünas alimi,

maarifpərvər Teymur bəy Bayraməlibəyov ailəsi ilə Bakıya köçür. Sonralar Cavad bəyin həyat yoldaşı olan Məryəm xanım Teymur bəyin doqquz uşağından biri idi. Teymur bəy bütün çətinliklərə sinə gərərək bu uşaqları böyüdüb tərbiyə etmiş, onlara ali təhsil vermişdi. Teymur bəy maarifpərvər bir xalq müəllimi idi və Məryəm xanımın taleyində böyük rolu olmuşdur. Məryəm xanım atasının yolu ilə gedərək müəllimliyi ömrünün qayəsi etmişdi. O, ibtidai təhsilini "Nicat" xeyriyyə cəmiyyətinin hesabına 1905-1911-ci illərdə Bakıda Hacı Zeynalabdin Tağıyevin qız məktəbində - I rus-tatar qızlar məktəbində almışdır. Təhsilini davam etdirmək məqsədi ilə 1911-ci ildə "Müqəddəs Nina" qızlar məktəbinə daxil olmuş və 1917-ci ildə bu məktəbin 8-ci pedaqoji sinfini qızıl medalla bitirmişdir. Oxumağa böyük həvəs göstərən Məryəm xanım ali təhsil almaq üçün Moskvaya gedir və tibb institutuna qəbul edilir. Onun təhsil xərclərini Bakı milyonçusu - xeyriyyəçisi Murtuza Muxtarov öz üzərinə götürmüşdü...

Cavad Məlikyeqanov hələ Azərbaycan Xalq Cümhuriyyəti dövründə Lənkəranda işləyərkən bu ailə ilə tanış olur. Bir müddət sonra o, Məryəm xanımla ailə həyatı qurur. Bu evlilikdən 1923-cü ildə Azarə, 1926-cı ildə Taliyə, 1929-cu ildə isə Asiman adlı qızları dünyaya gəlir. Xoşbəxt günlər bu cütlük üçün çox sürmür. Cavad bəy həbs ediləndən sonra nəinki həyat yoldaşı Məryəm xanım, hətta bütün ailə üzvləri təqiblərlə üzləşirlər.

Azərbaycan SSR Dövlət Siyasi İdarəsinin təhlükəsizlik üzrə əməkdaşı A.Quliyev tərəfindən təqdim olunan 10 iyun 1930-cu il tarixli qərarda bildirilir ki, Cavad bəy Rza bəy oğlu Məlik-Yeqanov vaxtilə qeyri-leqal antisovet qrup ilə sıx əlaqə yaratmış, həmin təşkilatla birgə fəaliyyətdə olmuşdu. Ona görə də o, Azərbaycan SSR cinayət məcəllisinin müxtəlif maddələri ilə təqsirli bilinir: *"Sovet dövlətinə qarşı fəaliyyət göstərən bir qrupla və əks-inqilabi təşkilatla bilavasitə əlaqədə olduğuna görə Cavad bəy Rza bəy oğlu Məlikyeqanov Azərbaycan SSR Cinayət Məcəlləsinin 66, 72-ci maddələri ilə təqsirli bilinsin və Azərbaycan SSR Dövlət Siyasi İdarəsinin nəzərinə çatdırılsın. Əməliyatçı: Quliyev; Şöbə rəisi: Borşev; Az. DSİ-nin rəisi: Nevernov".*

Artıq 11 fevral 1930-cu ildə Azərbaycan SSR Dövlət Siyasi İdarəsi tərəfindən Cavad bəy Məlik-Yeqanovun evində axtarış aparılması və onun həbs edilməsi üçün 129 saylı order yazılır. Bundan sonra təhlükəsizlik üzrə müstəntiq A.Quliyevin aşağıdakı təqdimatı XDİK-in rəhbər-liyinə ünvanlanır: "Mən, A.Quliyev əməliyyatçı kimi Cavad bəy Məlik-Yeqanov haqqında kifayət qədər materiallar toplamış, dindirilərkən hazırkı quruluşa qarşı təşkilatlanaraq anti-sovet fəaliyyət apardığını müəyyən etmişəm və nəticədə o, Azərbaycan SSR C/M-nin 73-cü maddəsi ilə təqsirli bilinir."

Daha sonra həmin ildə XDİK tərəfindən C.Məlik-Yeqanovun adına tərtib olunmuş 407 saylı anketdə oxuyuruq: "Məlikyeqanov Cavad bəy Rzabəyoviç 1888-ci ildə Şuşada anadan olmuşdur. Ali təhsillidir, texniki universiteti bitirmişdir. Azərbaycan SSR vətəndaşı, türk, bəy nəslindən, yaşı 42-dir. Həyat yoldaşı: Məryambəyim 30 yaşında, müəllimə (1898-ci ildə anadan olub - A.K.). qızı - Tamara 14 yaş, məktəbli; qızı — Əzizə 7 yaş, məktəbli; iş yeri — Balaxanıda, Şibayev mədənində. C.Məlik-Yeqanov 1917-1920-ci illərdə parlamentə seçilib, 1920-1927-ci illərdə Əmək Komissarlığında, 1927-ci ildə həbs olunana qədər Bakı İcra Komissarlığı idarəsində rəis müavini işləyib".

O, 08.02.1930-cu il tarixdə Bakıda Azərbaycan Dövlət Siyasi İdarəsi tərəfindən həbs edilsə də, onun həbs olunma tarixi nədənsə 14 fevral 1930-cu il kimi göstərilib. Sənədlərlə tanış olanda biz daha bir qanunsuzluqla üzləşməli olduq. Bu da Cavad bəyin hansı partiyanın üzvü olmasına münasibət idi. Azərbaycan Siyasi İdarəsinin müstəntiqi Quliyevin 06.04.1930-cu ildə Cavad bəylə apardığı dindirilmə protokolunda oxuyuruq: "Məlikyeqanov Cavad bəy Rza bəy oğlu 1888-ci ildə Şuşa rayonunun Tuğ kəndində (Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayətində) anadan olub. Türk, azərbaycanlı, yaşadığı ünvan: Bakı, Köhnə poçt küçəsi (Ostrovski, sonra isə S.Tağızadə — A.K.) 80. İşlədiyi yer BAKTOP-da (Bakı sənaye texnikumu) idarə rəisi, təhsili ali-orta, evlidir, mənsubiyyəti qulluqçu. 1914-cü ilə qədər Balaxanıda fəhlə, 1914-cü ildən Oktyabr inqilabına qədər neft istismarı üzrə böyük "prikazçik" işləmişdi. Vətəndaş müharibəsi illərində Bakı Soveti İdarə Heyətinin, Bakı şəhər "Müsavat" partiyasının üzvü, Lənkə-

ran uyezdində xüsusi göstərişlə idarə rəisi, bir müddət sonra isə general-qubernator vəzifəsinə təyin edilib.”

Daha sonra isə 1930-cu ildə - sonuncu dəfə həbs edilən Cavad bəy Məlik-Yeqanovun ittihamnaməsi aşağıdakı şəkildə tərtib edilib: ”Mən, Azərbaycan SSR Dövlət Siyasi İdarəsinin Şərq şöbəsinin səlahiyyətçisi A.Quliyev Məlik-Yeqanov Cavad bəy Rza bəy oğlunun 1002 saylı istintaq işi ilə tanış olub, bu qənaətə gəldim.

1882-ci ildə Azərbaycan SSR, Şuşa şəhərində anadan olmuş, türk. 1002 saylı istintaq işi ilə təqsirli bilinən Məlikyeqanov Cavad bəy Rza bəy oğlu, qulluqçu, təhsili ali-orta, 1912-ci ildən (1917-ci ildən – A.K.) keçmiş “Müsavat” partiyasının, Zaqafqaziya seyminin müsəlman fraksiyasının üzvüdir. Xüsusi olaraq Müsavat hökuməti tərəfindən Lənkəran uyezdində qeyri-leqal fəaliyyətinə və Sovet dövlətinə qarşı anti-sovet təşkilatlara kömək göstərməklə yanaşı, bir çox cinayətə yol verdiyinə görə, Azərbaycan SSR Cinayət Məcəlləsinin 72 və 66-cı maddələri ilə təqsirli bilinərək 08.02.1930-cu ildə həbs olunsun.”

Azərbaycan SSR üzrə anti-sovet ünsürlərin aradan qaldırılması məqsədilə həmin ilin fevral ayında Azərbaycan Dövlət Siyasi İdarəsinin materialları əsasında C.Məlik-Yeqanov həbs edilir. Bu materiallarda qeyd edilir ki, C.Məlik-Yeqanov uzun müddət müsavatçılarla əlaqədə olmuş, bu qanunsuz təşkilatın işində əsas rol oynamışdır. O, Müsavatın məsləhətçisi kimi bir çoxlarını bu qanunsuz təşkilatın təsiri altında saxlamaq istəyib. Bu materiallardan məlum olur ki, C.Məlik-Yeqanov 1920-ci ilə qədər “Müsavat” partiyasının qurucularından biri kimi tanınmış, qabaqcıl və öndə gedən partiya işçisi olmuşdur. O, “Müsavat” partiyasının aktiv fəaliyyəti dövründə Azərbaycanda sovetləşmədən sonra bir neçə dəfə həbs olunmuş, “Müsavat”ın “Münsif” təşkilatının işi ilə əlaqədar təqsirli bilinib istintaqa cəlb edilmişdir. C.Məlik-Yeqanov partiyanın köhnə bir üzvü kimi bir çox müsavatçılarla vaxtaşırı əlaqə yaratmış, “Müsavat” partiyasının lideri M.Ə.Rəsulzadənin ailəsinə kömək göstərmişdir.

Müsavatın “Münsif” təşkilatının üzvlərindən Rzayev dindirilərkən qeyd edir ki, onların ən fəal üzvlərindən biri olan Böyükağa

Axundov Məlik-Yeqanovla yaxın əlaqədə olduğu üçün həmin təşkilatın rəhbərləri haqqında məlumata malik idi. Təşkilatın hal-hazırkı rəhbər işçiləri Böyükağa Axundovun vaxtaşarı yanına gedər, BAKTOP-da xidmət edən, həmin idarənin rəis müavini Məlik-Yeqanov da "Münsif"lə əlaqədə olurdu. Rzayev "Münsif" təşkilatının işi ilə bağlı günahlandırılan Böyükağa Axundovun Məlik-Yeqanovla əlaqədə olduğunu gizlətmir. Eyni zamanda Cavad Məlik-Yeqanovun "Münsif" təşkilatının üzvü olduğunu da etiraf edir.

Arxivdə saxlanılan başqa bir sənəddə göstərilir ki, C.Məlik-Yeqanovun "Müsavat" təşkilatının nəinki Azərbaycanın daxilində, hətta xaricdəki fəaliyyəti, orada olan mühacirlərin müxtəlif sənədlərlə təmin olunmasında fəal iştirakı agenturaya məlum idi. Sənədlərdən həmçinin məlum olur ki, o, müsavatçı mühacirləri şəxsən tanıyırmış, onun xaricdə nəşr olanan ədəbiyyatlarından xəbəri var idi və onların yayılmasında xüsusi təşəbbüs göstərirdi.

Bundan əlavə, istintaqın və agenturanın əlində olan məlumata görə, Dövlət Siyasi İdarəsi müəyyən edib ki, əks-inqilabi təşkilatda günahkar bilinən C.Məlik-Yeqanov və inqilabi xarakterli təşkilatın rəhbəri Kudayev öz xidməti vəzifələrindən istifadə edərək onlara hər cürə köməkliklər göstərmiş və həmçinin Kabardin əks-inqilabi təşkilatın fəaliyyətindən də xəbərdar olmuşlar.

İstintaq materiallarından aydın olur ki, Kudayevin BAKTOP-da ağac emalı vəzifəsində işləməsinə zəmanəti C. Məlik-Yeqanov vermişdi. C.Məlik-Yeqanov iki dəfə Kudayevlə birlikdə Şimali Qafqazdan 7-8 km aralı Murtuzo inqilabi hərəkat rayonuna səfər etmiş və kənddə qardaşının evində qalmış və kabardinlərlə görüşüb söhbət aparmışdır. Yuxarıda göstərilənlər özü-özlüyündə "C.Məlik-Yeqanovun etdiyi əməllərin cinayət olduğunu" təsdiq edir.

Dövlət Siyasi İdarəsinin şərq şöbəsinin səlahiyyətçisinin bu nəticəyə gəlməsinin nəticəsi idi ki, C.Məlik-Yeqanov 10 iyul 1930-cu il tarixli istintaqında fikrini belə bildirməli olur: "Mən özümün siyasi görüşlərimdən sonra prinsip və baxışlarımı əminliklə aşağıdakı şəkildə bölüşürəm:

1.ÜİK(b)Partiyasının XII qurultayında həyata keçməyən milli məsələlərə aid suallara Azərbaycan idarələrində türkçülük – 72 faiz.

2.Kənd təsərrüfatında kollektivləşmədə metod və sürətə qarşıyam.

3.Müəyyən müddətə qədər xırda mülkiyyətçiliyin saxlanılmasına tərəfdaram.

4.Azərbaycan türk millətlərinin köçürülməsi. Məsələn, az torpağı olan Qarabağ kəndlilərini Muğana köçürtmək olar. Lakin Azərbaycan türk kəndlilərinin RSFSR-in başqa vilayətlərinə köçürülməsinin əleyhinəyəm."

Uzun, cansıxıcı dindirilmələr, işgəncələrdən sonra C.Məlik-Yeqanovun işində cinayət tərkibinin kifayət qədər sübutu olmadığı müəyyənləşmiş və onun 1002 saylı istintaq işi dayandırılaraq, Azərbaycan Dövlət Siyasi İdarəsinin əməkdaşlarının birgə iclasında qərara alınmışdı: "Arayış: Müqəssir Az.DSİ-nin həbs evində saxlanılır. Maddi sübut olmadığı üçün 17.07.1930-cu il tarixdə işə xüsusi iclasda baxılsın."

C.Məlik-Yeqanovun təqsiri barəsində kifayət qədər maddi sübut olmadığı halda, arayışda o, "müqəssir" kimi göstərilir. Onun işində təqsirini sübut edəcək dəlil olmadığı üçün onu həbsdən azad etmək əvəzinə, nədənsə "müqəssir"in işi yenidən xüsusi iclasa göndərilir.

Aydındır ki, işi yenidən xüsusi idarəyə göndərməkdə məqsəd etdikləri "səhvlərə" bəraət qazandırmaqla yanaşı, bolşeviklərin ziyalılara qarşı "Səlib yürüşü"nü gücləndirmək idi. Məhz bunun nəticəsi idi ki, istintaq işində heç bir maddi sübutun olmamasına baxmayaraq, beş il müddətinə azadlıqdan məhrum edilən C.Məlik-Yeqanovun haqqındakı 23 oktyabr 1930-cu il tarixli qərara iki ay yarımdan sonra Dövlət Siyasi İdarəsi "humanistlik" göstərərək, 8 yanvar 1931-ci ildə kollegiyanın qərarı ilə işə yenidən baxmış və 10 il müddətinə azadlıqdan məhrum edərək onu Kareliyanın Keme şəhərinə sürgün etmişdir. (Mənbələrdə C.Məlik-Yeqanovun 1942-ci ildə sürgündə vəfat etdiyi bildiririr – red.)

Lakin bundan sonra da Cavad bəyin ailəsinə qarşı təqiblər səngimək bilmir. İlk növbədə, həyat yoldaşı Məryəm xanıma qarşı

haqsızlıqlar davam edir. O, 1931-ci ildə universitetin hüquq fakültəsini müvəffəqiyyətlə bitirib işləməsinə baxmayaraq, ona qarşı edilən haqsızlıqlar üzündən işlədiyi idarədən çıxıb, yenidən müəllimlik peşəsinə qayıtmalı olmuşdur. O, özünə və ailəsinə qarşı törədilən bu haqsızlığa dözməyərək 1937-ci ildə Mərkəzi İcraiyyə Komitəsinin sədri Mixail İvanoviç Kalininə məktub yazmalı olur. Məktuba müsbət cavab gözləmək ümidi ilə yaşayan Məryəm xanım 14 noyabr 1937-ci il tarixdə Azərbaycan Dövlət Siyasi İdarəsi tərəfindən evində axtarış aparılması və həbs edilməsi üçün yazılmış 2677 saylı orderlə, Bayıl həbsxanasına salınır. Məhbusun anketindən:

"Bayraməlibəyova, o həmçinin Məlikyeqanova Məryəm Teymur bəy qızı 22 dekabr 1892-ci (1898-ci ildə – A.K.) ildə Azərbaycan SSR Lənkəran şəhərində anadan olmuşdur. Yaşadığı ünvan Bakı şəhəri, Poçt küçəsi ev 68 (Ostrovski, sonra S.Tağızadə – A.K.). Qulluqçu ailəsindəndir. 18 nömrəli məktəbdə müəllim işləyir. Atası Teymur bəy Bayaməlibəyov xalq müəllimi olub. Məryəm Məlikyeqanova 1922-ci ildə Azərbaycan Dövlət Siyasi İdarəsi tərəfindən 1 aylıq istintaqda saxlanılıb. 14 noyabr 1937-ci ildə Azərbaycan SSR XDİK tərəfindən həbs edilib."

Az.XDİK idarəsinin III şöbə, VII bölmənin rəisi, baş təhlükəsizlik leytenantı Markaryanın xidməti qeydlərində bildirilir ki, vətəndaş Bayraməlibəyovadan, həmçinin Məlikyeqanova Məryəm xanımdan 5X7=35 rub. həcmində 7 qızıl yarım imperial götürülüb."

Bakı istintaq qrupunun əməkdaşı Patkin tərəfindən tərtib olumuş, Markaryan tərəfindən təsdiq edilmiş 7.12.1937-ci il tarixli ittihamnamədə Bayraməlibəyova- Məlikyeqanova Məryəm xanım Teymur qızının 86, 92 saylı işi ilə əlaqədar bildirilir ki, o, 1922-ci ildə "Müsavat" partiyasında gizli fəaliyyətinə görə təhlükəsizlik idarəsi tərəfindən (Fövqəladə Komissarlıq) həbs edilmişdir. "Müsavat" partiyasının fəal üzvü kimi həbs edilənə qədər bu təşkilatda çalışmışdır. Bayraməlibəyova Məryəm xanım "Müsavat" partiyasının ən köhnə üzvü kimi həbs edilənə qədər əks-inqilabi fəaliyyəti aşağıdakılardır: "1919-cu ildə Lənkəranda yerli qadınları "Müsavat" təşkilatına cəlb edirdi. 1921-ci ildə onun təşəbbüsü ilə Masallı və Lənkəran rayonla-

rında gizli olaraq əks-inqilabi “Müsavat” təşkilatı yaranmış, lakin 1927-ci ildə ləğv edilmişdir. Həbs olunana qədər böhtan dolu fikirlərlə sistemli şəkildə Sovet hökumətinə qarşı çıxış edirdi. 15 noyabr 1937-ci ildən Bakı Bayıl həbsxanasında saxlanılır”.

Sonradan Məryəm xanım Arxangelskə sürgün edilir. Burada iki gözü tutulur. Bir müddət Moskvada məhbuslar xəstəxanasında müalicə olunur. Sonra Qazaxstana etap edirlər. 1948-ci ildə 10 illik həbs cəzasını çəkəndən sonra Bakıya qayıdır. Lakin iki gözündən kor olmasına baxmayaraq, Bakıda Lenin prospektində (Azadlıq) ata evində yaşamağa icazə verilmir və o, Gəncədə məskunlaşmağa məcbur olur.

Məryəm xanımın qızı Taliyə xanım Tibb institutunu bitirdikdən sonra təyinatı o zaman bağlı şəhər sayılan Daşkəsənə verilir. O, Fərrux adlı bir mühəndislə tanış olur və onunla ailə həyatı qurur. Lipetskin Voronej vilayətinə işləməyə gedən Fərrux müəllim Məryəm xanımı özləri ilə aparmağı Taliyə xanıma məsləhət görür.

1956-cı ildə Azərbaycan SSR Ali Məhkəməsi üzrə məhkəmə kollegiyasından İmanov, Quliyev, Musayev və prokuror Hacıyevin imzası ilə Məryəm xanım Bayraməlibəyovaya — Məlik-Yeqanovaya, sonra isə həyat yoldaşı Cavad bəy Məlik-Yeqanova Kareliya MSSR Ali Məhkəməsi tərəfindən (mənbələrdə 7 fevral 1959-cu il qeyd edilir - red.) bəraət verilir.

Məryəm xanım bəraət alandan sonra Bakıya gəlir, ömrünün sonuna qədər övladlarının yanında yaşayır və 1987-ci ildə 89 yaşında dünyasını dəyişir.

# MƏMMƏD YUSİF CƏFƏROV

Azərbaycan Xalq Cümhuriyyətinin F.X.Xoyski tərəfindən təşkil edilən birinci hökumətinin nazirlərindən biri, Ticarət, Sənaye, Ərzaq və Təminat naziri Məmməd Yusif Cəfərov olmuşdur.

Hələ 1912-ci ildə o, Rusiyanın IV Dövlət Dumasına seçkilərdə iştirak etmişdi. Dövlət Dumasına onun namizədliyini Bakı, İrəvan və Yelizavetpol quberniyaları irəli sürmüşdülər. 1912-ci il oktyabrın 20-də o, Rusiya Dövlət Dumasının üzvü seçilmişdir.

Dövlət Dumasında M.Y.Cəfərovun fəaliyyəti onun bütün müsəlman deputatları bir platformada birləşdirən müsəlman fraksiyasına daxil olması ilə başlanmışdı. M.Y.Cəfərov həmin fraksiyada dərhal aparıcı yerlərdən birini tutmuşdu. O, həmin fraksiya adından müxtəlif məsələlərə, rus hökumətininhəm daxili, həm də xarici siyasətinə dair tez-tez çıxış edirdi.

1912-ci il dekabrın 10-da M.Y.Cəfərov hökumət bəyannaməsinə cavabla çıxış etmişdir. O, diqqətə çatdırıb ki, həmin bəyannamədə müsəlmanları maraqlandıran məsələlərə dair, o cümlədən təhsil, köçürmə siyasəti, 1910 və 1911-ci illərin yer quruluşu qanunlarının ucqarlara şamil edilməsi və s. sahəsində islahatlar yoxdur. O, maarif məsələləri üzərində dayanarkən demişdir: "Bu müqəddəs işə - xalqın maariflənməsinə hökumətin qərəzkar münasibətini kədər hissi iləetiraf edirik. Guya burada siyasət olmamalıdır. Hökumət indiyədək müsəlmanların maarifləndirilməsi görüntüsü altında onların ruslaşdırılmasına yönəldilən tədbirlər həyata keçirir". (D.B.Seyidzadə "Rusiyanın Dövlət Dumasında Azərbaycan deputatları".)

M.Y.Cəfərov Dumanın büdcə, maliyyə, hərbi-dəniz, torpaq, köcürmə komissiyalarının üzvü idi. O, komissiyaların üzvü kimi ən müxtəlif məsələlərin müzakirəsində içtirak edirdi. M.Y.Cəfərov qeyri-xristian məzhəbindən olan şəxslərin vəkillər tərkibinə daxil edilərkən mövcud məhdudiyyətlərin ləğv olunması məsələsinə dair materiallar, vergi silkinə mənsub olan şəxslərin hüquqlarının bərabərləşdirilməsi

haqqında hökumətin qanun layihəsinə baxılarkən qanunverici təklifləri göndərən komissiya üçün sənədlər hazırlayıb.

O, büdcə komissiyasının iclaslarında aydınlaşdırırdı ki, neftli torpaqlar ərizə olmadan xüsusi şəxslərə verilə bilərmi, Qazax qəzasının maldar əhalisindən həmin sahələrin alınması üçün qanuni əsaslar varmı və s. O, Varşava qaz zavodu fəhlələrinə zorakılıq, kənd təsərrüfatı maşınları və alətləri buraxan bir neçə zavodu birləşdirən sindikatın zərərliliyi, seldən zərər çəkmiş Povoljyeyə kömək haqqında və s. qanunları imzalayıb.

Birinci dünya müharibəsi dövründə Dövlət Dumasının üzvləri adından lazaret müvəkkili təyin edilən M.Y.Cəfərov parlament fəaliyyətini Qafqazda hərbi əməliyyat rayonunda olmaqla uyğunlaşdırıb.

Eyni zamanda, Bakı müsəlman xeyriyyəçi cəmiyyətinin nümayəndəsi olan Cəfərov müharibədən əziyyət çəkənlərə kömək üzrə Xüsusi Müşavirədə, qaçqınlara yardım göstərən Qafqaz Komitəsində hədsiz şəfqət göstərərək qaçqınlar və onların uşaqları üçün sığınacaqlar açılmasından ötrü dövlətin vəsait ayırmasına nail olub, ərzaq dükanlarında məhsulların əhaliyə aşağı qiymətlərlə satılmasına hər cür kömək göstərib.

M.Y.Cəfərov həmişə bütün siyasi hadisələrin mərkəzində olub. İnqilab başlanarkən o, Petroqradda idi, müxtəlif müşavirələrdə, Komitələrdə fəal iştirak edir, kazarmalarda və yığıncaqlarda keçirilən mitinqlərdə tez-tez çıxış edirdi. Onun və Dövlət Dumasının digər üzvlərinin təşəbbüsü ilə həbs olunanların işlərinə baxan xüsusi istintaq komissiyası yaradılmış və M.Y.Cəfərov yekdillikə onun sədri seçilmişdir.

Müvəqqəti hökumətin 1917-ci il 9 mart tarixli qərarı ilə Qafqazı idarə etmək üçün Xarlamovun sədrliyi ilə Dövlət Duması üzvlərindən yaradılan xüsusi komitənin üzvlərindən biri müsəlman deputatlar arasından seçilmiş M.Y.Cəfərov idi. Martın 16-da komissiya üzvləri Bakıya gəldilər. Şəhər Dumasının binasında ictimai təşkilatların nümayəndələrinin iclasında çıxış edən M.Y.Cəfərov Qafqazda komitənin gələcək fəaliyyət proqramından danışdı.

1917-ci il martın 30-da Qafqazın idarə edilməsi üçün xüsusi Zaqafqaziya komitəsi ("Ozakom") bütünlüklə təşkil olundu. M.Y.Cəfərov Ticarət və Sənaye, Yollar, Poçt və Teleqraf nazirlikləri, əmək və müsəlman dini məsələləri üzrə işləri qəbul etdi, habelə qaçqınların işlərini də öz üzərinə götürdü.

Xüsusi Zaqafqaziya Komitəsi 1917-ci ilin martından noyabrın 15-dək Qafqazı idarə edib. Bu müddət ərzində M.Y.Cəfərov milli mübahisələri qaydaya salmaq üçün dəfələrlə Zaqafqaziyanı gəzməli olub.

Ümumrusiya Müəssislər Məclisinin yığıncağında seçkilər zamanı, təbiidir ki, M.Y.Cəfərov Zaqafqaziya müsəlmanlarının ilk nümayəndələrindən biri olub, 615-816 səs yığaraq, Müsavat partiyasından və mərkəzi milli müsəlman komitəsindən 10 №-li siyahı ilə birinci keçib.

Müvəqqəti hökumət yıxıldıqdan sonra Müəssislər Məclisinin Zaqafqaziyadan olan üzvləri Zaqafqaziya seymini yaratdılar. Seym 1918-ci il aprelin 10-da Zaqafqaziya respublikalarının müstəqilliyini elan etdi. Seymin üzvü olan M.Y.Cəfərov fəaliyyətini hərtərəfli genişləndirdi. Seymin müsəlman fraksiyasının iclaslarında da M.Y.Cəfərovun fəaliyyəti vüsətli idi.

O, Bakıda mart hadisələri, Yelizavetpolda və Bakı ilə Yelizavetpol arasındakı dəmiryolunda baş verən hadisələr, Zaqafqaziyanın müxtəlif yerlərində ermənilərlə müsəlmaların toqquşması məsələlərinə dair müzakirələrdə fəal iştirak edirdi. Qısaca desək, o, tarixi hadisələrdən bir addım belə geri qalmır və həmişə onun məhvərində olurdu. Zaqafqaziya Respublikası dağıldıqdan sonra M.Y.Cəfərov Azərbaycan Respublikasının yaranmasında fəal iştirak etdi.

M.Y..Cəfərovun avtobioqrafiyasında yazılıb: "İyunda F.X.Xoyski tərəfindən yeni hökumət təşkil edildikdən sonra M.Y.Cəfərov 1918-ci il iyunun 19-da Azərbaycan Respublikasının Gürcüstanda diplomatik nümayəndəsi təyin edildi, 1919-cu il aprelin 15-dək həmin vəzifədə qaldı". (ARDA, f.970, siy.1,sax.vah. 169, vər. 13-18.)

Sadə, adi sətirlər... Lakin o illərin sənədlərini öyrənərkən həyatının ən xoşbəxt anlarını öz xalqının azadlığı uğrunda mübarizəyə həsr edən bir insan qarşımızda durur.

Gənc respublikanın hökumətinin birinci dərəcəli vəzifələrindən biri gürcü xalqı ilə münasibətləri aydınlaşdırmaqdan və Qafqazda yenicə formalaşan dövlətlərin son dərəcə çətin və mürəkkəb məsələlərini birlikdə həll etməkdən ibarət idi. Bu baxımdan Azərbaycan Cümhuriyyətinin diplomatik nümayəndəsi xüsusi əhəmiyyət kəsb edirdi. Buna görə də Azərbaycan hökuməti gürcü münasibətlərinə kifayət qədər bələd olan M.Y.Cəfərova tapşırdı ki, Gürcüstanda diplomatik nümayəndə kimi həmin məsələləri tənzimləmək vəziyyətində olsun.

Diplomatik nümayəndə M.Y.Cəfərov Azərbaycanla qonşu respublikalar, o cümlədən Gürcüstanla, böyük dövlətlərin nümayəndələri ilə mehriban qonşuluq münasibətləri bərqərar edilməsinə çox kömək göstərib, qarşıya çıxan anlaşılmazlığı razılaşma yolu ilə həll etməyə çalışıb.

Onun üçün həmişə birinci yerdə Azərbaycanın maraqlarını müdafiə etmək durub. 1919-cu il fevralın 25-də o, Azərbaycanın xarici işlər nazirinə yazıb: ”... Məlumat verməyi vacib bilirəm ki, Könüllü Ordunun təzyiqi ilə Vladiqafqazdan qaçqın və hərbi əsir qiyafəsində Azərbaycana keçmək istəyən bolşevik əhval-ruhiyyəli şəxsləri Gürcüstan sərhədində saxlamaq üçün tədbirlər görmüşəm. Hazırda Tiflisdə kifayət qədər yığılan qacqın və hərbi əsirlər barəsində belə bir qayda qoymuşam; buraxılış sənədi o adamlara verilir ki, lazımi sənədləri (pasport, metrika vəsiqəsi və s.) var, Azərbaycanın əslən sakinləridir, həm də alman, Avstriya və türk əsirliyindən qayıdıblar. Belə sübutları təqdim etməyənlərə buraxılış sənədi vermirəm... Təklif edirəm ki, bundan sonra da həmin qaydaya əməl edilsin”. (ARDA, f.970, siy.1, sax.vah. 169, vər. 17-18.)

Buna cavab olaraq 1919-cu il martın 8-də Bakıdan Cəfərova telegram göndərilib: “Qaçqın və hərbi əsirlərə buraxılış sənədi verilməsi barədə hərəkətinizi bütünlüklə bəyənirəm. Tiflis qəzetlərində yazılar dərc etmək lazımdır ki, Bakıda heç bir könüllü hissə yaradılmır və buna yol verilməyəcək. Ona görə də bu məqsədlə Bakıya gəlmək istəyənlər əbəs yerə əmək sərf edib xərcə düşəcəklər...”. (ARDA, f.970, siy.1, sax.vah. 169, vər. 20.)

Yerini dəyişməyərək Tiflisdə yaşayan M.Y.Cəfərov Bakıda baş verən hadisələrlə həmişə maraqlanırdı. 1919-cu il fevralın 20-də o, Azərbaycanın xarici işlər nazirinə yazıb: “Xahiş edirəm, Bakıda vəziyyətin necə olması barədə məlumat verəsiniz. Şayiələrə görə Könüllü Ordunun nümayəndələri orada tam gücü ilə işləyirlər və düşmən qüvvələr toplaşırlar. Bəlkə burada müttəfiqlərin ali komandanlığı qarşısında addımlar atılması zəruridir”. (ARDA, f.970, siy.1, sax.vah. 20, vər.4.)

O, məlumatları zərrə-zərrə əldə edir, öz hökumətinə göndərməyə imkan tapırdı. 1919-cu il aprelin 19-da M.Y.Cəfərov Azərbaycan Cümhuriyyətinin Nazirlər Soveti sədrinə həyəcanlı teleqram göndərir: “Gürcülər Soçi istiqamətində irəliləyərək könüllülərin zabitlər alayını əsir götürmüşlər. Aleksandrovsk dəstəsinin rəisi general Osepyantsın Ermənistanın bir hissəsi kimi Qars vilayətinə girməsi barədə əhaliyə məlumat verməsi haqqında əmri almışam. Hökumətin və yüzbaşının əmrinə əsasən o, əhalini özünə tabe edir, itaət etməyənləri Ermənistan hökumətinin iradəsi ilə qanundan kənar elan edib. Şayiələrə görə ingilislər ultimativ şəkildə təklif ediblər ki, Ermənistan hakimiyyəti tanınsın. Əhalinin rədd cavabı ilə əlaqədar hədə-qorxu üçün ingilis zirehli maşınları və erməni qoşunları Naxçıvana doğru hərəkət edəcəklər”. (ARDA, f.970, siy.1, sax.vah. 20, vər.26.)

M.Y.Cəfərovun diplomatik nümayəndə kimi fəaliyyətinin nə qədər məhsuldar olduğunu, onun həll etdiyi məsələlərin sadəcə siyahısından görmək olar: canişinlikdən sonra Gürcüstan, Ermənistan və Azərbaycan arasında ümumqafqaz əmlakının bölgüsü, birgə kredit kağızları buraxılması, Gürcüstanla Azərbaycan arasında dəmiryolu nəqliyyatının tənzimlənməsi, ərazi məsələlərinin həllinə dair Batum müqaviləsinin həyata keçirilməsi, Gürcüstanın Zaqatala dairəsinə iddialarının tənzimlənməsi, əmtəə mübadiləsi, poçt-teleqraf konvensiyaları məsələləri və s.

M.Y.Cəfərov bütün bu çətin məsələləri bütünlüklə Azərbaycanın maraqları baxımından həll etmişdir. Bundan az çətin olmayan digər məsələ - Almaniyanın nümayəndə heyətinə münasibət məsələsi də Azərbaycanın xeyrinə həll edilmişdir. Bu heyətin başçısı general

Fon-Kress ilə dostluq münasibətləri yaradan M.Y.Cəfərov almanların Azərbaycana soxulmaq cəhdlərinin qarşısını məharətlə ala bilmişdir.

Gürcüstan hökuməti yanında diplomatik nümayəndə kimi M.Y.Cəfərovun başlıca xidməti ermənilərin dəfələrlə mane olduqları Zaqafqaziya konfransının 1919-cu ilin yazında keçirilməsidir. Zaqafqaziya respublikalarının xarici siyasətinin gələcəkdə bazası olan gürcü-Azərbaycan ittifaqının yaradılması ilə M.Y.Cəfərovun Tiflisdə diplomatik nümayəndə kimi fəaliyyəti başa çatır. Lakin Xarici İşlər naziri vəzifəsinə təyinat aldıqdan sonra da, Zaqafqaziya konfransi işini başa çatdıranadək Tiflisdə qalır, sonra Bakıya gələrək digər respublikalarla mehriban qonşuluq münasibətlərini möhkəmləndirmək sahəsində işini davam etdirir.

Bir neçə müddətdən sonra o, Bakıdan Azərbaycanın Tiflisdəki diplomatik nümayəndəsinə yazır: "... bildirirəm ki, mənim hökumətim mübahisəli məsələləri həmişə sülh yolu ilə həll etməyə, Zaqafqaziya xalqlarının dinc birgə yaşayışına çalışmış və buna görə də hələ iyulun əvvəllərində danışıqlara qoşulmuşdur... Yaşadığımız məqamın Zaqafqaqziya üçün ciddiliyini nəzərə alaraq, konfransın işini davam etdirməsinə razılığımızı bildiririk." (ARDA, f.970, siy.1, sax.vah.87, vər.2.)

Xarici İşlər naziri vəzifəsini qəbul edən M.Y.Cəfərov bütün qüvvə və biliyini ikiqat enerji ilə öz xalqına sərf edir, Azərbaycanın maraqlarını yorulmadan müdafiə edərək öz hökumətinə sədaqətlə xidmət göstərir. 1919-cu il sentyabrın 24-də o, Zaqafqaziyanın ali komissarı polkovnik Qaskelə aşağıdakı məzmunda teleqram göndərir: "... Bir aya yaxındır ki, Dağıstanda bütün vilayəti əhatə edən xalq üsyanı davam edir, general Denikin ordusunun hissələri ilə Dağıstan xalqlarının zəifləməyən mübarizəsi gedir. Qan tökülür, kəndlər dağıdılır, dağıstanlılar tərəfindən tutulan Dərbənd şəhəri dənizdən gəmi artilleriyasının atəşinə məruz qalır. Dinc əhali vahimə içində qaçır, Azərbaycan ərazisinə çoxlu qaçqın gəlir. Həmin hadisələr bilavasitə Azərbaycan Respublikasının sərhədləri yaxınlığında baş verdiyi üçün bunlar Azərbaycanda əhval-ruhiyyəyə təsir göstərməyə bilməz. Hökumətim adından Sizə xahişlə müraciət edirəm ki, öz müdaxilənizlə qan

tökülməsinin qarşısını alasınız və Dağıstanla Könüllü Ordunun hissələri arasında müvəqqəti bitərəf zona yaradılması üçün addımlar atılmasına nail olasınız”. (ARDA, f.970, siy.1, sax.vah. 48, vər.60.)

Azərbaycanda Rusiya silahlı qüvvələrinin baş komandanı yanında Dəniz idarəsi 1828-ci ildə Rusiya ilə İran arasında bağlanmış Türkmənçay müqaviləsinə əsaslanaraq Azərbaycan hərbi donanmasının Xəzər dənizinə buraxılmaması və rus gəmilərindən başqa ticarət gəmilərinin hər hansı bir bayraq altında üzməməsi haqqında Azərbaycan hakimiyyətinə ultimatum irəli sürərkən M.Y.Cəfərov dərhal etirazını bildirib: “... məlumat verməkdən şərəf duyuram ki,1828-ci ildə Rusiya və İran arasında bağlanmış Türkmənçay müqaviləsi Azərbaycan üçün keçərli ola bilməz. Çünki Azərbaycan Respublikasının milli donanması var, onun başqa bayraq altında üzməsi yol verilməzdir.

Xəzər dənizində rus gəmilərindən savayı başqa bayraq altında gəmilərin üzməsinin dayandırılması haqqında Dəniz idarəsinin tələbinə mənim hökumətim Könüllü Ordu komandanlığı ilə yaranmış mehriban qonşuluq münasibətlərinin pozulmasına cəhd kimi baxmağa məcburdur. Bu təcavüzkar çıxış həmin komandanlığın iqtisadi və digər məsələlər haqqında hökumətlə danışıqlar aparmaq istəyi ilə uyuşmur.

İrəli sürülən tələbə qarşı etirazımı bildirərək, nəzərinizə çatdirmağa şərəf duyuram ki, Azərbaycan donanması bu günə qədər olduğu kimi bundan sonra da milli bayraq altında üzəcək...”. (ARDA, f.970, siy.1, sax.vah. 198, vər. 1.)

M.Y.Cəfərov hər vasitə ilə çalışırdı ki, Azərbaycanın iqtisadiyyatı bərpa edilsin və iqtisadiyyatımızın ingilislər, türklər, italiyanlar və s. tərəfindən dağıdıldığını çox acı-ağrı ilə, iztirabla qarşılayırdı. 1919-cu il noyabrın 15-də o, Zaqafqaziyada Britaniyanın ali komissarı O.Uordropa yazır: “... Müttəfiq qoşunları Azərbaycan və Gürgüstan ərazisində olarkən ingilis komandanlığının tələbi ilə neft kəməri demək olar ki, adı çəkilən komandanlığın ehtiyacları üçün işləyirdi, yollardakı sisternlər çox vaxt həmin komandanlığın ehtiyaclarını ödəyirdi. Az bir hissə hökumətə və xüsusi ehtiyaclara, o cümlədən neft sənayesinin ehtiyaclarına sərf olunurdu. İngilis qoşunlarının getməsi

və dəmiryol nəqliyyatı vasitələrinin bir hissəsinin azad edilməsi hökumətə imkan verdi ki, ölkənin maliyyəsini və sənayenin ağır vəziyyətini yaxşılaşdırmaq üçün xaricə neft məhsulları göndərmək məqsədi ilə məlum planı işləyib hazırlasın... Lakin bu ilin oktyabrında gözlənilmədən general Brefdən tələb daxil oldu: Ona hər gün Bakıda ingilis komandanlığının ehtiyacları üçün tələb olunan neft məhsulları üçün 30 sisterm verilməlidir. Bundan başqa, ağ neft kəmərinə 750 min pud ağ neft vurulmalıdır.

Halbuki bütün qüvvələri səfərbərliyə almaqla hər gün Bakıdan cəmi 40-45 sistern göndərmək olar. Özü də bu sisternlər həm Azərbaycanın, həm də Gürcüstanın dəmiryollarında bir sira bütöv və yerli ehtiyaclara sərf olunmalı idi. Belə ki, general Brefin tələbi, əgər o, yerinə yetirilərsə, təkcə hökumət və sənayeçilərin öz ehtiyacları üçün Batuma heç nə göndərə bilməməsinə, hətta Zaqafqaziya respublikaları dəmiryollarının öz ehtiyaclarını bütünlüklə ödəyə bilməməsinə bərabərdir.

Bu məlumatı sizin nəzərinizə çatdırmaqla və diqqətinizi ingilis hökumətinin bütün vacib ehtiyaclarını Azərbaycan Respublikası hökumətinin indiyədək yerinə yetirdiyinə və bundan sonra da ona lazımi diqqətlə yanaşacağına yönəldərək xahiş edirəm ki, gələcəkdə inglis hökumətinin nümayəndələri tərəfindən belə hərəkətlərin törədilməməsi üçün təcili tədbirlər görməkdən imtina etməyəsiniz. Yoxsa Azərbaycanın və Gürcüstanın maraqlarına böyük ziyan dəyər. Bu itkiləri pula çevirsək, bir neçə milyon alınar ki, bu da bizim sənayemizi və maliyyəmizi məhv etmək deməkdir...". (ARDA, f.970, siy.1, sax.vah. 198, vər. 1.)

M.Y.Cəfərov Azərbaycan Xalq Cümhuriyyətinin son anınadək öz ölkəsinə sədaqətlə xidmət edib. Taleyin hökmü ilə o, Parlamentin son iclasının axırıncı sədri olub. Hakimiyyətin kommunistlərə verilməsi haqqında Parlamentin 1920-ci il 27 aprel tarixli qərarını o, oxuyub: "Sizin 27 aprel tarixli məktubunuzu müzakirə edib onun məzmununu yaşadığımız məqamla tutuşduraraq və Sizin təklifinizi nəzərə alaraq, seçdiyimiz komissiya qərara alır:

1. Sovet hakimiyyəti tərəfindən idarə olunan Azərbaycanın tam müstəqilliyi saxlanır;

2. Yaradılan Azərbaycan Kommunist Partiyası hökuməti müvəqqəti orqan olacaq;

3. Hər cür xarici təzyiqlərdən asılı olmayaraq Azərbaycanın qəti idarəetmə forması Azərbaycan fəhlə, kəndli və əsgər deputatları Sovetinin şəxsində Azərbaycanın ali qanunvericilik idarəsi tərəfindən müəyyən edilir;

4. Hökumət idarələrinin bütün işçiləri öz yerlərində qalır, yalnız məsul vəzifələr tutan şəxslər dəyişdirilir;

5. Yeni yaradılan müvəqqəti kommunist hökuməti, hökumət və Parlament üzvlərinin həyatının və əmlakının toxunulmazlığına zəmanət verir;

6. Qızıl Ordunun Bakı şəhərinə döyüşlə girməsinə yol verilməməsi üçün tədbirlət görüləcək;

7. Yeni hökumət Azərbaycanın müstəqilliyini məhkum etmək məqsədi güdən bütün xarici qüvvələrə qarşı öz sərəncamında olan bütün vasitələrlə qətiyyətlə mübarizə aparacaq.

Azərbaycan Parlamenti özünün fövqəladə iclasında bu şərtləri səs çoxluğu ilə qəbul edib, onu da Sizin nəzərinizə çatdırıram". ("Kommunist" qəzeti, 10 may 1920-ci il.)

Arxiv sənədlərini vərəqləyib oxuyarkən, istər-istəməz, özün-özünə suallar verirsən ki, bir insanda bu qədər ram olmayan iradə, güc-qüvvə, mətanət hardandır. Cavabını tapmaqda çətinlik çəkmirsən: Öz xalqına və vətəninə hədsiz məhəbbət, böyük enerji və şəxsi iş qabiliyyəti! Əminik ki, bizim nəsil də o illərdəki qədər öz xalqına və Vətəninə, dövlətinə və dövlətçiliyinə sevgi və sədaqət duyğuları ilə yaşayacaqdır, Məmməd Yusif Cəfərov kimi!

## ASLAN BƏY KRİÇİNSKİ

XX əsrin ikinci onilliyində Rusiya imperiyasında baş vermiş iki inqilab bu imperiyanın tərkibində yaşayan bir sıra xalqlara öz müqəddəratlarını təyin etmək üçün tarixi imkan yaratdı. Bu fürsətdən istifadə edən Zaqafqaziya xalqlarının nümayəndələri 1918-ci ilin fevralın 23-də Zaqafqaziya Seyminin yaradılmasını elan etdilər. Lakin 1918-ci ilin mayında Zaqafqaziya hökuməti süquta uğradı. Zaqafqaziya Seymində təmsil olunmuş müsəlman fraksiyasının nümayəndələri Azərbaycan Milli Şurasının yaradılmasını elan etməklə Azərbaycanın idarə olunmasını öz üzərlərinə götürdülər. Milli Şura Azərbaycan xalqının müxtəlif təbəqələrindən olan nümayəndələrinə müraciət edərək, müstəqil Azərbaycan Respublikasının dövlət idarəetmə sisteminin təşkilində iştiraka və dövlət quruculuğunun ayrı-ayrı sahələrində təmsil olmağa dəvət etdi. Azərbaycan Respublikasının dövlət arxivlərində mühafizə olunan Azərbaycan Cümhuriyyət Respublikasına aid arxiv sənədlərinin araşdırılması zamanı məlum olur ki, doğrudan da hakimiyyətin müxtəlif qanadlarında ayrı-ayrı xalqların nümayəndələri təmsil olunmuş, onların siyasi və idarəetmə sahələrindəki təcrübələrindən dövlət quruculuğunun müxtəlif istiqamətlərində geniş istifadə olunmuşdur.

Azərbaycan Respublikası Dövlət Tarix Arxivində mühafizə olunan arxiv sənədləri (524 № - li Fond) bizi maraqlı bir soyadla Lev (sənədlərdə, əsasən, Aslan bəy kimi yazılıb) Kanistantinoviç Kriçinski ilə tanış edir və onun Cümhuriyyət hökumətinin İşlər İdarəsinin dəftərxana direktoru vəzifəsində, həmçinin Xarici İşlər Nazirliyi yanında Zaqafqaziyanın müsəlman əhalisinə qarşı rus siyasətinə dair sənədli materialların toplanması məqsədilə yaradılmış Xüsusi Komissiyanın sədri kimi fəaliyyəti barədə geniş məlumat almağa imkan verir.

Kimdir Aslan bəy Kriçinski? Sənədlərdən məlum olur ki, Kriçinskilər polşa-litva tatarlarının tarixində xüsusi iz qoymuş qədim kökə malik bir nəsildir. Məlumatlara görə 1410-1411-ci illərdə Qızıl-Orda xanlığından çıxmış Neman bəy Litvaya gəlmişdir. Onun oğlu Konrad

burada knyaz tituluna qədər yüksəlmiş və özünə bağışlanılmış Krıçan kəndinin adını sonradan soyad kimi qəbul etmişdir. Bu soyada malik şəxslərdən xüsusi nailiyyət qazananlardan biri də Aslan bəy Kriçinskinin atası Konstantin İliç Kriçinski olmuşdur. K.Kriçinski çar ordusunda zabit kimi xidmət etmiş, rus-türk, rus-yapon müharibələrində iştirak etmiş, general-leytenant rütbəsində istefaya çıxaraq yaşamaq üçün Varşavaya köçmüşdür. Onun Mariya Matveyevna Axmatoviçlə nikahından üç oğlan uşağı dünyaya gəlmişdir ki, onların da ikisinin - Olqerd və Levin (Aslanın) taleləri Azərbaycan Xalq Cümhuriyyətinin, eləcə də Azərbaycan Respublikasının tarixi ilə sıx əlaqəli olmuşdur. Kriçinski qardaşları Sankt-Peterburq Universitetində hüquq ixtisası üzrə təhsil almışlar. Aslan bəy Kriçinsi tələbəlik illərində Peterburqda "Polşa tələbələrinin müsəlman İttifaqı"nın yaradıcısı və faktiki ona rəhbərlik edən şəxslərdən biri olmuşdur. Həmin İttifaqa sonradan Litva tatarları da daxil olmuşdur. İttifaqın məqsədi Peterburq Universitetlərində təhsil alan müsəlman tələbələri birləşdirmək onların polşa-litva tatarlarının tarixinin öyrənilməsi və mədəniyyətlərinin qorunması işinə cəlb etmək olmuşdur. Aslan bəy Kriçinski təhsilini başa çatdırdıqdan sonra Varşavaya qayıdaraq məhkəmə orqanlarında çalışmış, müsəlman təşkilatların fəaliyyətində yaxından iştirak etmişdir. O, 1913-cü ildə yoxsul müsəlmanlara yardım etmək üçün Varşavada atası tərəfindən yaradılan "Müsəlmanların xeyriyyə cəmiyyəti"nin idarə heyətinə üzv seçilmiş və katib kimi həmin təşkilatda çalışmışdır.

Birinci dünya müharibəsi dövründə bir çox polşa-litva tatarları kimi Aslan bəy də Varşavadan Petroqrada gəlir. Burada polşa-litva tatarlarının milli hərəkatında, "Polşa, Litva, Belarus, Ukrayna tatarları İttifaqı"nın yaradılmasında yaxından iştirak edir və İttifaqın İcraiyyə Komitəsinin Katibi vəzifəsində çalışır. 1917-ci ildə Petroqradda müxtəlif millətlərin nümayəndələrinin daxil olduğu "Müsəlmanlar klubu"nu yaradır. Polşa, Litva, Belarus, Ukrayna tatarları barədə biblioqrafik, tarixi və etnoqrafik materiallar toplayaraq "Biblioqrafiçeskie materialı o tatarax Polşi, Litvı, Belarusii i Ukrainı" adlı tarixi antropologiya çap etdirir. Aslan bəy Litva tatarlarını islam dünyasının bir hissəsi hesab edirdi. Məhz buna görə də 1918-1920-ci illərdə müsəlman ölkələrində cərəyan edən milli azadlıq hərəkatlarını yaxından izləmiş, çox hallarda həmin hərəkatın fəal iştirakçısı

olmuşdu. Aslan bəy Kriçinski 1918-1920-ci illərdə iki müstəqil dövlətin hökumət üzvü seçilmişdi. O, 1918-1919-cu illərdə Krım-tatar Respublikası hökumətinin Baş Nazirinin dəftərxana müdiri vəzifəsində işləmiş,1919-1920-ci illərdə isə Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin İşlər İdarəsinin Dəftərxana direktoru vəzifəsində çalışmışdır.

Arxiv sənədlərindən məlum olur ki, Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 7 may 1919-cu il tarixli iclası Lev (Aslan bəy) Konstantinovic Kriçinskinin Cümhuriyyət Hökumətinin İşlər İdarəsinin dəftərxana direktoru vəzifəsinə təyin olunması barədə qərar qəbul etmiş və Nazirlər Şurası sədrinin 8 may 1919-cu il tarixli 17 nömrəli əmri ilə Cümhuriyyət Hökumətinin İşlər İdarəsinin direktoru vəzifəsinə təyin olunmuşdur.

Arxiv materiallarından üzə çıxan maraqlı faktlardan biri də Aslan bəy Kriçinskinin dövlət vəzifəsində çalışmaqla bərabər elmi axtarışlarla məşğul olması, xüsusi ilə Zaqafqaziyada, o cümlədən Qafqazda yaşayan müsəlman əhalisinə qarşı rusların apardığı irticaçı siyasətin mahiyyətinin açılması üçün mühüm işlər görməsidir. Məlumdur ki, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti yarandığı ilk gündən öz qarşısına qoyduğu mühüm vəzifələrdən biri də Çar Rusiyasının və onların havadarlarının Zaqafqaziyada Azərbaycan xalqına, regionda yaşayan müsəlman əhalisinə qarşı yürütdüyü işğalçı siyasət, törədilən vəhşiliklər, soyqırım hadisələri barədə materialları toplamaq və bu siyasətin gerçək mahiyyətini bütün dünyaya bəyan etmək olmuşdur. Qısa tarixi dövrdə fəaliyyət göstərməsinə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti bu missiyanı şərəflə yerinə yetirmiş, xalqımızın tarixində baş vermiş bir sıra qaranlıq məqamların öyrənilməsində əvəzsiz mənbə olan sənədlərin qorunub bizlərə çatdırılmasında müstəsna rol oynamışdır. Cümhuriyyət Hökuməti dövründə mərkəzləşdirilmiş arxiv təşkil edilməsə də, hazırda arxivlərimizdə saxlanılan həmin dövrə aid sənədlərin araşdırılması zamanı məlum olur ki, Hökumətdə təmsil olunan şəxslər xalqımızın qaranlıq tarixinin işıqlandırılması üçün vacib olan arxiv sənədlərinin toplanılması, onları çap etdirərək geniş ictimaiyyətə, beynəlxalq aləmə çatdırılması istiqamətində mühüm işlər görmüşlər.

Məlumdur ki, Azərbaycan Xalq Cümhuriyyət Hökumətinin 31 avqust 1918-ci il tarixli qərarı ilə Xarici İşlər Nazirliyi yanında yaradılan

Fövqəladə Təhqiqat Komissiyasının fəaliyyətində yaranan və tədqiqat üçün toplanan materiallar həmin dövrdə ölkəmizdə erməni daşnaqları tərəfindən törədilmiş soyqırım aktının, onun acı nəticələrinin öyrənilməsi və dünya ictimaiyyətinə çatdırılmasında, Azərbaycanın haqq səsinin tarixi faktlar və sübutlar əsasında beynəlxalq tribunalardan səsləndirilməsində müstəsna əhəmiyyət kəsb etmişdir. Şübhəsiz, bu tarixi fədakarlıq həmin Hökumətdə təmsil olunan böyük şəxslərin vətən və dövlət sevgisindən doğan bir istək olmuşdur.

Azərbaycan Dövlət Tarix Arxivində mühafizə olunan arxiv sənədləri bizə yuxarıda adı çəkilən fədakar insan, Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin dəftərxana müdiri vəzifəsində çalışmış Aslan bəy Kriçinskinin milli tariximizin qaranlıq səhifəsini əks etdirən sənədlərin toplanılması və öyrənilməsi istiqamətindəki fəaliyyəti barədə ətraflı məlumat almaq imkanı verir. Sənədlərdən məlum olur ki, Aslan bəy 17 sentyabr 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin Xarici İşlər nazirinə məktubla müraciət edir. Həmin məktubda A.Krıçinski yazır ki, Qafqazın Rusiya tərəfindən ilhaqından sonra Zaqafqaziya müsəlmanlarının həyatında baş vermiş qaranlıq hadisələr bu günə qədər öyrənilməmiş və mətbuatda lazımı səviyyədə işıqlandırılmamışdır. Zaqafqaziyanın tərkib hissəsi olan Azərbaycana gəldikdə, Çar Rusiyası bu ərazidə özünün ən məkirli və dağıdıcı siyasətini həyata keçirmişdir. Zaqafqaziya müsəlmanlarına qarşı Rus siyasətinin hərtərəfli öyrənilməsi və çap etdirilməsinin elmi əhəmiyyətindən danışan Aslan bəy qeyd edirdi ki, bu, Azərbaycan türklərinin milli özünüdərkində, öz müqəddəratlarının təyin edilməsində böyük əhəmiyyətə malik olmaqla yanaşı, nəinki Azərbaycanın ictimai dairələrinə, həmçinin Qərbi Avropa və Rusiyanın demokratik qüvvələrinə imperiyanın müsəlman əhalisinə qarşı yürütdüyü dəhşətli siyasətin acı nəticələrinin çatdırılmasını təmin edəcəkdir. A.Kriçinski qeyd olunan məktubda bu məqsədlə Qubernatorların, Quberniya İdarələrinin, Jandarma İdarələrinin, Hərbi əks-kəşfiyyat İdarələrinin, Qafqaz Namestnikinin (canişinin) dəftərxanalarında saxlanılan arxiv sənədlərini tez bir zamanda sistemləşdirərək iş halında formalaşdırmaqla toplanmasını vacib hesab edir və həmin sənədlər əsasında rus hökumətinin müsəlman əhaliyə qarşı yürütdüyü siyasəti barədə müxtəlif mövzular üzrə materiallar toplusunun çap etdirilməsini zəruri sayırdı.

A.Kriçinski məktubunda Xarici İşlər nazirini məlumatlandırır ki, o, Krım Respublikasında işlədiyi dövrdə bu istiqamətdə çalışmış, 2-3 ay ərzində 3 cildlik toplu üçün materiallar toplaya bilmişdir. Azərbaycanda belə bir komissiya yaradılarsa, onun tərkibində məmuniyyətlə iştirak etməyə hazırdır.

Arxiv sənədlərindən məlum olur ki, Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Aslan bəyin bu müraciətinə laqeyd qalmır. Xarici İşlər nazirinin 13 oktyabr 1919-cu il tarixli 59 nömrəli əmri ilə Xarici İşlər Nazirliyi yanında "Zaqafqaziyanın müsəlman əhalisinə qarşı rus siyasətinə dair" arxiv sənədlərinin toplanması məqsədilə Xüsusi Komissiya yaradılır. Komissiyanın sədri Aslan bəy Kriçinski, üzvləri Əli Yusif, Məhəmməd bəy Ağayev və Kərim Sulkeviç təyin edilir. Komissiyanın fəaliyyətinin təşkili üçün xərclərin Nazirliyin xərclər smetası hesabına aparılması müəyyən olunur.

Xüsusi Komissiyanın ilk iclası Aslan bəy Krıçinskinin sədrliyi və üzvlər Əli Yusif, Məhəmməd bəy Ağayev və K.Sulkeviçin iştirakı ilə 14 oktyabr 1919-cu ildə keçirilir. Komissiyanın sədri Aslan bəy komissiya üzvlərini Xarici İşlər Nazirliyinin qeyd olunan əmri ilə tanış edir və ilk iclasda müzakirə olunacaq məsələlər barədə məlumatlandırır. Komissiyanın ilk iclasında aşağıdakı məsələlər ətrafında müzakirələr aparılır: 1) komissiyanın qarşısına qoyulmuş vəzifələr; 2) məsələnin araşdırılması üçün müəyyən olunan müddət; 3) tədqiq və araşdırılmalı olan arxivlər; 4) hər bir arxiv üzrə işlərə (sənədlərə) baxılması qaydaları; 5) tədqiqat işlərinin açıq və ya gizli aparılması; 6) arxiv sənədlərinin surətlərinin çıxarılması və saxlanılması qaydaları; 7) komissiyanın şəxsi heyəti, xərcləri, üzvlərin müvafiq yerlərə getməsi məsələsi; 8) arxivlərdən alınmış materialların istifadəsi və sair.

Xüsusi Komissiya, ilk növbədə, Bakı və Gəncə quberniyalarında yerləşən İdarələrdən Zaqafqaziya müsəlmanlarının maariflənməsinə və mədəniyyətinə qarşı, onların dini zəmində sıxışdırılması, sünni və şiələr, erməni və tatarlar arasında dini və milli zəmində düşmənçiliyin qızışdırılması, müsəlman əhalisinin silahsızlaşdırılması, hərbi mükəlləfiyyət və müsəlmanlara qarşı iqtisadi siyasət və digər məsələlərə dair rus siyasətini özündə əks etdirən sənədlərin toplanılmasını zəruri hesab edir. Komissiya

həmçinin birinci mərhələdə 1900-cu ildən Azərbaycanın müstəqilliyi elan olunduğu dövrə qədər (28 may 1918-ci ilədək) olan materialların, sonrakı mərhələdə isə Qafqazın ruslar tərəfindən ilhaq edildiyi dövrdən başlayaraq sənədlərin toplanılmasını, ilkin mərhələdə sənədlərin toplanması işinin gizli aparılması, bütün arxivlərə baxdıqdan sonra isə müvafiq arayışla əhalinin məlumatlandırılması, mütəmadi olaraq komissiya sədrinin qərarı ilə iclasların çağırılması, xüsusi əhəmiyyətli məlumatlar daşıyan sənədlərin arxivə geri qaytarılmadan xüsusi komissiyada saxlanılması, hər bir sənəddən iki surət çıxartmaqla bir nüsxənin komissiyanın sədri və ya müavinində saxlanılması, toplanmış sənədlərin sistemləşdirilməsi və surətlərinin çıxardılması üçün müəyyən sayda makinaçıların işə cəlb edilməsi və sair məsələlər barədə qərarlar qəbul edir.

Sənədlərdən aydın olur ki, Xüsusi Komissiya Aslan bəy Kriçinskinin rəhbərliyi ilə dərhal fəaliyyətə başlayaraq yuxarıda göstərilən ayrı-ayrı təşkilatlara, Quberniya İdarələrinə, Jandarma Dəftərxanalarına müraciətlər ünvanlamış və həmin təşkilatların arxivlərində saxlanılan sənədlərin alınması üçün tələbnamələr göndərmişdir. Komissiya tərəfindən müvafiq təşkilatlardan siyahı əsasında sənədlərin alınmasını təsdiq edən bildirişlər də arxiv sənədlərinin araşında mühafizə edilir. Maraqlı faktlardan biri də ondan ibarətdir ki, Xüsusi Komissiya qısa müddətdə qeyd olunan təşkilatlardan göstərilən məsələ ilə əlaqəli xeyli sayda material toplamağa nail olur. A.Kriçinskinin bu barədə 4 dekabr 1919-cu ildə Xarici İşlər nazirinə ünvanladığı məktubunda deyilir ki, artıq Bakıda yerləşən arxivlərdən toplanmış materialların sistemləşdirilməsinə başlanılıb, Gəncə Quberniyasında yerləşən təşkilatların arxivlərində tədqiqat aparılmasına zərurət yaranmışdır və bu məqsəd üçün əlavə vəsaitə ehtiyac vardır. Digər maraqlı məqamlardan biri də ondan ibarətdir ki, Xüsusi Komissiya onun fəaliyyəti üçün ayrılmış vəsaitin hansı işlərə xərclənməsi, hansı təşkilatların məxfi sənədlərindən surətlərin çıxardılması, komissiyanın fəaliyyətində iştirak edən şəxslərin mükafatlandırılmasına nə qədər vəsait sərf edilməsi haqqında Xarici İşlər Nazirliyinə mütəmadi olaraq sənədləri təqdim edir. Hətta bu işdə onlara kömək edən şəxslərin siyahıları və ödənilən məbləğlər barədə arxiv materialları arasında sənədlər saxlanılır.

Sənədlərdən aydın olur ki, Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Xüsusi Komissiyanın fəaliyyətini daimi diqqətdə saxlamışdır. Belə ki, Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Sədrinin Gəncə Qubernatoruna ünvanlandığı 20 dekabr 1919-cu il tarixli 8075 nömrəli məktubunda Hökumətin İşlər İdarəsi dəftərxanasının direktoru, Xarici İşlər Nazirliyi yanında Zaqafqaziya müsəlmanlarına qarşı rus siyasətinə dair materialların toplanması üzrə komissiyanın sədri Aslan bəy Kriçinski və Daxili İşlər nazirinin katibi və həmin komissiyanın üzvü Məmməd bəy Ağayevin Quberniya arxivlərində saxlanılan inqilaba qədərki, dövrə aid sənədlərin aşkar edilməsi üçün ezam olunduqları bildirilir və tələb olunan işlərin onların sərəncamına verilməsi, həmçinin qarşıya qoyulmuş vəzifənin icrasında onlara kömək göstərilməsi xahiş edilir. Bu məzmunda digər bir məktub Bakı şəhər Komendantı general-mayor F.B.Vəzirova ünvanlanır. Hökumət tərəfindən Komissiyanın fəaliyyətinin daimi olaraq nəzarətdə saxlanılması, onlara zəruri hallarda köməklik göstərilməsi Komissiya üzvlərini işə daha fədakarcasına yanaşmağa sövq etmişdir.

Xüsusi Komissiyanın sədri 12 yanvar 1920-ci il tarixdə Xarici İşlər Nazirliyinə ünvanladığı məktubunda göstərir ki, Komissiya Zaqafqaziya müsəlmanlarına qarşı rus siyasətinə dair 4 cild həcmində arxiv materialları toplamış və doqquz bölmə üzrə sistemləşdirərək çap üçün hazırlamışdır. Məktubda sənədlərin Bakı və Gəncə quberniyalarının ərazisində yerləşən idarələrin arxivlərindən toplanıldığı və bu mövzular üzrə qruplaşdırıldığı bildirilir: 1) milli hərəkata qarşı mübarizə; 2) maariflənmə və mədəniyyətə qarşı mübarizə; 3) dini sıxışdırma; 4) milli münaqişələrin yaradılması; 5) immiqrasiya; 6) müstəmləkələşdirmə; 7) hərbi mükəlləfiyyət; 8) əhalinin müflisləşdirilməsi üzrə iqtisadi siyasət; 9) inzibati-polis qəyyumluğu.

Aslan bəy məktubunda bu materialların Hökumət mətbəəsində çapına razılıq verilməsini xahiş etmişdir. O, həmçinin Quberniya arxivlərində arxeologiya və hüquq sahələrinə aid qiymətli çap materiallarının (kitablar) aşkar edildiyi, Bakı quberniya idarəsinin arxivində Petroqrad hərbi-tarix muzeyinə aparmaq üçün 1914-cü ildə rus hökuməti komissiyası tərəfindən yığılmış kitabların məhv olmaq təhlükəsindən xilas edilərək Ədliyyə Nazirliyinin kitabxanasına siyahı üzrə təhvil verildiyi, arxivlərdə

sənədlərin olduqca pis vəziyyətdə saxlanılması barədə Nazirliyi məlumatlandırmışdır.

Arxiv sənədlərinin araşdırılması zamanı üzə çıxan maraqlı məqamlardan biri də ondan ibarətdir ki, Komissiya yalnız müəyyən olunmuş mövzu üzrə materialların toplanması ilə kifayətlənməmiş, həmçinin Azərbaycan xalqının tarixi keçmişi ilə bağlı olan maddi-mədəniyyət nümunələrinin siyahıya alınması, onların öyrənilməsi və bərpası istiqamətində fəaliyyət göstərməyi də vacib hesab etmişdir. Komissiyanın üzvü Məhəmməd bəy Ağayevin 24 yanvar 1920-ci ildə Daxili İşlər Nazirinə ünvanladığı məktub bu faktı bir daha təsdiq edir. O, məktubunda qeyd edir ki, nazirliyin işinə sadiq məmurlarından xahiş edilsin ki, Azərbaycanın quberniya və qəzalarında mövcud olan keçmiş abidələr, xan sarayları, dağıdılmış şəhərlərin qalıqları, qədim qəbirlər, qəbirüstü yazılı abidələr, məscidlər, kilsələr, monastrlar, məbədlər barədə məlumatlar toplanılsın, siyahıda onların yerləşdiyi ərazi adları, abidənin el dilində adı, saxlanıldığı vəziyyət barədə məlumatlar verilməklə Komissiyaya təqdim edilsin. Məhəmməd bəy Ağayev Xalq Maarifi Nazirliyi yanında arxeologiya şöbəsinin yaradılmasını Azərbaycan Respublikasının mədəni və tarixi həyatında böyük addım olduğunu bildirir. O, məktubunda göstərir ki, hazırda o xalqlar müstəqillik və azadlıq hüququnu qazanır ki, onlar tarixi sənədləri və mədəni fəaliyyətləri ilə bunu sübut edə bilsin. Biz nə ilə bunu sübut etməliyik, bizdə bunu sübut edə biləcək tarixi sənədlər varmı sualına cavab verən müəllif deyir: Bizim tariximizin, arxeoloji materiallarımızın zənginliyi bunu sübut etməyə imkan verəcəkdir. Arxeoloji baxımdan tarixçilərin apardığı dövrləşmələr üzrə (daş, tunc, dəmir dövrü) ölkəmizin tarixini öyrənsək görərik ki, bizim vətənimiz insan sivilizasiyasının mədəni mərkəzlərindən biri olmuşdur. Bu ərazidən dünyanın böyük xalqları hərəkət edib, burada qüdrətli dövlətlər qurulub, dəhşətli döyüşlər baş verib, nəhayət bu ərazidə mədəni Avropa döyüşkən Asiya ilə üzləşib. Hələ xristianlıqdan əvvəl qədim yunan alimləri Herodot, Strabon, Hipokrat və digərləri bütün bu hadisələrin tariximizdə iz qoyduğunu yazmış, burada yaşayan əhalinin qüdrəti və ərazinin zənginliyindən bəhs etmişlər. Məhəmməd bəy Ağayev məktubunda aşkar edilmiş maddi-mədəniyyət nümunələrinin qorunması məsələsinə toxunmuş, həmin materilalların öyrənildikdən sonra Milli

muzeyə (İstiqlal muzeyi nəzərdə tutulur) təhvil verilməsini, yazılı materialların saxlanlması üçün isə Maarif Nazirliyinin yanında arxeologiya şöbəsində kitabxananın yaradılmasını vacib hesab etmişdir. Bütün bunlar bir daha sübut edir ki, xüsusi komissiyanın tərkibində çalışan şəxslərin hər biri vətən tarixinin mükəmməl biliciləri olmuş və tariximizin qorunması, gələcək nəsillərə ötürülməsi üçün bütün imkanlardan istifadə etməyə çalışmışlar.

Xüsusi komissiyanın 1919-1920-ci illərdəki fəaliyyətini sənədlər əsasında araşdırarkən məlum olur ki, Aslan bəy Kriçinskinin xahişi ilə Cümhuriyyət Hökuməti Xüsusi Komissiyanın topladığı materialların nəşrini hökumət mətbəəsinin baş çapçısı Əli Həsən Kazımova etibar etmiş və ona bu məqsədlə Xalq Maarifi Nazirliyindən zəruri sayda çap kağızının alınmasına icazə vermişdir.

Xüsusi Komissiya sədrinin 24 mart 1920-ci il tarixli məktubunda isə Zaqafqaziya müsəlmanlarına qarşı rus siyasətinə dair toplanmış materiallar əsasında qısa müddətdə (cəmi altı ay) "Oçerki russkoy politiki na okrainax" adlı iki toplunun çap olunduğu və digər iki toplunun çap edilməsi üçün materialların sistemləşdirilərək hazırlandığı bildirmişdir. (Sənədlərdən aydın olur ki, A.Kriçinski Bakıda çap etdirdiyi bu iki topludan başqa, eyni adda toplunu Krım-Tatar Respublikası hökumətində çalışdığı dövrdə toplanmış materiallar əsasında Simferapolda da çap etdirmişdir). Aslan bəy həmin kitabların ilkin qiyməti 125 rubl olmaqla satışa buraxılmasına razılıq istəyir və qeyd edir ki, bununla da sənədlərin toplanması zamanı Nazirliyin büdcəsindən xərclənmiş vəsaitin geri qaytarılması mümkün olacaqdır.

Xüsusi Komissiyanın Xarici İşlər Nazirliyinin İnformasiya şöbəsinə ünvanladığı 1920-ci il 30 mart tarixli daha bir məktubunda isə A.Kriçinski 163 ədəd kitabın Komissiya tərəfindən alındığını, digər nüsxələrin hökumətin "Azərbaycan" nəşriyyatı tərəfindən Nazirliyin İnformasiya şöbəsinə təhvil veriləcəyini və kitabların satışı və paylanması ilə həmin şöbənin məşğul olacağını bildirir. Xüsusi Komissiya onlara verilmiş kitabların təmənnasız olaraq Parlament fraksiyalarının rəhbərlərinə, Parlamentin sədrinə, nazirlərə, diplomatik korpusların rəhbərlərinə paylanılmasını təsdiq edən sənədi Xarici İşlər Nazirliyinə təqdim edir.

Arxiv sənədlərindən məlum olur ki, Xüsusi Komissiya Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin süqut etdiyi son günə kimi fəaliyyət

göstərmişdir. Komissiya sədrinin 1920-ci ilin aprel ayının son günlərində (tarix göstərilmir) Xarici İşlər Nazirliyinə ünvanladığı məktubunda Bakı və Gəncə quberniyalarında yerləşən arxivlərin vəziyyəti bir daha şərh edilir, arxivlərdə sənədlərin bərbad vəziyyətdə saxlanıldığı bildirilir, buna baxmayaraq, komissiya üzvlərinin əməyi ilə arxivlərdəki bütün işlərə baxıldığı, onların sistemləşdirildiyi və zəruri məlumatların surətləri çıxardılaraq çapa hazırlanması barədə məlumat verilmişdir. O, həmçinin Tiflis quberniyasında yerləşən arxivlərdə saxlanılan Azərbaycanla bağlı sənədlərin gətirilməsi üçün Gürcüstan Hökumətinə müraciəti vacib hesab etmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin Xarici İşlər Nazirliyi yanında yaradılan Xüsusi Komissiyanın üzvlərinin fədakar əməyi nəticəsində Bakı və Gəncə quberniya arxivlərindən toplanılan materiallar hazırda Azərbaycan Respublikası Dövlət Tarix Arxivində xüsusi diqqətlə qorunur. Həmin sənədlərin arasında 1863-1920-ci illərdə Azərbaycanda mövcud olan ictimai-siyasi vəziyyətlə bağlı Quberniya idarəetmə orqanlarında çalışan müxtəlif çinli çar məmurların hesabatları, raportları, onların konspirativ fəaliyyətlərini əks etdirən məxfi sənədlərin surətləri saxlanılır.

Sənədlərin arasında XX əsrin əvvəllərində Azərbaycanda fəaliyyət göstərmiş "Difai" partiyasının Bakı, Gəncə quberniylarında, Qarabağda, Şuşa, Cəbrayıl və digər qəzalarda fəaliyyəti barədə tam məxfi qriflə aparılmış yazışmalar, həmin partiya üzvlərinin fəaliyyətinin gizli olaraq izlənilməsini təsdiq edən sənədlər, müsəlman cəmiyyəti arasında nüfuza malik şəxslərin müəyyən edilməsi, onların fəaliyyətlərinin izlənilməsi və təqibi, aparılan axtarışlar barədə protokollar, əyalətlərdə yaşayan əhaliyə qarşı çar məmurlarının soyğunçuluq hərəkətləri, Təbrizdəki Səttar xan hərəkatına dəstək olan insanların təqib olunması, sərhəd keçidlərində baş verən haqsızlıqlar, əhalinin silahsızlaşdırılması, Bakı Jandarma İdarəsi rəisinin Bakı və Dağıstan vilayətlərindəki iqtisadi, siyasi vəziyyətlə bağlı hesabatları və dövrün hadisələrini əks etdirən digər sənədlər saxlanılır. Şübhəsiz ki, həmin sənədlərdəki məlumatların tam araşdırılması bu gün üçün də aktualdır. Bu materialların elmi-tədqiqat məqsədilə alimlərimiz tərəfindən hərtərəfli öyrənilməsi elmi dövriyyəyə yeni faktlar gətirə bilər.

XX əsrdə Şərqin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının siyahısına daxil olan Kriçinski qardaşlarının taleyi faciəli sonluqla bitmişdir. Cümhuriyyət Hökumətinin süqutundan sonra Olqerd və Aslan Kriçinski qardaşları ölkəni tərk edərək İstanbula, oradan da Polşaya köçmüşlər. Aslan bəy Kriçinski bir müddət Polşa məhkəmə-hüquq sistemində çalışmış, ictimai-siyasi fəaliyyətlə məşğul olmuş, eyni zamanda müsəlman xalqlarının keçmişinin öyrənilməsi sahəsində öz elmi fəaliyyətini davam etdirmişdir. İkinci dünya müharibəsinin ilk illərində alman faşistləri tərəfindən Polşa işğal olunduqdan sonra Aslan bəy Kriçinski alman gestaposu tərəfindən həbs edilmiş, 1939-cu ildə güllələnmişdir.

Nəsib bəy Yusifbəyovun Hökumətində Azərbaycan Xalq Cümhuriyyətinin Ədliyyə nazirinin köməkçisi işləmiş Olqerd Kriçinskinin taleyi isə daha acınacaqlı olur. Litva Xüsusi Arxivində saxlanılan O.Kriçinski barədə istintaq materiallarını araşdırmış görkəmli tatar alimi, tarix elmləri doktoru Dilara Usmanovanın tədqiqatlarından aydın olur ki, Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ərəfəsində Xəlil bəy Xasməmmədovla birlikdə Tiflisdə keçirilən konfransda iştirak edən O.Kriçinski Hökumətin süqutu xəbərini eşitdikdən sonra Tiflisdən bir başa İstanbula getmiş, oradan isə 1920-ci ilin sonunda Polşaya köçərək həmin ölkənin vətəndaşlığını qəbul etmişdir. O, Polşa Respublikasının məhkəmə sistemində çalışmış, ictimai fəaliyyətlə məşğul olmuşdur. 1939-cu ildə Polşa Respublikasının süqutundan sonra Litvaya köçmüş və bir çox polyak kimi Litva vətəndaşlığını qəbul etmişdir. 1941-ci ilin fevralın 13-də sovet NKVD orqanları tərəfindən həbs olunmuşdur. İstintaq materiallardan məlum olur ki, müstəntiq ona Bakıdakı fəaliyyəti ilə bağlı daha çox suallar vermişdir. Onun istintaq orqanlarına verdiyi ifadələrdən aydın olur ki, Olqerd Kriçinski iki ay Bakı Məhkəmə Palatasında Prokuror işləmiş, daha sonra Cümhuriyyət Hökuməti Ədliyyə nazirinin köməkçisi olmuş, 1920-ci ildə Tiflisdə keçirilən üç ölkənin (Azərbaycan, Gürcüstan və Ermənistan) nümayəndələrinin konfransında Azərbaycan Hökumətinin nümayəndəsi kimi iştirak etmişdir. Müstəntiqin bu konfransda hansı məsələlərə baxılması barədə sualına cavabında o bildirir ki, həmin konfransda Azərbaycan - Gürcüstan və Gürcüstan – Ermənistan dövlətləri arasında mübahisəli torpaq məsələsi və

Qafqaz konfederasiyasının yaradılması məsələlərinə baxılmış, lakin Azərbaycanda baş verən inqilab və milli hökumətin süqutu bu məsələlər barədə yekun qərar qəbul etməyə imkan verməmişdir. Bakıda məhkəmə palatasında işlədiyi dövrdə kommunist və inqilabçı fəhlələrin işinə baxması ilə bağlı sualına isə o, fəaliyyəti dövründə bu tərkibli işlərə baxmadığını bildirmişdi. Bundan başqa müstəntiq ondan Azərbaycanın görkəmli ictimai siyasi xadimi olmuş Xəlil bəy Xasməmmədovla, Krım-tatarlarının lideri Cəfər Saydamit, Əfqanıstan xanı Əmənullah və digər siyasi xadimlərlə əlaqələri, sovet ittifaqına qarşı əks-inqilabi fəaliyyəti haqqında ifadələr almağa çalışmışdır. O.Kriçinski ona qarşı irəli sürülən bütün ittihamları rədd etsə də, SSRİ Xalq Daxili İşlər Komissarlığının (NKVD-nin) repressiya caynağından xilas ola bilməmişdir. Ona 2 may 1942-ci ildə XDİK-nın qərarı ilə ölüm hökmü verilmiş və bir aydan sonra qərar icra olunmuşdur**.**

Əzablı, əzablı olduğu qədər də şərəfli həyat yolu keçən Kriçinski qardaşları ömürlərinin sonlarına qədər müqəddəs ideyalara sadiq qalaraq Azərbaycanın və mənsub olduqları Litva tatarlarının şöhrətini əzmlə qorumuş və hər iki xalqın xatirələrində əbədi yer qazanmışlar**.**

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ƏN GƏNC MÜHACİRİ CEYHUN HACIBƏYLİ

XX əsrin əvvəllərində mühacir həyatı yaşamağa məcbur olmuş həmvətənlərimizin taleyi məni həmişə düşündürüb. Bolşevik çevrilişindən sonra həmin insanların taleyi ilə keçən əsrin 30-cu illərində repressiyalara məruz qalmış insanlar arasında fərqi ayırd etmək istədim. Birincilərin vətən həsrəti ilə mühacirətdə keçirdiyi ağır, əzablı günlər, digərlərinin isə öz vətənində vətənsizlik dövrünü yaşadıqları "həyat"... Bir qismi mənəvi əziyyətlər məngənəsində, o biri qismi isə cismani işgəncələr altında dünyasını dəyişib.

Salman Mümtaz adına Dövlət Ədəbiyyat və İncəsənət Arxivində qorunub saxlanan sənədlər üzərində işləyərkən ilk diqqətimi çəkən jurnalist, publisist, tarixçi, politolaq, ictimai xadim, 28 yaşından etibarən Fransada mühacir həyatı yaşamağa məcbur qalmış Ceyhun bəy Hacıbəylinin şəxsi sənədləri oldu.

1990-cı illərin əvvəllərində YUNESKO-nun səlahiyyətli nümayəndəsi olmuş vətənpərvər ziyalımız Ramiz Abutalıbov bir çox mühacirlərlə yanaşı, Ceyhun Hacıbəylinin də şəxsi sənədlərini Fransadan vətənə gətirməkdə əvəzsiz xidmətlər göstərmişdir. O, bu missiyanı üzərinə götürməklə nəinki Ceyhun bəy Hacıbəylinin, eyni zamanda mühacirət həyatı keçirmiş bir çox şəxslərə aid olan sənədləri də ölkəmizə gətirməyə müvəffəq olmuşdur. Əlbəttə, Ramiz müəllimə bu sənədləri əldə etmək heç də asan başa gəlməmişdi. Çünki həmin sənədlərin varisləri və yaxud özləri ilə əlaqə yaratmaq o dövrdə çətin, həm də qorxulu addım idi. Bu barədə Ramiz müəllim müsahibələrinin birində həmin günləri belə xatırlayır: *"Arxivlərin bura gətirilməsində heç bir problem yox idi. Çünki mənim diplomatik pasportum var idi. Gələndə də, gedəndə də yoxlanılmırdım. Amma onlarla görüşmək təhlükəli idi. Mən də çalışırdım ki, bunu gizlədim. Amma bir dəfə kiçik bir hadisə oldu: Bakıya məzuniyyətə gələndə köhnə iş yerim olan Mərkəzi Komitəyə getdim. Orada "KQB"nin sədri Ziya Yusifzadə qarşıma çıxdı və mənə dedi ki, səndən yazırlar, ehtiyatlı ol. Bu da*

*Parisdə bayaq dediyim beş kitabımın (Qarabağa, ümumiyyətlə Azərbaycana aid kitablar nəzərdə tutulur –A.K.) yazılması ilə bağlı olub. Yəqin bundan xəbər tutub. Amma biz həmin kitabları gizli buraxırdıq və başqa imza qoyurduq. Öz səfirliyimizə də göndərirdik ki, guya bunlar haradansa gəlib. Amma görünür haradansa informasiya sızdırılmışdı. Səfirlikdən MK-ya mənim haqqımda məlumat vermişdilər ki, o özünə aid olmayan işlərlə məşğuldur. Ziya Yusifzadə bu haqda çox danışmadı. Amma, təbii ki, müəyyən qorxu var idi. Bu daxili qorxu idi".* ("Modern.Az 04.06.2015)

"Azərbaycan dilinin izahlı lüğəti" kitabında "mühacirət" sözü "siyasi, iqtisadi, dini səbəbdən məcburi və könüllü olaraq öz vətənini tərk edib başqa ölkəyə köçmə" kimi izah edilir. Keçən əsrdə MDB-nin bir çox respublikalarının nümayəndələri kimi, Azərbaycan xalqının da düşünən beyinləri mühacirət həyatı yaşamaq məcburiyyətində qalmışlar. Bu da səbəbsiz deyildi.

XX əsrin əvvəllərində "sapı özümüzdən olan baltalar"ın xəyanəti nəticəsində qanuni hökumət bolşeviklərin əlinə keçir və nəticədə günahsız insanlara qarşı repressiya başlanır. Keçən əsrin 20-ci illərin əvvəllərindən başlanan və 30-cu illərin sonuna qədər davam edən bu repressiya onminlərlə insanın məhvinə səbəb olur. Həmin hadisələrdən sonra bir çox müttəfiq respublikalar kimi Azərbaycanda da mühacirət durmadan artmağa başlayır. Azərbaycan Xalq Cümhuriyyəti zamanı məsul vəzifələrdə çalışmış, "Müsavat" partiyasının fəal üzvi olmuş insanlar bolşeviklər tərəfindən müxtəlif üsullarla məhv edilirdilər. Hökumətin xarici dövlətlərdə nümayəndəsi olmuş bir sıra insanlar hadisələrin gedişatını öncədən görmüş və bir daha Azərbaycana dönməməyi üstün tutmuşdular. Geri qayıdanlar isə Rusiyanın şaxtalı yerlərində ağır işgəncələrə məruz qalmış və yaxud da "vətən xaini" adı ilə güllələnmişdilər. Həmin mühacirlərdən biri də 1919-cu ilin yanvar ayında Azərbaycan Xalq Cümhuriyyətinin bir qrup nümayəndələri ilə birgə Versal Sülh konfransında iştirak etmək üçün Fransaya yola düşmüş, lakin məlum hadisələrdən sonra məsləkdaşları ilə bir daha vətənə qayıda bilməyən, ömrünün sonuna qədər orada mühacirət

həyatı yaşamağa məcbur edilən Ceyhun bəy Əbdülhüseyn oğlu Hacıbəylidir.

Mühacirət ədəbiyyatımızın, tariximizin, publisistikamızın inkişafı və təbliğində müstəsna xidmətləri olan C.Hacıbəyli 1891-ci il fevral ayının 3-də Şuşa şəhərində anadan olmuşdur. Ceyhun bəy ilk təhsilini doğulduğu Şuşada yerləşən rus-tatar məktəbində almış, sonradan onu Bakıda davam etdirmişdir. Qeyd edək ki, Üzeyir bəyin məşhur "Leyli və Məcnun" operasının yaranmasında 17 yaşlı Ceyhun bəyin də yaxından köməyi olmuşdur. Bu Ceyhun bəyin şəxsi sənədləri arasında saxlanılan "İlk Azərbaycan operası necə yaranmışdı" xatirə yazısında öz əksini tapmışdı. O, xatirədə Üzeyir bəy tərəfindən yazılan "Leyli və Məcnun" operasının yaranmasında ona yaxındanköməklik etdiyini göstərir. Həmin köməklik, yəqin ki, bəstəkara texniki işlərdə, yəni aktyorların tapılmasında, geyimlərinin seçilməsində tamaşanın yerinin müəyyənləşdirilməsində və s. xidmətlər idi.

Xatirə yazıda 12 yanvar 1908-ci ildə göstərilən həmin tamaşada ilk dəfə Ceyhun bəy İbn Səlam və eyni zamanda Nofəl rolunda səhnəyə çıxdığını da bildirir. Təəssüflə qeyd edək ki, Ceyhun bəyin bu bitməmiş xatirə yazısına istinad edənlər Üzeyir bəyin "Leyli və Məcnun"u kiçik qardaşı ilə müştərək yazdığını iddia edir. Həmin iddiaya əsasən soruşurlar ki, niyə sovet dövrünə qədər əsərin müəlliflərindən biri Ceyhun bəy olduğu halıda, sovet dönəmində onun adı müəllif kimi silinib? Haqlı sualdır.

Bu sualın cavabına ilk öncə Üzeyir Hacıbəyov adına ev-muzeyinin direktoru, əməkdar incəsənət xadimi, bəstəkar Sərdar Fərəcovun 27 mart 2002-ci il tarixdə "Xalq qəzeti"ndə çap etdirdiyi məqaləyə nəzər yetirək: Həmin məqalədə Ramazan Xəlilov (Ü.Hacıbəylini yaxşı tanıyan, bəstəkarın böyük baldızının oğlu, onun ev-muzeyinin direktoru olmuş, əməkdar mədəniyyət işçisi, jurnalist, 97 yaşında dünyasını dəyişib – A.K.) xatirələrində qeyd edirdi ki, Üzeyir bəy Hacıbəyov Moskvada, Peterburqda təhsil alarkən Bakıda və başqa şəhərlərdə oynanılan tamaşalarından qonorarları almaq üçün M.Maqomayevi (bəstəkarın bacanağı – A.K.) öz vəkili, C.Hacıbəylini isə həm müəllif

kimi qeyd etdirmişdir ki, onlar həmin məbləği ona və ailə üzvlərinə çatdırsınlar.

Bu sualın cavabı “Kaspi” qəzetinin 9 yanvar 1908-ci ilin 7-ci sayında dərc edilən “Müsəlman həyatı mətbuatda” adlı bir yazıda da öz əksini tapıb: *“Eşitdiyimizə görə “Nicat” Müsəlman-Maarif cəmiyyətinin dram heyəti tatar (müsəlman-A.K.) dilində ən yaxşı dram və opera əsərləri üçün müsabiqə elan edir. Cəmiyyət bu günlərdə gənc publisist və musiqiçi Ü.Hacıbəyovun tərtib etdiyi “Leyli və Məcnun” operasının nəşri və quruluş haqqını almışdır. Bu müsəlman həyatında ilk operadır, özü də ayın 12-də Tağıyev teatrında oynanacaqdır. Çox maraqlı tamaşa olması gözlənilir. Məşhur türk yazıçısı və şairi Molla Məhəmməd Füzulinin “Leyli və Məcnun” fantastik poeması indiyə qədər istifadə olunmamış mövzu olaraq qalırdı. Gənc kompozitor Füzulinin şeirlərindən istifadə edərək bu mövzuda opera yazmışdı. Operada Şərq motivlərindən zövqlə istifadə edilmişdi. “Nicat” artıq opera artislərindən truppa təşkil etmiş və müəllifin rəhbərliyi altında tamaşa hazırlanır. Operaya böyük xərc sərf edilmişdir. Ümid edək ki, musiqini hərarətlə sevən müsəlman publikası ilk dəfə tatar (müsəlman– A.K.) dilində yazılmış operanı diqqətdən kənar qoymayacaq”.*

Yazıda həmçinin operanın süjeti ətraflı izah edilir. Göründüyü kimi, elanda yalnız Üzeyir bəyin adı çəkilməkdən əlavə, həm də “gənc kompozitor” (kompozitorlar yox), “müəllifin” (müəlliflərin yox) rəhbərliyi altında ifadələri operanın bir nəfər tərəfindən yazıldığını bir daha sübut edir. Belə bir məqamı da oxucuların nəzərinə çatdırmaq istərdik ki, Ceyhun bəyin musiqi istedadı olsa da, bu sahədə təhsili yox idi, təbiidir ki, notu da bilməzdi. Bəstəkar üçün də ən vacib məsələlərdən biri də əsəri nota köçürməkdir. Əks təqdirdə, belə bir əsəri hafizədə saxlamaq və bir-bir tamaşada iştirak edən ifaçılara izah etmək insan qüvvəsi xaricindədir. Ən nəhayət, bir məsələni də göstərmək lazımdır ki, 1908-ci ildən ömrünün sonuna - 1962-ci ilə qədər Ceyhun bəy bir musiqi bəstəkarı kimi də özünü göstərməmişdir. Əgər Ceyhun bəyin bəstəkarlıq qabiliyyəti olsaydı, yəqin ki, bir musiqi bəstələməklə bu sahədəki istedadını biruzə verə bilərdi. Qeyd edim ki, biz bunu deməklə Ceyhun bəyin Azərbaycan xalqı qarşısında gördüyü

əvəzsiz xidmətlərinin üzərinə heç də kölgə salmaq fikrində deyilik. Onu da xatırladaq ki, Ceyhun bəy bir müddət Parisdə musiqi təhsili almağa çalışmış, lakin pulu olmadığından oranı tərk etməyə məcbur olmuşdur.

Bəs hansı səbəbdən sonralar Üzeyir bəy Ceyhun bəyi operaya həmmüəllif kimi daxil etmişdi? Bizə elə gəlir ki, Üzeyir bəy Peterburqda təhsil alarkən və yaxud Bakıda olmayan ərəfədə ailəsinin dolanışı üçün Ceyhun bəyi həmmüəllif etmək qərarına gəlir. Heç kimə sirr deyil ki, Üzeyir bəyin qardaşı, bacıları, bacısı uşaqları ağır həyat tərzi keçirirdilər. Ceyhun bəyin 1912-ci ilin oktyabr ayında Üzeyir bəyə yazdığı məktub fikrimizi bir daha təsdiq edir: *"Quran haqqı, borclular məni daha lap əldən salıbdırlar. 30 manat "Kaspi"dən avans almışdım, o da getdi. Zuryanın məvacibinin həpsi də getdi. Amma genə də düzələ bilmir. Mən Zuryadan utanıram. Yazığın vallahi geyməyə paltarı yoxdur, yatmağa təxti yox (divan üstə yatırıq), amma külfət üçün pul verməyə məcbur olur. İndi ayın biri olan kimi çörəkçi bir yandan qəssab, bir yandan suçu, nefitçi (15 manat 5 qəpik), dükançı, ələlxüsus ev yiyəsi, çox ofisalni adam gəlib həman saət cibindən kitabçanı çıxarır "çtobı predupredit vozmojnost otstroçki", "pryamu" utanıb yerə girirəm. Evdə də uşaqların əgni-başı tökülüb. Aişə paltosuz və çəkməsiz gəzir. Məhbub naxoş, Səyad naxoş – pis halət, gərək pul ola ki, bunların hamısı düzələ."*(Ü.Hacıbəyli muzeyi, DK-7396)

Üzeyir bəyin böyük bacısı Səyyad xanımın oğlu Camalın (jurnalist, 1923-cü ildə "Leyli və Məcnun" operasında Məcnunun atası rolunda oynamışdı) 21 fevral 1913-cü ildə dayısına yazdığı məktubdan: *"Dünən Müslüm "Nicat"dan 150 manat alıb, genə 25 manat qalıb. O bundan mənə 75 manat verdi və dedi qalanını sizə göndərəcək. O 25 manat da deyir Pənah mənə kağız yazıb pulum yoxdu versin. Müslüm istəyir alıb ona versin. Mən o puldan 10 manat nöütçiyə verdim, qaldı 13 manat 80 qəpik. 10 manat çörəkçiyə verdim qaldı 10 manat. 6 manat nötçiyə verdim, qaldı 3 manat. Suçuya da qalıb 8 manat. Qalan 40 manata mən istəyirəm xalını alım. Qalsın qızıllar. Qalır böylə borclarımız: Dükanıçı — 42 manat. Köhnə borc çıxın. Burda olandan — 22 manat 40 qəpik. Nötçü —13 manat 80 qəpik.*

*Suçu — 8 manat. Çörəkçi — 10 manat. Südçi — 3 manat. Lambard-daki qızıllar da — 35 manat. Cəmi 156 manat 20 qəpik.*

*O da sizə məlum olsun ki, 22 manatdan başqa bu borclar iki ayın ərzində 16 baş külfətə sərf olunub."* (Ü.Hacıbəyli ev-muzeyi, DK-7456).

Onu da unutmaq lazım deyil ki, Ceyhun bəyin musiqi istedadı olsa da, maddi çətinliklər ona bu sahədə yaradıcılıq imkanları yaratmırdı. Ceyhun bəy 1912-ci ildə Moskvada təhsil alan qardaşı Üzeyir bəyə yazdığı məktubda həmin hadisəni belə xatırladır: *"Fikrimə gəldi ki, gedim Hacı Zeynalabdinin yanına. Çünki borclular vaxt gələn kimi yenə məni qısnayırdılar. Bədgunə getdim. Hacı məni çox mehriban qəbul etdi və səni də soruşdu. Dedim Moskvada konservatoriyada oxuyur. Dedi ki, çox yaxşı olub bizim musiqiyə çox ehtiyacatımız var. Dedim ki, mən də Parijdə musiqi oxuyurdum, lakin pulum olmadı, qayıdıb gəldim. Dedi ki, musiqi çox yaxşı şeydir və məni musiqi oxumaq üçün Parijə getməyin tövsiyə elədi və dedi ki, mən Həsən ağaya deyərəm sənə müəyyən məvacib verərlər ki, sən Parijdə dolana biləsən. Mən çox məmnun olub evə qayıtdım."* (Ü.Hacıbəyli ev-muzeyi, DK-7396)

Lakin Ceyhun bəy hansı səbəbdənsə pulu ala bilmədiyi üçün musiqi təhsilini davam etdirə bilmir. Məhz bundan sonra o bədii və publisistik yaradıcılıqla məşğul olmağı üstün tutur. Təsadüfi deyil ki, 1909-cu ildə Turgenevin "Pulsuzluq" komediyası Azərbaycan oxucusuna ilk dəfə məhz Ceyhun bəyin tərcüməsindən tanışdır. C.Hacıbəyli həmin illərdə bir sıra məqalələrini məhz klassiklərimizin və həmmüasirlərinin yaradıcılığına həsr edir. M.F.Axundov, Nəbati, M.Ə.Sabir, H.B.Zərdabi, Ə.Haqverdiyev və bir coxlarının yaradıcılığı həmişə C.Hacıbəylinin marağına səbəb olmaqla yanaşı, o, qonşu türkdilli xalqların ədəbi nümayəndələrinə də müraciət edirdi.

Ceyhun bəyin istedadını görən məşhur milyonçu Murtuza Muxtarov öz vəsaiti hesabına onu Peterburq Universitetinə oxumağa göndərir. Ceyhun bəy həmin universitetin hüquq fakültəsinə qəbul imtahanlarını müvəffəqiyyətlə verir və yüksək göstəricilərlə daxil olur. Bir il oxuduqdan sonra Fransaya gedir və Parisin məşhur Sarbon-

na universitetində siyasi biliklər fakültəsində təhsilini davam etdirir. Ceyhun bəy burada təhsillə yanaşı, jurnalislik fəaliyyətini də davam etdirir. Bu fəaliyyətinin nəticəsi idi ki, Ceyhun bəyin Parisdən yazıb göndərdiyi məqalələr "Baku", "Kaspi" qəzetlərində dərc olunurdu. Təhsilini başa vurduqdan sonra Bakıya qayıdan C.Hacıbəyli əsasən mühərriliklə məşğul olmuşdu.

Çeyhun bəy 1912-ci ildə qubalı Hacıqasımovın qızı Zöhrə xanımla ailə həyatı qurur. Toyunda Cabbar Qaryağdıoğlu öz dəstəsi ilə iştirak edir. Böyük xanəndəni tarda Qurban Pirimov və kamançada Saşa Oqenazaşvili müşaiyət ediblər. Ceyhun bəyin bacısı oğlu Camal Üzeyir bəyə göndərdiyi məktubda yazır: *"Bu günlərdə Ceyhun dayıma bir toy kimi qayırdıq, Bədəl* (Bədəlbəyli nəzərdə tutulur. O, Əfrasiyab və Şəmsinin atası, Üzeyir bəyin isə xalası oğludur – A.K.) *əmigildə. Çox gözəl keçdi... Cabbar, Qurban və Saşa gəldilər çıxdılar və müftə çaldılar, ancaq sizsiz heç ləzzət vermirdi"* (Ü.Hacıbəyli ev-muzeyi, DK-7457)

1918-ci ildə Gəncədə demokratik hökumətin qurulduğu elan edilsə də, Bakı düşmənlərdən hələ tam təmizlənməmişdi. Bakının küçələrində bir tərəfdən əcnəbi dövlətlərin əsgərlərinin özbaşınalıqları, digər tərəfdən isə erməni daşnaqlarının vəhşilikləri nəticəsində insanların qanı su yerinə axırdı. Həmin ilin sentyabr ayının 15-də Qafqaz İslam Ordusunun hücumu nəticəsində Bakı düşmənlərdən təmizlənir, erməni daşnaqlarının vəhşiliyinə, ingilis əsgərlərinin özbaşınalığına son qoyulur, Cümhuriyyət hökuməti Bakıya köçür. Yeni qurulan Azərbaycan hökumətinin 3 sentyabr 1918-ci il tarixli qərarına əsasən bir çox çətinliklərdən sonra, həmin ayın 15-də Gəncə şəhərində nəşrə başlayan "Azərbaycan" qəzeti dörd nömrədən sonra oktyabr ayının 3-dən fəaliyyətini Bakıda davam etdirir. Qəzet oktyabr ayının 8-nə kimi redaksiya heyəti adından, 1919-cu ilin yanvar ayının 16-na kimi Ceyhun bəyin müdirliyi ilə nəşr edilir. Beləliklə, Ceyhun bəy Hacıbəyli "Azərbaycan" qəzetinin ilk redaktoru təyin olunur.

Avropa dillərini sərbəst bildiyini nəzərə alıb, Paris Sülh Konfransında iştirak etmək üçün Ceyhun bəy Hacıbəylinin Azərbaycan nümayəndə heyətinə seçilməsi haqqında "Azıərbaycan" qəzeti 31

dekabr 1918-ci ilin 70-ci sayında məlumat yayır: *"28 dekabr 1918-ci il. Parlamentin ağsaqqallar şurasının iştirakı ilə hökumətin 28 dekabr tarixli iclası Avropada ümumi konfransda iştirak etmək üçün Parlamentin sədri Ə.M.b.Topçubaşov, hökumət üzvü A.H.Hacinski, parlamentin üzvləri A.b.Ağayev Şeyxülislamovdan ibarət nümayəndə heyəti seçmişdir. M.Məhərrəmov, Mehdiyev və C.Hacıbəyov müşavirlər seçilmişlər. Nümayəndə heyəti yaxın günlərdə yola düşmək niyyətindədir. Hal-hazırda nümayəndə heyəti materialların toplanması və hazırlanması ilə məşğuldur."*

Azərbaycan Hökumət Cümhuriyyəsi məclisi-məbusanın rəy və qərarına əsasən 1919-cu ilin yanvar ayının 6-da Ceyhun bəy Azərbaycan Cümhuriyyəti tərəfindən Parisdə keçiriləcək Versal Sülh Konfransı üzrə "Müşavir" təyin olunur. Həmin gün Ceyhun bəyə Sülh konfransında iştirak etmək üçün şəhadətnamə də verilir. Versal Sülh Konfransı ciddi və respublikamız üçün önəmli məsələ olduğundan 1919-cu ilin yanvar ayının 7-də Ceyhun bəylə birgə bütün heyətə Nazirlər Şurasının sədri Fətəli xan Xoyski və Adil xan Ziyadxanovun imzası ilə "General" mandatı təqdim olunur.

Qeyd etmək lazımdır ki, 1918-ci ilə qədər "Azərbaycan" adlı mətbuat orqanına rast gəlmirik. Çünki bu adda qəzet və jurnal nəşr etməyə cəhd edilsə də, yuxarı dairələr tərəfindən müxtəlif bəhanələrlə onun qarşısı alınırdı. Bunun da səbəbi aydın idi. "Azərbaycan" adında qəzet nəşri böyük bir ölkənin, böyük bir millətin varlığını təsdiq etmək idi. Bu isə çarizmin siyasətinə uyğun deyildi. Çar Rusiyası dağılandan sonra belə bir fürsət ələ düşmüş və onun ilk təşəbbüsçüsü, qəzetin naşiri və baş redaktoru Feyzulla Əliquluzadə olmuşdur. Lakin o tezliklə fəaliyyətini dayandırmışdır.

Qəzetin ilk redaktoru olmuş Ceyhun bəy yeni qurulmuş Azərbaycan hökumətinin tapşırığı ilə 1919-cu ilin yanvar ayında texniki işçilər nəzərə alınmazsa Əlimərdan bəy Topçubaşovun başçılığı ilə, sədr müavini Məmmədhəsən Hacinski, üzvlər Əhməd bəy Ağayev (Türkiyədə tutulub saxlanılmış və buna görə də Parisə gedə bilməmişdi), Əkbər ağa Şeyxülislamaov, müşavirlər Məhəmməd Məhərrəmov və Mir Yaqub Mir Mehdiyevdən ibarət heyətlə Versal Sülh

Konfransında iştirak etmək üçün Parisə yola düşür. Azərbaycan nümayəndə heyətinin yola salınması barədə 11 yanvar 1919-cu il 6-cı sayında "Azərbaycan" qəzeti aşağıdakı məlumatı dərc edir: *"10 yanvar 1919-cu il. Dünən xüsusi vaqonda, Tiflis-Batum-Potidən keçməklə dövlət nəzarətçisi M.H.Hacinski, Parlament üzvləri A.Ağayev, A.Şeyxülislamovdan ibarət Azərbaycan süıh nümayəndə heyəti Avropaya yola düşmüşdür. Nümayəndə heyətini üç müşavir – C.Hacıbəyov, M.Məhərrəmov və M.Y.Mehdiyev müşaiyət edir.*

*Konstantinopolda nümayəndə heyətinə Azərbaycan Parlamentinin sədri Ə.M.Topçubaşov qoşulacaqdır. Nümayəndə heyəri partiya nümayəndələrindən təşkil olunmuşdur.*

*Nümayəndə heyətini yola salmaq üçün baş nazir F.X.Xoyski başda olmaqla hökumət üzvləri, Parlament üzvləri və çox sayda vəzifəli şəxslər və xalq kütləsi vağzala gəlmişdir.*

*Parlamentin üzvləri M.Ə.Rəsulzadə və A.Pepinov xeyir-dua nitqi ilə çıxış etmişlər. Nümayəndə heyəti adından A.Ağayev təsirli cavab nitqi ilə çıxış etmişdir.*

*Yola salma mərasimi isti, səmimi xarakter daşımışdır."*

Səfərdə əsas məqsəd Azərbaycan xalq Cümhuriyyətini beynəlxalq aləmdə tanıtdırmağa nail olmaq və vətənimizə aid tarixi, etnoqrafik və başqa sənədləri yaymaq yolu ilə Avropa və Amerika ictimaiyyətini Azərbaycanın vəziyyəti ilə tanış etmək idi. Bu konfrans 1919-cu ilin yanvarından 1920-ci ilin yanvarına qədər fasilələrlə davam etməklə Antanta Azərbaycan Respublikasının istiqlaliyyətini tanıdı. Azərbaycanın Antanta dövlətləri tərəfindən tanınması nəticəsində Sovet Rusiyasının qəzəbinə səbəb oldu. Ceyhun bəy Sovet Rusiyasında "sapı özümüzdən olan baltalar"ın xəyanətini görürdü. Bu səfərdən qısa bir müddət sonra bolşeviklər içimizdə olan xainlərin köməyi ilə Azərbaycana soxulub, Bakıda ağılagəlməz vəhşiliklər törədirlər. Nəticədə minlərlə günahsız insan bu vəhşiliyin qurbanına çevrilir. Həmin hadisələrdən sonra təbiidir ki, nə Ceyhun bəy, nə də Versal Sülh Konfransına gedən heyət geri qayıtmaq fikrində olmur. Çünki bu açıqaçığına həm özünü, həm də ailəsini ölümə sürükləmək demək idi. Məhz bunu çox gözəl dərk edən Ceyhun bəy və Sülh Konfransına

gedən heyətin nümayəndələri geri dönməkdən imtina etməyi qərara alırlar.

Əcnəbi dövlətdə yaşamaq mühacirlər üçün o qədər də ürəkaçan olmur. Bir tərəfdən qohum-əqrabadan uzaq, digər tərəfdən də işsizlik Ceyhun bəyi çətin vəziyyətə salır. Lakin o, ağır, dözülməz şəraitdə yaşasa da, qardaşı Üzeyir bəyə hər dəfə məktub yazanda bu ağır, dözülməz həyatı ondan gizlətməyə çalışırdı. Ceyhun bəyin həyatının bu "gizli sirləri" böyük qardaşı Zülfüqar bəy vasitəsi ilə Üzeyir bəyə aydın olanda bəstəkarın nə qədər həyacan keçirdiyini aşağıdakı məktubda bir daha şahid oluruq: *"Dünən Zülfüqardan bir məktub aldım, sənin ona göndərmiş olduğun kağızın məzmununu mənə yazıbdır, mən oxuyub xeyli mükəddər oldum, o qədər ki, tamam istirahətim pozuldu. Zülfüqar dəxi sənin kağızında mütəəssir olduğunu mənə yazır.*

*İndiki iş boylə oldu, biz gərək məsələni aydınlaşdıraq və ona görə də müəyyən bir qərara gələk. İş bundadır ki, biz hamımız indiyə qədər bu fikirdə idik ki, siz orada asudə və istirahətlə yaşayırsınız. Ona görə də bir o qədər maraq ertməyib görüşəcəyimiz günü səbr ilə gözləyirdik. Bizim boylə bir zənddə olduğumuzun bir səbəbi də o idi ki, sən öz kağızlarında dolanacağınızdan şikayət etməyirdin və öz əhvalınızdan açıq və müəyyən bir şey yazmırdın, fəqət bu axırki Zülfüqara yazılan kağızlarından boylə görünür ki, əvvəla orada siz çox pis dolanırsınız və saniyən, boylə bir güzəran səni qara-qara fikirlərə salıb əsəbi naxoşluğuna səbəb olubdur"* (fond 649, siyahı 2, saxlama vahidi 8).

Məktubda Üzeyir bəy Ceyhun bəydən təcili ailəsini götürüb qayıtmasını təkid edir. O həmçinin onların qayıtması üçün icazə alacağını da vəd edir. Qeyd edir ki, əgər izn ilə gələrsə ona heç bir xətər toxunmaz. Əksinə bir neçə dil bildiyi üçün işləri rəvan gedəcəyini də ona xatırladır. Çünki onun kimi mütəxəssislərə Azərbaycanda ehtiyac olduğunu dəfələrlə Ceyhun bəyə bildirmişdi. Üzeyir bəy ona Yusif Vəzirin izn ilə gəldiyinə görə rahat yaşayıb, qulluq etdiyini də misal çəkir.

Hələ 1937-ci il deyil, 1920-ci ilin əvvəlləridir. Bu illərdə bolşeviklər tərəfindən həbs edilənlərin bir hissəsi müvəqqəti də olsa azad-

lığa buraxılırlar. Bu da səbəbsiz deyildi. Bolşeviklər "qırmızı terror"u hazırlamaq üçün vaxt qazanırdılar. Dəhşətli repressiya hələ qabaqda idi. Bu haqda nə Üzeyir bəy, nə də Ceyhun bəyin vətənə qayıtması müqabilində ona heç bir xətər gəlməyəcəyinə söz verənlər bilirdi. Üzeyir bəyə o da məlum deyildi ki, irəlidə onları əzablı günlər, ağır işgəncələr gözləyir. Həmin işgəncələr altında inləyən Yusif Vəzir, Əhməd Cavad, Mikayıl Müşfiq, Salman Mümtaz, Hüseyn Cavid, Seyid Hüseynlə bərabər minlərlə Azərbaycanın günahsız övladları "Troyka"nın qurbanına çevrilərək, Rusiyanın insan ayağı dəyməyən şaxtalı çöllərində donub məhv olacaq, yaxud da SSRİ Ali Məhkəməsinin Səyyar Hərbi Kollegiyasının 15-20 dəqiqəlik iclasının qərarı ilə güllələnməyə məhkum ediləcəklər. Üzeyir bəyə məlum deyildi ki, dünyanın məşhur bəstəkarları arasında adı hörmətlə çəkilməsinə baxmayaraq onun hər addımı izlənilir, danışıqları qeydə alınır, KQB-nin zirzəmisində isə adı hallanılırdı. Bu azmış kimi böyük bəstəkara zərbə vurmaq üçün onun yaralı yeri olan kiçik qardaşının mühacirət həyatı sürdüyünə ehyamlar da vurulurdu.

Lakin Ceyhun bəy isə yad ölkədə hər bir çətinliyə dözərək, gecə-gündüz işləməli olur və ailəsini dolandırmaq üçün yollar arayırdı. O aydın başa düşürdü ki, Sovet hökuməti Azərbaycan Xalq Cümhuriyyəti dövründəki fəaliyyətini ona heç zaman bağışlamayacaq. Məhz buna görə də Ceyhun bəy qardaşının məktublarındakı təkidli çağırışları qəbul edə bilməzdi. O ağır həyat sürməyə hazır idi, çünki zəhməti nəticəsində nə vaxtsa istəyinə nail olacağına inanırdı, lakin Vətən həsrəti də onu rahat buraxmırdı. Geri qayıtmaq özünü ölümün pəncəsinə atmaq demək idi. Artıq o, gözəl dərk edirdi ki, Vətən qapılarını artıq onun üzünə həmişəlik bağlamışdır. Yalnız "Bir daha yüksələn bayraq bir daha enməz"sə o zaman vətən torpağına qovuşa bilərdi.

Qardaşının Azərbaycana qayıtması üçün dəfələrlə əlaqədar təşkilatlara müraciət etməsinə baxmayaraq, istəyinə nail ola bilməyən Üzeyir bəyin, bir tərəfdən də Ceyhun bəyin ağır yaşam tərzi haqqında Zülfüqar bəydən eşitdiyi sözlər qəlbini göynədirdi. Üzeyir bəy təsəllisini yalnız ona hər ay müəyyən məbləğ pul göndərməkdə tapırdı. Həm

Üzeyir bəyin vaxtaşırı yardımı, həm də özünün istedadı nəticəsində Ceyhun bəy ağır həyat tərzindən az da olsa qurtula bilirdi. O buna ilk növbədə ailəsinin gündəlik xərclərini azaltmağda və qardaşının Bakıdan göndərdiyi maddi köməyi nəticəsində nail olurdu. Bu yolla da o, uşaqların təhsil haqqını ödəməyə müvəffəq olurdu.

Azərbaycandan xarici dövlətlərə pul göndərmək üçün növbə olduğundan və pulun miqdarına müəyyən meyar qoyulduğundan Üzeyir bəy qardaşına lazım olan məbləği bəzən göndərə bilmirdi. Həmin çətinliyi ona məktub vasitəsilə izah edir və göstərirdi ki, əgər mümkün olarsa, bir kəsdən müvəqqəti pul götürsün, gələn ay həmin məbləğin tam hissəsini yollayanda borcunu ödəyər. Lakin başqasından borc pul almağı özünə sığışdıra bilməməyinin nəticəsi idi ki, Ceyhun bəy liseydə oxuyan oğlu Ceyhunun təhsil haqqını ödəmədiyi üçün onu məktəbdən kənarlaşdırırlar. Bu gözlənilməz hadisədən sonra Ceyhun bəy evdə özünə yer tapa bilmir. Ceyhun bəy artıq evdəkilərin, xüsusilə də həyatın ağırlığını hələ də dərk edə bilməyən balaca Ceyhunun üzünə baxmağa cəsarət etmirdi. O, övladının qarşısında vicdan əzabı çəkirdi. Evin bir küncündə oturub dərin fikir içində bu çətin "məsələ"nin cavabını axtarırdı... Uzun, cansıxıcı sükuta dözə bilməyən Ceyhun bəy qəflətən ayağa qalxır, heç kimə bir söz demədən evi tərk edir. Fikirli-fikirli küçələri dolaşır, nə edəcəyini, dərdini kiminlə böləcəyini bilmir. Fikirli halda dostu Əlimərdan bəygilə gəlir. O, evdə tək idi. Ceyhun bəy heç bir söz demədən stulu çəkib əyləşir. Əlimərdan bəy dostunun həyəcandan üzünün qaraldığını görüb qorxulu bir şey olduğunu zənn edir. Bu zaman Əlimərdan bəyin də qəlbində narahatlıq hissi baş qaldırır və həyəcanla Ceyhun bəyə baxır, nə hadisə baş verdiyini xəbər alır. Eşitdiyi cavabdan bir qədər sakitləşir, dostunu da sakitləşdirməyə çalışır və tezliklə məsələni həll edəcəyinə söz verərək, birlikdə çay içib, həmin gün – 26 fevral 1932-ci il tarixdə Ceyhunun təhsil aldığı məktəbin direktoruna aşağıdakı məzmunda məktubla müraciət edir: *"Cox təəssüf hissi ilə öyrəndim ki, bizim heyətin üzvi Ceyhun bəy Hacıbəylinin oğlu, Sizin rəhbərlik etdiyiniz kollecin şağirdi tədris haqqını ödəmədiyi üçün dərslərdə iştirak etməkdən məhrum olunub.*

*Cənab müdir, sizə məlumdur ki, bu şagird lisey üzrə başqa şagirdlərdən bilik və bacarığına, xüsusilə fransız, ingilis, hətta latın dillərini bildiyinə görə fərqlənir... Cox böyük təəssüf hissi ilə qeyd edim ki, valideynlərin maddi durumu övladının təhsil haqqını vaxtlı-vaxtında ödəməsinə imkan vermir. Ağır yaşayışlarının əsas səbəbi onların siyasi mühacir həyatı sürdüklərindən irəli gəlir. Hələ onların iqtisadi durumunu qeyd etmirəm. Cəsarətlə üzərimə götürüb, nəzərinizə çatdırıram ki, Sizin liseyin tələbəsinin atası ilk imkandan istifadə edib həmin məbləği ödəyəcək. İndi isə xahiş edirəm, cənab müdir, liseyin şagirdi Hacıbəylini sonuncu dərs ilinə kimi sinifdə əyləşməyə icazə verəsiniz və sonra şərait yaradasınız ki, o öz təhsilini sona qədər başa vursun.*

*Öncədən mən və müstəmləkə altında yaşayan bütün Azərbaycan Sizə dərin təşəkkürünü bildirir."* (DƏİA, fond 649, siyahı 3, saxlama vahidi 103)

C.Hacıbəyli hələ gənclik dövrlərində tərcüməyə böyük həvəs göstərdiyindən burada o həm Azərbaycan ədəbiyyat və incəsənət xadimlərinin əsərlərini fransız, ingilis dillərinə çevirməklə öz yaradıcılığını püxtələşdirmiş, həm bu yaradıcı şəxslərin əsərlərini Avropaya tanıtdırırmış, həm də maddi yaşayış tərzində müəyyən irəliləyişlərə nail olmuşdu. Arxiv sənədlərindən aydın olur ki, Üzeyir bəyin məşhur "Arşın mal alan" komediyası da məhz Ceyhun bəyin tərcüməsində ilk dəfə olaraq 1925-ci ildə Parisin "Femino" teatrında tamaşaya qoyulmuşdur.

1933-cü ilin yanvar-mart aylarında Parisdə nəşr olunmuş "Asiya" jurnalının əlavə xüsusi buraxılışında C.Hacıbəylinin 144 səhifədən ibarət olan "Qarabağ dialekti və folkloru" əsəri dərc edilmişdir. Həmin əsərində Ceyhun bəy fransız oxucularına Qarabağ dialektindən müxtəlif folklor nümunələri gətirir və onun geniş şəkildə izahını verir. Tapmaca, lətifə, tərifləmə, and içmə, yalvarış, qarğış, alqış, bayatı və başqa folklor nümunələri həmin jurnalda öz əksini tapmışdı.

C.Hacıbəyli həmçinin 1940-cı ildə fars şairi Ə.Firdovsinin həyat və yaradıcılığı haqqında da məqalə yazmışdır. Ceyhun bəyin Azərbaycan muğamları və dünya musiqisi klassikləri haqqında yazı-

ları da maraqlıdır. Yazılarında müəllif muğamın müxtəlif növləri haqqında məlumat verdikdən sonra, Cüzeppe Verdinin “Traviata”, Bizenin “Karmen”, Puççininin “Toska” və başqa operalar haqqında fikirləri də oxucuların marağına səbəb olub.

İkinci Dünya müharibəsinin ağrıları Ceyhun bəyin ailəsindən də yan keçmir. Bakıda dünyaya gəlmiş, mühacirətin ilk illərindən başlayaraq Üzeyir bəyin hər bir məktubunda xatırlanan və əzizlənən Ceyhun bəyin oğlu Ceyhun 1937-ci ildə Paris Hüquq Akademiyasını müvəffəqiyyətlə bitirdiyi diplomunda oxuyuruq:

*“Fransa Respublikası. Milli Təhsil Nazirliyi.*

*Hüquq sahəsi üzrə Bakalavr diplomu.*

*Bu diplom Sizə hüquq sahəsi üzrə Bakalavr pilləsini 5 iyul 1937-ci ildə bitirdiyiniz üçün təqdim olunur. Diplom Paris Akademiyasının professorları tərəfindən, Azərbaycanın Bakı şəhərində 12 aprel 1918-ci ildə anadan olmuş Hacıbəyli Ceyhuna təqdim olunur. Diplom Akademiyanın rektoru tərəfindən təsdiq olunur;*

*Yuxarıda qeyd olunan Diplom ratifikasiya olunub. Hüquq sahəsi üzrə Bakalavr diplomu qüvvədə olan qanunlara əlavə edilmiş hüquq və imtiyazlara əsasən Hacıbəyliyə verilir.*

*Hazırlanıb 27 oktyabr 1937-ci ildə Milli Təhsil Nazirliyi tərəfindən.*

*Milli Təhsil naziri Jan Zey”.*

Ceyhun 1941-ci ildə alman faşizminə qarşı vuruşmaq üçün hərbi təyyarəçi kimi cəbhəyə gedir. Düşmənlə qeyri-bərabər döyüşlərdən birində onun təyyarəsi vurulur, Ceyhun qəhrəmanlıqla həlak olur. 23 yaşlı oğlunu itirən Ceyhun bəy sarsıntılar keçirir. Bir tərəfdən vətən həsrəti, digər tərəfdən isə oğlunun faciəsi uzun zaman onu rahat buraxmır. Yalnız müəyyən müddətdən sonra öz acı taleyi ilə yenidən barışmalı olur.

C.Hacıbəylinin ən maraqlı yazılarından biri “Azərbaycan şairələri” adlı məqaləsidir. Yazı təxminən 1950-ci illərdə qələmə alınmışdır. Burada Ceyhun bəy Aşıq Pəri, İbrahim xanın nəvəsi, Mehdiqulu xanın qızı Xurşidbanu Natavan, İbrahim xanın qızları “Ağabacı” tə-

xəllüsü ilə yazan Ağabəyim ağa və Gövhər ağanın həyat və yaradıcılığı haqqında fransız oxucularını tanış edir.

Fransada yaşadığı müddət ərzində Azərbaycan ədəbiyyatını, incəsənətini, tarixini yetərincə təbliğ edən Ceyhun bəy Hacıbəyli 1962-ci ildə vətən həsrəti ilə gözlərini əbədi yumur və Parisin Sen-Klu qəbiristanlığında torpağa tapşırılır.

43 illik vətən həsrəti ilə çırpınan, onun torpağına qarışmaq həsrətində olan, lakin istəyinə nail ola bilməyən Ceyhun bəyin arzusu yalnız Azərbaycan xalqı ikinci dəfə müstəqillik qazanandan sonra oğlu Timuçin və 2001-ci ildə isə nəvəsi Ceyhun - Jan Kliman tərəfindən həyata keçirilir.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN FƏAL PUBLİSİSTİ ÜZEYİR HACIBƏYOV

***"Üzeyir Hacıbəyov fövqəladə fitri istedadı, böyük fədakarlığı, mükəmməl təhsili, elmi, vətənpərvərliyi, ictimai-siyasi fəaliyyəti ilə xalqımızın böyük şəxsiyyətlərin-dən biri olmuş, dünya korifeylərinin ön sırasında duran, Azərbaycanı təmsil edən görkəmli şəxsiyyət olmuşdur".***

**Heydər Əliyev**

Azərbaycan professional musiqisinin və Şərqdə ilk operanın banisi, dahi bəstəkar Üzeyir bəy Hacıbəyli həm də öz dövrünün istedadlı yazıçısı və gözəl publisisti kimi də tanınıb. Onun keçən əsrin əvvəllərində nəşr olunan məqalə və felyetonları o dövrdə çıxan "İrşad", "Kaspi", "Həqiqət", "Tərəqqi", "Yeni iqbal", "Molla Nəsrəddin" və digər qəzet və jurnallarda çap olunurdu.

Üzeyir bəy 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti dövründə "Azərbaycan" qəzetində bir müddət parlaman müxbiri işləmiş, sonra isə baş redaktor təyin edilmiş, 15 ay (iki aylıq fasilə ilə) bu vəzifəsini layiqincə yerinə yetirmişdir. Qəzetdə baş redaktor olana qədər burada onun qələmə aldığı "Mühüm məsələlər", "Tarixi günümüz", "Milli parlaman", "Nuri Paşa həzrətləri şərəfinə böyük bir ziyafət", "Təəssürat" adlı silsilə siyasi-publisistik yazıları işıq üzü görmüşdür.

Xatırladaq ki, Azərbaycanda musiqili komediya janrının da yaradıcısı olan dahi bəstəkar dünya şöhrətli komediyalarının liberottosunu da özü yazırdı.

Üzeyir bəy "Azərbaycan"dakı məqalə və felyetonlarını "Hacıbəyli Üzeyir", "Üzeyir", "Ü.Hacıbəyli", "Ü.H", "ÇI", "Ü.Əbdül" və s. kimi imzalarla yazırdı. Bəzi tədqiqatçılar Üzeyir bəyin "Azərbaycan" qəzetində nəşr etdirdiyi "Qurtuluş", "Mühüm məsələlər", "Cidalar görünür" və başqa məqalələrinin müəlliflik məsələsinin dəqiqləşdiril-

məsinə ehtiyac duyulduğunu yazır. Lakin əgər həmin məqalələrin altında Üzeyir bəy öz şəxsi imzasını tam şəkildə göstəribsə, bunun başqa bir sübuta ehtiyacı varmı? Biz bu məsələyə dair yalnız görkəmli tədqiqatçı, Üzeyir bəy Hacıbəylinin həyat və yaradıcılıq səlnaməsini yazan Qulam Məmmədlinin aşağıdakı fikrini xatırlamaqla kifayətlənirik: *"O, (Üzeyir bəy – A.K.) müxtəlif zamanlarda, ayrı-ayrı qəzet və jurnallarda "Kəs", "Flankəs", "Behmənkəs", "Mizrab", "Musiqiçi", "Hamamçı", "Çı" və digər imzalar işlətmişdir. Ü.Hacıbəyov "Həyat", "İrşad", "Tərəqqi", "Həqiqət", "İqbal", "Sovqat", "Yeni İqbal", "Azərbaycan", Məktəb", "Kommunist" kimi qəzet və jurnallarda çalışdığı zaman yazılarının altında bu imzaları qoymuş, həmin mətbuat orqanlarından getdikdə isə, necə deyərlər, imzalarını da özü ilə aparmışdır."*

Elə bilirik ki, əlavə izaha ehtiyac yoxdur.

Azərbaycan Cümhuriyyətinin 23 aylıq hakimiyyəti zamanında Üzeyir bəy "Azərbaycan" və "Dağıstan" adlı musiqi əsərləri ilə yanaşı, həmin mövzularda bir-birinin ardınca "Azərbaycan parlamanı", "Ermənistan və Azərbaycan münasibəti", "Dağıstana kömək", "Dağıstana imdad", "Dağıstan və biz" və s. bu kimi publisistik silsilə yazılar da qələmə almışdı. Onun bu dövrlərdə yazdığı məqalələrin həmin illərin səlnaməsi olduğunu desək, elə bilirəm ki, yanılmarıq. Üzeyir bəyin bu yazıları tam şəkildə həm xalqın, həm də dövlətin marağı ilə üst-üstə düşürdü.

Qeyd edək ki, Üzeyir bəyin böyük istedadla yazdığı və "Azərbaycan" qəzetində çap olunan müxtəlif səpkili məqalə və felyetonlar bu sətirlərin müəllifi tərəfindən keçən əsrin axırlarında toplanıb, tərtib edilərək 1995-ci ildə "Fitnələr qarşısında" adı altında bir hissəsi və 2011-ci ildə isə "Bayrağımız sarsılmaz" adları altında tam şəkildə nəşr edilmişdir.

Yuxarıda qeyd etdiyimiz mətbu orqanlar haqqında kifayət qədər yazıldığını nəzərə alıb, burada Üzeyir bəyin Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyəti dövründə "Azərbaycan" qəzetindəki ədəbi fəaliyyətini müxtəsər məlumat vermək istərdik. Üzeyir bəyin jurnalistik və publisistik fəaliyyətini diqqətlə tədqiq etdikdə məlum olur ki,

onun ən fəal ədəbi yaradıcılığı bilavasitə məhz bu qəzetlə bağlı olmuşdur. Onun müxtəlif mövzularda yazıları, demək olar ki, hər gün, yaxud günaşırı "Azərbaycan" qəzetində çap olunmuş, bəzən bir nömrədə iki yazısı ayrı-ayrı imzalarla çıxmışdı.

Qeyd etmək lazımdır ki, biz 1918-ci ilə qədər "Azərbaycan" adlı mətbuat orqanına rast gəlmirik. Çünki bu adda qəzet və jurnal nəşr etməyə cəhd edilsə də, yuxarı dairələr tərəfindən müxtəlif bəhanələrlə qarşısı alınırdı. Bunun da səbəbi aydın idı. "Azərbaycan" adında qəzet nəşr etdirmək böyük bir ölkənin, böyük bir millətin varlığını təsdiq etmək idi. Bu isə çarizmin siyasətinə uyğun deyildi. Çar Rusiyası dağılandan sonra belə bir fürsət ələ düşmüş və onun ilk təşəbbüsçüsü, qəzetin naşiri və baş redaktoru, dini təhsil almış, şair, müəllim Feyzulla Əliquluzadə olmuş, lakin o, tezliklə fəaliyyətini dayandırmışdı.

1918-ci ildə yeni qurulan Azərbaycan hökumətinin 3 sentyabr tarixli qərarına əsasən bir çox çətinliklərdən sonra, ayın 15-də Gəncə şəhərində nəşrə başlayan "Azərbaycan" qəzeti dörd nömrədən sonra oktyabr ayının 3-dən fəaliyyətini Bakıda davam etdirir. Qəzet 8-ci nömrəyə qədər – oktyabr ayının 8-nə kimi redaksiya heyəti adından, oktyabr ayının 8-dən 1919-cu il yanvar ayının 16-na kimi Üzeyir bəyin kiçik qardaşı, tarixçi, jurnalist, publisist Ceyhun bəyin (1892–1961), 89-cu nömrədən 1919-cu il 4 iyul tarixli 216-cı nömrəyə qədər Üzeyir bəyin, 4 iyul 216-cı nömrədən sentyabrın ayının 1-nə – 265-ci nömrəyə qədər bir müddət Xəlil İbrahimin (1892–1938), ən nəhayət, 265-ci nömrədən 1920--ci il aprel çevrilişinə qədər Üzeyir bəy Hacıbəylinin rəhbərliyi ilə çıxmışdı.

Qəzetin ilk redaktoru olmuş Ceyhun bəy yeni Azərbaycan hökumətinin tapşırığı ilə 1919-cu ilin yanvar ayında texniki işçilər nəzərə alınmazsa, Əlimərdan bəy Topçubaşovun başçılığı ilə, sədr müavini Məmmədhəsən Hacınski, üzvlər Əhməd bəy Ağayev, Əkbər ağa Şeyxülislamov, müşavirlər Məhəmməd Məhərrəmov və Mir Yaqub Mir Mehdiyevdən ibarət heyətlə Versal Sülh Konfransında iştirak etmək üçün Parisə yola düşür. Bu barədə, Ceyhun bəy 9 yanvar 1919-cu ildə "Azərbaycan" qəzetində "Möhtərəm qarelərimizə" müraciətində belə yazırdı: *"Vətən və millət yolunda əlimdən gələn xidməti və öhdəmə düşən vəzifəmi qəzetəmizin müdiri sifətilə ifadəyə məşğul ikən, vətən övladlarının*

*xahiş və əmrinə müti olaraq Cahan Sülh Konfransına göndərilməklə öhdəmə daha ağır və məsuliyyətli, lakin müqəddəs bir vəzifə düşdü. Bu böyük xidməti möhtərəm arkadaşlarım ilə bərabər ifa üçün Avropaya getmək lazım olduğuna görə qəzetə idarəsi işindən müvəqqəti olaraq ayrılıb əziz vətənimizin istiqlalı məsələsinin istədigimiz yoldakı həlli hüsn-ifasından asılı olan məsul vəzifəmizin haqqında var qüvvəmizlə çalışacağımızı əlavə etməgi və möhtərəm oxucularımıza kəmali-sidq və səmimiyyət ilə xudahafiz deməgi özümə fərz bildim.*

*"Azərbaycan" qəzetəsinin müdiri:*
*Ceyhun bəy Hacıbəyli".*

Səfərdə əsas məqsəd Azərbaycan Xalq Cümhuriyyətini beynəlxalq aləmdə tanıtdırmağa nail olmaq və vətənimizə aid tarixi, etnoqrafik və başqa sənədləri yaymaq yolu ilə Avropa və Amerika ictimaiyyətini Azərbaycanın vəziyyətilə tanış etmək idi. Başqa sözlə, vəzifə bütün üsul və vasitələrlə Azərbaycanın mənafeyini qoruyaraq, onun tam istiqlaliyyətinə nail olmaq idi. Bununla bərabər, nümayəndə heyətinə qəti surətdə tapşırılmışdı ki, İrəvan quberniyasının müsəlman rayonlarında olan əhalinin fiziki varlığı ilə yanaşı, bu rayonların ərazı bütövlüyünün qorunması üçün müttəfiq dövlətlər qarşısında təcili olaraq məsələ qaldırılsın.

Ceyhun bəydən sonra qəzet müvəqqəti də olsa, 1918-ci ilin oktyabr ayından burada əməkdaşlıq etmiş Üzeyir bəy Hacıbəyliyə həvalə olunur. Bununla da qəzetin nəşrinin ağırlığı bütünlükdə Üzeyir bəyin üzərinə düşür. O, 1919-cu ilin əvvəllərindən 1920-ci ilin aprel çevrilişinə qədər "Azərbaycan" qəzetində redaktor kimi fəaliyyət göstərir.

Azərbaycan xalqının azadlığı naminə mübarizə aparan, dəfələrlə təhqir olunan və haqsız hücumlara məruz qalan Üzeyir bəyin qəflətən səhhəti pozulur və 1919-cu ilin iyul ayının əvvəllərində o Bakını tərk etməyə məcbur olur. Bu barədə qəzetin səhifəsində oxuyuruq: "*Qəzetəmizin müvəqqəti müdiri Hacıbəyli Üzeyir bəy əfəndi səhhətini düzəltmək məqsədilə bir müddətə Bakudan gedib. Müvəqqəti müdir vəzifəsi Xəlil İbrahim əfəndi öhdəsinə vagüzar edilmişdir."*

Üzeyir bəy iki aylıq müalicədən sonra yenidən "Azərbaycan" qəzetinə başçılıq etməyə başlayır. Üzeyir bəyin "Azərbaycan"dakı fəaliyyətində onun özünün müxtəlif mövzulardan ibarət məqalə və felyetonları işıq üzü görmüşdür. Qəzetə rəhbərlik etdiyi dövrdə Ü.Hacıbəyli onun daha maraqlı, məzmunlu olmasına səy göstərmiş, Azərbaycanın müstəqil respublika kimi möhkəmlənməsinə çalışmışdır.

Bəzi qəzetlər, məsələn, ruspərəst "Zarya" "Azərbaycan" qəzetini "Müsavat" partiyasının qəzeti olduğunu istehza ilə bildirirdi. Onun kinayəli çıxışlarına cavab olaraq Üzeyir bəy "Azərbaycan" qəzetinin 10.03.1919 il tarixli 133-cü nömrəsində yazırdı: *"... bunu bəyan etməgi lazım bilirik ki, qəzetəmiz partiya qəzetəsi deyildir... Qəzetəmizin yazılarına göz yetirməkdə olanlar şübhəsiz bunu bilirlər. Ancaq burasını heç də gizlətmirik ki, mövcud partiyalarımız arasında Azərbaycan istiqlalını kəmalınca - bidun haşiyə arzu etmək və bu yol uzunu gedərkən sağa və sola dönmək, tərəddüddən azad olub da rast bir istiqamət üzrə getmək qəsdini yalnız bir "Müsavat" firqəsində müşahidə etdiyimizdən bu firqəni istiqlal xadimlərindən ən sadiqi hesab edib, onun fikr və arzularına qəzetəmizdə kəmali-məmnuniyyət yer verməyi özümüzə borc bilirik".*

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması Üzeyir bəyi hədsiz ruhlandırmış, sevindirmişdi. Məhz bu baxımdan o məqalələrinin birində böyük bir ruh yüksəkliyilə yazırdı ki, "*artıq yerimiz, yurdumuz, torpağımız özümüzün, hökumətimiz, camaətimiz, qoşunumuz özümüzün, dinimiz, ayin və adətimizə edilən şəmadətdən qurtulduq"* ("Azərbaycan" qəzeti 18.11.1918 № 43).

Digər tərəfdən də Üzeyir bəyi qara fikirlər narahat edir və *"...birdən bu azadlığımızı, asudəligimizi, həyatımızı əlimizdən alarlar?!"* – deyə həyəcanlanır və təlaşlanırdı. O, "Azərbaycan parlamanı" məqaləsində həmin narahatçılığını belə ifadə edir: *"Gözlər var ki, dünənə qədər əsir və qul olan bir milləti bu gün azad və sərbəst görmək istəmiyor..."*("Azərbaycan"qəzeti, 5.12.1918 il, №56)

*"...Qəlblər var ki, bir əsirdən artıq məhkum qalan bir millətin bu gün hakim deyil. Yalnız müstəqil və azad olmasını qəbul etmək istəmiyor".*

Adını çəkdiyimiz məqalədə Üzeyir bəy xarici və daxili düşmənlərə kəskin cavab vermək məcburiyyətində qalır: *"Azərbaycan türklərini*

*müstəqil və azad görmək istəməyənlər, ya gərək bizi zor ilə təkrar qul və əsir etsinlər, ya buna gücləri çatmazsa "tən qəzaya verib" əmr vaqe qarşusında ixtiyari-süskün etsinlər və ya buna da vicdanlarını razı edə bilməsələr, vətən deyib, Azərbaycan torpağından çıxıb getsinlər. Bu üç təklifdən hanki birini qəbul etmək istəsələr sahibi-ixtiyardılar. Ancaq bunu dürüst bilməlidirlər ki, biz Azərbaycan türkləri zor ilə də, güc ilə də əsarət zəncirini təkrar boynumuza salmaq istəməyəcəyik".*

Üzeyir bəyi narahat edən, düşündürən başqa ciddi məsələlər də var idi. O, uzun illik əsarətdən qurtulmuş bir xalqın nə vaxtsa yenidən rus əsarətinə düşəcəyindən qorxurdu. Bu qorxu xalqın arzuladığı və çətinliklə nail olduğu azadlığını bir daha itirmək qorxusu idi. Üzeyir bəy məqalələrində bu hissilərini gizlətmirdi. Aşağıdakı sətirləri Üzeyir bəy məhz xalq öz azadlığın bir illiyini qeyd etməyə hazırlaşdıqları ərəfədə yazırdı: *"Deməli, bir gün olacaqdır ki, Rusiyada monarxistlər və ya bolşeviklər hakimi-mütləq olmaq ixtiyarını bir kərəlik ələ alıb da, ondan sonra Rusiyadan alınmış olan "üsyançı"lar üzərinə tökülüb, onları bir itaətə məcbur etmək işinə uğraşacaqlar."*

Yenicə azadlıq qazanmış xalqa qarşı "sapı özümüzdən olan baltalar"ın, xaricdən edilən hücumların, erməni daşnakların fəallaşmasının nəticəsi idi ki, Üzeyir bəy bu qənaətə gəlirdi. Onun məqalələrində Azərbaycan xalqına qarşı xəyanət törədən nacins ermənilərlə və Ermənistanla gedən qanlı müharibələrə son qoymaq üçün 1919-cu ildə Parisdə keçiriləcək Sülh Konfransına böyük ümidlər bəslənildiyi dilə gətirilirdi. Üzeyir bəyə tam aydın idi ki, ermənilər Qafqazda yaşayan millətlər arasında ən "layiqli" və ən "məzlum millət" olduqlarını göstərməklə özlərinə qarşı Amerika və Avropada rəğbət qazandırmaq istəyirlər. Buna nail olmaq üçün illərlə vəsait toplayıb, onların qaniçən, hiyləgər siyasətindən xəbərsiz xarici dövlətlərə təbliğatçılar göndərərək Qafqaz xalqları arasında ən alicənab, *"etika və cayizi – həliqiyyət və şayesteyi-istiqlal bir millət"* kimi göstərməyə müvəffəq olmuşlar. Buna görə də Ü.Hacıbəyli ilk növbədə xalqımızı Avropa, Amerika və başqa dövlətlərdə yaşayan işgüzar adamlarla ünsiyyət qurmağa, onlarla əməkdaşlıq etməyə çağırır, bu əməkdaşlıqda bizim tərəfdən heç bir işgüzar adamın biganə qalmamasını istəyirdi. Çünki *"Qafqaz, baxüsus Azərbaycanın bitib-tükənməz təbii*

*sərvəti"* Avropanın, Amerikanın iş adamlarını laqeyd buraxmaz. Məhz buna görə də Üzeyir bəy *"bitib-tükənməz"* sərvətdən səmərəli istifadə etməyi məsləhət görürdü.

Qəzetdəki fəaliyyəti dövründə Ü.Hacıbəyli özünü istedadlı, bacarıqlı, dərin düşüncəli və ideyalı bir publisist kimi göstərmişdir. Təsadüfi deyil ki, Üzeyir bəyin mətbuatda 900-ə yaxın məqalə və felyetonları çap olunmuşdur ki, bunlardan 100-dən çoxu 1918–1920-ci illərdə nəşr olunan "Azərbaycan" qəzetinin payına düşür.

Dünya mədəniyyəti tarixində elə şəxsiyyətlər olub və indi də vardır ki, onlar əsas sənətlərindən əlavə, başqa peşələrin sahibləri olmuş və bu sahələrdə də özlərini göstərə bilmişlər. Ü.Hacıbəyli də belə sənətkarlardandır. Dahi sənətkarın bu çoxcəhətli fəaliyyətindən danışaraq, Üzeyir bəyin tələbəsi olmuş Azərbaycanın dahi bəstəkarı Qara Qarayev yazırdı: *"R.Şuman, F.List, R.Vaqner P.Çaykovski dövri mətbuatla müəyyən dərəcədə bağlı olublar. Məsələn, R.Şuman Leypsiq şəhərində "Yeni musiqi" qəzetini təsis edib, F.List musiqi tənqidinin gözəl nümunələrini yaradıb, opera janrının reformatoru R.Vaqner müxtəlif qəzetlərin əməkdaşı olub, P.Çaykovski "Russkiye vedomosti" qəzetinə Moskvanın musiqi həyatına dair məqalələr yazmışdı..."* ("Ədəbiyyat və incəsənət" qəzeti, 04.09.1976)

Dahi bəstəkarın sözlərində böyük bir həqiqət var. Məsələn, Azərbaycanın xalq artisti, bəstəkar Arif Məlikov gözəl rəsm əsərlərinin müəllifidir. Azərbaycan xalq rəssamı Toğrul Nərimanbəyov dünya klassiklərinin əsərlərinin mahir ifaçısı olub.

Yekun olaraq bunu da xatırladaq ki, tarix elmləri doktoru Ataxan Paşayevin rəhbərliyi ilə Azərbaycan Milli Elmlər Akademiyasının A.Bakıxanov adına Tarix İnstitutunun aspirantı Günel Orucova Üzeyir bəyin "Azərbaycan" qəzetindəki fəaliyyətinə dair dissertasiya işi yazmış, uğurla müdafiə edərək tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ HÖKUMƏTİNİN XALQ MAARİFİ NAZİRLƏRİ

Azərbaycan Xalq Cümhuriyyəti dövründə (may 1918 – aprel 1920-ci illər) hökumət böhranları ilə əlaqədar olaraq biri-digərini əvəz etmiş 5 Hökumət kabinəsi təşkil olunmuşdur.

I-III Hökumət kabinələri F.X.Xoyskinin sədrliyi ilə təşkil edilmiş və 28.05.1918-17.03.1919-müddətdə fəaliyyət göstərmişdir:

- I müvəqqəti Hökumət kabinəsində (28.05.1918.-17.06.1918.) Nəsib bəy Yusif oğlu Yusifbəyli Maliyyə və Maarif naziri vəzifəsini tutmuşdur;

- II müvəqqəti Hökumət kabinəsində (17.06.1918.-06.10.1918.) Maarif və Dini Etiqadlar naziri vəzifəsinə N.Yusifbəyli; 1918-ci il oktyabrın 6-da II Hökumət kabinəsində edilən kabinədaxili dəyişikliklərdən sonra (06.10.1918.-07.12.1918.) Xalq Maarif və Ərzaq naziri N.Yusifbəyli; Sosial Təminat və Dini Etiqadlar naziri vəzifəsinə isə M.Rəfiyev təyin olunmuşdur;

- III Hökumət kabinəsində (26.12.18-17.03.19)- N.Yusifbəyli Maarif və Dini Etiqadlar naziri vəzifəsini tutmuşdur.

Beləliklə, F.X.Xoyskinin təşkil etdiyi I-III Hökumət kabinələrində Maarif Nazirliyinə N.Yusifbəyli rəhbərlik etmiş və o, Azərbaycan Xalq Cümhuriyyətinin ilk Maarif naziri olmuşdur.

Sözügedən dövrlərdə təhsil sisteminin dağılmasının qarşısının alınmasına, təlim-tərbiyə işlərinin kökündən dəyişdirilərək milli manefələrə uyğun şəkildə yenidən qurulmasına, məktəb islahatlarının aparılmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsinə dair Cümhuriyyət Hökuməti və Parlamenti tərəfindən qanun və qərarlar qəbul edilmiş, Maarif Nazirliyi müvafiq tədbirlər həyata keçirmişdir. Xalq məktəbləri tədris dairələri direktoru vəzifələri ləğv edilmiş və respublikada məktəb və maarif işinin idarə edilməsi Xalq Maarifi Nazirliyinin və xalq məktəbləri müfəttişlərinin sərəncamına verilmişdir. Bundan əlavə, Tiflisdəki Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan bölməsinin Qazaxa köçürülməsi üçün vəsaitin ayrılması

(22.06.18.); Azərbaycan dilinin dövlət dili qəbul edilməsi (27.06.18.); Xalq Maarifi Nazirliyinin dəftərxanasının ştatının tərtib edilməsi (30.06.18.); Türkiyədən müəllimlərin dəvət olunması və dərsliklərin gətirilməsi (22.07.18.); Məktəblərin milliləşdirilməsi, tədris müəssisələrində dövlət dili olan Azərbaycan dilinin məcburi tədris olunması (28.08.18); Xalq məktəbləri müfəttişliyinin təsis edilməsi (24.08.18); Pedaqoji kursların təşkil edilməsinə vəsaitin ayrılması (24.08.18.); Dövlət və ictimai tipoqrafiyaların Xalq Maarifi Nazirliyinin sərəncamına verilməsi (18.09.18.); Bakıda olan kağız ehtiyatlarının Xalq Maarifi naziri tərəfindən müsadirə edilməsi (18.09.18.); Gəncə sənət məktəbinin hərbi məktəbə çevrilməsi üçün vəsaitin ayrılması (01.10.18.); Zaqatala dairəsində 25 birsinfli məktəbin açılması üçün Xalq Maarifi Nazirliyinin sərəncamına vəsaitin ayrılması (29.10.18.); Xalq məktəbləri və ali-ibtidai məktəb müfəttişlərinin və müəllim seminariyaları direktorlarının Bakı şəhərində qurultayının keçirilməsinə vəsaitin ayrılması (17.12.18.); Gəncə və Nuxadakı müqəddəs Nina Qız Tədris Müəssisələrinin dövlət hesabına götürülməsi (18.12.18.); Yoxsul ailələrdən olan uşaqlara birdəfəlik müavinətlərin verilməsi (12.02.19.); Türk şriflərinin alınmasına vəsaitin ayrılması (03.02.19.); Ərəb əlifbasının islahatı üzrə komissiyanın yaradılması (21.03.19.); Bakı şəhərində 1919/1920-ci tədris ilində Universitetin açılmasının Xalq Maarifi nazirinə tapşırılması (08.04.19.) və s.və i.

Sonrakı dövrlərdə Azərbaycan Xalq Cümhuriyyətinin IV-V Hökumət kabinələri Azərbaycanın görkəmli dövlət və siyasi xadimi Nəsib bəy Yusifbəylinin başçılığı altında təşkil olunmuşdur. IV Hökumət kabinəsində (14.04.19 - 22.12.19) Xalq Maarifi və Dini Etiqadlar Nazirliyinə əvvəl Həmid bəy Şahtaxtinski (16.04.1919 - 16.05.1919) rəhbərlik etmişdir. Bunu xüsusi olaraq qeyd etməyi lazım bilirik ki, N.Yusifbəylinin sədrliyi ilə yaradılmış IV Hökumət kabinəsində (14.04.1919 - 22.12.1919.) Xalq Maarifi Nazirliyinə ilk vaxtdan R.Kaplanov deyil, məhz Həmid bəy Şahtaxtinski rəhbərlik etmişdir. O, bu barədə 1919-cu il aprelin 16-da Xalq Maarifi Nazirliyi üzrə 162 №li əmr imzalayıb elan etmiş, həmin əmr 25.04.1919-cu il tarixli “Azərbaycan” qəzetində dərc olunmuşdur. IV Hökumət kabinəsində

Xalq Maarifi Nazirliyinə əvvəl (16.04.18. - 16.05.18) H.b.Şahtaxtinskinin rəhbərlik etdiyini təsdiq edən dəlillərdən biri də Parlamentin 9 iyun 1919-cu il tarixli 46-cı iclasında Hökumət başçısı N.Yusifbəylinin çıxışıdır. O öz çıxışında deyirdi: "...Yeni hökumət təşkil olunandan sonra mən Maarif Nəzarəti başından çəkilməli oldum. Oraya Həmid bəyi Maarif Nəzarəti vəkili təyin etdik... Maarif Nəzarəti Həmid bəyin ixtiyarına keçəndən sonra məzbətə (protokol-qərarnamə) və kağız işləri ilə bərabər Ədyan (dini-etiqadlar) Nəzarəti də onun ixtiyarına keçmiş oldu... Bunun üzərində istefa verdi... hökumət bu istefanı qəbul etməmiş iş başından çəkildi".

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin 16 may 1919-cu il tarixli iclasında baş nazir N.Yusifbəylinin Maarif və Dini Etiqadlar Nazirliyinin rəhbəri H.Şahtaxtinskinin istefası barədə məruzəsi dinlənilərək qərara alınmışdır ki, H.b.Şahtaxtinski tutduğu vəzifəsindən azad edilsin və həmin nazirliyin müvəqqəti olaraq idarə olunması Poçt və Teleqraf nazirinə həvalə edilsin.

Poçt və Teleqraf naziri Camo Hacinski 1919-cu il mayın 16-dan iyunun 11-dək müvəqqəti olaraq Xalq Maarifi və Dini Etiqadlar naziri vəzifəsini icra etmişdir. Xalq Maarifi nazirinin müavini N.Şahsuvarovun həmin nazirliyin rəhbəri vəzifəsinin icrasına başlaması ilə əlaqədar olaraq, C. Hacinski 1919- cu il 11 iyun tarixli əmrlə Xalq Maarifi və Dini Etiqadlar Nazirliyinin idarə olunmasını həmin gündən etibarən N.Şahsuvarova təhvil verdiyini elan etmiş, həmin əmr 15 iyun 1919-cu il tarixli 122 №li "Azərbaycan" qəzetində dərc olunmuşdur.

N.Şahsuvarov N.Yusifbəylinin IV Hökumət kabinəsində 1919-cu il iyunun 11-dən iyunun 22-dək, cəmi 11 gün Xalq Maarifi və Dini Etiqadlar naziri vəzifəsini icra etmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 19 iyun 1919-cu il tarixli qırx doqquzuncu iclasında sədrlik etmiş Həsən bəy Ağayev hökumətin təklifi ilə Dağıstan Cümhuriyyətində Maarif və Dini Etiqadlar naziri vəzifəsini tutmuş Rəşid bəy Kaplanovun kabinəyə dəvət olunması və qəbulu barədə məlumat vermişdir. Rəşid bəy Kaplanov 22 iyun 1919-cu il tarixdən etibarən Maarif və Dini Etiqadlar

naziri vəzifəsini icra etməyə başlamışdır. O, 1919-cu il iyunun 22-də 193 №-li əmr imzalayaraq bu barədə nazirliyə elan etmişdir. R.Kaplanov, N.Yusifbəylinin başçılıq etdiyi IV Hökumət kabinəsində dekabrın 22-dək Maarif və Dini Etiqadlar naziri vəzifəsini icra etmişdir. Beləliklə, Xalq Maarifi Nazirliyinə ən uzun müddət rəhbərlik etmiş şəxs N.Yusifbəyli özü olmuş (təxminən 11 ay), daha sonra R.Kaplanov (6 ay), H.Şahtaxtiski (təxminən 3,5 ay), N.Şahsuvarov (1 ay 6 gün) və C.Hacinski (təxminən 27 gün) Xalq Maarifi naziri vəzifəsini tutmuşdur.

Nazirlər Şurasının sədri N.Yusifbəyli 18 sentyabr 1919-cu il tarixdə Parlamentə məktub göndərərək onun başçılıq etdiyi kabinənin istefasının qəbul etməsini xahiş etmişdir. Qeyd edək ki, müxtəlif siyasi partiyalar arasındakı ziddiyyətlər və mövqe ayrılıqları koalision hökumət yaratmaq imkanını məhdudlaşdırdığı üçün bu böhran dekabrın sonunadək davam etmiş və nəhayət 1919-cu il dekabrın 22-də Parlamentin yüz doqquzuncu iclasında N.Yusifbəylinin sədrliyi ilə yeni, sayca V Hökumətin tərkibi təsdiq edilmişdir. V Hökumət kabinəsində (22.12.1919 - 30.03.1920) Həmid bəy Şahtaxtinski Maarif naziri, R.Kaplanov isə Ədyan və Maliyyə naziri vəzifəsinə təyin edilmişlər. Maarif naziri H.Şahtxtinski 1920-cu il martın 5-də istefa vermiş və onun yerinə N.Şahsuvarov təyin edilmişdir. N.Şahsuvarov V Hökumət kabinəsində 1920-cu il martın 5-dən 30-na dək (cəmi 25 gün) Maarif naziri vəzifəsini icra etmişdir. O, martın 30-da bütün kabinə ilə birgə istefaya çıxmışdır.

Ölkədə yaşanan bütün çətinlik və gərginliklərə baxmayaraq, 1919-cu ilin aprelindən 1920-ci ilin aprelinədək olan müddətdə təhsil və maarifin inkişafı məsələləri daim Parlament və Hökumətin diqqət mərkəzində olmuşdur. Təkcə bunu qeyd etmək kifayətdir ki, Respublikanın 1919-cu ilə olan büdcə xərclərində Xalq Maarifi Nazirliyinə ayrılan xərclər 103.035.150 rubl təşkil etmişdir ki, bu da öz həcminə görə Hərbi Nazirlik (399.454.242. rubl) və Dövlət dəmir yollarının istismarına (394.914.590.rubl) ayrıan xərclərdən sonra üçüncü pilləni tuturdu. Ölkədə təhsil sisteminin böhranlı vəziyyətdən çıxarılması, məktəb islahatlarının aparılması, əmlakı dağıdılmış və viran edilmiş

məktəblərin bərpa edilməsi və yenilərinin tikilməsi üzrə işlər davam etdirilmiş və bu işdə müəyyən nəticələr əldə etmək mümkün olmuşdur. Məsələn, əgər 1918-ci ildə Şamaxı və Göyçay qəza müfəttişliyində uçotda olan 108 məktəbdən yalnız 10-u fəaliyyət göstərirdisə, 1919/1920-ci tədris ilində belə məktəblərin sayı 70-ə çatdırılmışdır. Bundan əlavə, görülmüş işlərin nəticəsi idi ki, 1919-cu ildə Bakı orta texniki və kommersiya məktəbləri, iki kişi və üç qadın gimnaziyası istisna olmaqla, ölkədə fəaliyyət göstərən bütün təhsil müəssisələri milliləşdirilmişdi. 1919/1920-ci tədris ilinin əvvəllərində Azərbaycanın 668 ibtidai, 23 orta və orta-ixtisas məktəbi (6 kişi və 4 qadın gimnaziyası; 5 realnı məktəb, 3 "Müqəddəs Nina" qız məktəbi, 3 müəllimlər seminariyası, 1 politexnik və 1 kommersiya məktəbi fəaliyyət göstərirdi.

Xalq Maarifi Nazirliyi Respublikada ali təhsilin təşkilini və ilk növbədə Bakı Dövlət Universiteti, Dövlət Konservatoriyası, Kənd Təsərrüfatı İnstitutu, Dövlət Pedaqoji İnstitutu, Dövlət İncəsənət İnstitutunun açılmasını bir vəzifə kimi qarşısına qoymuşdu. Arxiv sənədləri təsdiq edir ki, yuxarıda adları çəkilən ali məktəblərin təşkili üzrə Xalq Maarifi Nazirliyi tərəfindən müəyyən hazırlıq işləri görülmüş və həmin ali məktəblərin bəzilərinin layihələri işlənib hazırlanaraq baxılmaq üçün Hökumətə təqdim edilmişdi. Bakı şəhərində orta məktəblərə pedaqoqlar hazırlayacaq ali pedaqoji institutun təşkili üzrə layihəni işləyib hazırladığına görə Azərbaycan Respublikasının Nazirlər Şurası Həmid bəy Şahtaxtinskiyə 10 min rubl məbləğində mükafatın verilməsinə icazə vermişdi. Bu barədə o dövrün 28 aprel 1920-ci il tarixli 84 №li "Azərbaycan" qəzetində (rus dilində) məlumat dərc edilmişdir. Lakin o dövrün tarixi şəraiti yalnız bir ali məktəbin - Bakı Dövlət Universitetinin açılmasına imkan vermişdir. Azərbaycan Parlamenti 1 sentyabr 1919-cu ildə Bakı Dövlət Universitetinin açılması haqqında qanun qəbul etmişdir. Qanunda Universitetin 4 fakultədən:-tarix-filologiya (şərq şöbəsi ilə birgə), fizika-riyaziyyat, hüquq və tibb fakultəsindən ibarət olduğu göstərilirdi.

Qeyd edək ki, həmin dövrdə Xalq Maarifi Nazirliyi tərəfindən təhsil sahəsində həyata keçirilən islahatlar içərisində realnı məktəblə-

rinin, kişi və qadın gimnaziyaları və müəllim seminariyaları şəbəkəsinin genişləndirilməsi məsələsi mühüm yer tuturdu. Təhsil siyasətində məktəb islahatlarının uğurla həyata keçirilməsi üçün dövlət proqramının tərtib edilməsinə ehtiyac duyulurdu. Məktəb islahatı üzrə dövlət proqramının tərtibi və qarşıda duran vəzifələrin müəyyən edilməsi məqsədilə Bakıda xalq müəllimlərinin qurultayı keçirilmişdir. 1919-cu il avqustun 2-də Hökumətin qərarı ilə avqustun 20-dən sentyabrın 1-dək Bakı şəhərində Xalq müəllimləri qurultayının keçirilməsi üçün 35 min 600 rubl məbləğində pul vəsaiti ayrılmışdır. Qurultayda qəbul edilmiş qəqarlar təhsil işçilərinin fəaliyyət proqramına çevrilmişdir.

Azərbaycan Hökuməti 1919/1920-ci illərdə ölkədə təhsilin, təlim-tədris sahələrinin inkişaf etdirilməsinə yönəldilmiş bir sıra qərarlar qəbul etmişdir ki, onlardan da bir neçəsini qeyd edirik: Xalq Maarifi Nazirliyinə lazım olan kitabların əldə edilməsi üçün Maarif nazirinin sərəncamına 18 min rubl məbləğində pulun ayrılması /18.04.19/; Müsəlman xeyriyyə cəmiyyəti nəzdindəki qadın peşə məktəbində dərslərin bərpası üçün otuz min rubl məbləğində pul vəsaitinin ayrılması /25.04.19/; Ana dilində dərsliklərin tərtibi üzrə yaradılmış komissiyaların saxlanılmasına 152 min rubl məbləğində pul vəsaitinin ayrılması /20.06.19/; Xalq Maarifi Nazirliyi nəzdindəki universitet komissiyasının müvəqqəti ştatının təsdiq edilməsi /16.06.19/; Bakı Dövlət Universitetinin təşkili üçün tələb olunan ilkin xərclərin ödənilməsi məqsədilə Xalq Maarifi nazirinin sərəncamına 1 mln.rubl məbləğində pul vəsaitinin ayrılması /25.06.19/; Ana dilində dərsliklərin dərc edilməsi üçün kağız alınması məqsədi ilə Xalq Maarifi nazirinin sərəncamına 1 mln. 500 min rubl məbləğində pul vəsaitinin ayrılması /25.06.19/; Bakı şəhərində Dövlət Universitetinin təsis edilməsi barədə qanun layihəsinin bəyənilməsi və təsdiq edilməsi üçün Parlamentə təqdim edilməsi /07.07.19/; Bakı Dövlət Universitetinin rektor və dekanlarının təsdiq edilməsi /08.09.19/; Tələbə və abiturientlərin hərbi xidmətə çağırışdan azad edilməsi /09.05.19/; Tələbə və abiturientlərin xaricə oxumağa göndərilməsi üçün pul vəsaitinin ayrılması /05.08.19/; Dəmiryolu, poçt-teleqraf məktəblərində oxuyan şagirdlərin, dövlət tipoqrafiyasında çalışan qulluqçuların,

tipoqrafiya üzrə mütəxəssislərin müvəqqəti olaraq orduya çağırışdan azad edilməsi /02.08.19/; Bakı şəhərində ali-ibtidai məktəblərin saxlanılması üçün Bakı şəhər idarəsinə 4.708.306 rubl məbləğində maddi yardımın ayrılması /25.01.20/; Bakı və Zaqatalada müəllimlər seminariyasının açılmasına 4 mln. rubl məbləğində pul vəsaitinin ayrılması /02.02.20/ və s.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ilə yanaşı, Azərbaycan Parlamenti də fəaliyyətində ölkədə təhsilin, maarifin inkişaf etdirilməsi məsələlərinə mühüm yer ayırmışdı. Ölkədə təhsil sisteminin inkişaf etdirilməsi məqsədilə qəbul edilmiş Qanun və qərarlar bu fikri söyləməyə əsas verir. Parlament tərəfindən aprel 1919-cu ildən aprel 1920-ci ilədək qəbul edilmiş həmin Qanunlardan bir çoxunu qeyd edirik: Aşağı ibtidai məkətblərin müəllim və qulluqçularının saxlanılması üzrə məvaciblərin müəyyən edilməsi /12 may 1919/; Qadın orta təhsil müəssisələrinin əsasnamələrinə əlavə və düzəlişlərin edilməsi /02 iyun 1919/; Qazax, Nuxa, Şuşa, Quba, Zaqatala, Salyan, Bakı və Gəncədə qısamüddətli (iki aylıq) pedaqoji kursların açılması /17 iyul 1919/; Təhsil almaq məqsədi ilə xaricə göndərilmiş tələbələrə yol xərci və təqaüdlərin verilməsi üçün Xalq Maarifi Nazirliyinin sərəncamına 7 mln. rubl məbləğində pul vəsaitinin ayrılması / 01.09.1919/; Xalq məktəblərinin kitabxanalarına ana dilində yeni kitabların alınması üçün Xalq Maarifi Nazirliyinin sərəncamına 1 mln. rubl məbləğində pul vəsaitinin verilməsi /18.09.19/; Göyçayda realnı məktəbin açılması /03.11.19/; Kişi orta təhsil müəssisələrində olduğu kimi qadın orta təhsil müəssisələrinədə də sinif rəhbərinin köməkçisi vəzifəsinin təsis edilməsi /13.11.19/; Xalq Maarifi Nazirliyi nəzdində 1 yanvar 1920-ci ildən etibarən yeni beş xalq məktəbi müfəttişləri vəzifələrinin təsis edilməsi /01.03.20/; Bakı sərbəst feldşer məktəbinin Xalq Səhiyyə Nazirliyinin tabeçiliyinə verilməsi /11.12.19/; Azərbaycan Milli Gimnaziyası nəzdində Uşaq bağçasının açılması /01.03.20/; Quba qəzasının Xuluq kəndində 01.10.1919-cu ildən etibarən ali-ibtidai məktəbin açılması /12.04.20/; Şuşa qəzasının Ağdam kəndində 01.10.1919-cu il tarixdən etibarən ali-ibtidai məktəbin açılması /12.04.20/ və s.

Azərbaycan Hökuməti, Xalq Maarifi Nazirliyi 1918-1920-ci illərdə xalq təhsilini milli köklər üzərində yenidən qurmaq üçün taleyüklü tədbirlər həyata keçirmiş, dərsliklərin milli maarif xadimləri və müəllimləri tərəfindən hazırlanması işinə xüsusi diqqət yetirmişdir. Bu vəzifəni yerinə yetirmək üçün Xalq Maarif Nazirliyinin xüsusi komissiyası da təşkil edilmişdir.

1919-cu ildə Azərbaycanın görkəmli maarif və ədəbiyyat xadimləri Hüseyn Cavid, Mahmud bəy Mahmudbəyov, Abdulla Şaiq, Cəmo Cəbrayılbəyli, Səməd bəy Acalov, Fərhad Ağazadə, Ağabəy İsrafilbəyov, Abdulla bəy Əfəndizadə və başqalarının iştirakı ilə işlənib hazırlanmış "Türk (Azərbaycan) əlifbası", "Təzə elmi-hesab", "İkinci il", "Yeni məktəb", "Ədəbiyyat dərsləri", "Müntəxabat", "Türk çələngi", "Tarixi təbii" dərsliklərini Xalq Maarifi Nazirliyi kütləvi nəşrlə buraxmışdır.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə təhsil, maarif və mədəni quruculuq sahələrində həyata keçirilmiş tədbirlər sonrakı dövrlərdə də respublikamızda təhsilin və xalq maarifinin inkişafında mühüm rol oynamışdır. Doğrudur, Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu müddət olduqca qısadır, lakin buna baxmayaraq, xalqımızın taleyində, onun tarixində, o cümlədən təhsil tarixində dərin iz buraxmışdır. Azərbaycan dili müstəmləkəçilik dövründə itirilmiş mövqelərini bərpa etmiş, dövlət dili statusunu qazanmış, ölkənin tədris, təlim-tərbiyə dilinə çevrilmişdir. Ana dilli məktəblər şəbəkəsinin yaradılmasını, maarif və mədəniyyət sahəsində milliləşmə tədbirlərinin həyata keçirilməsini, ümumi, ali, orta ixtisas, hərbi təhsilin təşkilini, azərbaycanlı uşaqların öz doğma Azərbaycan dilində və milli müəllim və pedaqoqlar tərəfindən tərtib edilmiş dərsliklər əsasında təhsil almaq imkanını əldə etməsini, gənclərin təhsil almaq üçün dövlət hesabına xarici ölkələrə göndərilməsini, habelə ölkənin mədəni həyatının digər sahələrində aparılmış quruculuq işlərini böyük nailiyyət hesab etmək olar. Bu naliyyətlərin əldə edilməsində Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti və Parlamenti ilə yanaşı, bilavasitə Xalq Maarifi Nazirliyinin və ona rəhbərlik etmiş şəxslərin misilsiz xidmətləri olmuşdur.

# HƏMİD BƏY ŞAHTAXTİNSKİ

Azərbaycan Xalq Cümhuriyyətinin dövlət xadimlərindən biri, öz dövrünün tanınmış ictimai-siyasi xadimi, maarifçi-pedaqoq Həmid bəy Xəlil bəy oğlu Şahtaxtinski 1880-cı il martın 12-də Naxçıvan qəzasının Şahtaxtı kəndində anadan olmuşdur. İlk təhsilini mollaxanada almış, üçüncü dərəcəli şəhər məktəbində oxumuşdur. 1899-cu il iyunun 5-də İrəvan müəllimlər seminariyasının tam kursunu bitirərək 379№li attestat almışdır. O, 1899-cu il sentyabrın 1-də İrəvan rus-tatar məktəbinə müəllim təyin edilmişdir. Qafqaz tədis dairəsi popeçitelin 27 oktyabr 1901-ci il tarixli 14622 №li təklifi ilə H.b.Şahtaxtinskiyə İrəvan müəllimlər seminariyasında türk (Azərbaycan) dili dərslərinin tədris etməsinə icazə verilmiş, Popeçitelin (Təhsil idarəsinin) 9 aprel 1902-ci il tarixli 4958 №li təklifi ilə o, tutduğu vəzifəyə təsdiq olunmuşdur. İrəvan müəllimlər seminariyasında 5 ildən artıq bir müddətdə pedaqoji fəaliyyət göstərdikdən sonra 1907-ci il oktyabrın 23-də öz xahişi ilə vəzifəsindən azad edilmişdir.

H.b.Şahtaxtinski Odessada Novorossiysk İmperator Universitetində ali təhsil almış, hüquq fakultəsini bitirmiş və 1913-cü il mayın 30-da ikinci dərəcəli diploma layiq görülmüşdür.

Qafqaz tədris dairəsi Popeçitelin 2 fevral 1915-ci il tarixli, 2568 №li təklifi ilə Bakı ali-ibtidai məktəbə müəllim təyin edilmişdir. H.Şahtaxtinski Qafqaz Canişinin icazəsinə əsasən Popeçitelin 18 sentyabr 1915-ci il tarixli 22198 №li təklifi ilə 1915-ci il sentyabrın 1-dən etibarən Yelizavetpol müəllimlər seminariyasına ştatdan kənar riyaziyyat müəllimi təyin edilmişdir. Xeyli müddətdən sonra Həmid bəy Şahtaxtinski Popeçitelin 10 avqust 1916-cı il tarixli, 21266 №li təklifi ilə 1 avqust 1916-cı il tarixdən etibarən Yelizavetpol quberniyasının 2-ci rayonu - Ərəş, Qazax və Nuxa qəzaları üzrə xalq məktəbləri müfəttişi təyin edilmişdir. Həmin təyinatla əlaqədar olaraq Yelizavetpol quberniyasının xalq məktəbləri direktoru həmin quberniyanın 2-ci rayonu üzrə xalq məktəbləri müfəttişi vəzifəsini müvəqqəti olaraq icra edən G.Leontyevə 1916-cı il avqustun 16-da 3841№li məktub göndərərək həmin müfəttişliyi Ərəş, Qazax və Nuxa qəzaları üzrə xalq

məktəbləri müfəttişi vəzifəsinə yeni təyin edilmiş H.Şahtaxtinskiyə təhvil verməsini ondan xahiş etmişdir.

Qeyd edək ki, H.b.Şahtaxtinski Yelizavetol quberniyasının şəhər və kəndlərində tədris ocaqlarının, məktəblərin açılmasına böyük əmək sərf etmişdir. Qafqaz Tədris dairəsinin popeçiteli 1916-cı il oktyabrın 12-də Yelizavetol quberniyasının xalq məktəbləri direktoruna məktub göndərərək 1916-cı il sentyabrın 7-də Qazaxda rus-müsəlman qadın məktəbinin təntənəli açılışında yaxından iştirak etmiş şəxslərə və şəxsən xalq məktəbləri müfəttişi Həmid bəy Şahtaxtinskiyə onun dərin minnətdarlığını bildirməyi xahiş etmişdir. Popeçitel həmin məktubda Qazaxda açılmış bu gənc təhsil ocağına fəaliyyətində müvəffəqiyyətlər arzuladığını bildirirdi.

Həmid bəy Şahtaxtinski Yelizavetol quberniyasında yalnız pedaqoji fəaliyyətlə məşğul olmamışdır. O, iki ilə yaxın Yelizavetol dairə məhkəməsində andlı müvəkkilin köməkçisi vəzifəsində işləmiş və sonra Bakıya gələrək Bakı dairə məhkəməsində eyni vəzifədə qulluq etmişdir. H.b.Şahtaxtinski Bakı dairə məhkəməsi şöbələrinin ümumi iclasının qərarı ilə 1916-cı il sentyabrın 10-da Bakı dairə məhkəməsinin andlı müvəkkillərin köməkçilərinin siyahılarından xaric edilmişdir. Bu barədə Bakı dairə məhkəməsi sədrinin Yelizavetpol quberniyasının xalq məktəbləri direktoruna göndərdiyi 14 oktyabr 1916-cı il tarixli məktubda bildirilirdi.

1917-ci ilin fevralında Rusiyada baş vermiş burjua-demokratik inqilabından sonra milli partiya və təşkilatların fəaliyyəti leqallaşdırıldı. Yeni partiyalar yaranmağa başladı. Azərbaycanın mütərəqqi demokratik ziyalıları fevral inqilabını böyük ümidlərlə qarşıladılar. M.Ə.Rəsulzadənin fikrincə, “1917-ci il inqilabı məhkum siniflərə hürriyyət, məhkum millətlərə muxtariyyət verəcəkdir.”

Fevral burjua inqilabından sonra təsis edilən Rusiyada Müsəlmanlıq Partiyası 1917-ci ilin sonlarına yaxın İttihad partiyası adlandırıldı. H.Şahtaxtinski 1917-ci ildən İttihad partiyasının üzvü olmuşdur.

Zaqafqaziyanı idarə etmək üçün Duma deputatlarından yaradılmış xüsusi komitə 1917-ci il oktyabrın 7-də Yelizavetol quberniyası xalq məktəbləri direktoruna məktub göndərərək 1 avqust 1916-cı ildən

etibarən Yelizavetol quberniyasının 2-ci rayonu üzrə xalq məktəbləri müfəttişi vəzifəsini icra edən H.b. Şahtaxtinskinin tutduğu həmin vəzifəyə təsdiq edildiyini bildirmişdir.

H.b.Şahtaxtinski Zaqafqaziya Hökumətində Xalq Maarif Nazirinin müavini vəzifəsinə təyin edildiyi üçün 1918-ci il martın 27-də Yelizavetpol quberniyası xalq məktəbləri müfəttişi vəzifəsindən azad edilmişdir. Bu barədə Zaqafqaziya Xüsusi Komitəsinin Zaqafqaziya Tədris Dairəsinin idarə edilməsi üzrə Komissarlığının sədri L.İşkov, Komissarlığın üzvü A.X.Yusifbəyova və dəftərxanın sədrinin imzası ilə Yelizavetol quberniyasının xalq məktəbləri direktoruna 1918-ci ilin aprelin əvvəllərində göndərdiyi məktubda bildirilirdi.

Həmid bəy Şahtaxtinski1918-ci mayın 27-də yaradılmış Azərbaycan Milli Şurasının üzvü olmuşdur. 1918-ci il mayın 28-də Tiflisdə şəhərində keçmiş Qafqaz Canişininin sarayında Milli Şuranın keçirilmiş ilk iclasında Azərbaycanın dövlət müstəqilliyi barədə qərar qəbul edilmişdir. İstiqlal Bəyannaməsinin qəbul edildiyi həmin tarixi iclasda Milli Şuranın üzvü Həmid bəy Şahtaxtinski də iştirak etmiş və İstiqlal Bəyannaməsini imzalamış 26 deputatdan biri olmuşdur. H.b.Şahtaxtinski Azərbaycanın II müvəqqəti Hökumətinin 26 avqust 1918-ci il tarixli qərarı ilə Xalq Maarif Nazirinin müavini təyin edilmişdir. O, F.X.Xoyskinin sədrlik etdiyi Azərbaycan Xalq Cümhuriyyətinin II-III hökumət kabinələrində Xalq Maarif Nazirinin müavini vəzifəsini icra etmişdir. H.Şahtaxtinski 1918-ci il dekabrın 7-də təntənəli surətdə açılmış Azərbaycan Parlamentinə üzv seçilmişdir. Lakin Həmid bəy Şahtaxtinskihökumət qulluğunda olduğu üçün Parlamentin qəbul etdiyi "məbusluq və məmurluq haqqında" qanunun tələblərinə uyğun olaraq məbusluqdan ayrılmalı olmuşdur. H.b.Şahtaxtinski N.b.Yusifbəylinin sədrliyi ilə yaradılmış IV hökumət kabinəsində 1919-cu il aprelin 16-dan mayın 16-dək Xalq Maarif Nazirliyini idarə etmişdir. O, 1919-cu il aprelin 16-da Xalq Maarif Nazirliyini idarə etməyə başlaması haqqında 162 №li əmr imzalayaraq bunu Nazirliyə elan etmişdir. H.b. Şahtaxtinskinin imzaladığı həmin əmr 25 aprel 1919-cu il tarixli "Azərbaycan" qəzetində dərc edilmişdir.

N.b.Yusifbəylinın sədrliyi altında yaradılmış IV Hökumət kabinəsində Xalq Maarif Nazirliyinə əvvəlcə H.b.Şahtaxtinskinin rəhbərlik etdiyini təsdiq edən dəlillərdən biri də Parlamentin 9 iyun 1919-cu il tarixli 46-cı iclasında Hökumət başçısı N.b.Yusifbəylinin çıxışıdır. N.b.Yusifbəyli həmin çıxışında qeyd etmişdir ki, ”...Yeni hökumət təşkil olunandan sonra mən maarif nəzarəti başından çəkilməli oldum. Oraya Həmid bəyi Maarif nəzarəti vəkili təyin etdik... Maarif nəzarəti Həmid bəyin ixtiyarına keçəndən sonra məzbətə (protokol-qətnamə) və kağız işləri ilə bərabər ədyan (dini etiqadlar) nəzarəti də onun ixtiyarına keçmiş oldu... Bunun üzərində istefa verdi... hökumət bu istefanı qəbul etməmiş iş başından çəkildi...”

Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 16 may 1919-cu il tarixli iclasında Baş nazir N.b.Yusifbəylinin Maarif dini etiqadlar nazirliyinin rəhbəri H.b.Şahtaxtinskinin istefası barədə məruzəsi dinlənilərək qərara alınmışdır ki, Həmid bəy Şahtaxtinskitutduğu vəzifəsindən azad edilsin və həmin nazirliyin müvəqqəti olaraq idarə olunması Poçt və teleqraf nazirinə həvalə edilsin. Sonralar N.b.Yusifbəylinin sədrliyi ilə yaradılmış V hökumət kabinəsində (22.12.1919 - 30.03.1920) Həmid bəy Şahtaxtinski Maarif Naziri təyin edilmişdir. O, 1920-ci il martın 5-də Maarif naziri vəzifəsindən istefa etmişdir.

Tarixi mənbələr təsdiq edir ki, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti yarandığı ilk gündən etibarən xalq təhsili və mədəniyyətin inkişaf etdirilməsini taleyüklü məsələ kimi ön cərgəyə çəkmişdir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə H.b.Şahtaxtinskinin ölkədə xalq maarifi və təhsilinin inkişafında böyük xidmətləri olmuşdur. Xalq Maarif Nazirliyi nəzdində H.b.Şahtaxtinskinin sədrliyi ilə Bakı şəhərində ümumi ictimai kitabxananın yaradılması üzrə komissiya fəaliyyət göstərmişdir. Bu barədə 4 aprel 1919-cu il tarixli Azərbaycan qəzetində məlumat verilmişdir. Həmin kommissiya tərkibində nadir tapılan kitablar olan şəxsi kitabxananın alınması üçün 18 min rubl pul vəsaitinin ayrılması üçün hökumətə müraciət etmişdir. Kitabxananın yeni tədris ilinin əvvəllərinə açılması nəzərdə tutulmuşdur. Kitabxananın təşkili və ləvazimatla təchizi üçün Hökumətdən yarım milyon rubl pul xahiş edilirdi. Bildirilirdi ki, Komissiya tərəfindən artıq kitabxa-

nanın ştatı işlənib hazırlanmış və Zaqafqaziya Universitetinin Bakı şəhərinə köçürüləcəyini də nəzərə alaraq həmin kitabxananın şəhər üçün qiymətli mədəni nailiyyət olacağı bildirilirdi. Kitabların alınması üçün hökumətin 18 aprel 1919-cu il tarixli qərarı ilə Xalq maarif nazirinin sərəncamına 18 min rubl pul vəsaiti ayrılmışdır. Bunu da qeyd edək ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə hökumətin qəbul etdiyi qərarlar əsasında Kitabxana Kollektoru və iki iri kitabxana - 1918-ci ildə Mirzə Ələkbər Sabir adına kütləvi kitabxana, 1919-cu ildə isə Bakı Dövlət Universitetinin elmi kitabxanası təşkil edilmişdir.

1920-ci il aprel işğalına qədər Azərbaycanda 965 məktəb və 102 şəhər və kənd kitabxanası fəaliyyət göstərmişdir. Həmin dövrdə ölkədə fəaliyyət göstərən bütün təhsil müəssisələrində - xalq məktəblərində, gimnaziyalarda, realnı məktəblərdə və s. kitabxanalar yaradılmışdır. Cümhuriyyət hökumətin qəbul etdiyi qərarlar əsasında ölkəmizin bir çox bölgələrində kitabxanaların təşkil edilməsi işində H.b. Şahtaxtinskinin xidmətləri danılmazdır.

H.b.Şahtaxtinski tədrisi Azərbaycan dilində apara bilən təcrübəli müəllim kadrlarının hazırlanması üzrə 1918-ci il sentyabrın 9-dan etibarən açılmış kurslara da rəhbərlik etmişdir. Belə kurslar Nuxa və Zaqatalada açılmış, gələcəkdə isə Şuşa şəhərində açılması da nəzərdə tutulmuşdur. Xalq məktəbləri müəllimlərinin hazırlığı üzrə açılmış kursların saxlanması üçün Hökumətin 24 avqust 1918-ci il tarixli qərarı ilə Xalq maarif nazirinin sərəncamına 126 min 759 rubl 50 qəpik məbləğində vəsait ayrılmışdır.

Respublikada məktəb-tədris, təhsil, təlim-tərbiyə işlərinin ən aktual məsələlərini müzakirə etmək və həlli yollarını tapmaqdan ötrü 1918-ci il dekabrın 13-dən 28-dək Bakı şəhərində 2-ci real məktəbin zalında Xalq Maarif Nazirinin müavini Həmid bəy Şahtaxtinskinin sədrliyi ilə xalq və ali-ibtidai məktəb müfəttişləri və müəllim seminariyaları direktorlarının qurultayı keçirilmişdir. Respublikamızda maarif-təhsil, təlim-tərbiyə işinin tanınmış xadimləri və görkəmli pedaqoqlarından olan Həmid bəy Şahtaxtinski, Azad bəy Əmirov, Rəşid bəy Əfəndiyev, Soltan Məcid Qəniyev, Abdulla bəy Əfəndiyev, Firudin bəy Köçərli, Cavad Cuvarlinski, Səməd bəy Acalov, Ə.Mus-

tafayev, M.Mahmudov, N.Nərimanbəyov, Ş.Səfərəlibəyov və digər tanınmış pedaqoqların yaxından iştirakı ilə keçirilmiş həmin qurultay böyük əhəmiyyətə malik olmuşdur. Qurultayda Xalq maarif nazirinin müavini H.b.Şahtaxtinskinin təklifi ilə Resublikada fəaliyyət göstərən bütün ibtidai (zemstvo, prixod (məhəllə), normal) məktəblərin “Azərbaycan Resublikası Xalq Maarifi Nazirliyinin aşağı ibtidai məktəbləri” vahid termini altında birləşdirilməsi və onların saxlanması üzrə xərclərin dövlət xəzinəsindən maliyyələşdirilməsi barədə qərar qəbul edilmişdir. Bundan əlavə, məktəb mükəllifiyyətlərinin ləğv edilməsi, xalq müəllimlərinin hüquqi vəziyyətlərinin eyniləşdirilməsi və onların arasında yol verilmiş ayrı-seçkiliyin və ögey münasibətin aradan qaldırılması, yeni tədris proqramlarının işlənib hazırlanması, dərsliklərin seçilməsi, məktəbdənkənar təhsil və bununla bağlı məktəb kitabxanalarının təşkili, uşaq və pedaqoji jurnalların buraxılması, ibtidai məktəblərdə bədən tərbiyəsi işinin qoyuluşu, müəllim qıtlığı probleminin müzakirəsi və onun həlli yollarının araşdırılması, müəllimlərin əməyinin ödənilməsi və s. həlli tələb olunan məsələlər üzrə müvafiq qərarlar qəbul edilmiş, təklif və tövsiyyələr verilmişdir.

H.b.Şahtaxtinskinin sədrliyi ilə keçirilmiş həmin qurultayda məktəbləri ölkənin əsas mədəni-maarif dayağı kimi qiymətləndirən, şəxsi mənfəət ardınca qaçmayaraq öz həyatlarını resublikanın kənd, rayon və şəhərlərində savadlı nəslin yetişdirilməsi kimi son dərəcə vacib məsələnin həllinə həsr edən müəllim və pedaqoqların qarşılaşdıqları problemlərin müzakirə edilməsi və onların aradan qaldırılması istiqamətində müvafiq qərarların qəbul edilməsi böyük əhəmiyyət kəsb edirdi. Xüsusi olaraq qeyd edək ki, həmin qurultay Azərbaycan Respublikası öz müstəqilliyini əldə etdikdən sonra müəllim və pedaqoqlarının çağırılmış ilk qurultayı olmuşdur. Bu qurultayda müzakirə edilən məsələlər və qəbul edilmiş qərarlar, habelə məktəb-tədris və təlim-tərbiyə işinin müxtəlif sahələri üzrə irəli sürülmüş elmi-pedaqoji ideyalar və təkliflər öz müstəqilliyini yenicə əldə etmiş Resublikada aparılan yeni məktəb quruculuğu işində son dərəcə əhəmiyyətli olmaqla yanaşı, sonrakı dövrlərdə təhsil işçilərinin - direktor, müfəttiş və müəllimlərin fəaliyyət proqramına çevrilmişdir. Qurultayın qərarını

əsas tutan Xalq Maarif Nazirliyi həmin qərarların bir çoxunun həyata keçirilməsi məqsədilə sonralar Hökumət və Parlament qarşısında məsələ qaldırmış, müvafiq qərar və qanunların qəbul edilməsinə nail olmuşdur ki, onlardan bəzilərini qeyd edirik: 1) Lazımi kitabların alınması üçün Xalq Maarif Nazirliyinin sərəncamına 18 min rubl pul vəsaitinin ayrılması; 2) Türk (Azərbaycan) şriftinin əldə edilməsi üçün Xalq Maarif Nazirliyinin sərəncamına 200 min rubl həcmində vəsaitin ayrılması; 3) Əlifba islahatı üzrə xüsusi komissiyanın yaradılması; 4) Yoxsul ailələrdən olan şagirdlərə müvəqqəti olaraq birdəfəlik müavinətlərin verilməsi; 5) Xalq müəllimlərinin hərbi mükəlləfiyyətdən azad edilməsi; 6) Aşağı ibtidai məktəb müəllim və qulluqçularının maaşları barədə Parlament tərəfindən qəbul edilmiş qanun və b.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Bakı şəhərində Ali Pedaqoji İnstitutun yaradılması H.b. Şahtaxtinskinin rəhbərliyi altında Xalq Maarif Nazirliyi tərəfindən layihələndirilmişdir. Bu barədə Azərbaycan Xalq Cümhuriyyətinin yarırəsmi mətbu orqanı olan "Azərbaycan" qəzetində (rusca) 29 aprel 1919-cu il tarixli məlumat verilmişdir. Məlumatda qeyd edilirdi ki, "Universitetin yaradılması barədə məsələ müsbət həll edildikdən sonra Xalq Maarif Nazirliyi gələn tədris ilinin əvvəllərindən etibarən orta məktəblər üçün pedaqoqlar hazırlayacaq ali təhsil ocağının - Pedaqoji İnstitutunun yaradılmasını layihələndirir. İnstitutun kursu dörd illik müəyyən edilmişdir. Burada pedaqoji elmlərə əsas üstünlük veriləcəkdir. İnstitutu bitirmiş şəxslər orta məktəblərdə bütün fənlər üzrə dərs demək iqtidarında olacaqdır. İnstitutun tələbələri üçün üç yeni dildən (fransız, alman, yaxud ingilis) birinin öyrənilməsi vaciib olacaqdır. Pedaqoji İnstitutda müəllimlik etmək üçün Universitetin professorları və ştatda olan lektorlar dəvət olunacaqlar. İnstitutda təhsil pulsuz olacaqdır. Tələbələr İnstitutu bitirdikdən sonra dörd il müddətində dövlət orta məktəblərində işləməlidirlər. İnstitutun nəzdində internatın açılması, İnstitutun tələbələri sırasına orta təhsil müəssisələrini və yeni proqramla müəllim seminariyalarını bitirmiş şəxslərin qəbul edilməsi nəzərdə tutulur. İnstitutun nəzdində köhnə prooqramla müəllimlər seminariyasını bitirmiş şəxslər üçün hazırlıq kursunun yaradılması planlaşdırılır. İnstitu-

tun hər kursunda tələbələrin sayı 20-25 nəfər olacaqdı. Yaxınlaşmaqda olan tədris ilinin əvvəllərində birinci kurs, daha sonra isə hər il ardıcıl olaraq növbəti kurslar açılacaq. İnstitutun nəzdində nümunəvi kişi gimnaziyası açılacaq ki, burada da İnstitutun sonuncu kurs tələbələri proofessorların nəzarəti altında sınaq dərslər deyəcəklər. Pedaqoji İnstitutun nəzdindəki nümunəvi gimaziyaya çox guman ki, hazırki 4-cü kişi gimnaziyası çevriləcəkdir.”

Azərbaycan Respublikasının Nazirlər Şurası Bakı şəhərində Ali Pedaqoji İnstitutun layihəsini tərtib etdiyinə görə Həmid bəy Şahtaxtinskiyə 10 rubl məbləğində mükafat verilməsinə icazə vermişdir. Bu barədə 28 aprel 1920-ci il tarixli 84 №li “Azərbaycan” qəzetində (rus dilində) məlumat dərc edilmişdir. Lakin məlum səbəblər ucbatından, habelə həmin dövrdə yaşanan çətinliklər Bakı şəhərində Ali Pedaqoji İnstitutun layihəsinin həyata keçirilməsini mümkün etməmişdir. Qeyd edək ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə Respublikamızda ali təhsilin təşkili üzrə bir sıra işlər görülmüşdür. Kənd Təsərrüfatı İnstitutu, Pedaqoji İnstitut, Dövlət Konservatoriyasının təşkili üzrə layihələr işlənib hazırlanmış, Dövlət İncəsənət İnstitutunun yaradılması üzrə layihənin işlənib hazırlanması üzrə müəyyən işlərin görülməsinə başlanmışdır. Lakin məlum səbəblər ucbatından həmin dövrdə ali məktəblərin təşkili üzrə görülmüş işləri başa çatdırmaq mümkün olmamışdır.

Azərbaycanda ali təhsilin təşkili və inkişafı tarixi bilavasitə Universitetin təşkili tarixi ilə bağlıdır. Azərbaycanda ilk ali təhsil ocağı kimi Bakı Dövlət Universitetini təsis etmək mümkün olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti tərəfindən 1919-cu il sentyabrın 1-də “Bakı Dövlət Darülfünunu haqqında” qanun qəbul edilmiş, “Bakı Dövlət Darülfünunun Nizamnaməsi” isə sentyabrın 29-da təsdiq edilmişdir. Qanun qəbul edildikdən sonra Universitetin əməli olaraq yaradılmasının surətləndirilməsində Zaqafqaziya Universiteti bağlandıqdan sonra Bakıya köçən tanınmış rus alimləri, professorları və müəllimləri – V.İ.Razumovski, N.A.Dubrovski, N.A.İşkov, A.A.Oşman başqalarının böyük xidmətləri olmuşdur.

Universitetin ilk rektoru, professor V.İ.Razumovskinin Azərbaycan Parlamentidəki çıxışından: "Parlamanın hörmətə layıq üzvləri. Siz böyük və tarixi iş gördünüz. Mən çox şadam ki, Darülfünunun təsisinə bütün partiyaların vicdanlı münasibət bəslədiyinin şahidi oldum. Azərbaycanda, hətta müsəlman dünyasında bu böyük hadisə - Darülfünun təsisi mərasimi təntənəsini qeyd etməyə, nəinki Parlamanı, buraya toplaşan kütlələrin şəxsində ictimai fikri də gördüyümə hədsiz xoşbəxdəm..."

Parlamentin sentyabrın 1-də qəbul etdiyi 10 maddədən ibarət sözügedən qanunda Universitetin 4 fakultəsi nəzərdə tutulurdu: Şərq şöbəsi olan tarix-filologiya, fizika-riyaziyyat və tibb.

Bakı Dövlət Universitetinin yaradılmasında M.Ə.Rəsulzadə, F.X.Xoyski, N.b.Yusifbəyli, R.Kaplanov, S.M.Qənizadə, H.b.Ağayev, Həmid bəy Şahtaxtinskivə onlarca digər tanınmış şəxsin böyük rolu olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti dövründə təhsil, maarif və mədəni quruculuq sahələrində həyata keçirilmiş tədbirlər sonrakı dövrlərdə də respublikamızda təhsilin və xalq maarifinin inkişafında mühüm rol oynamışdır. Doğrudur, Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu müddət - cəmi 23 ay tarix üçün olduqca qısa bir müddətdir, lakin buna baxmayaraq, xalqımızın taleyində, onun tarixində, o cümlədən təhsil tarixində dərin iz buraxmışdır. Azərbaycan dili müstəmləkəçilik dövründə itirilmiş mövqelərini bərpa etmiş, dövlət dili statusunu qazanmış, ölkənin tədris, təlim-tərbiyə dilinə çevrilmişdir. Ana dilli məktəblər şəbəkəsinin yaradılmasını, maarif və mədəniyyət sahəsində milliləşmə tədbirlərinın həyata keçirilməsini, ümumi,ali, orta ixtisas,hərbi təhsilin təşkilini, azərbaycanlı uşaqların öz doğma Azərbaycan dilində və milli müəllim və pedaqoqlar tərəfindən tərtib edilmiş dərsliklər əsasında təhsil almaq imkanını əldə etməsini, gənclərin təhsil almaq üçün dövlət hesabına xarici ölkələrə göndərilməsini, eləcə də ölkənin mədəni həyatının digər sahələrində aparılmış quruculuq işlərini böyük nailiyyət hesab etmək olar. Bu baxımdan, həqiqətən də Azərbaycan Xalq Cümhuriyyəti dövrünü son iki yüz ildə Azərbaycan dilinin funksional inkişafında dönüş nöqtəsi hesab etmək mümkündür. Bu naliyyətlərin əldə olunmasında Azərbaycan Respublika-

sının Hökuməti və Parlamenti ilə yanaşı, Xalq Maarifi Nazirliyi və ona rəhbərlik etmiş şəxslərin, o cümlədən Həmid bəy Şahtaxtinskinin xidmətləri danılmazdır. O, Bakı Dövlət Universitetində dərs deyən ilk azərbaycanlı kadrlardan və ana dilində ilk mülahizə oxuyan müəllim-lərdən biri olmuşdur. Həmid bəy Şahtaxtinski Azərbaycanın ümum-təhsil məktəbləri üzrə dərsliklərin, Azərbaycan dilində elmi termina-logiyanın tərtibi üzrə komissiyaların sədri olmuş, yeni Azərbaycan əlifbasının yazılmasında iştirak etmişdir. O, Azərbaycan Qadın Peda-qoji İnstitutunda da dərs demişdir. 1930-cu ildə ona professor adı verilmişdir.

Həmid bəy Şahtaxtinski repressiyaya məruz qalmış, 1941-ci ildə həbs olunaraq Arxangelsk vilayətinə sürgün edilmiş, 1944-cü il fevralın 3-də orada vəfat etmişdir.

# FİRUDİN BƏY KÖÇƏRLİ

Azərbaycanın görkəmli ədəbiyyatşünas alimi, tanınmış pedaqoq, ictimai xadim Firidun bəy Köçərlinin 150 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2013-cü il fevralın 14-də imzaladığı sərəncamda qeyd edilirdi: "2013-cü ildə Azərbaycanın görkəmli ədəbiyyatşünas alimi, tanınmış maarifpərvər, ictimai xadim, publisist-yazıçı, tənqidçi və tərcüməçi Firidun bəy Əhməd ağa oğlu Köçərlinin anadan olmasının 150 illiyi tamam olur. Firidun bəy Köçərli Azərbaycan ədəbiyyatının tarixi inkişaf yoluna dair qiymətli mənbə təşkil edən əsərlər yaratmış və çoxcəhətli zəngin fəaliyyəti ilə ictimai-mədəni fikrin təşəkkülünə mühüm töhfələr vermişdir. Ölkəmizdə təhsil sisteminin milli əsaslar üzərində qurulması prosesində onun maarifçi ziyalı kimi apardığı işlər böyük əhəmiyyətə malikdir. Azərbaycan mədəniyyətinin inkişafı naminə xidmətlərini nəzərə alaraq, Firidun bəy Köçərlinin 150 illik yubileyinə həsr olunmuş tədbirlər planı hazırlanaraq həyata keçirilsin."

XIX əsrin sonu XX əsrin əvvəllərində yazıb-yaratmış, Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixində dərin iz qoymuş görkəmli Azərbaycan ziyalılarından biri də görkəmli maarifçi, pedaqoq, tənqidçi, ədəbiyyatşünas, yazıçı-publisist, ictimai xadim Firidun bəy Köçərli olmuşdur. O, cəmi 57 il ömür sürməsinə baxmayaraq xalqımızın mədəni inkişafı yolunda çox əhəmiyyətli işlər görmüşdür. Onun əməyini yüksək qiymətləndirən akademik İsa Həbibbəyli "Görkəmli ədəbiyyatşünas və böyük maarifçi Firudin bəy Köçərli" adlı məqaləsində yazır: "Firidun bəy Köçərli Azərbaycan ədəbiyyatşünaslığını elm səviyyəsinə çatdırmaq vəzifəsini böyük məsuliyyət və şərəflə həyata keçirmiş və yaddaşlara Azərbaycan ədəbiyyat tarixinin yaradıcısı kimi daxil olmuşdur. F.b. Köçərli "Azərbaycan ədəbiyyatı tarixi materialları" adlı iki cildlik əsəri ilə ölkəmizdə sistemli ədəbiyyat tarixçiliyini yaratmaq ənənəsinin bünövrəsini qoymuşdur."

Akademik Bəkir Nəbiyev Firudin bəy Köçərlinin "Azərbaycan ədəbiyyatı" əsərini "Azərbaycan ədəbiyyatşünaslıq elminin tarixində

görkəmli yer tutan, Azərbaycan ədəbiyyatşünaslığında ilk və mötəbər mənbələrdən biri" kimi qiymətləndirmişdir.

Firidun bəy Köçərli Azərbaycan sovetləşdirildikdən sonra Gəncədə baş vermiş üsyan zamanı XI Ordunun xüsusi şöbəsi tərəfindən həbs edilərək 1920-ci ilin iyununda, fəaliyyətinin coşğun çağlarında, saxta ittihamlarla güllələndi və uzun illər boyu böyük zəhmət sərf edərək topladığı klassik ədəbiyyat nümunələrini kitab şəklində çap etdirə bilmədi. Lakin onun klassik ədəbiyyat nümunələrinin toplanması sahəsindəki böyük zəhməti hədər getmədi, topladığı ədəbi əsərlər, şair və yazıçılar haqqında yazdığı oçerk və tərcümeyi-hallar 1925-26-cı illərdə "Azərbaycan ədəbiyyatı tarixi materialları" adı ilə çap edildi. Onun haqqında xüsusi monoqrafiya və məqalələr yazıldı, 1963-cü ildə "Seçilmiş əsərləri" ayrıca kitab şəklində nəşr olundu. Ədəbiyyatşünasın "Azərbaycan ədəbiyyatı" adlı ikicildlik qiymətli əsərlərinin birinci kitabı 1978, ikincisi isə 1981-ci ildə capdan çıxmışdır. F.b.Köçərli 1904-cü ildə "Şərqi-Rus" qəzetində çap etdirdiyi bir əsərində yazırdı:" Bir millətin ədəbiyyatı,demək olar ki,onun məişətinin aynəsıdır. Hər bir millətin dolanacağını, övzai-məişətini, dərəceyi-tərəqqisini, mərtəbeyi-kəmalını, qüdrət və cəlalını onun ədəbiyyatından bilmək olar". Firidun bəy xalqın ədəbiyyat tarixini tədqiq etmiş, keçmişini öyrənməyi unutmayaraq öz yurdunun ədəbiyyatını başqa xalqlara tanıtmağa çalışmışdı. Onun bu məqsədlə rusca yazdığı və 1903-cü ildə Tiflisdə nəşr olunan «Литература азербайджанских татар» əsəri ədəbiyyatımız haqqında rus oxucusuna maraqlı məlumat verirdi.

F.b.Köçərlinin fəaliyyət göstərdiyi 1885-1920-ci illər Azərbaycan xalqının tarixində intibah, milli dirçəliş və ictimai oyanış mərhələsi hesab olunur. Dövrünün digər mütərəqqi ziyalıları kimi Firidun bəy Köçərlini də xalqın maariflənd irilməsi və mədəni yüksəlişi daim düşündürmüşdür. O, milli ədəbiyyat və mətbuatın tərəqqəsi yolunda fəaliyyət göstərməyi özünə müqəddəs vəzifə hesab etmişdir. Görkəmli ədəbiyyatşünas xalqın qəflətdən ayılmasında, maarif, elm, mədəniyyət meydanına qədəm qoymasında qəzetlərin yeri və roluna yüksək qiymət vermişdir. Onun "Kafkaz", "Zakafkaziya", "Kaspi", "İrşad", "Şərqi-Rus", "Molla Nəsrəddin", "Tərəqqi", "Həyat", "İqbal"

və başqa jurnal və qəzetlərlə fəal əməkdaşlığı, xalq ədəbiyyatı nümunələrini toplayaraq müxtəlif jurnallarda çap etdirməsi bu məqsədə xidmət edirdi. F.b.Köçərli xalqların geridə qalması və tənəzzülə uğramasının, eləcə də dövrün mütərəqqi hərəkatına qoşula bilməməsinin səbəblərini onların layiqli və istedadlı müəllimlərinin olmaması ilə izah edirdi. Onun fikrincə hər bir xalqın öz sənətini yaxşı bilən, millət və vətənini sevən, qüvvə və bacarığını dərs keçdiyi şagirdlərin təlim və tərbiyəsi işinə həvəslə sərf edən müəllimləri olarsa, o xalq tərəqqi edərək xoşbəxtliyə nail olar. Firidun bəy Köçərli Rusiya imperiyası tərkibində yaşayan müsəlman xalqlarının həyatında müşahidə edilən bütün bəla və bədbəxtçiliyin səbəblərini xalqın dərdini bilən və onun müalicəsi üçün yollar axtaran müəllimlərin yoxluğu ilə izah edirdi. Ədib yazırdı: "Bəli, biz Rusiya müsəlmanları müddəti-mədid müəllimsiz qalıb, tərəqqi yoluna saliq olan mütəməddin millətlərin qatarından üzülüb geri qalmışıq. Uzun müddətlər əbnayi-millətə qaydasınca təlim və tərbiyə verən müəllimlərimiz olmadığına görə belə pərişan hala düşmüşük."

F.b.Köçərli ömrünün 40 ilini millətin maariflənməsi və mədəni tərəqqisinə, savadsızlığın və geriliyin aradan qaldırılmasına, mövhumat və cəhalətə qarşı mübarizəyə həsr etmişdir. Onun qələminin müqəddəs vəzifəsi xalqın xoşbəxtliyi yolunda xidmət etmək olmuşdur.

Firudin bəy Əhməd bəy oğlu Köçərli 1863-cü il yanvarın 26-da Şuşada ziyalı ailəsində anadan olmuşdur. O, ibtidai təhsilini Mirzə Kərim Münşizadənin məktəbində aldıqdan sonra 1876-cı ildə atasının məsləhəti ilə Şuşadakı dördsinifli rus şəhər məktəbinə daxil olmuşdur. Firidun bəy Köçərli dövrünün tanınmış pedaqoqu, Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan bölməsinin inspektoru A.O.Çernyayevskinin dəvəti ilə 1879-cu ildə Zaqafqaziya Müəllimlər Seminariyasına oxumağa getmiş və 1885-ci ildə həmin seminariyanı bitirmişdir. Əlavə olaraq qeyd edək ki, Zaqafqaziya Müəllimlər Seminariyası Rusiya İmperatoru II Aleksandrın 8 aprel 1875-ci il tarixli fərmanı ilə təsis edilmişdi. Zaqafqaziya Müəllimlər Seminariyasında və onun nəzdindəki üç ibtidai məktəbdə - rus, gürcü və erməni məktəblərində təhsilin rus dilində aparılması və Azərbaycan dilini bilən müəllimlərin

olmaması azərbaycanlı uşaqlarının böyük əksəriyyətini həmin tədris ocağına cəlb edilməsi işində böyük çətinliklər yaradırdı. Azərbaycanlı uşaqların öz doğma ana dilində savad almaq cəhdləri onların böyük əksəriyyətini ənənəvi məktəblərə cəlb edirdi. Seminariyanın nəzdində azərbaycanlı uşaqlar üçün də dünyəvi ibtidai məktəbin açılmasına böyük tələbat və ehtiyac hiss olunurdu.

XIX əsrin ikinci yarısından başlayaraq Azərbaycanda çarizmin yeritdiyi ruslaşdırma və ayrıs-eçkilik siyasətinə qarşı, eləcə də milli dünyəvi məktəb uğrunda mübarizə güclənirdi. Azərbaycanda maarifçilik ideyası və təşəbbüsünün önündə milli mətbuatımızın banisi Həsən bəy Zərdabi və digər mütərəqqi ziyalılar dayanırdılar. Firudin bəy Köçərli xalqın qəflət yuxusundan ayılmasında, maarif, elm, mədəniyyət meydanına qədəm qoymasında "Əkinçi" qəzetinin rolunu yüksək qiymətləndirirdi. F.b.Köçərli bütün fəaliyyətini xalqın mədəni və elmi yüksəlişə nail olmasına yönəltmişdir.

1897-ci ilin oktyabr ayında "Каспий" qəzetinin naşirlik səlahiyyəti Bakı milyonçusu, Azərbaycan tarixində əhəmiyyətli rolu olmuş H.Z.Tağıyevin ixtiyarına keçdikdən sonra Ə.M.Topçubaşov qəzetin redaktoru təyin edilmiş, 24 iyun 1898-ci ildən 20 oktyabr 1907-ci ilədək "Каспий" qəzetinin redaktoru olmuşdur. "Каспий" qəzetinin naşiri H.Z.Tağıyev və qəzetin redaktoru Ə.M.Topçubaşov rus dilində çıxan "Каспий" qəzetini milli maraqların müdafiəsinə yönəldə bilmişdilər. Ə.Topçubaşov, "Каспий" qəzetinin redaktoru olduğu dövrlərdə əsası hələ N.Sokolinskinin redaktorluğu dövründən qoyulmuş maarif və təhsil məsələlərinin işiqlandırılması kimi şərəfli ənənəni davam etdirməyə çalışmışdır. Həmin vaxtlarda dövrün tanınmış pedaqoqları- F.Köçərli, S.M.Qəniyev, M.Şahtaxtinski, Ü.Hacıbəyov, N.Nərimanov, M.Mahmudbəyov və başqaları təhsil, təlim-tərbiyə problemlərinə həsr edilmiş məqalələrlə "Каспий" qəzetinin səhifələrində çıxış etmişdilər. Qeyd edək ki, F.b.Köçərli və M.Mahmudbəyov müxtəlif vaxtlarda "Каспий" qəzeti ilə əməkdaşlıq etmiş, lakin redaksiyanın işlərində iştirak etməmişdilər. F.Köçərli "Orta məktəblərdə yerli dillərin tədrisi məsələləri. ("Каспий",1905, №143-144); "Yeni tədris planı". "Каспий", 1905, №161); "İrəvan quberniyasının xalq

məktəb şagirdlərinə müraciət" ("Каспий", 1905, №193) və təlim-tərbiyə problemlərinə həsr edilmiş başqa məqalələrində görkəmli rus pedaqoqu K.D.Uşinskinin mötəbər fikirlərinə əsaslanaraq şagirdlərin mənəvi inkişafında xalq dilinin böyük rol oynadığını qeyd edirdi. Onun tanınmış pedaqoq A.O.Çernyayevskinin vəfatının 20 illiyinə həsr olunmuş "A.O.Çernyayevski" sərlövhəli məqaləsi 17 dekabr 1914-cü il tarixli 282№li "Каспий" qəzetində dərc edilmişdir. Yeri gəlmişkən qeyd edirik ki, görkəmli rus pedaqoqu K.D.Uşinskinin eyni adlı dərsliyi əsasında A.O.Cernyayevskinin səs üsulu ilə yazdığı "Vətən dili" (I hissə) dərsliyi 132 il bundan əvvəl-1882-ci ildə işıq üzü görmüş və Azərbaycan ziyalılarının bütöv bir nəsli bu kitabdan dərs almışdır. A.O.Çernyayevski bu dərsliklə təkcə Azərbaycanda deyil, bütün Şərq xalqları içərisində səs üsulu əsasında ibtidai siniflər üçün dərslik hazırlayıb çap etdirən ilk müəllif olmuşdur. Bununla əlaqədar olaraq Zaqafqaziya Müəllimlər Seminariyasının tatar (Azərbaycan) şöbəsinin ilk məzunlarından biri, tanınmış pedaqoq və maarifçi kimi yetişmiş F.b. Köçərli belə qeyd etmişdir: "Tamam islam aləmində bu təşəbbüs birinci dəfə Azərbaycanda ortaya çıxmışdır. Ana dili təlimində ondan istifadə edilməsi Azərbaycan məktəb tarixində mühüm pedaqogi hadisə idi. Azərbaycan ziyalılarının bütöv bir nəsli bu kitabdan dərs almışdır.". Firidun bəy Köçərli (1863-1920), Rəşid bəy Əfəndiyev (1863-1942), Səfərəli bəy Vəlibəyov (1861-1902), Mahmud b. Mahmudbəyov (1859-1923), Teymur b. Bayraməlibəyov (1862-1937), Süleyman Sani Axundov (1875-1939), Cəlil Məmmədquluzadə (1866-1932), Nəriman Nərimanov (1870-1925) kimi tanınmış ziyalı kadrların hazırlanması həm də A.O.Çernyayevskinin adı ilə bağlıdır. A.O.Çernyayevski "Vətən dili"nin I hissəsinin müəllifi, II hissəsinin isə Səfərəli bəy Vəlibəyov ilə birlikdə həmmüəllifi olmuşdur. "Vətən dili"nin I hissəsi 1882-ci ildə, II hissəsi isə 1888--ci ildə Tiflisdə "Kəşkül" mətbəəsində çap olunmuşdur.

Müsəlman uşaqlar üçün dünyəvi məktəbin açılması uğrunda mübarizənin nəticəsi olaraq Zaqafqaziya Müəllimlər Seminariyasının nəzdində, nəhayət ki, tatar (Azərbaycan) bölməsi yaradılır. Həmin bölmə 1879-cu il sentyabrın 23-də Qori şəhərində fəaliyyətə başladı.

Zaqafqaziya Müəllimlər Seminariyasının nəzdində tatar (Azərbaycan) bölməsinin fəaliyyəti Rusiya İmperatoru II Aleksandrın 13 may 1880-ci il tarixli fərmanı ilə rəsmən qanunlaşdırıldı.

Çarizmin xalq maarifi sahəsində yürütdüyü mürtəce siyasətlə əlaqədar olaraq Azərbaycan bölməsi Azərbaycanda deyil, Gürcüstanın Qori şəhərində açılmasına baxmayaraq, onun yaradılması müsəlman - azərbaycanlı müəllim kadrlarının hazırlanmasında mühüm mərhələ təşkil etmişdir. Qori Seminariyası öz mövcudluğu və fəaliyyəti ilə Azərbaycanda xalq məktəbinin, təhsil və mədəniyyətin inkişafında müstəsna rol oynamışdır.

Bölmənin açıldığı ilk vaxtlarda orada oxumaq üçün ərizə vermək istəyən azərbaycanlı müsəlman uşaqların sayı olduqca az olmuşdur. Vəziyyətin belə olması bölmənin gələcək fəaliyyətini şübhə altına alırdı. Gərginlik yaşanan belə bir zamanda Şamaxıda kasıb rus ailəsində doğulub boya başa çatmış, tatar (Azərbaycan-R.S.) bölməsinə inspektor təyin olunmuş, tanınmış rus pedaqoqlarından biri Aleksey Osipoviç Çernyayevski bölmənin fəaliyyətini təmin etmək məqsədilə savad almaq istəyən azərbaycanlı uşaqların axtarışına çıxır. O, axtarışlarını İrəvan, Naxçıvan, Gəncə, Şuşa, Şamaxı, Lənkəran, Quba və Dərbənddə aparır. A.Çernyayevskinin axtarışları nəticəsiz qalmır. Çox keçmir ki, Şuşadan Firudin bəy Köçərli, Səfərəlibəy Vəlibəyov, Baba bəy Səfərəlibəyov, Lənkərandan Teymur bəy Mahmudbəyov, Teymur Bayraməlibəyov, Qazaxdan İsmayıl ağa Vəkilov, Məmmədağa Şıxlinski, Səkidən Rəşid bəy Əfəndiyev Çernyayevskinin ümidlərini doğruldur və həmin tədris ocağına oxumağa təşrif buyururlar. Qeyd edək ki, 1879-cu ildə Zaqafqaziya müəllimlər seminariyasının Azərbaycan bölməsinə Firudin bəy Köçərli ilə eyni vaxtda daxil olmuş ilk Azərbaycanlı şagirdlərin sırasında sonralar məhşur pedaqoq kimi yetişmiş, xalqımızın milli təhsil tarixində əhəmiyyətli rol oynamış Rəşid Əfəndiyev, Mahmud Mahmudbəyov, Səfərəli Vəlibəyov, Həşim Nərimanbəyov, Ağababa Ağabababəyov, İsmayıl Vəkilov, və başqaları da olmuşdur. Qori Seminariyasının məzunu, böyük ziyalı Firudin bəy Köşərli sonralar yazırdı: "Qori seminariyasının Azərbaycan bölməsində yaxşı və diqqətəlayiq nə vardırsa, hamısı Çernyayevskinin adı ilə

bağlıdır... Çernyayevskinin "Vətən dili bizim məktəblərdə yeni bir dövr açdı". Oxumaq üçün seminariyaya gəlmiş azərbaycanlı müsəlman gənclər ilk pedaqoji təhsillərini seminariyada aldıqdan sonra pedaqoji fəaliyyətlərini Azərbaycanın müxtəlif kəndlərində ibtidai məktəblərin yaradılması işinə həsr etmiş, həmçinin mövcud olan ibtidai kənd məktəblərində müəllimlik edərək xalq kütlələri arasında elm və maarifin yayılması və savadsızlığın, geriliyin aradan qaldırılmasında yaxından iştirak etmişdilər. İrəvan və Yelizavetpol quberniyalarının Xalq məktəbləri direktoru B.İ.Boqaçovun 1884-cü il aprelin 17-də Yelizavetpol şəhərindən Zaqafqaziya Müəllimlər Seminariyasının direktoru Dmitriy Dmitriyeviç Semyonova göndərdiyi məktubda seminariyanın məzunları - Mirzə Əli Xəlilovun 26 iyun 1881-ci ildən etibarən Naxçıvan şəhər məktəbində; Qasım Cəfər oğlu Qasımovun 1 sentyabr 1882-ci ildən Ordubad məktəbində; Ələsgər Molla Süleyman oğlu Süleymanovun 1 avqust 1882-ci ildən etibarən İrəvan quberniyasının iki sinifli Yengicə məktəbində; Həşim bəy Nərimanbəyovun 1 sentyabr 1882-ci ildən Yelizavetpol quberniyasında 2-sinifli Dağkəsəmən kənd məktəbində; Ələsgər Şeyx Həsənovun 1 iyul 1883-cü ildən İrəvan quberniyasında Böyük-Vedi kənd məktəbində; Abdul Rəşid bəy Əfəndiyevin 1 sentyabr 1882-ci ildən Yelizavetpol quberniyasında Qutqaşen kənd məktəbində; Məmməq Ağa Əfəndiyevin 1 iyul 1882-ci ildən Yelizavetpol quberniyasında Ağdaş məktəbində; Alış bəy Tahirovun 1 iyul 1883-cü ildən etibarən Yelizavetpol quberniyasında Qarğabazar məktəbində; Mahmud bəy Mahmudbəyovun 1 iyul 1883-cü ildən Yelizavetpol quberniyasında Ağcabədi məktəbində; Muxtar Muradovun 1 iyul 1883-cü ildən Yelizavetpol quberniyasında Ağdaş məktəbində və başqa məzunların pedaqoji fəaliyyətləri haqqında məlumat verilirdi. Əlavə olaraq qeyd edək ki, Seminariyanın nəzdindəki tatar (Azərbayca) bölməsinin məzunu olmuş Səfərəli bəy Vəlibəyov 1881-ci ildə seminariyanı bitirdikdən sonra dərs demək üçün Seminariyada saxlanılmış və o, Seminariyanın tatar bölməsindəki ibtidai məktəbdə 1881- 1888-ci ilədək olan müddətdə müəllim işləmişdir.

Bunu da qeyd edək ki, Zaqafqaziya müəllimlər seminariyasının tatar (Azərbaycan) bölməsinin Azərbaycana verdiyi kadrları çar Rusiyası dövründə heç bir məktəb verməmişdir. Seminariyanın Azərbaycan bölməsinin mövcüd olduğu 39 il müddətində Azərbaycan məktəbi üçün 250-ə yaxın müəllim - Rəşid bəy Əfəndiyev, Firidun bəy Köçərli, Üzeyir Hacıbəyov, Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov, Müslüm Maqomayev, Süleyman Sani Axundov, Hacıbala Süleymanov, Osman Əfəndiyev, Fərhad Ağazadə, Nurməmməd Şahsuvarov, Müseyib İlyasov, İsfəndiyar Vəkilov, Şıxlinskilər və onlarla başqa tanınmış müəllim və ziyalılar hazırlamışdır ki, onlar da öz növbəsində Azərbaycan Milli maarifçilik hərəkatının inkişafında müstəsna rol oynamışdılar. ZMS Azərbaycan bölməsinin məzunu Firudin bəy Köçərli qeyd edirdi: "Seminariya məzunlarının bəziləri dərsliklər tərtib etməklə, başqaları rus ədəbiyyatından tərcümələr etməklə məşğul olur, bəziləri də povest və romanlarda öz gücünü sınayır, bir hissəsi də özlərini tamamilə dramatik ədəbiyyata həsr edirdilər." Onların böyük əksəriyyəti müəllimlik peşəsinə yiyələnərək ömürlərini xalqın maariflənməsi və təhsili, xalq kütlələri arasında elm və maarifin yayılması, savadsızlığın aradan qaldırılması işinə həsr etmiş və bu sahədə olduqca əhəmiyyətli işlər görmüşdülər.

F.Köçərli Zaqafqaziya müəllimlər seminariyasının tatar (Azərbaycan) bölməsini 1885-ci ildə bitirmişdir. O, Seminariyanı bitirdikdən sonra İrəvan gimnaziyasına müəllim təyin edilərək Azərbaycan dili və şəriət fənlərindən dərs demişdir. Yeri gəlmişkən qeyd edək ki, xalqımızın tarixən qədim torpağı olan və əhalisinin böyük əksəriyyətini müsəlman Azərbaycan türklərinin təşkil etdiyi İrəvan mahalında 1881-ci ildə üç mühüm hadisə baş vermişdir. İrəvan seminariyası, İrəvan qimnaziyası və yeni tipli Uluxanlı məktəbi açılmışdır. İrəvan seminariyası və qimnaziyasında tədrisin rus dilində aparılmasına baxmayaraq, həmin tədris ocaqlarının ştat cədvəlində müsəlman dini üzrə şəriət dərsləri və Azərbaycan dili fənlərinin tədris edilməsi üzrə müvafiq müəllim ştatı vahidi olmuşdur. Qafqazın ayrı-ayrı yerlərində, o cümlədən Kubanda və Kutaisi quberniyasında açılmış seminariyalardan fərqli olaraq, İrəvan müəllimlər seminariyasında Azərbaycan

dili və müsəlman dini üzə şəriətin tədris edilməsi üzrə müvafiq ştat vahidinin olması heç də təsadüfü deyildi. Çünki, bu seminariya xalqımızın tarixən qədim torpaqlarından olan İrəvan mahalında yaradılmışdı və həmin mahalda yaşayan əhalinin böyük əksəriyyətini müsəlmanlar, azərbaycan türkləri təşkil etmişdir.

İnqilabdan əvvəlki Qafqazın ən qiymətli sorğu nəşrlərindən biri - Tiflisdə, Qafqaz Canişinin Baş İdarəsi nəzdində çap olunmuş "Кавказский Календарь"-da müxtəlif illərə dair verilən məlumatlara əsaslanaraq qeyd edirik ki, Firidun bəy Köçərli İrəvan qimnaziyasında 1885-ci ildən deyil, 1886-cı ildən etibarən 11 il müddətində (1886-1896-cı illərdə) müsəlman dini üzrə şəriət müəllimi və Azərbaycan dili müəllimi kimi pedaqoji fəaliyyət göstərmişdir. "Кавказский Календарь"-da dərc olunan məlumata görə 1885-ci ildə İrəvan gimnaziyasında müsəlman dini üzrə şəriət və Azərbaycan dili fənlərini Mirzə Elxanov tədris etmiş, Firidun bəy Köçərli İrəvan qimnaziyasında pedaqoji fəaliyyətə 1886-cı ildən etibarən başlamışdır. 1895-ci ilin "Кавказский Календарь"-da qeyd olunan növbəti məlumata görə Firudin bəy Köçərli 1895-ci ildə İrəvan gimnaziyasında yalnız müsəlman dini üzrə şəriət və Azərbaycan dili fənlərini deyil, hüsnxətti də tədris etmiş, həmçinin gimnaziyanın pansionunda tərbiyəçinin köməkçisi kimi fəaliyyət göstərmişdir. Yeri gəlmişkən qeyd edirik ki, Firidun bəy Köçərli İrəvan gimnaziyasında işlədiyi vaxtlarda tədris olunan "Azərbaycan dili" fənninin proqramını da işləyib hazırlamışdır. Həmin proqramın tam mətni çağdaş Azərbaycan pedaqoji elminin sarvanı, akademik Hüseyn Əhmədov tərəfindən keçən əsrin 70-ci illərində İrəvan Dövlət Arxivində araşdırmalar apararkən aşkar edilmiş və proqramın mətni rus dilində olduğu kimi pedaqoji jurnalda dərc edilmişdir.

Firudin bəy Köçərli artıq 1897-ci ildən etibarən məzunu olduğu Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan bölməsində müsəlman dini üzrə şəriət müəllimi kimi pedaqoji fəaliyyətə başlamışdır. Onun Azərbaycan ədəbiyyatı tarixinə aid ilk əsərlərindən biri rusca yazılmış və 1903-cü ildə Tiflisdə dərc olunmuş 54 səhifəlik «Литература Адербейджанских татар» ("Azərbaycan tatarlarının

ədəbiyyatı”) kitabıdır. Həmin əsər hazırda M.F.Axundov adına Milli Kitabxanada qayğı ilə qorunub saxlanılır. F.Köçərli 1911-ci ildə “Mirzə Fətəli Axundov”, 1912-ci ildə “Balalara hədiyyə” kitablarını nəşr etdirmişdir. Tanınmış ədəbiyyatşünas pedaqoq, ictimai xadim F.Köçərli həyatı boyu Azərbaycan ədəbiyyatı və mədəniyyətinə aid materiallar toplamış və həmin materialları tədqiq etmişdir. Xalqımızın digər ədəbiyyatşünas alimi, tənqidçi, yazıçı, tərcüməçi, Əməkdar elm xadimi Əziz Şərif 1972-ci ildə “Ədəbiyyat və İncəsənət” qəzetində dərc etdirdiyi “Firidun bəy Köçərli və onun arxivi” adlı məqaləsində Firidun bəy Köçərlinin uzun illər boyu topladığı materiallara qiymət verərək qeyd edirdi: ”...Burada nələr var idi! Molla Nəsrəddin, Sabir, Səhhət, İsmayıl bəy Qaspirinski, Ömər Faiq, Əli Mərdan bəy Topçu-başov, Salman Mumtaz və daha kimin yüzlərlə məktubu...Firidun bəyin arxivi XX əsr ictimai həyatımızın güzgüsüdür, bu dövrdə yaşayan bir nəfər də ictimai və mədəni xadim yoxdur ki, burada onun izi olmasın...Hələ XVII-XIX və daha qədim əsrlərə aid materiallar öz yerində. Burada Vaqıf haqqında Mirzə Fətəli Axundovun əlyazması da var idi...Biz gecə saat birə qədər oturduq. Bu bir neçə saatın içərisində mən sandıqdakı materialın ancaq azacıq bir hissəsini gözdən keçirə bildim.”

Firudin bəy Köçərlinin Azərbaycan və rus dillərində yazıb nəşr etdirdiyi məqalələr, kitablar bu gün də əhəmiyyətini qoruyub saxlayır, maraqla oxunur, tədqiq edilir və yüksək qiymətləndirilir.

Firidun bəy Köçərli pedaqoji fəaliyyəti ilə əlaqədar olaraq rus dilindən tərcümələr etmiş, Puşkin, Lermontov və Koltsovdan bir sıra kiçik şeirləri dərs kitablarına daxil etmişdir. F.b.Köçərli A.S.Puşkinin ”Torçu və balıq”, M.Y. Lermontovun “Üç xurma ağacı”, A.V.Koltso-vun “A kişi niyə yatıbsan?” kimi şeirlərini tərcümə edərək şagirdlərin diqqətinə çatdırması uşaqların rus ədəbiyyatı klassiklərinin yaradı-cılığı ilə tanış olması istiqamətində atılmış əhəmiyyətli bir addım kimi qiymətləndirmək mümkündür. Qeyd edək ki, Firidun bəy Köçərlinin yaradıcılığında əsas yeri “Azərbaycan ədəbiyyatı tarixi materialları” əsəri tutur. Bundan başqa Firidun bəy Köçərlinin xalqımız qarşısında ən böyük xidmətlərindən biri də Zaqafqaziya müəllimlər seminariya-

sının Azərbaycan bölməsinin Gürcüstanın Qori şəhərindən Qazaxa köçürülməsi, onun müstəqil seminariyaya çevrilməsində bilavasitə yaxından iştirak etməsidir.

1917-ci ilin fevralında Rusiyada baş vermiş inqilabdan sonra Firidun bəy Köçərli siyasi proseslərə qoşulmuş,1918-ci il fevralın 14-dən mayın 27-dək Zaqafqaziya Seyminin müsəlan fraksiyasının, 1918-ci il mayın 27-dən dekabrın 7-dək olan müddətlərdə fasilələrlə Azərbaycan Milli Şürasının üzvü olmuşdur. Zaqafqaziya Seyminin müsəlan fraksiyasının 1918-ci il martın 16-da keçirilmiş ilk müstəqil iclasında Musavat partiyası və demokratik bitərəflər qrupundan Firidun bəy Köçərli Seymin kitabxana komissiyasına seçilmişdir.

1918-ci il mayın 28-də Tiflisdə, keçmiş Qafqaz Canişinin sarayında Azərbaycan Milli Şurasının ilk iclası keçirilmişdi. Həmin iclasda Azərbaycanın müstəqil dövlət elan edilməsi və Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması haqqında qərar qəbul edilir. İstiqlal Bəyannaməsinin qəbul edildiyi həmin tarixi iclasda Firidun bəy Köçərli də iştirak etmişdir. İstiqlal Bəyannaməsini imzalayan Milli Şuranın 26 deputatından biri də F.b. Köçərli olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan xalqının azadlıq hərəkatının yekunu kimi yaradılmışdır. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti yarandığı ilk vaxtdan etibarən xalq maarifi və mədəniyyətinin inkişafı məsələlərinə xüsusi diqqət yetirirdi. Çünki çar Rusiyası hökuməti əvvəlki dövrlərdə özünün xüsusi siyasi niyyətlərini əldə rəhbər tutaraq, ölkədə zorla ruslaşdırma siyasəti yeritmiş, təhsili əsasən rus diində apararaq milli dil və mədəniyyətin inkişafına müxtəlif əngəllər törətmiş, xalqın maariflənməsi işinə çox az qayğı göstərmişdir. Keçmiş çar Rusiyası Hökumətinin uzun illər xalqımızın təhsilə olan ehtiyaclarına belə biganə münasibəti geniş müsəlman əhalisində hökumət məktəblərinə qarşı inamsız münasibət yaratmışdır. Yürüdülmüş bu cür ayrı-seçkilik siyasəti müsəlmanların geridə qalmasına və onların arasında savadsızlığın hökm sürməsinə səbəb olmuşdur. Azərbaycan Xalq Maarif Naziri N.Yusifbəyli 1918-ci ilin dekabrında Bakı qubernatoruna göndərdiyi məktubda qeyd edirdi: "...Azərbaycanın bütün ərazisi boyu məktəblərə böyük ehtiyac vardır... Ölkənin gələcək

taleyi bu işlərin müvəffəqiyyətindən çox asılıdır.” Dövrün tanınmış maarif xadimi, görkəmli pedaqoq Rəşid bəy Əfəndiyevin qardaşı Abdulla bəy Əfəndiyev Parlamentin 26 dekabr 1918-ci il tarixli 5-ci iclasındakı çıxışında təhsilə dair mövcüd vəziyyəti belə qiymətləndirmişdir: “...Tədris ibtidai, ümumi, məccani (pulsuz) və məcburi olmalıdır. Azərbaycan Cümhuriyyətinin maarifə olan ehtiyacını və başqa ehtiyacatın fövqindədir. Ümum fəlakətlərin birinci səbəbi maarif yoxluğudur... Şimdiki məktəblər mümkün olduqca tez bir zamanda milliləşdirilməlidir.”

Cümhuriyyət dövründə Respublikamızda təhsilin geniş yayılmasına nail olmaqdan ötrü ilk növbədə Respublikada yaşanan müəllim qıtlığı probleminin həll edilməsi istiqamətində təxirə salınmadan tədbirlər görülməli idi. Bu baxımdan Qori seminariyasının Azərbaycan bölməsinin Qazaxa köçürülməsi vacib bir məsələ kimi Milli hökumətin qarşısında dayanırdı. Zaqafqaziya Müəllimlər Seminariyasının tatar (Azərbaycan) bölməsinin Qazaxa köçürülməsi üçün F.X.Xoyskinin sədrlik etdiyi Azərbaycan hökumətinin 22 iyun 1918-ci il tarixli qərarı ilə Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan bölməsinin keçmiş inspektoru F.Köçərlinin sərəncamına 5 min rubl pul ayrılır. Beləliklə, bilavasitə Firidun bəy Köçərlinin səyi və təşkilatçılığı ilə Azərbaycan bölməsi Qazaxa köçürülür, müstəqil seminariyaya çevrilərək burada fəaliyyətini davam etdirir. Xalq Maarif Naziri N.Yusifbəylinin 12 oktyabr 1918-ci il tarixli 39 №li əmri ilə Zaqafqaziya Müəllimlər Seminariyasının keçmiş inspektoru Firudun bəy Köçərli 1918-ci il oktyabrın 1-dən Qazax Müəllimlər Seminariyasının direktoru təyin edilir.

Firidun bəy Köçərli 13 oktyabr 1918-ci il tarixli “Azərbaycan” qəzetində dərc etdirdiyi “Zaqafqaziya Müəllimlər Seminariyasının tatar bölməsinin müstəqil seminariyaya çevrilməsi haqqında” məqaləsində yazırdı: “1918-ci ilin əvvəllərində Qazax şəhərinin müsəlman əhalisi və bəzi kənd icma nümayəndələri tədris dairəsi qarşısında... tatar bölməsinin Qori şəhərindən Qazax şəhərinə köçürülməsi haqqında məsələ qaldırıb ərizə ilə müraciət edərək vəd etmişlər ki, seminariyanın tikilməsi üçün bağ-bağça və 10 desyatin suvarılan torpaq,

3000 rubl məbləğində birdəfəlik yardım və hər il 1000 rubl borc pul ayıracaqlar. Bu məsələ Azərbaycan hökumətinin 10 iyun 1918-ci il tarixli iclasında müzakirə edilərək qazaxlıları qane edəcək qərar qəbul edilmişdir. Tatar (Azərbaycan-R.S.) bölməsinin əmlakının daşınıb-gətirilməsi Xalq Maarif Naziri tərəfindən bölmənin inspektoruna həvalə edilmişdir ki, bu da onun tərəfindən yerinə yetirilmişdir."

Gürcüstanın mərkəzində mövcud olduğu 39 il ərzində seminariyanın yetirmələri tədris dairəsi rəhbərlərinin yürütdükləri ruslaşdırma tendensiyasına baxmayaraq, istər inqilab, istərsə də böyük çevriliş günlərində sınaqlardan şərəflə çıxaraq Vətəninina zadlığı və müstəqilliyi uğrunda mübarizəyə qoşulmuşdular. Qazax Müəllimlər Seminariyasının direktoru F.Köçərli 1919-cu il martın 20-də Dövlət Müfəttişliyi İdarəsinin direktoruna 80№li məlumatı məktub göndərərək Zaqafqaziya Müəllimlər Seminariyasının tatar (Azərbaycan) şöbəsinin 1918-ci il iyunun 20-də müstəqil müəllimlər semnariyasına çevrilməsi, şöbənin mülkünün 1918-ci ilin sentyabrında onun tərəfindən Qori şəhərindən Qazax şəhərinə daşınması, orada çalışacaq qulluqçu heyətinin komplektləşdirilməsi və təsdiq olunmaq üçün Xalq Maarif Nazirliyinə şəxsən təqdim etməsi barədə məlumat vermişdir.

Xalq Maarif Naziri N.Yusifbəylinin 28 oktyabr 1918-ci il tarixli əmri ilə bu şəxslərə 1918-ci il oktyabr ayının 20-dən etibarən Qazax Müəllimlər Seminariyasında müəllimlik etməyə icazə verilmişdir: İsfəndiyar bəy Vəkilov - rus dili və təbiyyət elmləri; Yusif Qasımov – tarix fənləri; Əli Hüseynov – tarix və coğrafiya; Məhəmməd Hüseynzadə - riyaziyyat; İbrahim Əfəndi Qayıbov – ana dili. Seminariyanın açılışı 1918-ci il noyabrın 10-da keçirilmiş və bu təhsil ocağında dərslər həmin gündən etibarən başlamışdır. Seminariyanın açılışında yerli komendant Səbri bəy, qarnizon rəisi Camal bəy, qəza rəisi Şıxlinski, xalq məktəbləri müfəttişi Qiyasbəyov, ali-ibtidai məktəb müfəttişi Mustafayev, yerli hökumət idarələrinin məmurları, şəhərin fəxri sakinləri, yeni qəbul olunmuş şagirdlərin valideynləri və b. iştirak etmişdilər. Açılışda toplaşanları salamlayan Qayıbzadə Əfəndi İbrahim müəllim öz çıxışında gənc dövlətin pedaqoji təhsilə böyük ehtiyacı olduğunu qeyd etmişdir. Səbri bəy seminariyaya yeni daxil

olmuş şagirdlərə müraciət edərək onları və Qazax ictimaiyyətini bu təhsil ocağının açılışı münasibətilə təbrik etmiş və müəllimlərin cəmiyyətdəki roluna yüksək qiymət verərək demişdi: “Təmənna güdməyən, zəhmətkeş müəllimləri olmayan millətin xöşbəxt, güclü və qüdrətli olması mümkün deyildir”.

Səbri bəyin ardınca Camal bəy şagirdləri təbrik edərək onları Vətən naminə məhsuldar çalışmağa səsləmişdi. Eyni zamanda, gənc tələbələrə xatırlatmışdı ki, Vətən təkcə iti qılıncla deyil, elmi cəhətdən inkişaf etmiş ağılla da müdafiə edilir ki, o da məktəbdə yetişdirilir. Odur ki, onlara təhsil almaqda fədakarlıqla çalışmaqlarını diləmişdi.

Seminariyanın direktoru F.Köçərli açılışda söylədiyi nitqində qeyd etmişdir ki, seminariyanın Gürcüstanın mərkəzində, özgə zamində və müsəlman aləmindən uzaqlarda yaradılmasına baxmayaraq, onun çox böyük əhəmiyyəti olmuş, mövcud olduğu dövrdə xalq məktəblərində işləməkdən ötrü Qafqaz müsəlmanlarına çoxlu sayda müəllimlər hazırlamışdır. Vətəndən ayrı düşmüş müsəlman gənclərin milliliyini, təmizliyini və toxunulmazlığını qoruyub saxlaya bilmişlər. İndi müstəqil seminariyaya çevrilərək doğma diyarına- Qazaxa köçürülmüş tatar (Azərbaycan-R.S.) bölməsi xalqın mənəvi geriliyinin aradan qaldırılması yolunda mühüm amillərindən birinə çevrilərək bu yolda var qüvvəsi ilə çalışacaqdır.

Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan bölməsinin məzunları Azərbaycan Milli maarifçilik hərəkatının inkişafında müstəsna rol oynamışlar. Onlar, o cümlədən Firidun bəy Köçərli Şərqdə ilk demokratik, hüquqi dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə xalq təhsili, maarifi və mədəniyyətinin inkişaf etdirilməsində, təhsilin milli köklər üzərində yenidən qurulmasında, məktəb islahatlarının aparılmasında və ana dili dərsliklərin hazırlanmasında yaxından iştirak etmişlər. Görkəmli pedaqoq Firidun bəy Köçərlinin təhsilin milli köklər üzərində qurulması işlərinə, habelə Qazax Müəllimlər Seminariyasına bağlılığı və sədaqətini təsdiq edən və örnək ola biləcək bir tarixi faktı xatırlatmaq istərdik. Cümhuriyyət Parlamentinin 25 yanvar 1919-cu il tarixli iclasında maraqlı və aktual bir məsələ - “Eyni zamanda dövlət qulluğunda vəzifə daşımaqla yanaşı, Parla-

mentin üzvü rütbəsinin daşınması haqqında" qanun layihəsi müzakirəyə çıxarılmışdır. Həmin qanun layihəsində qeyd edilirdi ki, nazirlər istisna edilməklə dövlət qulluğunda olan bütün şəxslər eyni zamanda Parlamentin üzvü rütbəsini daşıya bilməzlər. Buna müstəsna hal olaraq Bakıdakı professorlara və müəllimlərə, habelə sərbəst peşə sahiblərinə, advokat və həkimlərə icazə verilirdi. Belə ki, onlar sanki bir tərəfdən dövlət qulluğundadırlar, digər tərəfdən hökumət məmuru deyildirlər. Dövlət qulluğunda və eyni zamanda Parlament üzvü olan başqa şəxslər ya qulluğu, ya da Parlamenti tərk etməli idilər. Bundan ötrü Bakıda yaşayanlara 3 gün, Bakıdan kənarda yaşayanlara isə 10 gün müddət verilirdi. Bu qanunun məqsədi qanunvericilik hakimiyyətini icra hakimiyyətindən ayırmaq idi. Parlamentin 25 yanvar 1919-cu il tarixli qanununa görə məbuslara (millət vəkillərinə) Hökumət qurumlarında vəzifə daşımalarına icazə verilmirdi. Parlamentin 4 fevral 1919-cu il tarixli iclasında sədr doktor Həsən bəy Ağayev təhsil-maarif sahəsində məmur vəzifəsində çalışan Qazax müəllimlər seminariyasının direktoru Fridun bəy Köçərlinin öz xidməti vəzifəsində qaldığını və məbusluqdan istefa verdiyini bildirmişdi.

Azərbaycanda təhsilin, maarif və mədəniyyətin inkişafı, savadsızlığın aradan qaldırılması uğrunda yorulmadan iştirak etmiş, Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixində əhəmiyyətli yer tutmuş Firidun bəy Köçərlinin xatirəsi bu gün də xalqımızın qəlbində yaşayır, dərin hörmət və ehtiramla yad edilir.

# ƏHMƏD BƏY AĞAYEV

Azərbaycanın və Türkiyənin görkəmli ictimai-siyasi xadimlərindən biri Əhməd bəy Ağayevdir (Əhməd bəy Ağaoğlu). Məlum olduğu kimi, keçmiş sovet tarixşünaslığında bir sıra tarixi hadisələrə, o cümlədən Azərbaycanda baş vermiş bir çox ictimai-siyasi proseslərə birtərəfli yanaşılaraq sinfi, siyasi və ideoloji mübarizə mövqeyindən qiymət verilmişdir. Nəticədə, tariximizin həmin dövrü sonrakı nəsillərə birtərəfli və bəzən də təhrif edilmiş şəkildə çatdırılmışdır. Xalqımızın ümummilli lideri Heydər Əliyev vaxtı ilə tariximizin öyrənilməmiş səhifələrinin tədqiqinin vacibliyi barədə fikrini bildirərkən demişdir: ”Alimlərimizin, tarixçilərimizin günahından yox, o vaxtki ümumi ideologiyaıın tələbi ilə yazılan tarix də, şübhəsiz ki, indi bizi qane edə bilməz.”

Respublikamız yenidən öz müstəqilliyini əldə etdikdən sonra Azərbaycanın tarixi, ədəbiyyatı və mətbuatında adları yasaq edilmiş görkəmli ictimai-siyasi xadimlərin, mütərəqqi ziyalıların, sənətkarların irsi, habelə öz dövrünün qabaqcıl mətbuat orqanları – tərəqqipərvər müsəlman ziyalılarının tribunasına çevirilmiş “Kaspi”, ”İrşad”, ”Həyat”, “Tərəqqi”, ”Həqiqət”, ”Təkamül” ”Füyuzat”, ”Açıq söz” və digərlərinin fəaliyyəti yeni metodoloji prinsiplər əsasında obyektiv şəkildə öyrənilməyə başlandı.

Ölkəmizin arxiv və kitabxanalarında qayğı ilə qorunub saxlanılan və Əhməd bəy Ağayevin ictimai-siyasi fəaliyyətini əks etdirən tarixi mənbələr, həmin dövrün mətbuatı təsdiq edir ki, bu nəhəng ictimai-siyasi xadim mənsub olduğu ölkə və millət üçün çalışmışdır. O, öz dövrünün ən mühüm və aktual mövzularını qələmə alaraq, müxtəlif qəzet və jurnallarda dərc etdirmişdir. Əhməd bəy Ağayev Azərbaycan xalqının milli oyanışına təsir göstərmiş, Azərbaycanda milli mənlik şüurunun formalaşmasında yaxından iştirak etmişdir. O, “xalqın azadlıq yolunda islamçılıq və türkçülük yolunu seçmiş, müsəlmanları “maarifi-umumiyyə”, “hüquqi-mədəniyyə” uğrunda mübari-

zəyə səsləmişdir. Azərbaycan-türk ictimai fikrinin görkəmli nümayəndələrindən biri kimi Azərbaycan türklərində milliyətçilik və türkçülük şüurunun oyanmasında və inkişaf etməsində çox mühüm rol oynamışdır. Əhməd bəy Ağayevin özündən sonra qoyub getdiyi böyük irs (özünün ifadəsi ilə desək, "həyatı boyu yazdığı məqalələrin hamısı bir araya toplansa, Bakıdan İstanbula qədər bir geniş yol ortaya gələ bilər"), adı və əsərləri sovet dövründə ona "panislamist" və "pantürkist" damğası vurulduğu üçün qadağan edilmişdi.

Azərbaycan, daha sonra Türkiyə siyasi həyatında görkəmli türkçü və demokrat kimi qəbul edilən Əhməd bəy Ağayev, həm də böyük şəxsiyyət olmuşdur. Türk alimi Fəxrəddin Gülsevən qeyd edir ki, "O, heysiyyətli və möhtəşəm bir mütəfəkkirdir, mərd və cəsur mübarizə adamı, professor və maarifçi, usta qəzetəçi-yazar, dürüst siyasətçidir. Hürriyyət və demokratiya aşiqi bir insan, millətçi və inqilabçı ziyalı, inanılmış və vəfalı dost, yaxşı ailə başçısı, şəfqətli atadır. Deyə bilərik ki, o, insanlığın bütün üstün cəhətlərini və məziyyətlətini öz simasında toplamış böyük insan, dahi şəxsiyyətdir."

O, Azərbaycanda türkçülük hərəkatı ideoloqlarından biridir. Görkəmli ictimai-siyası xadim, şərqşünas, hüquqşunas, pedaqoq, yazıçı, tənqidçi, publisistdir. "Həyat", "İrşad", "Tərəqqi" qəzetlərinin redaktoru olmuşdur. Ermənilərin Azərbaycanda törətdikləri terror hadisələrinə qarşı cavab olaraq yaranan "Difai" partiyasının qurucusudur. 1918-ci ildə Azərbaycanın köməyinə gəlmiş türk ordusu komandanının siyasi müşaviridir. Cümhuriyyət Parlamentinin deputatı, Parlament sədrinin birinci müavini, Azərbaycan nümayəndə heyətinin tərkibində Versal sülh konfransının iştirakçışı olmuşdur. Türkiyədə müxtəlif vaxtlarda "Süleymaniyyə" kitabxanasının müdiri, "Türk yurdu" jurnalının redaktoru, İstanbul universitetinin müəllimi, Ankara Cümhuriyyət Baş Mətbuat Bürosunun müdiri işləmiş, ikinci və üçüncü çağırış Türkiyə Böyük Millət Məclisinin deputatı, "Hakimiyyəti-milliyə", "Cümhuriyyət", "Millət" qəzetlərinin baş redaktoru olmuşdur.

Əhməd bəy Ağayev 1869-cu ildə Azərbaycanın füsünkar guşələrindən biri olan Şuşa şəhərində, zadəgan ailəsində dünyaya göz açıb.

Atası Mirzə Həsən və babası Mirzə İbrahim bəy ərəb, fars, rus dillərini bilən və öz dövrünün savadlı insanlarından olmuşdular. Əhməd bəy Ağayev ilk təhsilini ənənəvi məktəb olan mollaxanada almış, ərəb və fars dillərini öyrənmişdir. Sonrakı təhsilini Şuşadakı rus məktəbində və Tiflis gimnaziyasında davam etdirmişdir. Əhməd bəy 1884-cü ildə orta təhsilini Tiflis gimnaziyasında başa vurduqdan sonra 1888-ci ildə Peterburqa gedərək Texnologiya İnstitutunda təhsilini davam etdirmək istəmişdir. O, Peterburqda olduğu qısa müddət ərzində özü kimi gənc olan Ə.Topçubaşov və Ə.Hüseynzadə ilə tanış olmuşdur. Lakin Peterburqda İnstituta daxil ola bilməmiş və ali təhsil almaq üçün Avropanın mərkəzinə Parisə yola düşmüşdür. Parisdə hüquq məktəbini və Sarbonna Universitetini bitirmişdir. Bir neçə xarici dil - latın, fransız, ingilis, alman və rus dillərini öyrənən Ə.b.Ağayev 1892-ci ildə şərqşünaslarm Londonda keçirilən konfransında "Şiə məzhəbinin qaynaqları" mövzusunda məruzə etmişdir. Əhməd bəy Fransada tələbə olarkən gənc türklərlərin irəli sürdükləri türk xalqlarının özünüdərk ideyalarını ürəkdən qəbul etmişdir. Parisdə Əhməd bəy Ağayev Fransada yaşayan türk inqilabi gəncliyinin (gələcəyin "Gənc türklər"i) nümayəndələri ilə yaxınlaşır. Həmçinin Şərqin böyük mütəfəkkiri Şeyx Camaləddin Əfqani ilə tanış olur. Bu tanışlıq onun dünyagörüşünə, ictimai-elmi fəaliyyətinə çox böyük təsir göstərir.

Müxtəlif xarici dilləri, ədəbiyyatı və mədəniyyətləri mükəmməl öyrənən Əhməd bəy o zaman həm yerli, həm də əcnəbi mətbuatda maraqlı məqalələrlə çıxış etməyə başlamışdır. Əhməd bəy tezliklə Azərbaycan xalqının milli özünüdərketmə və türkçülük ideyalarının yayılması üzrə fəaliyyətə başlayır.1894-cü ildə atasının vəfat etməsi ilə əlaqədar olaraq vətəninə - Azərbaycana qayıdır. Bir müddət Şuşada qaldıqdan sonra 1897-ci ildə Bakıya köçür və onun həyatında Bakı dövrü başlayır. Əhməd bəy Ağayev 1897-ci ildə "Kaspi" qəzetinin naşiri, Bakı milyonçusu H.Z.Tağıyevdən rus dilində nəşr olunan "Kaspi" qəzetində çalışmaq təklifini qəbul edir. 1898-ci ildən 1905-ci ilə qədər Əhməd bəy Ağayev "Kaspi" qəzetinin daimi əməkdaşı kimi müxtəlif mövzularda, o cümlədən dini-fəlsəfi, ictimai-siyasi və ədəbi mövzularda qəzetin səhifələrində çıxış etmişdir. Bu illər ərzində onun

“Kaspi” qəzetində 200-dən cox müxtəlif mövzulu məqaləsi dərc olunmuşdur. Əhməd bəy Ağayevin milli tərəqqi, milli özunudərk və milli oyanış, mütləqiyyətin müsəlmanlara qarşı yürütdüyü ayrı-seçkilik siyasəti və müsəlmanların geriliyinin səbəbləri haqqında, habelə müsəlmanların təhsili və maarifləndirilməsi və s. aktual problemlər üzrə yazdığı məqalələr ictimai şüurun oyanması və onun inkişafında əhəmiyyətli rol oynamışdır.

1905-ci ildə Rusiyada baş vermiş inqilab burada yaşayan müsəlman-türk xalqlarının milli tərəqqisi uğrunda mübarizənin başlangıcı oldu. İnqilabın təsiri altına düşmüş çar mütləqiyyəti ölkədə ictimai təşkilatların yaradılması və mətbuat azadlığı istiqamətində güzəştlər etməyə məcbur oldu. Bakıda nəşr olunan “Həyat”, “İrşad”, “Tərəqqi”, “Təkamül” və başqa qəzetlərin milli şüurun oyanışında və onun formalaşmasında əhəmiyyətli rolu olmuşdur. “Həyat” qəzeti 1905-1906-cı illərdə Bakıda H.Z. Tağıyevin yardımı ilə qüdrətli qələm sahibləri Əli bəy Hüseynzadə və Əhməd bəy Ağayevin redaktorlugu ilə nəşr olunan gündəlik qəzet olmuşdur. “İrşad” qəzeti 1905-1908-ci illərdə Əhməd bəy Ağayevin redaktorlugu altında çıxan gündəlik, ictimai-siyasi,iqtisadi-ədəbi qəzet idi. Qəzet bir çox milli ziyalıları öz ətrafında cəmləyə bilmişdir. Azərbaycanda milli şüurun oyanmasında və formalaşmasında irşadçıların böyük rolu danılmazdır. Qəzetin 1908-ci ildə 46-57-ci nömrələrinin redaktoru M.Ə.Rəsulzadə olmuşdur. Onun 1906 və 1908-ci illərdə “İrşad”ın səhifələrində 47 yazısı dərc olunmuşdur. “Tərəqqi” qəzeti -1908-1909-cu illərdə Bakıda Ə.Ağayevin redaktorluğu ilə çıxan gündəlik iri formatlı ictimai, siyasi, iqtisadi, ədəbi qəzet idi. M.Ə.Rəsulzadə “Tərəqqi”ni Azərbaycanda ilk Avropa tipli qəzet adlandırırdı. Qəzetin naşiri 46-cı nömrədən Murtuza Muxtarov idi. “Tərəqqi”ni öz dövrünün ciddi tarixi salnaməsi adlandırmaq mümkündür. Azərbaycanın ən güclü milli qələm sahiblərinin böyük bir dəstəsi “Tərəqqi” ətrafında cəmləşmişdi. (Ə.Ağayev, Ə.Hüseynzadə,Ü. Hacıbəyov,M. Hadi, Ə.F.Nemanzadə, Ə.Qəmküsar və b.) M.Ə.Rəsulzadə qəzetin ən fəal və əməkdaşlarından və müəlliflərindən idi. Onun bu qəzetdə 100-dən artıq çox qiymətli, müxtəlif janrlı əsəri dərc olunmuşdur.

Rusiya İmperiyası I dünya müharibəsində ağır məğlubiyyətlərə uğradı. Müharibənin nəticələri digər döyüşən dövlətlərlə müqayisədə Rusiya üçün daha fəlakətli olmuşdur. Böyük insan itkisi ilə müşayiət olunan bu məğlubiyyət, iqtisadiyyatdakı bərbat vəziyyət, milli əsarətin güclənməsi İmperiyanı iflasa doğru sürüklədi. İmperiyanı iflasa gətirib çıxaran başlıca səbəblərdən biri də milli amillər olmuşdur. XX əsrin əvvəllərində Rusiya İmperiyasının vəziyyətini təhlil edən bir çox tədqiqatçılar qeyd edirlər ki, əgər I dünya müharibəsi ərəfəsində çar rejiminin sosial, inqilabi ziyalılarla münasibətləri və iqtisadi tərəqqi üzrə problemləri həll etməyə şansı vardırsa da, milli məsələni həll etməyə cüzi də olsun şansı yox idi. Onların qənaitinə görə məhz milli problemlər çar rejiminin təkamül yolunun qarşısını alırdı. Belə ki, P.Stolıpinin təkcə qaragüruhçu, millətçiliyi deyil, həmçinin onun "liberal-demokratik mütərəqqi alternativi də milli məsələni həll etmir və nəticədə İmperiya süquta doğru gedirdi". XIX əsrin sonu XX əsrin əvvəllərində Rusiya İmperiyası ucqar müstəmləkəli bir dövlət olmuşdur. Burada milli məsələ xüsusi kəskinliyi ilə seçilirdi. Çar hökuməti nəyin bahasına olursa olsun imperiyanın vahidliyini möhkəmləndirməyə çalışır, bu məqsədlə ucqarlarda yaşayan xalqlara qarşı assimilyasıya siyasəti yeridirdi. Yürüdülən həmin siyasət ölkədə milli əsarətin daha da güclənməsinə, ölkənin "xalqlar həbsxanasına" çevrilməsinə gətirib çıxartdı, İmperiyanı iflasa doğru sürüklədi. Rusiyanın dünyaca məşhur böyük yazıçısı və mütəfəkkirlərindən biri kimi tanınmış Lev Nikolayeviç Tolstoy Rusiyada baş vermiş hadisələrin təsiri altında yazırdı: "Məncə, Rusiya adlandırılan xalqların böyük yığnağı nəinki kəndlilərə və fəhlələrə lazımdır , hətta onların manefelərinə zidd olub, bədbəxtçiliyin əsas mənbəyinə çevrilmişdir... sizin müdafiə etdiyiniz Rusiya nəinki böyük bəladır, həmçinin böyük günahdır. Çünki, Rusiyanı mühafizə etməkdən ötrü tələb etməlisən ki, qafqazlılar, litvalılar, tatarlar, ... özləri istədikləri kimi deyil, hökumətin onlara hökm etdiyi kimi yaşasınlar."

Azərbaycan ikiyə parcalanaraq İran və Rusiyanın müstəmləkəsinə çevrildikdən sonra xalqımız digər ucqarların xalqları kimi ikinci dərəcəli- "özgə xalq" («инородец») adlandırılmağa başlanmışdı.

Çarizm Rusiyanın xalq kütlələrinin maariflənməsi işinə hər vasitə ilə maneələr törədirdi. Azərbaycanın qabaqcıl ziyalıları çarizmin yürütdüyü milli ayrı-şeçkilik siyasətinə qarşı mübarizə aparır, dövrü mətbuatda məqalələrlə cıxış edərək bina dərin etirazlarını bildirirdilər. Tanınmış rus ədəbiyyatı klassiklərindən biri, yazıçı-realist, şair, publisist, dramaturq, tərcüməçi İvan Sergeyeviç Turgenyevin 100 illiyi ilə əlaqədar olaraq örkəmli müsəlman publisisti Əhməd bəy Ağayev qeyd etmişdir: "Rus ədəbiyyatının mənəvi-mədəni təsiri müsəlman ziyalılarını Rusiyaya bağlamışdır. İnsan ləyaqətinin azadlığı uğrunda yorulmadan mübarizə aparmış Turgenyev, köləliyə və zorakılığa nifrət bəsləyən hər kəs üçün əzizdir. Rusiya mütləqiyyəti hər bir «инородец»-in qəlbinə ağır yaralar vurdu, lakin böyük rus ədəbiyyatının ən yaxşı nümayəndələrinin-Tolstoy, Dostoyevskiy, Turgenyev, Korolenkonun bu qəlbləri nurlandıran parlaq işığı ilə müqayisədə bütün bu yaralar nə deməkdir? Rusiya mütləqiyyəti əsarət altında saxlamış, rus ədəbiyyatı isə misli görünməmiş təqiblərə baxmayaraq daim insanın azad olunması uğrunda mübarizəyə səsləmiş və ədəbiyyat qalib gəlmişdir. Rus ədəbiyyatı, sıralarında Turgenyev olan əsl rus ədəbiyyatı «инородец»-in, " özününkü" və "özgənin" nə olduğunu bilməmişdir. O, əsarət altına alınmış hər kəs uğrunda səsini ucaltmışdır. Alçaldılmış və təhqir olunmuş hər bir kəsə təsəlli vermiş və ruhlandırmışdır."

27 yanvar 1906-cı il tarixli 21 №li "Баку" qəzetində Əhməd bəy Ağaoğlunun 23 №li "İrşad" qəzetində "müsəlmanların geriliyinin aradan qaldırılması və onun tərəqqisinə yol açan şərtlər və hüquqlar haqqında" məqaləsinin dərc olunduğu barədə məlumat verilirdi. Həmin məqalədə Əhməd bəy Ağayev müsəlmanların tərəqqisi üçün aşağıdakı şərtlərin vacib olduğunu bildirirdi: 1) Müsəlmanlar Rusiyanın bütün xalqları ilə bərabər hüquqlu olmalı, siyasi, dini və ictimai sahədə mövcud məhdudiyyətlər ləğv olunmalıdır; 2) Müsəlmanlara dini azadlıq verilməli, onlar sərbəst olaraq məktəblər, ibadət evləri təşkil edə bilməlidirlər ki, digər xalqlar arasında öz ana dilini və xalqını inkişaf etdirə bilsinlər; 3) Hökumət tərəfindən götürülmüş vəqf mülkləri geri qaytarılmalı və məscidin maliyyə işlərinə müdaxilə edilməməlidir; 4) Söz və mətbuat azadlığı verilməli, dini və ictimai

işlərdə senzura ləğv edilməlidir; 5) Şəxsiyyət azadlığı verilməli, yalnız məhkəmənin qərarı ilə həbsə alınmalı, ittihamnamə təqdim edilmədən 24 saatdan artıq həbsdə saxlanılmamalıdır; qanunu pozarkən həbs olunan məhbusun çəkilmiş ziyana görə iddia vermək imkanı olmalıdır; 6) Polisin özbaşına həbs etmək və şəhərdən sürgün etmək hüququ olmamalıdır; 7) Tezliklə seçkili hakimlərdən ibarət xalq məhkəməsi yaradılmalıdır; 8) Təxirə salınmadan dövlət hesabına ana dilində xalq məktəbləri açılmalı, 7-14 yaşlı müsəlman uşaqlar ana dilində təhsil almalı, əgər uşaqlar yoxsuldurlarsa, onların oxuması və dolanması üçün vəsait ayrılmalıdır; 9) Təhsil və mədəniyyəti inkişaf etdirmək üçün sərbəst surətdə məktəb (mədrəsə) və ali təhsil məktəbləri açılmalıdır; 10) Sərbəst surətdə ruhaniləri seçmək, vəqf mülkiyyətlərinə sahiblik etmək, məktəb, mədrəsə, xeyriyyə cəmiyyətlərini və digər xeyriyyə təşkilatlarını açmaq hüququnun verilməsi; 11) Müsəlmanların məhkəmələrdə və digər hökumət idarələrində sərbəst surətdə öz dillərindən istifadə etməsi;12) İstənilən yerdə yaşamaq və hərəkət etməkdən ötrü pasport sistemi ləğv edilməli; 13) Müsəlmanlara sərbəst surətdə birliklər, cəmiyyətlər yaratmağa və iclaslar çağırmağa imkan verilməlidir; 14) Məhkəmənin buna icazəsi olmadan heç kimin şəxsiyyətinə və ya əmlakına toxunmağa və şəxsi yazışmalarını oxumağa ixtiyarı olmamalıdır; 15) Kəndlilər yaxşı yaşamaları üçün dövlətdən kifayət qədər torpaq ala bilməlidir ki, xərcləri və ziyanı ödəyə bilsin; 16) Müsəlman fəhlələr digər fəhlələrlə bərabər hüquqlu olmalıdır; 17) Xalq nümayəndəliyinə seçkilər ümumi, bərabər və gizli olmalıdır; 18) Şəhərlər və kəndlərdə tezliklə geniş surətdə özünüidarəetmə tətbiq edilməlidir.

Mütləqiyyətin xalqa qarşı yürütdüyü siyasət nəticəsində XX əsrin əvvəllərində Rusiya İmperiyasının ucqarlarında, o cümlədən Azərbaycanda yaşayan əhalinin 4/3 hissəsi savadsız idi. Çarizm ölkənin ucqarlarında yaşayan xalq kütlələrinin maariflənməsi işinə xüsusilə ciddi maneə törədirdi. Kifayətdir qeyd edək ki, 1897-ci ildə keçirilmiş siyahıya alınmaya görə Bakı quberniyasında savadlıların sayı əhalinin cəmi 8 faizini təşkil edirdi ki, bu da ümumrusiya göstəricisindən (23%) 3 dəfə az idi. Əgər yalnız kənd əhalisi götürülərsə, bu

göstərici daha az 4,5 % təşkil edirdi ki, bunun da 4%-ni azyaşlı və həddi-buluğa çatmamış uşaqlar, yalnız 0,5 % -ni 20 yaşdan yuxarı və seçkilərdə iştirak etmək hüququ olan şəxslər təşkil edirdi. Bakı kəndlərində yaşayan və 20 yaşdan yuxarı olan əhalinin yalnız yarım faizi savadlı idi. Xəzinənin Azərbaycanda maarifin ehtiyaclarına sərf etdiyi xərclər yenə də cüzi bir məbləğ təşkil edirdi. Bu xərclər 1902-ci ildə Bakı Quberniyasında adam başına 79,3 qəpiyə, Yelizavetpol quberniyasında isə cəmi 37 qəpiyə bərabər idi. XX əsrin əvvəllərində Azərbaycanda maarifin ehtiyaclarına ildə adam başına orta hesabla ən çoxu 64 qəpik pul xərclənirdi. Azərbaycanın tanınmış ziyalıları və görkəmli ictimai-siyası xadimləri İmperiyanın yürütdüyü belə mürtəce siyasətə qarşı çıxış edirdilər. Azərbaycanda milli ideologiyanın əsaslarını proqram və tələblər şəklində işlənib hazırlanmasında görkəmli ictimai xadımlər Ə.Topçubaşov, M.Ə.Rəsulzadə, Ə.Ağayev, Ə.Hüseynzadə və başqaları bilavasitə iştirak etmişdilər. Ümumiyyətlə, qeyd edək ki, XIX əsrin sonu - XX əsrin əvvəllərində mətbuatı təmsil edənlərin əksəriyyəti H.Zərdabi, Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə, Ə.Topçubaşov, Ə.Ağayev, M.Hadı, M.Ə.Sabir, H.Cavid, Ü.Hacıbəyov, C.Hacıbəyov, M.Hacinski, M.Şahtaxtlı, A.Şaiq və b. yenicə yaranan millilik şüurunun intişarı ilə daim məşğul olurdular. Onların demək olar ki, böyük əksəriyyəti ali təhsilli, yüksək ixtisaslı elm, ədəbiyyat və mədəniyyət xadimləri, ziyalılar idilər. Azərbaycanın tanınmış ictimai xadimləri "Каспий", "Баку", "İrşad"," "Həyat", "Tərəqqi", "Təkamül" və digər dövri mətbuatda xalqımızın gələcək inkişafı üçün əhəmiyyət kəsb edən taleyüklü məsələlərə həsr olunmuş müxtəlif aktual məqalələrlə çıxış edirdilər. Mütləqiyyət milli məsələdə bir addım da olsun güzəştə getmir, əksinə I-ci Rusiya inqilabı illərində millətin əsarətdə saxlanmasının köhnə əsarət formalarına qayıdaraq Qafqazın 1844-1881-ci illər ərzində idarə olunması təcrübəsindən istifadə olunmasına qərar vermişdir. İlk növbədə, 1905-ci il fevralın 26-da Qafqazda geniş mülki və hərbi səlahiyyətlərə malik canişinlik bərpa olundu. Qafqaz canişini təyin olunmuş qraf Vorontsov-Daşkovun adına verilmiş çar reskriptində qeyd edilirdi ki, onun birinci vəzifəsi "Qafqazda yubanmadan dinclik yaratmaqdır." 1905-ci il fevralın 18-

də II Nikolayın fərmanı ilə Bakıda və Bakı quberniyasında, 1905-ci ilin sentyabrında isə Yelizavetpol quberniyasında hərbi vəziyyət rejimi tətbiq edildi. Yelizavetpol quberniyası ərazisində iki müvəqqəti general-qubernatorluq yaradıldı. Bunlardan biri Zəngəzur, Cavanşir, Cəbrayıl və Şuşa qəzalarını, o biri isə digər qəzaları əhatə edirdi. Mütləqiyyətin bütün ucqarlarda olduğu kimi Azərbaycanda da yeritdiyi müstəmləçilik siyasəti və xalq hərəkatı ilə mübarizə formalarından biri milli nifaq salmaq, millətlərarası toqquşmalar yaratmaq idi. Həmin toqquşmalardan ilk ən böyüyü 1905-ci il fevralın 6-da Bakıda təşkil olundu. Çar hakimiyyətinin poliş və qoşun qüvvələri yüzlərlə insanın qurban getdikləri qanlı toqquşmalara qarışmırdı. Erməni-azərbaycanlı toqquşmaları yenidən 1906-cı ildə Bakı Yelizavetpol və İrəvan quberniyalarında təskil olundu. M.Ə.Rəsulzadə çarizmin siyasətini tənqid edərək yazırdı: ”Rusiya məmləkətində hökm sürən istibdadın ən qədim və köhnə üsullarından biri budur ki, istibdad özünə tabe olan millətləri bir -biri ilə yağılaşdırıb və tutuşdurub və belə müxtəlif millətlər arasında ziddiyyət və düşmənçilik salırdı”.

XIX əsrin 90-cı illərinin ortalarından etibarən çar Rusiyasının himayədarlığı ilə erməni məsələsi Türkiyədən Zaqafqaziyaya köçürülür. Erməni məsələsinin bu yerlərə köçürülməsi və ”Daşnaksütyun” partiyasının gələcəkdə yaratmaq istədikləri Ermənistan muxtariyyəti üçün ərazilər əldə etmək üzrə öz məqsədli prooqramı ilə bu yerlərə soxulması Zaqafqaziyanın həyatına milli düşmənçilik və ədavət toxumlarını səpdi. “Daşnaqsütyun” partiyası erməniləri “Böyük Ermənistan” yaratmağa ruhlandırırdı. Gizli erməni təşkilatları və “Daşnaksütyun” partiyası tərəfindən “Qan tökmək lazımdır və ermənilər bütün istədiklərini əldə edəcəklər” sərsəm ideya altında misli görünməmiş böyük bir faciələr törətdilər. Daşnaklar bu yerlərdə göründükləri ilk vaxtlardan etibarən terror aktları törətməyə başladılar. Çar Rusiyasının köməklik və himayədarlığı ilə Zaqafqaziyada XIX əsrin sonu- XX əsrin əvvəllərində özlərinə yer etdikdən sonra ermənilər özlərinin həqiqi simalarını göstərməyə başladılar.

1905-ci il fevralın 6-da Bakının mərkəzində, erməni kilsəsinin yaxınlığındakı “Parapet” meydanında Bakı qəzasının Sabunçu kənd

sakini, varlı müsəlman Ağarza Babayevin ermənilər tərəfindən öldürülməsi azərbaycanlılarla ermənilər arasında qanlı qarşıdurmanın başlanmasına təkan verdi . Bakı qəza rəisinin Bakı qubernatoruna göndərdiyi 7 sentyabr 1905ci il tarixli 3233№li raportda qeyd edilirdi:”... mənim diqqətim iğtişaşlar başlayan vaxtdan həm yanğının, həm də tatarlarla (azərbaycanlılarla) ermənilər arasında qırğının baş verə biləcəyi daha təhlükəli bölgə olan Bibi-Heybətə yönəlmişdir. Bibi-Heybət polis bölməsinin məlumatlarında geyd edildiyi kimi iğtişaşlar ermənilər tərəfindən başlanmışdır. Onlar Bakı şəhərində qərar tutmuş yeganə hərbi hissə olan 2-ci xoper kazak alayının 2-ci sotnyasının düşərgəsini atəşə tutmağa başlamışdılar. Lakin vaxtında görülmüş tədbirlər nəticəsində cinayətkarlar saxlanılmış, onların atəş açdıqları yerlər axtarılaraq möhürlənmişdir...”

Bakıda başlamış qanlı qarşıdurmalar qısa müddətdə Azərbaycanın başqa qəzalarına, o cümlədən Naxçıvan, Ordubad, Cavanşır, Şuşa, Qazax, İrəvan, Eçmiədzin, Zəngəzur, Dərələyəz, Göyçə, Vedi və digər bölgələrə yayılmışdır. Yelizavetpol quberniyasında azərbaycanlıların vəziyyəti olduqca ağır idi. 1905-ci il iyunun 26-da “Баку” qəzetində Yelizavetpol şəhərinin ziyalı nümayəndələrinin proklamasiyası dərc edilmişdir. Həmin sənəddə qeyd edilirdi ki, hər iki xalqı birləşdirən tarixi köklər var və onlar başa düşməlidirlər ki, Qafqaz onların ümumi vətənidir. Proklamasiyanın müəllifləri azərbaycanlılara və ermənilərə müraciət edərək onları bir-birini qırmaq əvəzinə maarif və mədəniyyəti inkişaf etdirməyə səsləyirdilər. Proklamasiyanı imzalayanlar arasında sonralar Difai partiyasının Yelizavetpol şöbəsinin üzvləri A.Rəfibəyov, A. Rəfiyev, A.Xasməmmədov var idi. Erməni-daşnak qüvvələrinin 1905-ci ilin fevralında Bakıda törədilən erməni-müsəlman münaqişəsi tezliklə Cənubi Qafqazı qanlı qırğın meydanına çevirdi. Münaqişə nəticəsində azərbaycanlıların tərk etdiyi torpaqlarda Türkiyədən və qismən də İrandan gəlmiş ermənilər yerləşdirilirdi.

Erməni-müsəlman toqquşmaları 1906-cı ildə yenidən Bakı, Yelizavetpol və İrəvan quberiyalarında təşkil olundu. 1905-1906-cı illərdə erməni-azərbaycanlı ziddiyyətlərinin kəskinləşməsi milli siyasi partiyanın yaradılmasını zərurətə çevirdi. Qeyd edək ki, 1906-cı ilin

fevral-mart aylarında Tiflisdə keçirilmiş “barışdırıcı” qurultayda Azərbaycan nümayəndələrinin çıxışlarında milli qüvvələrin birləşməsi, xalqın mənafelərinin müdafiəsi və onun təhlükəsizliyini qorumaq üçün təşkilatların yaradılmasının xüsusi əhəmiyyət kəsb edildiyi nəzərə çatdırılırdı. Qurultayda aparılmış ciddi diskussiyalar nəticəsində belə nəticəyə gəlmişdilər ki, irticaçı partiya olan “Daşnaksütyun”-a və onun silahlı qüvvələrinə qarşı siyasi partiyanın və döyüş drujinalarının yaradılması zəruridir. Erməni-müsəlman davasında erməni terrorunun qarşısını almaq, habelə xəyanətkar ermənipərəst çar idarələrinin antiazərbaycan siyasətinə cavab vermək üçün 1906-cı ilin avqustunda Şuşada Əhməd bəy Ağayevin başçılığı altında “Qafqaz Ümummüsəlman müdafiə komitəsi” - Difai partiyası yaradıldı. Mərkəzi Komitəsi Bakıda yerləşən partiya əsasən Qarabağda fəaliyyət göstərirdi. Partiyanın yaranmasının əsas səbəbi Qafqazdakı rus hakim dairələrinin dəstəyi ilə erməni daşnaklarının azərbaycanlılara qarşı törətdiyi amansız qırğınlar olmuşdur. Difai partiyasının yaradılmasını Azərbaycanda milli mənlik şüurunun formalaşmasının ifadəsi kimi qəbul etmək mümkündür. Bu partiya Azərbaycan xalqını erməni qırğınlarından xilas etməyi, həm də müsəlmanların maarifləndirilməsi uğrunda mübarizə aparmağı özünün başlıca məqsədi elan etmişdi. Partiyanın ən fəal şöbələrindən biri Şuşada fəaliyyət göstərirdi və “Qarabağ Məclis birliyi” adlanırdı. Döyüşkən partiya kimi yaranmasına və rus rəhbər orqanlarının nümayəndələrinə qarşı bir sıra qəti tədbirlər keçirməsinə baxmayaraq, Difai yalnız hərbi məqsədlər güdmürdü. Azərbaycan Respublikası Dövlət Tarix Arxivində saxlanan “Polis departamentinin xüsusi şöbəsi” fondundakı materiallarda Mikayıl İsrafilov adlı bir nəfərin şahidlik ifadəsində Difai partiyasının Bakıda yaşayan “İrşad” qəzetinin redaktoru Əhməd bəy Ağayevin təşəbbüsü və rəhbərliyi meydana gəldiyi, partiyanın başçısı və Mərkəzi Komitəsinin sədri Əhməd bəy Ağayev olduğu qeyd edilirdi. Bildirilirdi ki, Əhməd bəy Ağayev 1906-cı il avqustun əvvəllərində son qırğın zamanı Şuşaya gələrək nüfuzlu və fəxri tatarların (azərbaycanlıların) yığıncağını keçirir. Ağayev, doktor Mehmandarov və b. çıxışlarında bildirirlər ki, müsəlmanlar indiyə qədər rus hökumətinə

sadiq qaldığı halda əvəzində general Qoloşapov erməni xumbaları ilə birləşərək imkanlı tatarların (azərbaycanlıların) evlərini, saray məscidlərini dağıtdılar, minlərlə dinc müsəlmanlar aclığa düçar oldular. Həmin yığıncaqda canışından general Qoloşapovun geri çağırılmasının xahiş edilməsi və müraciətnamə buraxmaq barədə qərar qəbul edildi. Buraxılmış müraciətlərin birində partiyanı yaratmaqda məqsəd və qarşıya qoyulan vəzifələr geniş şərh olunmuşdur: “Artıq iki ildir ki, Qafqaz müsəlmanları həyatlarını təhlükə altında qoyan mərhumiyyətlərə məruz qalmışdılar. Buna səbəb aşağıdakılardır:1) erməni müsəlman münaqişəsi; 2) Xalqın savadsızlığı, nadanlığı; 3) Müsəlmanların sosial-mənəvi tənəzzülü. Bu dəhşətli təhlükədən qurtarmaq üçün hökumətə və özünü xalqın rəhbəri adlandıranlara ümid olmaq mənasızdır. Hökumət adamları qorxaqcasına “Daşnaksütyun”-un bomba və güllələri qarşısında boyun əyərək onların Qafqazda alətinə çevrilmişlər. Nəticədə isə “Daşnaksütyun”-un planı həyata keçirilmişdir. Qoloşapov, Kleşşinski, Mitskeviç, Smoradski və başqa yaramazların rəhbərliyi ilə Zəngəzur, Şuşa, Cəbrayıl və Cavad qəzaları darmadağın edilmiş, faktiki olaraq ermənilərin əlinə keçmişdir. Külə dönmüş yurdlarından didərgin düşmüş minlərlə qaçqın kəndli ailəsi özünə nə sığınacaq, nə müdafiə, nə yemək, nə də ev tapmayaraq Yeliszavetpol quberniyasında səfil sərgərdana dönüblər... Nəticə göz qabağındadır: hazırda xalqımız məhv olur. Bir tərəfdən xarici qüşmənlərin təzyiqi, digər tərəfdən talançılıq, öldürməklə özümüz-özümüzü məhv edirik. Daha dözmək olmaz. Buna görə də minlərlə cavanlar bütün Şimali Qafqazdan, Dağıstan və Zaqafqaziyadan toplanaraq, müqəddəs Qurana and içib partiya yaratdı. Onun yeganə məqsədi bütün Qafqaz müsəlmanlarını məhv olmaq təhlükəsindən azad etməkdir. Bunun üçün isə iki əsas vasitə:1) maariflənmək və 2) qüvvə tətbiq etməkdir.” Maariflənmək üçün məktəblərin açılması, terrorla isə düşmənin zülmündən azad olmaq nəzərdə tutulurdu.

Polisin məruzələrində MK üzvləri arasında aşağıdakı şəxslərin adları göstərilirdi:1) Əhməd bəy Ağayev - “İrşad” qəzetinin redaktoru; 2) Qarabəy Qarabəyov - həkim, ”Hümmət” təşkilatına mənsub idi; 3) Məmmədhəsən Hacinski; 4) İsa bəy Aşurbəyov – Ə.Ağayevin ən

yaxın silahdaşı; (agentura məlumatlarına görə "İrşad" qəzeti əsasən Aşurbəyovun vəsaiti hesabına saxlanılırdı); 5) Behbud Cavanşirski; 6) Niftali bəy Behbudov. Şuşada azərbaycanlı əhalinin vəhşicəsinə qırılması və qovulmasında hərbi yardım göstərən general Qoloşapov 1906-cı il noyabrın 8-də Tiflisdə partiyanın tapşırığı ilə Hüsü Əli, Kleşşinski isə 1907-ci il aprelin 25-də Seyid Miriş tərəfindən qətlə yetirilmişdir. Hər iki sui-qəsdin məsuliyyətini öz üzərinə götürən partiyanın buraxdığı intibahnamədə qeyd edilirdi: "Müsəlmanlar! General Qoloşapov aldığı iki güllə yarasından bizim üçün biabırçı və nifrətamiz həyatına biabırcasına son qoydu. O, Qarabağda törətdiyi pisliklərə görə Difai partiyası tərəfindən ölümə məhkum edilərək layiq olduğu piyaləni içdi. Bu, Difai partiyasının Qafqaz müsəlmanlarının qeyrət və ləyaqətinin müdafiəsi yolunda ilk çıxışı və xalqın qaynamaqda olan hiddətinin intiqam aktıdır...İndi "bu müsəlmanların daha çox qanını tökün" deyən Qoloşapovun yüzlərlə qurbanının qəlbi sakitləşər. İndi minlərlə köməksiz ana və bacıların göz yaşları quruyar. İndi Zəngəzur, Şuşa, Cəbrayıl və Cavanşır qəzalarının minlərlə müflisləşmiş sərgərdan əhalisi, heç olmasa, bir balaca dincələr." Müraciətnamə "Yaşasın Difai!", "Məhv olsun xalqın cəlladları və xəyanətkarlar" sözləri ilə bitirdi.

Saysız-hesabsız erməni terrorları ilə müqayisədə Difai partiyasının sui-qəsd aktları o qədər də nəzərə çarpacaq dərəcədə olmasa da, çar üsul-idarəsi, habelə erməni "Daşnaksütyun" partiyası azərbaycanlıların daha əvvəlki kimi sakit oturub hökumətə itaət edərək erməni xumbalarının qarşısından qaçması hallarına son qoyulduğunun, ciddi və inadla müqavimət göstərdiyinin şahidi oldular. Bununla əlaqədar olaraq partiyanın müraciətnaməsində deyilirdi: "Mütəşəkkil hərbi qüvvəyə malik, eyni zamanda yeni silahlarla, hətta toplarla təchiz edilmiş daşnak partiyası bir tərəfdən silah gücünə bütün erməniləri, digər tərəfdən də Qafqaz hökumətini özünə tabe edən ümdə məqsədlərinə nail olmağa çalışırlar. Onların əsas məqsədləri Qafqazda yaşayan bütün müsəlmanları qırdıqdan sonra onların torpaqlarını işğal etməkdir. Bu məqsədlərinə nail olduqdan sonra ermənilərin fikirləri Qafqazda ermənilər üçün milli müstəqil bir idarə yaratmaqdır. Əgər daşnak

partiyası namus və səmimiyyətlə öz hərəkət və fəaliyyətinin həqiqi proqramını aşkar söylərsə və bu proqram Qafqazda yaşayan bütün millətlərin azadlığı və müstəqilliyinə xələl gətirmirsə, o zaman biz birlik əlimizi həmişə ona uzatmağa hazırıq. Əksinə, əvvəllər olduğu kimi, müsəlmanların üzərinə xain və qəddarcasına hücumlar edərsə, bizdən layiqli cavabını alar və Qafqaz başdan-başa sonsuz qanlı səhnə halına düşər. ”Daşnak” partiyası əmin olsun ki, heç bir vaxt öz millətimizin xarabazarlığı və külü üzərində erməni millətinin səadət və xoş güzaran qurmasına yol verməzik. Özlərini müsəlman rəhbərləri hesab edib, əslində isə xalqın məhvi üçün işləyən cənablarla da belə rəftar olunacaq. Partiyanın qılıncı onların cinayətkar başları üzərindən daimi asılı alacaq və bütün hərəkətlərinə görə onları amansız intiqam gözləyir. Partiya xüsusilə xalq arasında nifaq salıb düşmənçilik edən partiyalar yaradanları, xalqın əzilməsində hökumətə yarınanları, müsəlmanların siyasi və elmi tərəqqisinə maneə törədənləri amansızcasına təqib edəcək. Difai partiyasının qısa proqramı budur.”

1906-cı ildə Difai partiyasının yaradılması Azərbaycanın müsəlman-türk əhalisinin erməni təcavüzündən və represiyalardan qorunmasında misilsiz rol oynadı. “Difai” ərəbcə müdafiə deməkdir. Adından da göründüyü kimi, bu partiya özünümüdafiə, antiterror təşkilat kimi fəaliyyət göstərmişdir. Əgər “Daşnaksütyun” partiyası elə ilk vaxtdan etibarən yeni ərazilər iddiasında olan və öz etnosunun müstəsnalığını bəyan edən bir terror təşkilatı kimi yaranmışdırsa, Difai isə erməni terrorçularının bu hərəkətlərinə cavab olaraq, antiterror təşkilat kimi fəaliyyət göstərmişdir. Difai partiyasının yaradılmasının başlıca səbəbi 1905-1906-cı illərin erməni-azərbaycanlı münaqişəsi olmuşdur. Difai partiyasına o dövrün yüksək təhsilli, Avropanın nüfuzlu universitetlərində təhsil almış azərbaycanlı ziyalılar rəhbərlik edirdi. Difai partiyasının meydana gəlməsi Azərbaycanda milli mənlik şüurunun formalaşmasının parlaq ifadəsi kimi qəbul etmək mümkündür. Ermənilərin yaxşı silahlanmış “Daşnaksütyun” partiyası müqabilində “Difai” müdafiə təşkilatı Azərbaycan xalqının milli azadlıq hərəkatında özünəməxsus yer tutdu. Tədqiqatçı-alim Eldar Əzizovun “Difai” (XX əsrin əvvəllərində erməni-Azərbaycan münaqişəsinin

ilkin tarixi şərtləri və səbəbləri" əsərində haqlı olaraq qeyd edilir ki, "Difai" partiyası inandırıcı şəkildə nümayiş etdirdi ki, Azərbaycan xalqı özü-öz taleyini həll edə bilər. Özünü müdafiə etmək və bunun üçün zəruri strukturlar, güc strukturları yaratmaq məqsədə doğru ucalmaq iqtidarına malikdir. "Difai" Qafqazda ilk türk dövlətini yaratmaq və xalqı maarifləndirmək ideyasını irəli sürdü. Difaiçilərin əməliyyatları çar hökumətini narahat etdiyindən, onlara qarşı mübarizəyə başladılar. Qafqaz canişini 1908 il 4 mart tarixli fərmanla "Difai" Partiyasını qadağan etdi. Əhməd bəyin rəhbəri olduğu "İrşad" qəzeti qapadıldı. O, təqib və mümkün həbslər səbəbindən 1908-ci ilin sonlarında İstanbula köçmək məcburiyyətində qalır. Burada gənc türklərin "Birlik və tərəqqi" partiyasına daxil olur. Süleymaniyyədə kitabxana direktoru, "Türk yurdu" jurnalının redaktoru olmaqla İstanbul universitetində rus dilindən dərs deyir.

Azərbaycanda ilk müstəqil, demokratik cümhuriyyət qurulduqda Əhməd bəy Ağaoğlu vətənə qayıdır və Şərqin ilk müsəlman demokratik dövlətinin möhkəmlənməsi üzrə geniş fəaliyyətə başlayır. Azərbaycan Parlamentinə üzv seçilən Əhməd bəy Ağaoğlu 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin köməyinə gəlmiş Türkiyə ordusu komandanının siyasi müşaviri olmuşdur. O, Azərbaycan nümayəndə heyətinin tərkibində 1919-cu ildə Versal sülh konfransında iştirak etmək üçün seçilir, lakin iştirak edə bilmir. 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti süqutu və sovet rejimi dövründə Əhməd Ağaoğlu İstanbula gələrək burada "İttihad və Tərəqqi" partiyasının işində daha fəal iştirak edir. Birinci Dünya müharibəsində Türkiyənin məğlubiyyətindən sonra Əhməd Ağaoğlu "İttihad və tərəqqi" partiyasının digər rəhbərlərilə birgə ingilislər tərəfindən həbs olunaraq Malta adasına sürgün olunur. Sürgündən qayıtdıqdan sonra kamalçılarla yaxınlaşaraq Ankara İnformasiya Agentliyinə rəhbərlik etmiş, "Hakimiyyəti-milliyyə" qəzetinin baş redaktoru işləmiş, ikinci və üçüncü çağırış Türkiyə Böyük Millət Məclisinə deputat seçildikdən sonra Mustafa Kamal Atatürkün xarici məsələlər üzrə siyasi məsləhətçisi olmuş və xarici siyasət sahəsində qüvvə və bacarığını sərf etmişdir. 30-cu illərdə təqaüdə çıxan Əhməd bəy Ağayev "Sərbəst insanlar

ölkəsində", "Mən nəyəm", "Könülsüz olmaz" kimi bədii-fəlsəfi traktatlar, bir çox elmi-kütləvi oçerkləri ilə də yadda qalmışdır. O, 1939-cu ildə İstanbul şəhərində vəfat etmişdir. Azərbaycan dövlətinin yaradılması uğrunda fövqəladə işlər həyata keçirmiş, kamil biliyə, dərin savada malik mütəfəkkir şəxsiyyət, görkəmli ictimai-siyasi xadim və ziyalı Əhməd bəy Ağayev XIX əsrin sonu XX yüzilliyin əvvəllərində təkcə övladı olduğu Azərbaycan xalqının deyil, bütün türk-islam dünyasının ədəbi-mədəni və ictimai-siyasi fikir tarixində diqqətəlayiq yer tutan görkəmli şəxsiyyətlərdən biri olmuşdur. O, zəngin siyasi, nəzəri və elmi irsi hələ də yetərincə öyrənilməyən fikir nəhənglərindən, türk xalqlarının yetirdiyi son ensiklopedistlərdən biridir. Əhməd bəy Ağayevin dünyagörüşü və ictimai fəaliyyəti səmərəli, mürəkkəb, həm də müəyyən dərəcədə ziddiyyətli olmuşdur. Həyatının müxtəlif dövrlərində dünyagörüşü və siyasi düşüncəsi üç ana xətt üzərində cəmləşmişdir: İslamçılıq, Qərbçilik və Türkçülük. O, Qərb mədəniyyətindən öyrənmək fikrini yazılarında ardıcıl olaraq irəli sürmüş, İslama baxışlarında demokratik mövqedən çıxış etmişdir. Əhməd bəy Ağayev Azərbaycan türklərində milliyyətçilik və türkçülük şüurunun oyanmasında və güclənməsində çox mühüm rol oynamışdır.

## ÜZEYİR və CEYHUN HACIBƏYOV QARDAŞLARI

XIX əsrin sonu XX əsrin əvvəlləri Azərbaycan xalqının tarixinə milli oyanış və özünüdərketmə dövrü kimi daxil olmuşdur. Həmin dövrdə Azərbaycanın ictimai-siyasi, ədəbi-mədəni və mətbu həyatında əhəmiyyətli iz qoymuş tanınmış şəxsiyyətlərdən ikisi Üzeyir və Ceyhun Hacıbəyov qardaşlarıdır. Onların Respublikamızın Dövlət Arxivlərində saxlanılan arxiv sənədləri və tanış olduğumuz digər elmi-tarixi mənbələr təsdiq edir ki, İstiqlal mücahidləri Üzeyir və Ceyhun Hacıbəyov qardaşları XX əsrin əvvəllərində Azərbaycanda genişlənməkdə olan milli azadlıq hərəkatında, xalqın cəhalət və qəflətdən xilas edilməsi, geriliyin və savadsızlığın aradan qaldırılması uğrunda mübarizədə fəal iştirak etmişdilər.

Azərbaycan professional musiqisi və milli operasının banisi, milli musiqi təhsilimizin bünövrəsini qoymuş dahi bəstəkarımız Üzeyir Hacıbəyov və Azərbaycanın ədəbi-mədəni, mətbu və ictimai-siyasi həyatında əhəmiyyətli iz qoymuş yazıçı-publisist, tərcüməçi, folklorşünas, ictimai xadim, Azərbaycanın istiqlal mücahidi Ceyhun Hacıbəyov özlərinin zəngin və çoxşaxəli yaradıcılığı, milli-mənəvi irsə qəlbən bağlılığı ilə xalqımızın yaddaşında özlərinə əbədi abidə ucaltmışdılar. Üzeyir və Ceyhun Hacıbəyov qardaşlarının həyatı və çoxşaxəli ictimai, ədəbi-mədəni, maarifçilik fəaliyyəti təmənna güdmədən öz xalqına, onun tərəqqisinə xidmət göstərilməsinə parlaq bir nümunədir.

Üzeyir Hacıbəyovun adı tarixə yalnız böyük müsiqı nəzəriyyəçisi kimi deyil, həmçinin görkəmli alim, yazıçı, publisist, tarixçi, dirijor, müəllim-pedaqoq, ictimai xadim kimi daxil olmuşdur. Məlumdur ki, Üzeyir Hacıbəyov ilk növbədə ixtisasca müəllim olmuş və həyatı boyu müəllim adını uca tutmuşdur. Onun zəngin və çoxşaxəli fəaliyyətində təlim- tərbiyə məsələsi xüsusi yer tutur. O, həyatının 40 ildən artıq bir dövrünü müəllimlik peşəsinə - xalqın maariflənməsi və təhsili, xalq kütlələri arasında elm və maarifin yayılması və savadsız-

lığın, geriliyin aradan qaldırılması uğrunda mübarizəyə həsr etmiş və bu sahədə olduqca əhəmiyyətli işlər görmüşdür.

Ü.Hacıbəyov ibtidai təhsilini Şuşada almışdır. O, İrəvan müəllimlər seminariyasının məzunu, öz dövrünün tanınmış pedaqoqu, maarif, mədəniyyət və mətbuat xadimi, publisist Haşım bəy Vəzirovun müdir olduğu rus-tatar (Azərbaycan) məktəbini bitirmişdir. Ü.Hacıbəyov ibtidai təhsilini Şuşada başa vurduqdan sonra 1899-cu ildə keçmiş Çar Rusiyasının qabaqcıl seminariyalarından biri sayılan Zaqafqaziya müəllimlər seminariyasının tatar (Azərbaycan) bölməsinə daxil olmuş və 1904-cü ildə həmin seminariyanı müvəffəqiyyətlə başa vuraraq ibtidai məktəb müəllimi ixtisasına yiyələnmişdir. O, seminariyanı bitirdikdən sonra Gəncəyə qayıtmış, 1904-cü il iyulun 8-də Yelizavetpol quberniyasının 2-ci rayonunun xalq məktəbləri müfəttişinə ərizə ilə müraciət edərək müfəttişliyin tabeçiliyində olan məktəblərin birində müəllim təyin olunmasını xahiş etmişdir. Həmin tarixi sənəd hazırda Azərbaycan Respublikası Dövlət Tarix Arxivinin müvafiq fondunda qayğı ilə qorunub saxlanılır. Həmin ərizənin üzərində müfəttiş tərəfindən yazılmış dərkənarda qeyd edilir: ”1904-cü il iyulundan Hadrut kənd məktəbinin 3-cü paralel sinfinə müəllim təyin edilsin.” Beləliklə, Ü.Hacıbəyov 1904-cü ilin iyul ayında Cəbrayıl qəzası Hadrut kənd məktəbinin 3-cü paralel sinfinə ildə 400 publ maaşla müəllim təyin edilir.

Zaqafqaziya Müəllimlər Seminariyasının direktoru, öz dövrünün tanınmış pedaqoqu Mixail Alekseeviç Miropiyev Ü.Hacıbəyovun seminariyadakı fəaliyyətinə yüksək qiymət verərək qeyd edirdi: “Ü.Hacıbəyov kursu 17 nəfər sırasında 7-ci olaraq bitirib, dərsləri kifayət qədər yaxşı keçib; əla musiqiçidir.” Zaman sübut etdi ki, seminariyanın direktoru gənc Üzeyiri bacarıqlı müəllim və əla musiqiçi kimi qiymətləndirməkdə yanılmayıb. Ü.Hacıbəyov, seminariyadan sonrakı çoxşaxəli fəaliyyətində özünü istedadlı pedaqoq, Azərbaycan professional musiqisinin və milli operasının banisi, mahir bəstəkar kimi təsdiq etmişdir. Ü.Hacıbəyovun elmi dünya görüşünun formalaşmasında, onun müəllim-pedaqoq, ictimai xadim, publisist, dramaturq musiqişünas alim kimi yetişməsində Seminariya həyatının rolu danıl-

mazdır. Üzeyir Hacıbəyov seminariya illərində qabaqcıl dünya mədəniyyəti, rus və Qərbi Avropa musiqi klassiklərinin əsərləri ilə yaxından tanış olmuş, skripka və baritonda çalmağı öyrənmiş, xalq mahnı nümunələrini nota köçürmüşdür.

Yuxarıda qeyd edildiyi kimi, Üzeyir Hacıbəyov Qori Müəllimlər Seminariyasını bitirdikdən sonra 1904-1905-ci ilin oktyabr ayına qədər Cəbrayıl qəzası Hadrut kənd məktəbinin 3-cü paralel sinfində müəllim işləmişdir. O, burada rus dili, hesab, tarix və musiqidən dərs demiş, az bir müddətdə kənd əhalisinin hörmətini qazanmışdır. Lakin kiçik kənd məktəbində daha geniş fəaliyyət göstərməsi üçün lazımi şərait olmadığından sonralar Bakıya köçmüş, fəhlə rayonlarından biri olan Bibiheybətdə, kənd məktəbində pedaqoji fəaliyyəyini davam etdirmişdir. O, 1905-1907-ci illərdə burada ana dili, rus dili, riyaziyyat, coğrafiya və musiqidən dərs demişdir. Tarixi mənbələr təsdiq edir ki, Ü.Hacıbəyov Bakı şəhərində daha geniş fəaliyyət göstərmişdir. O, burada pedaqoji fəaliyyətlə yanaşı, ictimai, ədəbi-publisistik fəaliyyətlə də məşğul olmuşdur. O, “Həyat” qəzetində tərcüməçi işləmiş, “İrşad” qəzetinin əməkdaşı olmuşdur. Ü.Hacıbəyov Bakıda çıxan “Həqiqət” qəzetinin naşiri və baş redaktoru olmuş, 121 sayınadək qəzetə rəhbərlik etmişdir. O, “Molla Nəsrəddin”, “İrşad”, “Həyat”, “Tərəqqi”, “İqbal”, “ Həqiqət” və.s. qəzet və jurnallarda maarif və məktəb, təlim və tərbiyə, ictimai-siyasi, iqtisadi və digər məsələlərlə bağlı məqalələrlə çıxış etmişdir. 1905-ci ildə Bakıya gələndən sonra gənc pedaqoq-publisist Üzeyir bəy Hacıbəyli «Kaspi» və «Həyat» qəzetləri redaksiyalarında dövrün görkəmli ziyalı xadimləri Həsən bəy Zərdabi, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Əlimərdan bəy Topçubaşovla yaxından tanış olmuş, onların təsiri ilə ideya-məfkurəvi cəhətdən formalaşaraq ictimai-mədəni mühitdə layiqli mövqe qazanmışdır.

Ü.Hacıbəyov öz dövrünün mütərəqqi pedaqoji fikir nümayəndələrindən biri olmuşdur. Onun əsər və məqalələrində köhnə məktəb tənqid edilmiş, ana dili, çarizmin ruslaşdırma siyasəti, təlim üsulları, əxlaq tərbiyəsi və s. əlaqədar bir sıra dəyərli fikirlər söylənmişdir. O, ilk növbədə, Çar Rusiyasının maarif sahəsində milli ucqarlarda yeritdiyi siyasəti kəskin surətdə tənqid etmişdir. Məsələn, Ü.Hacıbəyov

1906-cı ildə 240 №li "İrşad" qəzetində dərc etdirdiyi məqaləsində çar hökumətinin ruslaşdırma siyasətindən bəhs edərək qeyd edirdi: "Məktəb açıb öz uşaqlarımızı öz ana dilimizdə tədris və təlim etmək bizim arzularımızın ən ümdəsidir. Bu arzunun hüsula gəlməsi üçün biz var qüvvəmiz ilə çalışmalıyıq, zira nəşri maarif və təyini mədəniyyət üçün yeganə vəsaitəmiz bir bu təriqətdir."

Çarizmin yerli dillərə və bu dillərin məktəblərdə tədris edilməsinə etinasız münasibətini tənqid edən Ü.Hacıbəyov 1909-cu ildə "Tərəqqi" qəzetinin 23-cü nömrəsində "Milli məktəblərdə rus dili tədrisi" adlı məqalə dərc etmişdir. Həmin məqalədə qeyd edirdi ki, 1905-ci ilə qədər Çar hökuməti müsəlmanlar arasında maarifi inkişaf etdirməyi özünə vəzifə hesab etmirdi. Hökumət "bu yolda bəzi iqdamatda bulunurdusa da, bu nəşri maarif üçün deyil, "nəşri-rusizm" üçün idi. "Ü.Hacıbəyov ana dilində məktəblərin açılmasını tələb edərkən azərbaycanlı uşaqların rus dilini öyrənmələri zərurətini xüsusilə qeyd edirdi. O, 1906-cı ildə dərc etdirdiyi "Məktəb məsələsi" adlı məqaləsində qeyd edirdi ki, indiki şəraitdə ana dilində məktəb yaratmaq ən çətin və ən vacıb məsələlərdən biridir, lakin buna baxmayaraq, təkcə ana dilində məktəb yaratmaqla işi bitmiş hesab edə bilmərik. Biz uşaqlarımıza rus dilini də mükəmməl öyrətməliyik. Çünki, təkcə ana dilini bilmək kifayət deyil. Biz rus dilini öyrənmədən irəli gedə bilmərik."

Ü.Hacıbəyov H.Zərdabi, Mahmud bəy Mahmudbəyov, N.Nərimanov, Abdulla Şaiq, F.Ağayev və başqaları ilə birlikdə 15-30 avqust 1906-cı il və 25 avqust – 1 sentyabr 1907-ci il tarixlərində Bakı şəhərində Azərbaycan müəllimlərinin I və II qurultaylarının keçirilməsində yaxından iştirak etmişdir.

Ü.Hacıbəyov seminariyanın digər məzunları kimi müəllimlik etməklə yanaşı, xalqın maariflənməsinə və mədəni inkişafına yönəlmiş məqsədəyönlü tədbirlər həyata keçirir, dərsliklər tərtib edir, qəzet və jurnallarda çıxış edərək maarif və məktəb, təlim-tərbiyə işi ilə əlaqədar bir sıra mühüm məsələlərin həllinə çalışırdı. Azərbaycanda xalq maarifi sahəsində çalışan Qori müəllimlər seminariyası məzunları - R.Əfəndiyev, F.Köçərli, Ü.Hacıbəyov, M.Mahmudbəyov, S.Acalov

(Hacızadə) və başqaları öz sələflərinin yolunu davam etdirərək orijinal dərslik və tədris vəsaitlərini çap etdirmiş və bu sahədə unudulmaz xidmətlər göstərmişdilər. Ü.Hacıbəyov 1907-ci ildə "Hesab məsələləri" adlı dərslik tərtib edərək nəşr etdirmişdir. Xalqımızın məktəb və pedaqoji fikir tarixinin öyrənilməsi sahəsində böyük xidmətləri olmuş, Azərbaycan pedaqoji elminin görkəmli nümayəndəsi, akademik H.M.Əhmədov "Üzeyir Hacıbəyov – "Hesab məsələləri", Bakı, 1907" adlı məqaləsində qeyd edir ki, "...Əsərin giriş hissəsində Ü.Hacıbəyov dərsliyin meydana gəlmə məqsədindən bəhs edərək yazır: "Ana dilində hesab məsələlərinə dair bir kitabçanın lüzumunu pedaqoqlarmızdan hər biri iqrar edir zənnində olub, bu kitabçanı çıxarmağa səy etdim".

Üzeyir Hacıbəyov həmin kitabı tərtib edərkən rus müəlliflərinin əsərlərindən faydalanmışdır. Bu haqda müəllif özü yazır: "Bunun tərtibində rus mənbələrindən umumiyyətlə istifadə edib, cənab Komarovun hesab məsələləri kitabçasını özüm üçün ümdə rəhbər ittixaz etdim". Lakin müəllif yeri gəldikcə, öz təcrübəsinə də istinad etmiş, "icad etdiyi xüsusi qaydaların tətbiqini" də lazım bilmişdir. O, didaktik prinsiplərə möhkəm riayət edərək dərsliyi düzgün pedaqoji tələblər əsasında qurmağa müvəffəq olmuşdur. Doğma dilini sevən və onun bütün incəliklərini bilən Ü.Hacıbəyov belə bir vacib məqamı da etiraf etməyi unutmur: "Dil cəhətinə gəlincə, məsələlərin sırf türk dili ilə yazılıb, dilimizin təbiətinə məğayir (aid) cümlə və ibarələrdən, baxüsus rus dilinə mənsub ibareyi kəlamdan azad olmasına artıq səy etdim." Ü.Hacıbəyov pedaqoji cəhətdən çox ustalıqla hərəkət edərək, göründüyü kimi, kitabları şagirdlərin yaş və bilik səviyyəsinə uyğun sadə ana dilində yazmışdır. Bu cəhətdən, o dövrdə yazılmış digər hesab məsələləri ilə müqayisədə Ü.Hacıbəyovun dərsliyi böyük üstünlüyə malikdir.

Ü.Hacıbəyov dərslik, habelə məktəb, maarif və ana dilinin tədrisinə dair məqalələrlə yanaşı, irihəcmli əsərlər də yazıb nəşr etmişdir. Ü.Hacıbəyovun tərtib etdiyi və 1907-ci ildə Bakıda çap etdirdiyi "Mətbuatda istifadə olunan siyasi, hüquqi, iqtisadi və əsgəri sözlərin türki-rus və rusi-türki lüğəti" adlı kitabı buna parlaq nümunədir. Bu

kitab Azərbaycanda lüğət tərtibi tarixində irəliyə doğru atılan böyük addımlardan biri idi.

Azərbaycan Respublikasının Dövlət Tarix Arxivinin müvafiq fondunda saxlanılan sənədlərdə "Səadət" Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinə məxsus eyni adlı məktəbdə 1910-1911-ci tədris ilində dərslərin aşağıdakı müəllimlər tərəfindən tədris edildiyi qeyd olunmuşdur: 1.Axund-Molla-Ağa Əlizadə (direktor); 2) Fərhad Ağayev (müfəttiş); 3) Axund-Molla-Abdurrəhim Hacızadə (şəriət və ərəb dili müəllimi); 4) Mirzə Xəlil Axundzadə (şəriət müəllimi); 5) Molla Qədir İsmayılzadə (Azərbaycan dili müəllimi); 6) Mirzə Möhsünxan (fars dili müəllimi); 7) Məmməd Hənəfi Terequlov (rus dili müəllimi); 8) Əli Hüseynov (rus dili müəllimi); 9) Ceyhun bəy Hacıbəyov (alman və fransız dili, rəsm müəllimi); 10) Üzeyir bəy Hacıbəyov (hesab və təbiətşünaslıq müəllimi); 11) Kərim bəy Məlikov (hesab və rus tarixi müəllimi); 12) Əli Cabbar bəy İsmayılov (hesab, coğrafiya, rus dili hüsnüxət və rəsm müəllimi); 13) Molla Mirzə Ağa Zeynalzadə (əlifba sinfi və azərbaycan dili müəllimi); 14) Molla Musa Əsgərzadə (əlifba sinfi və azərbaycan dili hüsnüxətt).

Dövlət Tarix Arxivində saxlanılan digər mənbədə qeyd edilir ki, Bakı quberniyası və Dağıstan vilayətinin 2-ci rayonunun xalq məktəbləri müfəttişi S.M.Qəniyev 1911-ci il oktyabrın 18-də Bakı 9-cu rus-tatar (Azərbaycan) məktəbinin müdiri Q.Bədəlbəyova 4052 №li məktub göndərərək bildirirdi ki, Həsən Axundov və Üzeyir Hacıbəyovun bu ilin oktyabr ayından etibarən Bakı 9-cu rus-tatar məktəbində müəllim vəzifəsini icra etməsinə icazə verilmişdir.

Ü.Hacıbəyovun pedaqoji fəaliyyəti, onun təlim və tərbiyənin müxtəlif sahələrinə dair irəli sürdüyü fikirlər Azərbaycanda xalq maarifinin, pedaqogika elminin inkişafına böyük təsir göstərmiş və onların bir çoxu bu günədək öz əhəmiyyətini itirməmişdir. İnsanın formalaşmasında mühitin, ictimai şəraitin mühüm rol oynadığını yaxşı başa düşən Ü.Hacıbəyov yazırdı ki, cəhalət və nadanlığın əsas səbəbləri dərəbəylik üsul idarəsidir."Bəs yaxşı adamları, nəcib sifətləri özündə birləşdirmək, istedadlar yetişdirmək üçün nə lazımdır? İnsanı

mühit, normal ictimai şərait, mədəniyyət, gözəl ailə tərbiyəsi, məktəb, təkmil təlim üsulları və s.”

Ü.Hacıbəyov uşaqların tərbiyəsinə bir ümumxalq işi kimi baxır və müəllimləri bu sahədə qarşıya çıxan hər bir çətinliyə dözməyə çağırırdı. Xüsusilə, dərslik tərtib edərkən tərbiyə prinsiplərini, elm, bilik və əxlaqın qarşılıqlı əlaqəsini düzgün nəzərə almağı dönə-dönə xatırladırdı. O, qeyd edirdi ki, ”Uşaqların həm onların qəlbini, həm ağlını, həm də zövqünü tərbiyə edə biləcək dərslikləri olmalıdır. Dərsliklərə ictimai-tərbiyəvi əhəmiyyəti olan, uşaqlarda yüksək əxlaqı sifətlər və mədəniyyət aşılayan materiallar daxil edilməlidir”.

Ü.Hacıbəyovun 1906-cı ildə 67 № li “İrşad” qəzetində dərc etdirdiyi ”Xəbərdarlıq” məqaləsində qeyd edilirdi: ”Doğrudan da uşaq tərbiyəsi çətindir...Tərbiyənin yolunu ancaq elm sahəsində bilmək mümkündür.”

Müəllim hazırlığına yüksək qiymət verən Ü.Hacıbəyov başqa maarifpərvər ziyalılarımız kimi Qori seminariyasını Azərbaycan şəhərlərindən birinə köçürülməsini lazım bilirdi. O, 4 avqust 1909-cu il tarixli, 224 №li “Tərəqqi” qəzetində dərc edilmiş “Əhəmiyyətli bir məsələ” sərlövhəli məqaləsində qeyd edirdi:”... müsəlman şöbəsi Zaqafqaziya müsəlman şəhərlərindən birinə köçürülsə, o halda ana dilində savadlı müəllimlərimiz çox olar və o sayədə maarif işimiz bir qədər sürətlə irəli gedər, indiki ağlar halında qalmaz.”

Ü.Hacıbəyov yazdığı məqalələrdə müəllim və onun hazırlığı məsələsinə mühüm yer ayırırdı. O, müəllimləri həqiqi mənada xalq üçün çalışan insanlar hesab edərək yazırdı ki: “millət, millət deyənlərimizin içində, doğrudan da millətin xeyri üçün iş (söz yox ha!) görməyə iqdam edənlər birinci dəfə müəllimlərimiz olublar.”

Ü.Hacıbəyov Qafqaz müsəlman müəllimlərinin I qurultayının açıldığı gün - 1906-cı il avqustun 15-də “İrşad” qəzetində dərc etdirdiyi “Müəllimlər ictimainə dair” məqaləsində qurultay iştirakçılarını təkcə məktəbdə deyil, həm də geniş xalq kütləsi arasında böyük tərbiyəvi iş aparmağa çağıraraq qeyd edirdi: ”Cəmaətimizin başına gələn bəla və müsibətlərin hamısı cəhalət girdabından ibarətdir. Bu bəla və müsibətlərin törəməsi isə elmsizliyin ucbatındandır”. O, xalqı bu

bəladan qurtarmaq üçün ümidini yalnız müəllimlərə bağlayır, xüsusilə kənd müəllimlərinin üzərinə böyük vəzifələr qoyurdu. Çünki kənddə, həm də müsəlman kəndində müəllimdən başqa ziyalı yox idi. Ü.Hacıbəyov yazırdı: ”Kənd camaatı görsə ki, içərilərində olan müəllimlər dərd göstərən və dərman bilənlərdir, şübhəsiz ki, o, müəllimlərə məhəbbət və etibar ilə baxıb kamal mərifətlə övladlarını onların tərbiyə və təliminə verərlər.”

Üzeyir Hacıbəyov Azərbaycan qadınının məhkumluğunu aradan qaldırmaq üçün Qori müəllimlər seminariyasının digər məzunları kimi məktəb açıb qızları oxutmaqla yanaşı, müsəlman qadınının qul kimi alınıb-satıldığını,döyülə-döyülə qocalar evinə göndərildiyini, burjua cəmiyyətinin qoçularını, intellegentlərini və digərlərini “ Məşədi İbad”, “Arşın mal alan”, “Ər və arvad”, “ Şah Abbas və Xurşudbani”, “ Leyli və Məcnun” kimi ölməz əsərlərində məharətlə səhnəyə çıxararaq ifşa etmişdir.

Ü.Hacıbəyov 1912-ci ilin sentyabrında musiqi təhsil almaq üçün Moskvaya getmiş, Moskva filarmonik cəmiyyəti nəzdində İlyinskinin xüsusi musiqi kursunda təhsil almışdır. Moskvadan göndərdiyi satirik hekayə və felyetonlar “İqbal” qəzetində dərc olunmuşdur. Ü.Hacıbəyov maddi ehtiyac ucbatından Moskvada musiqi təhsilini yarımçıq qoyaraq Bakıya qayıtmışdır. O, 1914-cü ildə Peterburq konservatoriyasına qəbul olmuş, lakin maddi çəkinliklər üzündən təhsilini orada da yarımçıq qoyaraq Bakıya dönmüşdür.

Ü.Hacıbəyov 1915-ci ilin sentyabrında “Yeni iqbal” qəzetinin redaktoru vəzifəsində işə başlamış, sonra isə qəzetin sahibi və baş redaktoru olmuşdur. 1916-cı ilin fevralında “Yeni iqbal” qəzetindən uzaqlaşmışdır.

Şərqdə ilk demokratik dövlət quruluşunu yaratmış Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-1920-ci illər) Ü.Hacıbəyov 1918-ci ilin oktyabr ayından Bakıda “Azərbaycan” qəzeti ilə əməkdaşlıq etmişdir. Cümhuriyyət dövründə “Azərbaycan” qəzeti Bakıda həm Azərbaycan, həm də rus dillərində müstəqil surətdə çap olunurdu. Azərbaycan dilində qəzet Ceyhun Hacıbəylinin, rus dilində olan qəzet isə Şəfi bəy Rüstəmbəylinin redaktorluğu ilə nəşr edilmişdir. Paris

sülh konfransında iştirak etmək üçün Azərbaycan nümayəndəliyinin seçilməsi haqqında 31 dekabr 1918-ci il tarixli 70 №li “Azərbaycan” qəzetində dərc edilmiş məlumatda bildirilirdi ki, Azərbaycan Məclisi Məbusan başçılarının iştirakı ilə Azərbaycan hökumətinin dekabrın 28-də keçirilmiş iclasında Paris sülh konfransında iştirak etmək üçün tərkibi Parlamentin sədri Ə.M.Topçubaşov (nümayəndənin sədri), hökumətin üzvü - M.H.Hacinski, Parlamentin üzvləri – A.b.Ağayev və Ə.Şeyxülislamovdan ibarət heyət seçilmiş, M.Məhərrəmov, M.Mehdiyev və C. Hacıbəyli isə müşavir təyin olunmuşdur.

“Azərbaycan” qəzetinin redaktoru Ceyhun Hacıbəylinin Paris sülh konfransında iştirak etmək üçün nümayəndə heyətinin tərkibinə daxil edilməsi ilə əlaqədar olaraq qəzetin 16 yanvar 1919-cu il tarixli 89-cu nümrəsindən başlayaraq qəzeti “Müvəqqəti müdir: Üzeyir bəy Hacıbəyli” tərəfindən imzalanır və bu imza qəzetin 1919-cu il 30 iyun tarixli 215-ci nömrəsinə qədər davam edir. Həmin il iyulun 4-də qəzetin 216-cı nömrəsi “Müvəqqəti müdir:Xəlil İbrahim”imzası ilə çapdan çıxır.Qəzetin iyulun 6-da çıxmış 217-ci nömrəsində belə bir məlumat verilmişdir:” Qəzetimizin müvəqqəti müdiri Hacıbəyli Üzeyir bəy əfəndi səhhətini düzəltmək qəsdi ilə bir müddətə Bakıdan gedib.1919-cu il sentyabrın 3-də istirahətdən qayıdan Ü.Hacıbəyli 1920-ci il aprelin 28-dək, yəni Azərbaycan Xalq Cümhuriyyətinin süqutuna qədər olan müddətdə bu qəzeti redaktə etmişdir. Beləliklə,1918-ci il sentyabrın 15-dən 1919-cu il dekabrın 31-nə qədər qəzetin 358 nömrəsi, 1920-ci il yanvarın 1-dən aprelin 28-nə qədər isə 85 nömrəsi çap olunmaqla 1918-1920-ci illərdəki nəşri müddətində qəzetin cəmi 443 nömrəsi işıq üzü görmüşdü. Ü.Hacıbəyov “Azərbaycan”qəzetinə rəhbərlik etməklə onun ideya istiqamətini müəyyənləşdirmiş, Azərbaycan Respublikasının müstəqilliyini möhkəmləndirməyə çalışmışdır.

Cümhuriyyət dövründə unudulmaz bəstəkarımız Ü.Hacıbəyov tərəfindən iki marş yazılmışdır. Onların hər ikisi ilk dəfə 1966-cı ildə türk musiqişünası Etem Üngörükün Ankarada nəşr edildiyi “Türk marşları” kitabında çap olunmuşdur. Bunlardan biri “Azərbaycan milli marşı” adlanır. Həmin əsər 1919-cu ildə Azərbaycan Xalq Cünhuriyyətinin elan etdiyi müsabiqədə 1-ci mükafata layiq görülmüşdür.

1920-ci il yanvarın 30-da Azərbaycan Xalq Cünhuriyyəti Hökuməti Azərbaycan Respublikasının hərbi orden, milli himn, gerb və möhürün layihəsinin hazırlanması üzrə qərar qəbul etmişdir. Qərarda göstərilmiş layihələrin hazırlanması üzrə Xalq Maarif Nazirliyi tərəfindən müsabiqə elan edilmiş və müsabiqənin şərtləri dəfələrlə "Azərbaycan" qəzetində elan edilərək bildirilmişdir ki, təqdim ediləcək ən yaxşı dövlət himni layihəsinə görə 50 min manat mükafat təyin edilir. Müsabiqə iştirakçıları layihələrini həmin ilin mayın 1-ə qədər xalq maarifi nazirliyinin dəftərxanasına təqdim etməli idilər. Müsabiqənin nəticələrinin mayın 28-dək, yəni Azərbaycan İstiqlalının ikinci il dönümünə qədər elan edilməli idi. Lakin 1920-ci il aprelin 27-də Azərbaycanın Sovet Rusiyası tərəfindən işğalı nəticəsində Azərbaycan Xalq Cümhuriyyətinin süqutu dövlət himninin qəbul olunmasına imkan vermədi. Yalnız bundan 72 il sonra, 1991-ci ildə Azərbaycan Respublikası öz dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra Azərbaycan Parlamenti 1992-ci il mayın 27-də "Azərbaycan Respublikasının Dövlət himni haqqında" Qanun qəbul etdi. Qanuna əsasən, 1919-cu ildə bəstəkar Üzeyir Hacıbəyov və şair Əhməd Cavad tərəfindən tərtib edilmiş "Azərbaycan marşı" Azərbaycan Respublikasının Dövlət Himni kimi təsdiq edildi. Milli Məclisin 1993-cü il 2 mart tarixli qərarı ilə Azərbaycan Respublikası Dövlət Himni haqqında əsasnamə təsdiq edilmişdir. Azərbaycan Respublikasının prezidenti, ümummilli lider Heydər Əliyev indiki Dövlət Himni haqqında iftixarla demişdir:"Böyük Üzeyir Hacıbəyov 1919-cu ildə, bu gün hər dəfə sevinclə dinlədiyimiz "İstiqlal marşını" - müstəqil Azərbaycan Respublikasının Dövlət Himnini yaratmışdır. Üzeyir Hacıbəyov o vaxt dərk edirdi, anlayırdı ki, bu, xalqa lazımdır. Bu gün bu fürsətdən istifadə edərək demək istəyirəm ki, o dövrün çətinliklərinə, Üzeyir Hacıbəyovun da nisbətən gənc olmasına baxmayaraq, o çox gözəl, əzəmətli dövlət himni yaratmışdır."

Azərbaycan sovetləşdirildikdən sonra Ü.Hacıbəyovun pedaqoji fəaliyyətinin və yaradıcılığının yeni dövrü başlanır. O, Azərbaycan SSR Xalq Maarif Komissarlığında incəsənət şöbəsinin musiqi bölməsinə müdir təyin olunur. O, Azərbaycanda ilk musiqi məktəbinin

əsasını qoymuş və sonralar musiqi texnikumuna çevrilmiş bu tədris müəssisəsinə rəbbərlik etmişdir. Azərbaycan Konservatoriyasının yaradılmasında yaxından iştirak etmiş, əvvəl onun rektor müavini, sonra da rektoru vəzifəsinə təyin edilmiş, bu məktəblər üçün yüksək ixtisaslı kadrlar hazırlanmasında onun böyük xidmətləri olmuşdur. Musiqi təhsilimizin əsasını qoyan Ü.Hacıbəyovun müəllimlik fəaliyyəti nəticəsində bir çox görkəmli bəstəkarlar, dirijorlar,müəllimlər yetişmişdir. Azərbaycan musiqisinin görkəmli xadimləri Qara Qarayev, Fiktət Əmirov, Niyazi, Soltan Hacıbəyov və başqaları Ü.Hacıbəyovun sinfində təhsil almışdılar.

Mənalı həyatı və şərəfli adı ilə xalqımıza baş ucalığı gətirmiş Üzeyir Hacıbəyovun yaradıcılığı, onun tərəfindən qoyulan bədii ənənələr unudulmur və bəstəkarlarımız tərəfindən layiqincə davam etdirilir. Hazırda Üzeyir Hacıbəyovun anadan olduğu gün - 18 sentyabr Azərbaycanda “Musiqi qünü” kimi qeyd olunur.

Azərbaycanın ədəbi-mədəni, mətbu, ictimai-siyasi həyatında əhəmiyyətli iz qoymuş şəxslərdən biri də Üzeyir Hacıbəyovun kiçik qardaşı - yazıçı-publisist, tərcüməçi, folklorşünas, ictimai xadim, Azərbaycanın istiqlal mücahidi Ceyhun Hacıbəyov olmuşdur. Ceyhun Əbdülhüseyn Hacıbəyli 1891-cı il fevralın 3-də Şuşa şəhərində anadan olmuşdur. İbtidai təhsilini Şuşada rus-tatar məktəbində almış, orta təhsilini Bakıda tamamlamışdır. "Leyli və Məcnun" operasının yaradılmasında yaxından iştirak etmiş, ilk tamaşada (1908) iki rolda - İbn Səlam və Nofəl rollarında çıxış etmişdir. 1908-ci ildə Üzeyir bəylə birlikdə Əli bəy Hüseynzadənin müdir olduğu "Səadət" məktəbində müəllim işləmişdir. Ceyhun bəy Hacıbəyli milyonçu-xeyriyyəçi Murtuza Muxtarovun vəsaiti ilə Peterburq Universitetinin hüquq fakültəsinə daxil olmuş (1909), oradan Parisə gedərək, Sorbonna Universitetində oxumuşdur. C.Hacıbəylinin Parisdən göndərdiyi məqalələr Bakıda rus dilində çıxan qəzetlərdə dərc olunmuşdur. O, 1909 ildə "Bakı" qəzetində dərc olunmuş "Müsəlmanlar və incəsənət" məqaləsində dövrün aktual məsələlərinə toxunurdu. C.Hacıbəyli "Leyli və Məcnun" operasının yaranması və ilk tamaşası haqqında Fransa mətbuatında çıxış etmiş, opera barədə Qərbi Avropa xalqlarına geniş

məlumat vermişdir ("Revyü de Monde müzülman" jurnalı, aprel, 1910). 1916 ildə ali təhsilini başa vurub Bakıya qayıdan Hacıbəyli mühərrirliklə məşğul olmuş, doğma xalqının acınacaqlı vəziyyəti haqqda mətbuat səhifələrində çoxlu məqalə dərc etdirmişdir ("Kaspi", № 18, 22, 24, 28, 34, 1917). Məqalələrini, əsasən, "C.Dağıstani" təxəllüsü ilə yazırdı. 1918-ci il dekabr ayının 28-də F.X.Xoyskinin rəhbərlik etdiyi üçüncü hökumət kabinəsinin təşkili başa çatan kimi, elə həmin gün hökumətin ilk addımı parlamentin ağsaqqallar şurası ilə birlikdə Avropaya gedəcək nümayəndə heyəyini seçmək olmuşdur. Nümayəndə heyətinə parlamentin sədri Ə.M.Topçubaşov rəhbərlik etməli idi, onun müavini hökumət üzvü M.H.Hacinski təyin edildi. Nümayəndə heyətinə iki nəfər parlament üzvü Ə.Ağayev və Ə.Şeyxü-lislamov daxil edildilər. Üç nəfərdən - Miryaqub Mehdiyev, Ceyhun bəy Hacıbəyli və Məmməd Məhərrəmovdan ibarət məsləhətçilər müəyyən edildilər. Beləliklə, 1919-cu il yanvarında Ceyhun bəy Hacıbəyli Əlimərdan bəy Topçubaşovun rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibində Paris sülh konfransının işində iştirak etmək üçün Fransaya yola düşmüşdür.

“Azərbaycan” qəzetinin 1919 il 9 yanvar tarixli 83-cü nömrə-sində Ceyhun bəy Hacıbəyli "Möhtərəm qarelərimizə" müraciətində yazırdı: "Vətən və millət yolunda əlimdən gələn xidməti və öhdəmə düşən vəzifəmi qəzetimizin müdiri sifətilə ifaya məşğul ikən, vətən övladlarının xahiş və əmrinə müti olaraq cahan sülh konfransına gön-dərilməklə öhdəmə daha ağır və məsuliyyətli, lakin müqəddəs bir vəzifə düşdü. Bu böyük xidməti möhtərəm arkadaşlarım ilə bərabər ifa üçün Avropaya getmək lazım olduğuna görə, qəzetə idarəsi işindən müvəqqəti olaraq ayrılıb əziz vətənimizin istiqlalı məsələsinin istədiyimiz yoldakı həlli-hüsn ifasından asılı olan məsul vəzifəmizin haqqında var qüvvəmizlə çalışacağımızı əlavə etməyi və möhtərəm oxucularımıza kamali-sidq və səmimiyyət ilə xudahafiz deməyi özümə fərz bildim". Bununla əlaqədar olaraq, 1919 il yanvarın 16-da buraxıl-mış 89-cu nömrəsindən etibarən "Azərbaycan" qəzetini redaktor kimi Üzeyir bəy Hacıbəyli imzalamışdır.

Parisdə C.Hacıbəylinin fransız dilində "İlk müsəlman respublikası Azərbaycan" (1919) adlı kitabı çapdan çıxmışdır. Həmin ildə C.Hacıbəylinin Parisdə "Revyü de Monde müzülman" jurnalında 1918 ildə Bakıda, eləcə də Şamaxı, Kürdəmir və Xaçmazda erməni-daşnak quldur dəstələrinin azərbaycanlı əhalini kütləvi şəkildə qırmasını kəskin ifşa edən məqaləsi çap olunmuşdur. O, Parisdə "Fransa-Qafqaz" komitəsinin işinə cəlb edilmişdir. C.Hacıbəyli Aprel işğalından (1920) sonra Vətənə dönə bilməmiş, Parisdə qalmağa məcbur olmuş, ömrünü mühacirətdə başa vurmuşdur. Parisdə Azərbaycan mədəniyyətinin təbliği yönündə qızğın fəaliyyət göstərmişdi. 1920 ilin əvvəllərində Ü.Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasını fransız dilinə tərcümə etmiş və əsər həmin il tamaşaya qoyulmuşdur. 1926 ildə çap etdirdiyi "Azərbaycan teatrı" adlı məqaləsində o, fransız oxucularına Hüseyn Cavid və Cəfər Cabbarlının yaradıcılığı haqqında məlumat vermişdir ("Revyü de Monde müzülman", №3). "Ümumi yenidənqurma problemində Azərbaycanın iqtisadi bərpası" əsərində (1922-23) C.Hacıbəyli təbii sərvətlərdən səmərəli istifadə edilməklə Azərbaycanın müstəqil iqtisadi inkişafı ideyasını əsaslandırmışdır. 1928 ildə nəşr etdirdiyi "XIX əsrin əvvəlləri Azərbaycan tarixçisi Abbasqulu ağa Bakıxanov" məqaləsində Azərbaycan tarixşünaslığı və arxeologiyasının banisi, ensiklopedik biliyə malik Abbasqulu ağa Bakıxanovu fransız oxucularına tanıtmışdır ("Jurnal Aziatik", iyul-sentyabr, 1928). Onun 1905-10 illər Azərbaycan mətbuatı tarixinə dair məqaləsi ("Aziatik Revyü" jurnalı, 27-ci cild, №90, 1931) isə xalqımızın mədəniyyətini öyrənən Qərbi Avropa alimləri üçün istiqamətverici mənbə rolu oynamışdır. C.Hacıbəylinin 1933 ildə çap etdirdiyi "Qafqaz Azərbaycanının Qarabağ dialekti" adlı elmi məqaləsi ("Jurnal Aziatik" yanvar-may, 1933) Azərbaycan və Qərbi Avropa dilçiliyi üçün indi də öz əhəmiyyətini itirməmişdir. Məşhur fransız şərqşünasları A.Beniqsen və Ş.Lemerse Kelkejenin 1964 ildə Parisdə fransız dilində nəşr etdirdikləri "Rusiyada 1920 ilə qədər çıxan müsəlman mətbuatının tarixi" adlı əsərin müqəddiməsindən məlum olur ki, Azərbaycan mətbuatına dair fəslin hazırlanmasında C.Hacıbəyli də iştirak etmişdir. C.Hacıbəyli Əbdürrəhman bəy Fətəlibəyli-Düdənginskinin təşkil etdiyi

"Azərbaycan Milli Birlik Məclisi" idarə heyətinin üzvü, Məclisin orqanı olan "Azərbaycan" jurnalının (Münxen) redaktoru olmuşdur (1954 ildə nəşri dayandırılmışdır). Ceyhun bəy Hacıbəyli ömrünün son illərində SSRİ-ni öyrənən institutun Parisdə fransızca nəşr etdiyi "Qafqaz" jurnalının Azərbaycan bölməsində gedən yazıların redaktəsi ilə məşğul olmuşdur. 1959 ildə həmin institutun xətti ilə Münxendə Ceyhun Hacıbəylinin "Azərbaycanda islam əleyhinə təbliğat və onun metodları" əsəri çap olunmuşdur.

Ceyhun Hacıbəylinin şəxsi fondunu YUNESKO-nun əməkdaşı, xalqımızın vətənpərvər oğlu Ramiz Abutalıbov böyük zəhmət və çətinliklər bahasına toplamış və Azərbaycana gətirmişdir. Həmin materiallar hazırda Salman Mümtaz adına Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət Arxivində 649 №li fondda qayğı ilə qorunub saxlanılır. C.Hacıbəylinin şəxsi fondundakı sənəd materialları Azərbaycan Respublikasının mərkəzi dövlət ədəbiyyat və incəsənət arxivinə R.Abutalıbov tərəfindən 3 sentyabr 1990-cı ildə 537 (beş yüz otuz yeddi) sənəd və 22 qovluq həcmində təhvil verilmişdir. Arxivə qəbul edilmiş sənədlər arasında C.Hacıbəylinin əlyazmaları, oçerk, pyes və hekayələri, ədəbiyyata, incəsənətə, tarixə və ictimai-siyası mövzulara dair məqalə və qeydləri, məktubları, kitablar, jurnallar, fotoşəkillər, kserosurətlər, qəzet kəsikləri, C.Hacıbəylinin elmi işi və maraqlandığı mövzular haqqında topladığı materiallar, tərcümeyi-hal sənədləri, Fransa, Türkiyə, İngiltərə və Amerikada nəşr olunmuş jurnal və kitabların kcerosurətləri və başqa sənədlər vardır. C.Hacıbəylinin şəxsı fondundakı sənədlər 1853-1976-cı illəri əhatə edir.

## ARXİVLƏR AÇILANDA

Əbdürrəhim bəy Əsəd bəy oğlu Haqverdiyev (1870-1933) Azərbaycan realist və demokratik ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri olub. O, burjua-mülkədar üsul-idarəsinin əsaslarını, dövlət aparatının yuxarı zümrələrini, mülkədar və ruhanilərin tamahkarlığını kəskin tənqid atəşinə tutan çoxsaylı hekayələri, felyetonları, məqalələri ilə tanınıb. Ə.Haqverdiyev Azərbaycan dramaturgiyasında ilk dəfə olaraq patriarxal-feodal qaydaları ilə mübarizə aparan demokrat obrazı yaradıb. Həyatının 40 ilini Azərbaycan ədəbiyyatının və incəsənətinin inkişafına həsr edib. Ə.Haqverdiyev mahir tərcüməçi, ilk Azərbaycan dirijoru, istedadlı rejissor, məşhur alim, incəsənətşünas və gözəl müəllim olub. Lakin onun fəaliyyəti bütün bunlarla bitmir. Haqverdiyev həm də mahir diplomat olub...

Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətini əks etdirən, lakin 70 ildən çox müddət ərzində qıfıl altında yatan sənədlər bu gün işıq üzü görür. Orada Ə.Haqverdiyev haqqında da maraqlı sənədlər aşkar edilib. Həmin sənədlərdən məlum olur ki, Haqverdiyev 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin Xarici İşlər Nazirliyində diplomat kimi fəaliyyət göstərib.

1919-cu ilin fevralında Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Soveti Xarici İşlər Nazirliyinə yazmışdı: “Hökumət Əbdürrəhim bəy Haqverdiyevin Azərbaycanın diplomatik nümayəndəsi təyin olunmasına öz razılığını bildirir”. (ARDA, f. 970, siy.1, sax.vah.46, vər.2.)

Xarici işlər naziri F.Xoyskinin imzaladığı vəsiqə fevralın 25-də Haqverdiyevə təqdim edilib: “...Əbdürrəhim bəy Haqverdiyev Qafqazın Dağlılar Xalqlarının İttifaqı Respublikasının diplomatik nümayəndəsidir və o, Temir-Xan-Şur şəhərində təyinat yerinə gedir. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi xahiş edir ki, yolda ona hər cür yardım göstərilsin və o, sərhəd məntəqələrində gömrük yoxlamalarından azad edilsin”. (ARDA, f. 970, siy.1, sax.vah.46, vər.1.)

1919-cu il aprelin 4-də Ə.Haqverdiyev respublikanın Xarici İşlər nazirinə məlumat verir: “Sizə məlumat verməkdən şərəf duyu-

ram. Martın 28-də Temir-Xan-Şura gəldim, 30-da axşam Dağlılar hökumətinin sədri məni qəbul etdi, etimadnaməni ona təqdim etdim... Martın 31-də bütün nazirlərin yanında oldum və axşam İttifaq Sovetinin iclasında iştirak etdim. Sədrin təbrik sözündən sonra İttifaq Sosetinin üzvləri və camaat Azərbaycanin və onun hökumətinin şərəfinə sürəkli alqışlar səsləndirdilər.

Bu günlərdə burada "Qafqaz dağlılarının birlik və istiqlaliyyəti" deyilən cəmiyyət yaranıb. Onu ziyalı gənclər təşkil ediblər. Həmin cəmiyyət şəhərdə mitinqlər, yığıncaqlar keçirir, məqsəd iqtiqlaliyyət ideyalarını kəndlərdə populyarlaşdırmaq, vətənin müdafiəsi üçün könüllü dəstələr yaratmaqdır. Mən onların yığıncağında iştirak etdim, cəmiyyəti hökumətimiz adından salamladım və iki yüz manat məbləğində ianə verdim.

Mövcud olduğu az müddət ərzində xalqa böyük təsir göstərən bu cəmiyyətə geniş dəstək vermək hökmən hökumətimizin planına daxil edilməlidir. Çünki təkcə bu cəmiyyət geniş dəstək alarsa müdafıə üçün çox iş görə bilər, bu da sözsüz ki, bizim marağımızdadır." (ARDA, f. 970, siy.1, sax.vah.59, vər.7-8.)

1919-cu il aprelin 15-də Azərbaycan Xarici İşlər naziri diplomatik nümayəndə Ə.Haqverdiyevə aşağıdakı məzmunda sorğu göndərmişdir: "Dağıstanın Azərbaycana birləşdirilməsi məsələsinə dair vəziyyət və bu hərəkatın nədən meydana gəlməsi haqqında daha ətraflı və müfəssəl məlumat verin". (ARDA, f. 970, siy.1, sax.vah.46, vər.5.)

Haqverdiyev cavabı gözlətməmiş, elə aprelin 15-də məlumat vermişdi: "Dağıstanın Azərbaycana birləşdirilməsi haqqında məsələ tamamilə ciddi surətdə müzakirə olunur. Bir çox ictimai xadimin xahişi əsasında sizə şifrəli teleqram göndərmişəm, xahiş edirik prinsipal razılığınızı bildirəsiniz. Zəmin hazırdır: On dairədən dördündə artıq açıq-aşkar birləşmənin tərəfdarıdırlar, qalanları da gizli surətdə bunu arzulayırlar." (ARDA, f. 970, siy.1, sax.vah.46, vər.15-16.)

17 aprel 1919-cu il: "Müdafiə qüvvələrinin bütünlüklə yararsızlığı və hökumətin çətin vəziyyətdən çıxış yolu tapmaq qabiliyyətinin olmaması üzündən ağır vəziyyətə düşmüş ölkənin gələcək rifahını

Azərbaycana birləşməkdə görürlər”. (ARDA, f. 970, siy.1, sax.vah.46, vər.6.)

23 aprel: “Dağıstan zabitləri Dağıstanın Azərbaycana birləşdirilməsi haqqında parlamentə müraciət etmişlər. Bu gün məsələ zabitlərin, parlament üzvlərinin, ruhanilərin, ziyalıların birləşmiş iclasında müzakirə edilib. Davamlı sabah axşam olacaq. Xahiş edirəm təcili surətdə bildirəsiniz ki, qətnamə müsbət olarsa, mən nə etməliyəm”. (ARDA, f. 970, siy.1, sax.vah.46, vər.21.)

27 may 1919-cu il: Ə.Haqverdiyev Könüllü Ordunun hərəkəti haqqında məlumat verir: “Cəbhənin rəsmi məlumatına görə inquşların, osetinlərin, kabardinlərin, gürcülərin birləşmiş qüvvələri Nazran ətrafında Könüllü Ordunu qəti surətdə məğlubiyyətə uğratmışlar, dörd top, iyirmi bir pulemyot, beş yüz tüfəng, çoxlu döyüş sursatı ələ keçirilib: deyilənə görə Çeçenlər Qroznını tutublar.” (ARDA, f. 970, siy.1, sax.vah.46, vər.23.)

16 iyun 1919-cu il: ADR Xarici İşlər Nazirliyi Haqverdiyevə aşağıdakı məzmunda teleqram göndərib: “Azərbaycan hökumətinin diplomatik və hərbi tədbirləri sayəsində qazanılmış uğurlar haqqında Dağıstan əhalisinə geniş məlumat verin. Denikinin Dərbəndi təmizləməli və demarkasiya xəttinin arxasına keçməlidir. Hökumətimiz Dağlılar Respublikasının yenidən yaradılması ideyasına bütünlüklə rəğbət bəsləyərək könüllülər getdikdən sonra öz hissələrimizlə Dağıstanı müvəqqəti olaraq tutmağı nəzərdə tutur. Bu istiqamətdə işləyin və əhalinin əhval-ruhiyyəsi haqqında məlumat verin... Bizim hərbi hissələrimizin əziyyətsiz gəlməsi üçün zəmin hazırlamağa çalışın”. (ARDA, f. 970, siy.1, sax.vah.59, vər.57.)

2 iyul 1919-cu il: Ə.Haqverdiyev Xarici İşlər Nazirliyinə təcili surətdə teleqrafla xəbər verir “General Erdelinin teleqramına əsasən mənə Dağıstan ərazisinin tərk etmək təklif olunur; ləğvetmə üçün dərhal səksən min göndərin.” (ARDA, f. 970, siy.1, sax.vah.46, vər.9.)

Ə.Haqverdiyev iyulun 3-də Dağıstanın müvəqqəti hakiminə yazır: “Zati ailələri, general Erdelinin teleqramına əsasən mənim Azərbaycanın diplomatik nümayəndəsi kimi Temir-Xan Şurada

qalmağımın yolverilməz olduğu üçün Azərbaycana qayıtmağım təklif olunur.

Zati ailələrini, məlum olduğu kimi 1918-ci il mayın 26-da Zaqafaqaziya hökuməti fəaliyyətinə son qoydu və Zaqafqaziyada bir neçə dövlət, o cümlədən Azərbaycan Respublikası yarandı. Demək olar ki, hər yerdə təqib edilən rus ziyalıları kütləvi şəkildə Azərbaycana axışdılar, burada özlərinə isti sığınacaq və səmimi münasibət tapdılar. Hazırda on minlərlə rus-ziyalılar, fəhlələr, kəndlilər geniş qonaqpərvərlikdən, hakimiyyətin himayədarlığından faydalanırlır. Rus milli şurası Bakıda bütün rus xalqını təmsil edir, hətta hökumətdə olan nümayəndəsi vasitasilə Azərbaycanda ümumrusiya işini sərbəst şəkildə həyata keçirir. Elə görünür ki, Azərbaycan Könüllü Ordunun fəaliyyət göstərdiyi rayonda Azərbaycanın öz nümayəndəliyinə bütün hüquqları vardır. Ona görə də T.X.Şurada Azərbaycan nümayəndəsinə general Erdeli tərəfindən düşməncəsinə münasibət mənə çatmır.” (ARDA, f. 970, siy.1, sax.vah.48, vər.59.)

Bundan az sonra Haqverdiyev Bakıya çağırıldı və sonra Ermənistanda Azərbaycanın diplomatik nümayəndəsi oldu. O, kəndləri gəzir, erməni daşnakları tərəfinfən qızışdırılan millətlər arası düşmənçiliyin, qan tökülməsinin qarşısını bacarıqla alırdı. 1919-cu il dekabrın 12-də Haqverdiyev xəbər vermişdi:“Dünən Naxçıvan rayonunun Şərurundan qayıtmışam. Müsəlmanlar tərəfindən törədilən bütün düşmənçilikl fəaliyyəti dayandırılmışdır.” (ARDA, f. 970, siy.1, sax.vah.95, vər.24.)

Ə.Haqverdiyev müsəlman qaçqınlara böyük qayğı göstərirdi. 1920-ci il fevralın 2-də Xarici İşlər Nazirliyinə sorğu göndərmişdi: “Zəngibasar nümayəndəsi Hacı-Şeyx-Əli mənə bildirdi ki, hökumət vəd etmişdiki o gedəndən dörd gün sonra zəngibasarlılar üçün 2 milyon manat göndərəcək.

Vəd edilən pul indiyədək göndərilmədiyi üçün cəmiyyət xahiş edir ki, həmin məbləğin çatdırılması tezlləşdirilsin.” (ARDA, f. 970, siy.1, sax.vah.115, vər.4.)

1920-ci il fevralın 5-də Dövlət Müdafiə Komitəsi məlumat verib: “Xarici İşlər Nazirliyi tərəfindən xüsusi olaraq İrəvana gön-

dərilən şəxs Dövlət Müdafiə Komitəsinin bu il yanvarın 2-də ayırdığı 10 milyon manatı diplomatik nümayəndə Haqverdiyevə çatdırmalıdır.

Göndərilən 10 milyon manat Naxçıvan xəzinədarlığının vəsaitlərini möhkəmləndirməyi nəzərdə tutur. Diplomatik nümayəndə Haqverdiyev həmin vəsaitin yerli xəzinədarlığa qoyulması üçün onu Naxçıvan rayonunun general-qubernatoru S.Camallinskiyə təqdim etməlidir. Xarici İşlər Nazirliyinin göndərdiyi iki milyon manata gəldikdə isə, həmin məbləğin təyinatı və xərclənməsi qaydası haqqında Haqverdiyevə ümumi rəhbər təlimatlar verilməlidir... Dövlət Müdafiə Komitəsinin qərarının müvafiq bəndini kifayət qədər xatırlatmağı lazım bilirəm: "İki milyon manat Zəngibasar müsəlmanlarının təşkilati xərcləri və qaçqınlara yardım göstərilməsi üçün Azərbaycanın İrəvandakı diplomatik nümayəndəsinin sərəncamına göndərilməlidir..." (ARDA, f. 970, siy.1, sax.vah.115, vər.5.)

Və burada, çox ağır vəziyyətdə Haqverdiyev adamların milli mənsubiyyətinə fərq qoymayaraq öz vətəndaşlıq borcunu şərəflə yerinə yetirib.

Cəmi bir neçə sənədlə tanışlıq bizi xalqımızın şanlı keçmişi haqqında nə qədər maraqlı və yeni bilgilərlə zənginləşdirir.

## ATASINA LAYİQ OĞUL

Azərbaycan yazıçısı Cahanbaxş Cavadzadə şairə Niğar xanım Rəfibəyli və xalq şairi Rəsul Rzaya ünvanladığı məktubda yazmışdı:

27 mart 1970-ci il. “Mənim əzizlərim Nigar xanım, xalq şairi Rza və istedadlı nasirimiz Anar.

Əvvəla, qədim Gəncədən səmimi salamlar...

Ələkbər bəyin dəfn mərasimində natiqlərdən biri - xalqımızın qəddar düşməni olan daşnak partiyası liderlərindən biri, tanınmış Sergey İosipoviç Ter-İzraelyan bu sözləri demişdir: “... Ölən kimdir? Ölən türk xalqının milli qəhrəmanıdır”. Heç şübhə etməmək olar ki, düşmənin ağzından eşidilən bu sözlər çox qiymətlidir. Ağır dəqiqələrdə bu adam düşmən də, daşnak da olsa, obyektiv həqiqəti söyləməyə, mərhumun ləyaqət və mövqeyini etiraf etməyə məcbur olmuşdur...”. (ARMİDA, f.279, siy.1, sax.vah 64, vər.2.)

5 avqust 1970-ci il. “Salam, mənim əzizlərim - hörmətli şairlər: Rəsul və Nigar. “Ələkbər bəy Rəfibəyov” povestim, çoxlu şəxsi müşahidələrim, məşhur və indi qocalmış ağıllı, dərrakəli gəncəlilərlə söhbətim, tarixi faktlar öyrənməyim sayəsində yazılmışdır.

Bu mənim övladlıq borcum idi. Yazdım, yazmağı özümə borc bildim. Gəncəlilərin adından onun böyük vicdani-millisinin qarşısında ehtiramımızı yerinə yetirdim... Gəncədə onun çap olunmasını minlərlə adam gözləyir. Oxucuların bu təlaşı tamamilə təbiidir. Yaşlı nəsil cavanlara Ələkbər bəy barədə çox danışıb. Gənc nəsil də öz babasının –ağıllı, mərd, namuslu, vətənpərvər, maarifpərvər başçısının ədəbi portretini görmək istəyir... Mənə bu povestin çap olunmasında kömək etsəniz, heç bir zaman unutmaram...”. (ARMİDA, f.279, siy.1, sax.vah 64, vər.6.)

30 oktyabr 1970-ci il: “ Hörmətli bacım, tanınmış şairimiz Nigar xanım.

Qədim Gəncədən səmimi salamlar və ehtiramlar...

Heç bilirsən Nigar, Sərdar bağında indi nə cahu-cəlal var! Hər gün orada olur, qocalarla böyük kişi, müdrik ağsaqqal haqqında ara-

sıra söhbətlər edirik. Onu hamı yaxşı tanıyır, burası diqqətə şayandır ki, hamı onu sonsuz bir məhəbbətlə sevir. Baban insanların, öz qədirşünas həmyerlilərinin qəlbində yaşayır. Lakin kağız üzərində müfəssəl hekayə edilərsə, bu həyat ədəbiyyatda əbədiləşər. Mənim axtardığım da budur, Nigar, qoy Ələkbər bəy millətin nəcib ürəyində əbədi məskən salsın...". ( ARMİDA, f.279, siy.1, sax.vah 64, vər.9.)

Cahanbaxş hər bir məktubunda özünün "Ələkbər bəy Rəfibəyov" povestinin taleyi ilə maraqlanırdı. Lakin nə səbəbsə həmin povest bu günədək işıq üzü görməyib. Cahanbaxşın belə hörmət və məhəbbətlə barəsində yazdığı Ə.Rəfibəyov kimdir? Bu suala Cahanbaxş belə cavab verir: "Ələkbər bəy Rəfibəyov işıqlı, büllur kimi saf mənəviyyatlı adam idi, o öz xalqını sevirdi, axıradək ona sadiq qaldı...".

Bu 1919-cu il 4 may tarixli sənədlərdə öz əksini tapıb: "Gəncə şəhər idarəsi vəfat etmiş şəhər Dumasının üzvü Ələkbər bəy Rəfibəyovun xatirəsini əbədiləşdirmək haqqında şəhər Dumasına məruzə göndərib. Sözügedən məruzədə bu məqsədlə təklif olunub:

1.Mərhumun ailəsinə ikinci dəfə başsağlığı vermək üçün şəhər Duması və idarə üzvləri tərkibindən xüsusi komissiya yaradılsın;

2.Dumanın zalında Rəfibəyovun portreti asılsın;

3.Mixaylov küçəsi (hələ Gəncədə şəhər özünüidarəsi meydana gələnədək açılan və mərhumun əməyi ilə planlaşdırılan küçə) Rəfibəyov küçəsi adlandırılsın;

4.Yerli tədris ocaqlarında Dumanın mülahizəsi əsasında mərhumun adına 10 təqaüd təyin edilsin;

5.Afanasyev adına şəhər xəstəxanasında mərhumun xatirəsinə pulsuz iki çarpayı qoyulsun;

6.1920-ci ilin əvvəlindən Gəncədə Rəfibəyov adına yeni məktəb açılmasına qayğı göstərməli;

7.Şah Abbas məscidi qarşısında mərhum ictimai xadimin heykəli qoyulsun.". ("Azərbaycan" qəzeti, 4 may 1919-cu il., № 91.)

Lap bu yaxınlarda Azərbaycan Cümhuriyyət hökumətinin fəaliyyəti dövrü öyrənilərkən dövlət arxivlərində görkəmli Azərbaycan cərrahı Xudadat bəy Ələkbər bəy oğlu Rəfibəyov haqqında ma-

raqlı sənədlər aşkar edilib. Ömrünün axırınadək öz xalqına sadiq olan dəyərli insan bütün həyatını xalqına xidmətə həsr edib. Aşağıda dərc olunan arxiv sənədləri X.Ə.Rəfibəyov haqqında çox maraqlı və yeni məlumatlardan söhbət açır.

Xarkov Tədris Dairəsi tərəfindən verilən diplomdan: "Bunu təqdim edən Xudadat bəy Ələkbər bəy oğlu Rəfibəyov saray müşavirinin oğludur, islam dininə mənsubdur, 1877-ci il yanvarın 12-də anadan olub. Xarkov İmperiya Universitetində yarımkurs sınaqlarını və həmin universitetin tibb fakultəsində nizamnamə ilə müəyyən edilmiş yarımillik zaçotları qənaətbəxş başa vurmuş, 1904-cü ilin yazında Xarkov Universiteti yanında Tibb Sınaq Komissiyasının sınaqlarına məruz qalmışdır... Buna görə də Dövlət Şurasının əlahəzrət təsdiqi rəyi əsasında cənab Rəfibəyov 1904-cü il mayın 22-də Tibb Sınaq Komissiyasının iclasında bütün hüquq və imtiyazları ilə həkim rütbəsinə layiq görülmüşdür. Xarkov şəhəri, 22 iyun 1904-cü il". (ARTA, f.61, siy.1,sax.vah 1670, vər.28a.)

Universiteti bitirdikdən sonra X.Rəfibəyov həmin universitetin qospital cərrahiyyə klinikası yanında ştatdan kənar ordinator vəzifəsində işləyib.

Quberniya qubernatorunun 1907-ci il 15 noyabr tarixli əmrində oxuyuruq: "Xarkov İmperiya Universitetinin qospital cərrahiyyə klinikası yanında sabiq ştatdankənar ordinator, həkim Xudadat bəy Rəfibəyov Yelizavetpol şəhər idarəsinin təqdimatına əsasən Yelizavetpol şəhəri Afanasyev adına 6 №-li müalicəxanasında direktor vəzifəsinə təyin edilir". (ARTA, f.61, siy.1,sax.vah 1670, vər.1.).

1909-cu ildə X. Rəfibəyov titulyar müşavir (ARTA, f.61, siy.1, sax.vah 1670, vər.20-25.), 1910-cu ildə isə kollec asessoru dərəcələrinə təsdiq edilib. (ARTA, f.61, siy.1,sax.vah 1670, vər.29.)

Rəfibəyov bütün vaxtını öz sevimli məşğuliyyətinə - cərrahlığa sərf edir, bu sahədə getdikcə daha da təkmilləşirdi.

1912-ci ildə X.Rəfibəyov Peterburqda böyük knyaginya Yelena Pavlovnanın İmperiya Klinik İnstitutuna daxil olur. Həmin ildə də saray müşaviri rütbəsinə yüksəlir. (ARTA, f.61, siy.1,sax.vah 1670, vər.32.)

X.Rəfibəyov yüksək insani keyfiyyətlərinə görə dəfələrlə Yelizavetpol dairə məhkəməsinin fəxri barışdırıcı hakimi təyin edilib.

Yelizavetpol quberniya idarəsinin tibb şöbəsinə Yelizavetpol dairə məhkəməsi sədrinin 1909-cu il 18 dekabr tarixli münasibətindən: "Mülki təsisas üzrə əlahəzrətin bu il 26 noyabr tarixli əmri ilə Yelizavetpol şəhər müalicəxanasının direktoru Rəfibəyov 1909-cu il iyunun 1-dən üç illiyə Yelizavetpol şəhər məhkəməsinin fəxri barışdırıcı hakimi təyin edilir...". (ARTA, f.61, siy.1,sax.vah 1670, vər.26.)

Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyəti dövründə X.Rəfibəyov Səhiyyə və Himayəetmə naziri təyin olunur. 1918-ci ilin iyunundan dekabrınadək həmin vəzifədə çalışarkən X.F.Rəfibəyov bütün qüvvəsini anarxiyadan əziyyət çəkən qaçqınlara və əhaliyə kömək göstərməyə həsr edib.

Az sonra, 1919-cu il mayın 6-da Xudadat bəy Rəfibəyov Azərbaycan hökumətinin qərarı ilə Gəncənin qubernatoru təyin edilib. Qubernator olarkən X.Rəfibəyov Azərbaycan xalqının vəziyyətini yaxşılaşdırmaq üçün əlindən gələni əsirgəməyib. Xudadat bəy öz borcunu könüllü surətdə və mərdliklə yerinə yetirdiyinə görə Gəncə şəhəri əhalisinin hörmət və məhəbbətini qazanmışdı.

1919-cu il sentyabrın 8-də X.Rəfibəyov Gəncə dairəsi Dövlət Etiraf idarəsinin dairə inspektoruna məktubunda yazır: "...bildirirəm ki, Gəncə şəhərində himayəetmə inspeksiyası yanında "Əmək birjası" yaradılmasını prinsipcə faydalı hesab edirəm". (ARDA, f.8, siy.1, sax.vah 63, vər.3.)

15 aprel 1920-ci il. Azərbaycan Respublikasının Daxili İşlər nazirinə: "...Novobayazit erməniləri Şişkay kəndinə girərək bütün sakinləri qırdılar. Yaralıları Gədəbəyə gətiriblər. Hazırda Cil kəndində döyüşlər gedir. Müsəlmanların vəziyyəti ciddidir. Kömək gözləyirlər. Bu məlumatları nəzərə almaq və müvafiq tədbirlər görülməsi üçün göndərirəm. Qubernator Rəfibəyov".

(ARDA, f.2901, siy.1, sax.vah 4, vər.81.)

1920-ci il aprelin 28-də Bakıda Sovet hakimiyyəti qurulduqdan sonra X.Rəfibəyova təklif olunub ki, quberniya işlərini təhvil versin.

30 aprel 1920-ci il. “Azərbaycan Sovet Respublikası Komissarlar Soveti sədrinin müavininin və Azərbaycan Parlamenti sədrinin təklifi əsasında Gəncə Quberniya idarəsini Gəncə İnqilab Komitəsinə təhvil verdim.

Bir ilədək Gəncə qubernatoru vəzifəsini icra edərkən əmin oldim ki, həm quberniya idarəsinin və qubernator dəftərxanasının qulluqçuları, həm də mənim ixtiyarımda olan polis idarəsinin işçiləri üzərlərinə düşən vəzifələrə vicdanla əməl etmiş və quberniyada qayda, sülh və əminamanlıq yaratmaq işində mənə kömək göstərmək üçün bütün qüvvələrini səfərbər etmişlər. Buna görə də qubernator vəzifəsindən istefa verərkən sözügedən idarələrin işçilərinə çəkdikləri zəhmətə görə səmimi qəlbdən təşəkkür etməyi özümə borc bilirəm və ümidvaram ki, onlar bundan sonra da Azərbaycan Respublikasının tərəqqisi naminə öz vəzifələrini vicdanla və qeyrətlə yerinə yetirəcəklər. Qubernator Rəfibəyov” (ARDA, f.19, siy.2, sax.vah 198, vər.4.)

Vətənpərvər olmaq və öz xalqına namusla xidmət etmək üçün hər hansı partiyanın üzvü olmaq heç də vacib deyil. Doktor Xudadat bəy Rəfibəyov belə şəxsiyyət idi. O, Sovet hakimiyyətinə inanaraq əmin idi ki, yeni hakimiyyət dövründə də öz xalqına xidmət, insanları müalicə edə bilər. Lakin X.Rəfibəyov az sonra həbs olunaraq Bakıya gətirildi və xalq düşməni kimi güllələndi...

70 il (artıq 100 il – red.) arxada qalıb və indi biz gur səslə deyə bilərik : “Yox, yox, yenə də yox, doktor Rəfibəyov düşmən olmayıb. O öz atasına, Azərbaycan xalqına layiq oğul olub!”.

## YUSİF VƏZİR ÇƏMƏNZƏMİNLİ

Yusif Vəzirov (Çəmənzəminli) Azərbaycan xalqına çoxsaylı ölməz əsərlərin müəllifi olan istedadlı yazıçı kimi məlumdur. Azərbaycan Sovet Ensiklopediyasında (ASE) oxuyuruq: “Yusif Mirbaba oğlu Vəzirov Azərbaycan Sovet yazıçısıdır. 1915-18-ci illərdə Saratov, Simferopol və Odessada, 1919-25-ci illərdə xaricdə (İstanbul, Paris) yaşamışdır. 1926-cı ildə Sovet Azərbaycanına qayıtmış, Bakıda bədii və elmi yaradıcılıqla məşğul olmuşdur. 1938-40-cı illərdə Ürgənc Pedaqoji İnstitutunda (Özbəkistan SSR) rus dilindən dərs demişdir.” Vəssalam...

Y.Vəzirov məhz Ürgənc şəhərində 1940-cı il yanvarın 27-də həbs edilib. 169 saylı istintaq işindən məlum olur ki, o, 1940-cı il fevralın 24-də birinci sorğuya məruz qalmış, hələ 1937-ci ildə bioqrafiyası ətraflı araşdırılmışdır. Vəzirov “Studentlər” romanına görə Azərbaycan Yazıçılar İttifaqından, bütün vəzifələrindən xaric edilmiş, işsiz qalmış, Ürgəncə getmək məcburiyyətində qalmışdır.

1940-cı il fevralın 26-da Y.Vəzirova qarşı ittiham irəli sürülməsi haqqında qərar çıxarılıb: “O, 1918-ci ildə Musavat hökumətinin konsulu olarkən ingilis-fransız və türk kəşfiyyatlarında qulluqda olub...”. ( “Azərbaycan” qəzeti, 5 yanvar 1990-cı il.)

Bu sətirlər bizi o uzaq 1918-1920-ci illərə qayıtmağa, arxiv sənədlərinə müraciət etməyə vadar etdi.

Bəli, Yusif bəy Vəzirov Ukraynada, Krımda, Polşada, Konstantinopolda (İstanbulda) Azərbaycan hökumətinin diplomatik nümayəndəsi olub. Bununla fəxr etmək lazımdır. ASE-nin yazdığı kimi o, Simferoplda, Odessada, Konstantinopolda sadəcə olaraq yaşamayıb, işləyib. Harada olursa olsun, haraya göndərilirsə göndərilsin, heç bir çətinliyə, məhrumiyyətlərə baxmayaraq Y.Vəzirov həmişə Azərbaycanın maraqlarını müdafiə edib, öz xalqına, öz vətəninə sədaqətlə və şərəflə xidmət göstərib.

Arxiv sənədləri sayəsində biz bu gün onun fəaliyyətinin digər tərəfini işıqlandırmaq imkanına malikik. Necə deyərlər, pərdəni qaldı-

rıb Yusif Vəzirovu olduğu kimi göstərə bilərik. Yusif Vəzirov öz ölkəsinin vətənpərvəri idi. Onun hər bir məruzəsində hadisələrə obyektiv qiymət, hökumətə dəqiq və düzgün məsləshətlər verilir, başlıcası isə Azərbaycan üçün, öz xalqı üçün ağrı-acılar əksini tapırdı.

Ona görə ağrı-acılar ki, dünyada Azərbaycan haqqında bilmirdilər, əgər nəsə eşitmişdilərsə, bu da yalanlardan ibarət idi. O, hər bir məktubunda yazırdı: "Bitərəf və dost dövlətlərə diplomatik nümayəndələr göndərmək, Azərbaycan haqqında daha cox məlumat vermək lazımdır".

1919-cu il fevralın 6-da Azərbaycan hökumətinin Ukraynadakı nümayəndəsi Y.Vəzirovun respublikanın Xarici İşlər Nazirliyinə göndərdiyi məktubda oxuyuruq: "15 gün bundan qabaq hökumətimizin diplomatik nümayəndəsi təyin olunmağım barədə xəbər aldım. Bu barədə məlumatı Azərbaycan Komissarlığının Kiyevdəki elçisi Simferopolda mənə çatdırdı...

Artıq neçə gündür ki, Sevastopolda paroxodun Odessaya yola düşməsini gözləyirəm. Məncə bir müddət Odessada qalsam yaxşıdır. Çünki Kiyev ətrafında bolşeviklərlə ukraynalılar arasında döyüşlər gedir. Burada cövlan eden məlumatlara görə bolşeviklər Kiyevi tutublar. Fransızların burada olması sayəsində Odessanı bolşevik təhlükəsi gözləmir.

Öz vəzifəmə gəldikdə, məlumat verməyə borcluyam: ilk növbədə çalışacağam ki, Azərbaycana ən zəruri şeylər, şəkər və s. daha çox göndərilsin. Ümidvaram ki, bunun əvəzində yun, pambıq və digər mallar versək, məmləkətimiz Ukrayna tacirlərinin və sənayeçilərinin diqqətini asanlıqla cəlb edər. Təəssüf ki, burada ictimai rəy biz və Azərbaycan haqqında heç nə bilmir. Ona görə də mətbuatı öz tərəfimizə cəlb etmək lazımdır. Yaxşı olar ki, düzgün əlaqə üçün Bakıda radiostansiya yaradılsın, daimi əlaqə saxlamağa böyük ehtiyac var ". (ARDA, f.970, siy.1, sax.vah 44, 10-12.)

Vəzirov siyasi vəziyyət haqqında da məlumat verir: "Siyasi vəziyyətdən danışarkən qeyd etməliyəm ki, müttəfiqlərə bəslədikləri ümidlər doğrulmadığına görə rus xadimləri çox məyusdurlar, elə qüvvələri yoxdur ki, onlara kömək göstərə bilsinlər. Denikinin koman-

danlığı altında olan Könüllü Ordu demək olar ki, yalnız zabitlərdən ibarətdir, əsgər yoxdur və onları toplamaq imkan xaricindədir.

Krımda tatar alayları yaratmaq istədilər. Parlamentin fövqəladə bürosu Krım tatarlarının bitərəfliyini elan etdi, bu, əsgər verməkdən imtinaya bərabər idi. İndi könüllülərin yeganə istəyi bunu Krım hökumətinin üstünə yıxmaq və əvəzində general-qubernator təyin etməkdir. Onlar belə düşünürlər ki, bu yolla əsgər yığa bilərlər, lakin bu yol ümidsizdir. Könüllü Ordu tatarlarla çox pis davranır.

Əlavə edirəm, öz Vətənimə və Hökumətinə xidmət etməyə görə şadam."

Simferopoldan göndərdiyi digər məktubunda Y.Vəzirov yazır: "Əgər Krım Milli Şurası, yəni tatar idarəsi bizim Hökumətə istiqraz barədə xahişlə müraciət edərsə, məncə, qəbul etməyə lüzum yoxdur, belə ki, pula ehtiyacları yoxdur:

1.90 min desyatinədək vəqf tikintilərindən böyük gəlir götürülmüşdür.

2.Bir milyon manatdan artıq nağd pul var.

3.İşdə bəzi qaydasızlıqlar mövcuddur.

İnqilab elan ediləndən bəri xərclənən 4-5 milyon pulun sərfi haqqında hesabat indiyədək təqdim edilməyib, lakin Krıma mənəvi kömək lazımdır. Krımda 9 ayadək işləmişəm, buna görə də buradakı işlərdən hərtərəfli xəbərdaram...

Müfəssəl məlumatımda mən Azərbaycanın və Polşanın diplomatik postları üçün namizədlərin adlarını çəkəcəyəm. İndi Krımda diplomatik nümayəndə təyin etməyin xüsusilə vacib olduğunu görmürəm. Çünki çox ola bilər ki, Solomonun hökuməti yıxılsın və Krım Dona birləşdirilsin. Məncə, orada konsulumuzun olması kifayətdir. O, Krım-Tatar Direktorasiyası yanında ola bilər və yerli hökumətdən asılı olmayacaq.(ARDA, f.970, siy.1, sax.vah 44, 10-12.)

Eyni zamanda Vəzirov öz hökumətini dünyadakı siyasi hadisələrlə məlumatlandırırdı: "Aldığım məlumata görə Topçubaşovun rəhbərliyi altında sülh nümayəndə heyəti hələ də İstanbuldadır. Guya paroxod yoxdur; İngiltərədə daxili ixtişaşlar gözlənilir. Qəzetlər xəbər verir ki, İrlandiya öz istiqlaliyyətini elan edib. Hazırda Sevastopolda

olan fransız əsgərləri bildiriblər ki, sahildən o yana bir addım belə atmayacaqlar. Deməli, Fransanın hərbi qüvvələri Rusiyanın daxili işlərinə qarışmırlar. Rəsmi dairələrdə bu barədə danışmırlar...".

Y.Vəzirov 1919-cu il martın 9-da xəbər verir: "Bir ay öncə sizin adınıza göndərdiyim məktubda eyni halda qalmaqda davam edən vəziyyət barədə yazmışdım. Kiyev və Ukraynanın çox hissəsi bolşeviklərin əlindədir. Onların təzyiqi davam edir. Onlar Dona qarşı böyük hərbi qüvvə göndəriblər, həm də Krıma doğru hərəkət edirlər... Krımda hökumət və könüllülər tatarlarla çox sərt rəftar edir. Son vaxtlar tatar xadımlərinin mənzillərində axtarışlar aparırlar. Tatarlar şəhər Dumasında etirazlarını bildiriblər: Könüllülərə Krımda səfərbərlik keçirmək müyəssər olmayıb, tatarlar əsgər getmək istəmirlər...

Parlamentə seçkilər başa çatıb, hər yerdə milli siyahılar (millətçilərin siyahıları) keçib. Böyük rus knyazları nə parlamentə, nə də şəhər Dumasına keçə bilməyiblər...

Kiyevdə Ukrayna Sovdep Hökuməti meydana cıxıb. Qəbul olunmuş qərara görə quya Ukrayna Respublikası gələcəkdə Rusiyanın tərkib hissəsi olacaq. İndi bolşevizmə qarşı nifrət azalmaqdadır, mətbuatın münasibəti çox müxtəlifdir, hər yerdə bolşevizmin təsiri artır. Ukraynada bolşeviklərin baş komandanı general Qutor Kiyevdə zabitlərə müraciəti zamanı deyib ki, bizim məqsədimiz Rusiyanı canlandırmaqdır, lakin sovet idarə etməsi olacaq.

Bütün diplomatik nümayəndələr Odessaya köçüblər. Onların bir çoxu burada qeyri-rəsmi yaşayır, mənim də rəsmi idarələrə müraciət etmək imkanım yoxdur.

Könüllülər bizi rəsmi surətdə tanımadılar, görünür ayrı-ayrı millətlər barədə onların siyasəti çox təhlükəlidir. Fransızlara gəldikdə, onların bizə münasibətdə siyasəti qeyri-müəyyəndir. Ukrayna ilə danışıqlar indiyə kimi heç bir nəticə verməyib. Bütün bunları nəzərə alıb, vətənim üçün arzuolunmaz hallardan qaçaraq qeyri-rəsmi yaşamağa məcburam. Hələ də davam etməkdə olan danışıqların qurtarmasını gözləyirəm. Ukrayna həqiqətən tanındıqdan sonra vəzifəmin icrasına başlayacağam. Maddi cəhətdən işlərim çox pisdir... harada imkan olubsa, borc almışam. Xahiş edirəm ki, məktubumu alan kimi mənə

pul göndərəsiniz... Səfirliyin birinci katibi Krımda qalıb. Pul alan kimi buraya gətirdəcəyəm.

Bir çox adam mənə müraciət edir ki, Qafqaza daha çox mal göndərilsin. Lakin bununla əlaqədar vətəndən indiyədək heç bir məlumat almadığım üçün onlara müəyyən bir cavab verə bilmirəm. Eşitmişəm ki, bizimlə gürcülər arasında ticarət müqaviləsi bağlanıb. Lakin bu barədə məndə rəsmi məlumat yoxdur. Məndə bayrağımızın da nümunəsi yoxdur. Xahiş edirəm bizimlə digər dövlətlər arasında bağlanan bütün müqavilələrin surətini və bayrağımızın nümunəsini, rəsmi və yarımrəsmi qəzetlərin nömrələrini göndərin, habelə İngiltərəyə hökumətimizin münasibəti barədə siyasəti bildirin.

Ukraynada və Poloniyada (Polşa) diplomatik postlara namizədlər məsələsinə gəldikdə, hazırda həmin yerlərdə (respublikalarda) diplomatik nümayəndələrə ehtiyac yoxdur.

Krımda kadet hökuməti keçmiş Rusiyada yeni yaranan respublikaları tanımır. Təbiidir ki, Krımda səfirliyimiz tanınmayacaq və bu, qeyri-müəyyənliyə səbəb olacaq...

Diplomatik nümayəndələri bitərəf və dost dövlətlərə göndərmək lazımdır. Belə vəziyyətdə Paris konfransını olmuş fakt qarşısında qoya bilərik. Bundan başqa, Azərbaycanın daxili işlərində cəsarətli addımlar atmaq lazımdır. İlk növbədə, xalq maarifini milliləşdirmə yoluna qoymaq zəruridir. Qulluqçulara türkcə oxumaq imkanı verilməsi üçün kurslar açılmalıdır. ("Xaricdə Azərbaycanı tanıyan yoxdur. Mətbuat Qafqazda erməni və gürcülərdən başqa heç bir xalqı tanımır. Azərbaycana gələn mətbuat (qəzet və teleqraf agentliyi) nümayəndələrini çox yaxşı qarşılamaq lazımdır. Tiflis qəzetlərindən daha çox məlumat gəlsə, yaxşı olar. Əgər siz mənə məlumatlar göndərsəydiniz, onları buradakı qəzetlərdə yerləşdirə bilərdim"). (ARDA, f.970, siy.1, sax.vah.44, vər.15-16)

1940-cı ildə Y.Vəzirov təsdiq edib ki, o, 1917-ci ildə Kiyevdə Müsavat partiyasına qəbul edilib, orada oxuyub və Kiyev partiya təşkilatına rəhbərlik edib.

Kiyevdə Azərbaycan Cümhuriyyəti koloniyasının sədri A.Axundov 1919-cu il sentyabrn 21-də Azərbaycan Xarici İşlər Nazir-

liyinə yazıb: "Azərbaycan koloniyası hələ 1917-ci ilin əvvəlindən rus inqilabının ilk zərbələri zamanı siyasi cəhətdən mütəşəkkilliklə işə başlayıb. Ukrayna Mərkəzi Radası günlərində Müsavat partiyasının Kiyev Komitəsi ətrafında qruplaşan koloniya Yusif bəy Vəzirovun ümumi rəhbərliyi altında Ukraynanın siyasi həyatının bütün sahələrində özünü göstərmişdir.

Mərkəzdən ayrı düşən, vətəndən demək olar ki, heç bir dəqiq məlumat almayan, Komitə uzun aylar ərzində sərbəst işləməli olub, bəzən proqramlardan kənara çıxıb və tələblər baxımından taktikanı dəyişib.

Nəhayət, çoxdan gözlənilən kuryer gəldi. Bakının alınması, Azərbaycanın müstəqil, hökumətli, parlamentli, ordulu, müəyyən ərazili ölkə olması və s. Bütün bu yeniliklər xüsusilə köhnə Kiyev işçisi Yusif Vəzirovun səfiri təyin olunması hamımızı ruhlandırdı və biz enerjinin artmasını hiss etdik...". (ARDA, f.970, siy.1, sax.vah.44, vər.20-25)

Azərbaycan hökuməti onun qeyri-adi diplomatik keyfiyyətlərini, mürəkkəb, çətin vəziyyərlərdə düzgün istiqamətlənmək bacarığını qiymətləndirərək Y.Vəzirovu ən qaynar yerlərə göndərirdi. Belə ki, Azərbaycan Nazirlər Sovetinin sədri F.Xoyski 1919-cu il yanvarın 14-də Krım Milli Direktoriyasına yazıb:"Azərbaycan Respublikası və ona qohum olan Krım Direktoriyası arasında sıx əlaqələr yaratmagın son dərəcə vacib olduğunu nəzərə alaraq keçən 1918-ci ilin 1 noyabr tarixli qərarına əsaslanıb Ukraynada Azərbaycanın diplomatik nümayəndəsi Mir Yusif Vəzirova tapşırdım ki, Krım hökuməti yanında Azərbaycanın nümayəndəsi olsun..."

Y.Vəzirov 1919-cu il iyunun 5-də respublika Xarici İşlər Nazirliyinə göndərdiyi məktubda məlumat verir: "Keçən il dekabrın axırlarında Kiyevdəki komisarlığımızdan yarımrəsmi məktub almışam. Ondan öyrəndim ki, Ukrayna hökuməti yanında Azərbaycanın diplomatik nümayəndəsi təyin edilmişəm. Hökumətimizin təklifini rəğbətlə qarşıladım, şəxsi və xidməti işlərimi ləğv etməyə başladım (Mən tatar milli hökumətində ədliyyə direktoru idim) və Odessaya getdim". (ARDA, f.970, siy.1, sax.vah.40, vər.20)

Sevastopolda təsadüfən prisnyajçı vəkil Aleksandroviçlə rastlaşdım. O, kağızlarımın dublikatını və baş nazirin məktubunu mənə gətirmişdi.

Odessada öyrəndim ki, bolşeviklər Kiyevi tutublar, Ukrayna hökuməti Vinnitsiya köçüb. Səfirliklər Odessaya gəlirdilər. Vəziyyət qeyri-müəyyən idi... Bolşeviklər hey hücum edirdilər. Odessada Azərbaycan konsulluğuna böyük ehtiyac duyulurdu. Pul olmadığından konsulluq təskil edə bilmədim. Bizim vətəndaşların müdafiəsi məsələlərini gürcü konsuluna həvalə etməklə kifayətləndim. Tezliklə bolşeviklər Odessa ətrafında göründülər və müttəfiqlər 24 saat ərzində ərazini tərk etdilər.

Gürcü konsulluğu qafqazlılarla birlikdə məni Batuma aparmağı vəd etmişdir, lakin kömür olmadığından vədə əməl edilmədi və mən Sovet Odessasında qalmağa məcbur oldum. Bolşeviklərlə heç bir əlaqəyə girmir, qeyri-rəsmi yaşayır və Odessanı tərk etməyə əlverişli məqam gözləyirdim. Sovet hakimiyyətinin tanımadığı konsulları aparmaq üçün müttəfiq paroxodları Odesssaya gələndə elə məqam yarandı.

Mayın 18-də bizi Xalki adasına (Prins adaları, hazırkı Heybəliada – red.) gətirdilər.

Konstantinopol hazırda dünya siyasi əhval-ruhiyyəsinin və ümidgahının mərkəzidir. Müttəfiqlərin və öz müqəddəratını təyin etmiş bütün millətlərin nümayəndələri, dünya mətbuatının müxbirləri buradadırlar. Təəssüf ki, belə mərkəzdə Azərbaycanın diplomatik nümayəndəsi yoxdur. Bu, azmış kimi, hətta düzgün təşkil edilmiş konsulluq da yoxdur. Bizim vətəndaşlar heç kim tərəfindən müdafiə olunmur, Azərbaycanın kommersiya maraqları böyük ziyana uğrayır.

Müstəqilliyimizin tanınması işində Konstantinopol diplomatik heyətinin rolu böyükdür. Bizim ölkəmizə düzgün təşkil olunmuş dövlətin bütün idarələri ilə yaşamaq lazımdır. Parisi olmuş fakt qarşısında qoymaq lazımdır, müstəqillik sınağına dözmək lazımdır. Gələcək İstanbul heyəti Avropa ictimai rəyini bizim tələblərimizlə tanış edəcək və ölkəmiz mətbuatın geniş məlumatları ilə bütün dövlətlərlə dostluql əlaqələri saxlayacaq, ticarətimizi müdafiə etmək və şirnikləndirmək üçün yerli Azərbaycan tacirliyini təşkil edəcək, müəllim hazırlığı,

dərsliklərin çap edilməsi işində Xalq Maarifi Nazirliyinə kömək göstərəcək, Azərbaycan tarixindən materiallar toplamaq yolu ilə milli özünüdərketməni möhkəmləndirəcək. Ölkəmizin səadəti üçün nə lazımsa İstanbuldan götürməliyik. Ona görə də təcili sürətdə sanballı heyəti təşkil edib İstanbula göndərmək lazımdır..." (ARDA, f.970, siy.1, sax.vah.44, vər.17-18)

Y.Vəzirov bir diplomatik nümayəndə kimi tez-tez digər dövlətlərin nümayəndələri ilə görüşür, Azərbaycana və onun digər ölkələrə münasibəti məsələlərinə dair söhbətlər aparırdı. O, Simferopola, Odessaya, Konstantinopola səfərlərini şərh edərək 1919-cu il iyulun 12-də XİN-ə məruzə edib: "Krımın müsəlman mətbuatı Ukraynada Azərbaycan Respublikasının diplomatik nümayəndəsi təyin olunmağım barədə məlumatı səmimi sətirlərlə qarşılayıb". "Tavriçeski qolos" kadet qəzeti aşağıdakıları dərc edib: "Krım diplomatının karyerası...".

""Milliyyət" qəzetinin məlumatına görə keçmiş Xarici İşlər naziri D.Saydamatın köməkçisi Yusif bəy Vəzirov Krım, Polşa və Ukrayna respublikalarının hökumətləri yanında Azərbaycanın diplomatik nümayəndəsi təyin edilmişdir. Hazırda Vəzirov Simferopoldadır, tatar direktoriyasında ədliyyə direktoru vəzifəsini tutur və milli siyasətin rəhbərlərindən biridir." (T.Q.№17,24 yanvar 1919-cu il).

Simferopolda mən siyasi dostlarım-rəqiblərimlə vida görüşü keçirdim. Krım dövlətinin sabiq başçısı general Sulkeviç "Parisdə Rusiya müsəlmanlarının birliyi və onların müdafiəsi" haqqında öz sevimli ideyasını bildirdi. Generala dedim ki, "Rusiya çöküb, bizim Azərbaycan Rusiyadan ayrılıb. Biz öz müstəqilliyimizi müdafiə edə bilərik. Rusiyaya qayıtmağa ehtiyacımız yoxdur və bizim məsələnin ümümrusiya miqyasında həll edilməsinə lüzum yoxdur.

Odessada İngiltərənin baş konsulu general V.Kukun rəsmi görüşündə oldum. O, məni hərarətlə qarşıladı. Ona söylədim ki, millətlərin hüququna diqqətlə yanaşan böyük xalqların nümayəndələrini görməkdən çox məmnunam. General Kuk mənə təşəkkür etdi və Azərbaycan haqqında soruşdu. Azərbaycan Respublikasının kiçik xəritəsini göstərdim və ölkəmiz barədə ətraflı danışdım, xalqımızın mədəniyyəti, müstəqil yaşamaq niyyətləri barədə söhbət açdım.

Mayın 14-də axşam Odessadan çıxdım. Mayın 18-də bizi Xalki adasında düşürdülər.

Konstantinopolda italyan alt-komissarı Koit Kario Sforzun rəsmi görüşündə oldum. Qəbul son dərəcə səmimi səciyyə daşıyırdı. Mən bildirdim: "Ukraynada Azərbaycan Respublikasının diplomatik nümayəndəsiyəm, Qafqaza keçərkən bizə dost ölkənin nümayəndəsinə öz rəğbətimizi bildirməyə şadam". Komissar təşəkkür etdi və söylədi ki, o, Azərbaycana çox yaxşı münasibət bəsləyir, Topçubaşovun Parisə getməsinə kömək göstərib. Söylədim ki, Qarribaldisi olan ölkə Azərbaycanın azadlığını və müstəqilliyini qiymətləndirib müdafiə edə bilər. Komissar bildirdi ki, onlar milliyyətindən və dinindən asılı olmayaraq bütün xalqlara hörmət bəsləyirlər.

Sonra komissar dilimizlə, onun türk dilinə oxşarlığı və fərqi ilə maraqlandı. Komissar söylədi ki, İtaliyada Azərbaycan əsgərləri üçün geyim əşyaları hazırlığı gedir...

Konstantinopolda bütün hakimiyyət müttəfiqlərə məxsusdur, demək olar ki, heç yerdə türklər görünmür və eşidilmir. Maksimum ehtiyatlılıq tələb olunur, ona görə də türklər tərəfdə az hərlənirəm. Türkiyənin bəzi siyasi, diplomatik və ədəbi sahələrində mənim gəlişimdən xəbərdardırlar. Şəxsən tanıdığım nazir Əhməd Fərid bəyə baş çəkdim və Əhməd bəy Ağayevin həbsinə qeyri-rəsmi etirazımı bildirdim. Məni inandırdılar ki, İstanbulda ermənilərin apardığı qəzet kompaniyasından sonra fransızlar Ağayevi həbs ediblər.

Türküstan nümayəndəsi Şirəli Lapin və Krımın sabiq Xarici İşlər naziri Cəfər Səid Əhməd mənim görüşümdə olublar. Bu yaxınlarda Berlindən gəlib, Türküstan barədə fikrimlə maraqlandı. Mən dedim ki, Azərbaycan qərara alıb ki, müstəqil yaşasın, daha bizim məsələ rus məsələsi deyil. Ona görə də Türküstan bizim düşüncə dairəmizdən kənara çıxır. Lakin bir adi şəxs kimi Şirəliyə məsləhət gördüm ki, Türküstanın müstəqilliyinə nail olsunlar və bu işdə İngiltərəyə istiqamətlənsinlər. Dedim ki, bu siyasət ölkənin milli-məişət bütövlüyünü rus köçürmə təhlükəsindən xilas edər.

Cəfər Səid Əhməd Azərbaycana xidmət etmək istəyini bildirdi. Məncə, onun gəlişi ilə bizim ziyalı gücümüzə bir ziyalı xadim əlavə

olunar. Sonra mən rus xidmətinin admiralı, tatar, şimal qütbündə ekspedisiyanın iştirakçısı İslamovu Azərbaycana dəvət etdim. Şübhəsiz ki, o, ölkəmizin milli donanmasının dirçəlməsində faydalı olacaq". (ARDA, f.897,siy.1, sax.vah.116,vər.10.)

1919-cu ilin noyabrında Azərbaycan Xarici İşlər Nazirliyinin informasiya şöbəsi məlumat verib: "Türkiyəyə təyinat almış diplomatik nümayəndəmiz Y.Vəzirov bu günlərdə Konstantinopola gəlib və Xarici İşlər naziri tərəfindən qəbul edilib." (ARDA, f.970, siy.1, sax.vah.40, vər.9.)

Noyabrın 23-də isə Azərbaycan Cümhuriyyətinin Xarici İşlər naziri M.Y.Cəfərov Konstantinopola xəbər göndərib: "Konstantinopolda diplomatik nümayəndəmiz Y.Vəzirovdan alınan teleqrama əsasən Amerika komissarı Bristol Zəngəzur hadisələri ilə çox maraqlanır və xahiş edib ki, təfsilat aydınlaşdırılsın, belə ki, erməni mətbuatı güclü təhlükə təbili çalır. İngilis yaxud amerikan diplomatik heyəti vasitəsilə təcili surətdə mənim adımdan hökumət məlumatını Vəzirova çatdırın, bildirin ki, hazırda Zəngəzurda sakitlikdi. Bu məsələ ilə əlaqədar Tiflisdə Qaşkelin müavini, Amerika polkovniki Reyin iştirakı ilə bizim və Ermənistanın baş nazirlərinin müşavirəsi keçirilir". (ARDA, f. 897, siy.1, sax.vah.64, vər. 212.)

Konstantinopolda Azərbaycan Respublikasının diplomatik heyətinin səlahiyyətli nümayəndəsi vəzifəsində işləyərkən Y.Vəzirov Rusiyada baş verən bütün hadisələrlə maraqlanır və onların gedişini diqqətlə izləyirdi. Belə ki, 1919-cu il dekabrın 22-də Y.Vəzirov Konstantinopoldan xəbər verir: "Zati-aililəri, Ukrayna hökumətinin general Denikinin Ukraynaya basqını ilə əlaqədar Antanta ölkələrinin və mədəni dövlətlərin hökumətlərinə ünvanladığı notanın surətini və həmin hökumətin Ukrayna xalqına müraciətinin surətini sizə göndərməkdən şərəf duyuram." (ARDA, f.970, siy.1, sax.vah. 100, vər. 7.)

Tale Y.Vəzirovu haraya atırdısa, harada olursa-olsun, o, həmişə Azərbaycan, onun xalqı haqqında danışmaq imkanına malik idi. O, bütün qüvvəsi ilə çalışırdı ki, dünyaya Azərbaycan haqqında daha çox məlumat yaysın. Y.Vəzirov "Krım" jurnalının 12-ci sayında dərc etdirdiyi "Milli gecələr" sərlövhəli məqaləsində yazır: "Bütün Avropa

bilir ki, milli gecələr keçirilməsi çoxdan ənənəyə çevrilib. Və həmin gecələrin təşkilatçılarını təkcə maddi maraq düşündürmürdü. Burada böyük maraq var. Belə ki, həmin gecələr millətin mənəvi gözəlliyini aşkara çıxarır, məcbur edir ki, insanlar özlərini dərk etsinlər. Buna görə də həmin gecələr bütün ictimaiyyəti cəlb edir. Hər yerdə həmin gecələri keçirən millətlər qazanır. Çünki güclü millət üçün ilk zərurət özünüdərkdən, sonra isə onu bütün ictimaiyyətin dərk etməsindən ibarətdir. Əgər o millət ki, mədəniyyətə qovuşub özünün müstəqil idarəetməsinin vacibliyini dərk edər, o zaman özünün milli istiqlaliyyətinə ilk addımlar atan həmin millət özünü bütün dünyada populyarlaşdırmağa məcbur edər". (ARDA, f.970, siy.1, sax.vah. 169, vər. 19.)

Yuxarıdakı sətirləri oxuyarkən göz önündə öz millətini, xalqını hədsiz dərəcədə sevən, müstəqil Azərbaycan dövləti ilə qürur duyan bir şəxsiyyət canlanır.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNDƏ MİLLİ ORDU QURUCULUĞU

Ölkəmizin Milli Ordu quruculuğu tarixində xalqımızın zəngin hərbi biliyə və təcrübəyə malik görkəmli övladları – artilleriya generalları S.S.Mehmandarov və Ə.İ.Şıxlinskinin, eləcə də digər hərbi sərkərdələrimiz - generallar Süleyman bəy Əfəndiyev, Həbib bəy Səlimov, Teymur bəy Novruzov, İbrahim ağa Usubov, Abdul Həmid Qaytabaşı, İbrahim ağa Vəkilov, Məmməd bəy Sulkeviç, Murad Qirey Tlexas, Məmməd Mirzə Qacar, Amanulla Mirzə Qacar, Davud bəy Yadigarov və başqalarının müstəsna xidmətləri olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin 1998-ci il mayın 22-də imzaladığ 707 №li Fərmanla ölkəmizdə 26 iyun Silahlı Qüvvələr günü elan edilmişdir. Həmin il iyunun 25-də Azərbaycan Ordusunun yaradılmasının 80 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində ümummilli lider Heydər Əliyev çıxış edərək demişdir: ”Biz 26 iyun gününü bayram elan etmişik. Bu tam əsaslıdır, məqsədəuyğun, qanunauyğundur. Çünki 80 il öncə məhz bu gün Azərbaycan Xalq Cümhuriyyətinin - ölkəmizin müstəqilliyini elan edən xalq cümhuriyyətinin, müstəqil Azərbaycanı qurub-yaradan, hələ Gəncədə fəaliyyət göstərən hökumətin ilk addımlardan biri Azərbaycan Milli Ordusunun yaranması haqqında verdiyi qərar olmuşdur. Həmin qərara, addıma böyük hörmət əlaməti olaraq biz 26 iyun gününü Azərbaycan Silahlı Qüvvələri, Ordusu günü elan etmişik.”

1918-ci ildə yenicə yaradılmış dövlətin qarşısında duran başlıca vəzifələrdən biri, bəlkə də birincisi ölkənin müstəqilliyini və ərazi bütövlüyünü qorumaq, daxili düşmən qüvvələrini zərərsizləşdirmək və xarici müdaxilələrin qarşısını almaqdan ötrü öz silahlı qüvvələrinin yaradılması idi. Milli Ordunun yaradılması vəzifəsi həyati zərurətdən irəli gəlirdi və müstəqil dövlətin qarşısında dayanan təxirəsalınmaz vəzifələrdən sayılırdı. Milli Şuranın 28 may 1918-ci il tarixli qərarına əsasən F.X.Xoyskinin sədrliyi ilə yaradılmış birinci müvəqqəti hökumətin tərkibində Hərbiyyə naziri vəzifəsi təsis edildi və həmin vəzi-

fəyə Xosrov Paşa bəy Sultanov təyin olundu. Daha sonra II müvəqqəti hökumətin 1918-ci il iyunun 26-da qəbul etdiyi qərarla Müsəlman Korpusunun adı dəyişdirilərək "Əlahiddə Azərbaycan Korpusu" adlandırıldı və bununla da milli silahlı qüvvələrin yaradılması istiqamətində mühüm addım atıldı. Hökumətin 26 iyun 1918-ci il tarixli digər qərarı ilə Əlahiddə Azərbaycan Korpusu nəzdində diviziya rəisi hüququnda olan xüsusi tapşırıqlar üzrə general vəzifəsi təsis edildi. 1918-ci ili yulun əvvəllərində Azərbaycan Korpusunun hissələri iki Türk diviziyasının 5-ci Qafqaz və 15-ci Çanaqqala diviziyasını hissələri ilə birgə Nuru Paşanın komandanlıq etdiyi Qafqaz İslam Ordusunun tərkibinə daxil edildi. Başda general-leytenant Nuru Paşa olmaqla, Qafqaz İslam Ordusunun qərərgahı Gəncə şəhərində yerləşdirildi. Ölkəmizdə Silahlı Qüvvələrin yaradılması son dərəcə ağır hərbi-siyasi şəraitdə aparılırdı. Belə ki, 1918-ci ilin yayında Azərbaycanda siyası vəziyyət ölkədə iki hakimiyyətliyin mövcudluğu ilə xarakterizə edilirdi. Azərbaycanın şərq hissəsi (Bakı quberniyası) Bakı Soveti və onun icraiyyə orqanı olan Bakı XKS-in təsiri altında, qərb hissəsi (Yelizavetpol quberniyası) isə Azərbaycan Xalq Cümhuriyyəti hökumətinə tabe idi. Əsasən erməni-bolşevik-daşnaklardan ibarət olan Bakı XKS-i Azərbaycanın milli hökumətini nəinki tanımadı, hətta bütün vasitələrlə ona qarşı mübarizə elan etdi. Bakı XKS-i və onun ordusu Gəncə üzərinə yürüşə keçərək ölkədə "vətəndaş müharibəsini" yenidən alovlandırdı. Azərbaycanda Sovet hakimiyyəti qurmaq adı altında azərbaycanlılara qarşı divan tutulmağa başlandı. Bakı, Şamaxı, Quba, Lənkəran, Salyan, Naxçıvan, Qarabağ və digər bölgələrdə dinc azərbaycanlı əhaliyə qarşı misli görünməmiş qırğınlar törədildi. Erməni-daşnak qüvvələrinin törətdiyi bu azğınlığın qarşısının alınmasında xalqımızın hərbi köməyə ehtiyacı var idi. 1918-ci il iyunun 4-də Osmanlı İmperatorluğu hökuməti ilə Azərbaycan Respublikası arasında dostluq müqaviləsi imzalandı. Müqaviləni Azərbaycan tərəfindən Milli Şuranın sədri M.Ə.Rəsulzadə və Xarici işlər naziri M.H.Hacinski, Osmanlı İmperiyası tərəfindən isə Ədliyyə naziri, Senatın sədri Xəlil bəy, Osmanlı İmperiyasının Qafqaz cəbhəsinin Baş komandanı Vehib Paşa imzalamışdılar. Həmin müqaviləyə əsasən Türkiyə tərəfindən Azər-

baycana lazımi hərbi yardım göstərildi. Azərbaycan-türk qoşun hissələrinin birgə səyi nəticəsində əsasən ermənilərdən ibarət olan Qırmızı Ordunun I Qafqaz korpusunun Gəncəyə doğru hücumunun qarşısı alındı. Azərbaycan-Türkiyə birləşmiş qoşunları ilə Bakı XKS-nin qoşunları arasında ilk döyüş iyunun 16-18-də Göyçaydan bir qədər şərqdə yerləşən Qaraməryəm kəndi yaxınlığında baş verdi. Nazirlər Şurası 1918-ci il iyunun 19-da Azərbaycan ərazisində hərbi vəziyyətin tətbiq edilməsi barədə qərar qəbul etdi. Hökumətin 1918-ci il iyunun 23-də qəbul etdiyi qərarla ölkədə hərbi dövrün qanunları tətbiq edildi. Müvəqqəti hökumət 1918-ci il iyulun 3-də əsgərliyə çağırış yaşının müəyyən edilməsi haqqında qərar qəbul etdi. Həmin qərara görə 19 yaşına çatmış gənclər hərbi mükəlləfiyyətli hesab olunurdu. Daha sonra 1918-ci il iyulun 11-də 1894-1899-cu illərdə anadan olmuş və müsəlman dininə mənsub vətəndaşların Ordu sıralarına çağırılması barədə qərar qəbul edildi. 15 sentyabr 1918-ci il tarixli 1№li "Azərbaycan" qəzetində hərbi xidmətə çağırışın müvəffəqiyyətlə keçirilməsi haqqında məlumat dərc edilmişdir. Həmin məlumatda qeyd edirdi: "Əyalətlərdən alınmış məlumatlara görə əsgərliyə çagırış müvəffəqiyyətlə keçirilir. Yaşın düzgün təyin edilməsi ilə bağlı yaranmış vəziyyət bir qədər çətinlik törədir. Bakıya yaxın kəndlər döyüş qabiliyyəti olan bütün kişiləri cəbhəyə çıxarmışdılar. Nuxa və Ərəş qəzalarından əsgərliyə yeni çağırılmış şəxslər isə artıq çoxdandır ki, Bakı ətrafında gedən döyüşlərdə iştirak edirlər".

Türk və Azərbaycan qoşunları ilə Bakı XKS-nin qoşunları arasında Göyçay ətrafında gedən dördgünlük (27 iyun - 1 iyul) qızğın döyüşdən sonra əsasən ermənilərdən ibarət olan Qırmızı Ordunun I Qafqaz korpusunun Gəncəyə doğru hücumunun qarşısı alındı və Qafqaz İslam Ordusu Bakı istiqamətində əks hücuma keçdi. İyulun sonlarında Şamaxı, Qarasu, Hacıqabul, Ələt, Qobu, Xırdalan, Sumqayıt və Sanqaçal, avqustun 3-də isə Quba azad edildi. Qafqaz İslam Ordusunun Bakıya doğru əks hücumu nəticəsində Bakı Soveti və onun icraiyyə orqanı olan Bakı XKS-i iyulun 31-də öz səlahiyyətlərindən imtina etməli oldu. Bakıda hakimiyyət sağ eser-menşevik-daşnak blokunun əlinə keçdi və həmin blok avqustun 1-də "Sentrokaspi Diktaturası və

Fəhlə, Əsgər Deputatlarının Müvəqqəti İcra Komitəsinin Rəyasət Heyəti" adlı hökumət təşkil etdi. Avqustun 5-də Azərbaycan-Türk qoşun birləşmələri səhər tezdən şəhərin yuxarı dağlıq hissəsində yerləşən Badamdar yüksəkliyini ələ keçirərək Bibi-Eybətə doğru endi və oranı erməni daşnaklardan təmizləməyə nail oldu. Xilaskar qoşunun digər dəstələri isə Bibi-Heybətə doğru Şıxov kəndi tərəfindən irəlilədi. Avqustun 5-6-da Bibi-Heybət, Badamdar, Qurd qapısı, Binəqədi, Biləcəri və digər bölgələrdə gedən ağır döyüşlərdən sonra Qafqaz İslam Ordusu sentyabrın 14-dən 15-nə keçən gecə həlledici hücuma keçdi. Sentyabrın 15-də Azərbaycan-Türkiyə birgə qüvvələri Bakını azad etdi.

1918-ci il 15 sentyabr tarixli 1 №-li "Azərbaycan" qəzetində Azərbaycan hökuminin adına Nuru Paşadan aşağıdakı məzmunlu teleqramın daxil olduğu barədə məlumat verilirdi:"Allahın mərhəməti ilə Bakı şəhəri 15(9) 34-də (müsəlman tarixi ilə 1334-cü il nəzərdə tutulur) saat 9 radələrində bizim hissələr tərəfindən alındı. Qafqaz müsəlman ordusunun komandanı general-leytenant Nuru".

1918-ci il sentyabrın 15-də Türkiyənin Gürcüstandakı hərbi nümayəndəsi general-mayor Abdul Kərim-paşa Bakının azad edilməsi ilə bağlı Tiflisdən Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəsi M.Y.Cəfərova göndərdiyi təbrik telefonoqramında qeyd edilirdi: "Fədakarcasına döyüşmüş türk və Azərbaycan qoşunlarının Bakını alması münasibəti ilə sizi böyük hörmətlə təbrik edirəm." Azərbaycanın müstəqilliyinin qorunub saxlanılması və ərazi bütövlüyünün bərpa edilməsi, həmçinin genişlənməkdə olan erməni-daşnak-bolşevik təcavüzünün qarşısının alınmasında 1918-ci il iyunun 4-də Osmanlı İmperatorluğu hökuməti ilə Azərbaycan Respublikası arasında imzalanmış dostluq müqaviləsinin müstəsna əhəmiyyəti olmuşdur. Qeyd etmək kifayətdir ki,Bakını düşmən qüvvələrdən məhz Azərbaycan-Türkiyə birgə qüvvələri azad etmişdir.

1919-cu il 15 sentyabr tarixli "Azərbaycan" qəzeti Bakının azad olunduğu günün tarixi əhəmiyyətini qiymətləndirərək qeyd edirdi: "Əgər biz 28 mayı müstəqilliyimizin elan olunduğu rəsmi gün hesab ediriksə, 15 sentyabr Azərbaycan qoşunlarının, Azərbaycan

hökumətinin Bakıya daxil olduğu günü-müstəqilliyin faktiki olaraq əldə olunduğu və dövlətin əsasının qoyulduğu gün kimi hesab etmək mümkündür. Bu gün mütəşəkkil daşnak-bolşevik qüvvələrinin yalnız Azərbaycanın və digər Zaqafqaziya respublikalarının müstəqilliyinə qarşı deyil, Zaqafqaziyada türk xalqlarının varlığına qarşı yönəltdikləri ölümcül təhlükənin qarşısının alındığı gündür. Türk qoşunları Azərbaycanın köməyinə imperialist və istila məqsədləri ilə deyil, öz qardaşlarını xilas etmək üçün gəldilər, Azərbaycan torpaqlarında təmənna güdmədən və fədakarcasına öz qanlarını axıdıb qardaşları qarşısında öz borclarını yerinə yetirərək getdilər. Qədirbilən Azərbaycan xalqı Türk qoşunlarının son dərəcə mühüm xidmətlərini unutmayacaq və Bakıya onlarla birgə daxil olmasını Azərbaycan xalqının tarixinin ilk səhifələrinə yazacaqdır."

Bakının azad edilməsi uğrunda gedən döyüşlərdə minlərlə türk və azərbaycanlı əsgər və zabit, yerli əhali həlak olmuşdur. 1918-ci ildə Bakı uğrunda gedən döyüşlərdə həlak olmuş azərbaycanlı və türk əsgərləri Şəhidlər Xiyabanında dəfn edilmişdir. Azərbaycanın müxtəlif bölgələrində və Bakıda, Şəhidlər Xiyabanında türk şəhidlərinin xatirəsinə abidə ucaldılmışdır. Qədir bilən xalqımız Bakının azad edilməsi uğrunda gedən döyüşlərdə canlarından keçmiş qəhrəman insanların, əsgər və döyüşçülərin şücaətlərini heç vaxt unutmur, böyük hörmət və ehtiramla yad edir.

Bakı erməni-bolşevik-daşnak qüvvələrindən təmizləndikdən sonra Respublikada ordu quruculuğu və müdafiə sahəsində görülən işlər bir qədər də surətləndirildi. Azərbaycan Xalq Cümhuriyyəti Qarabağ bölgəsində mövqelərini möhkəmləndirmək məqsədilə general-leytenant Nuru Paşa başda olmaqla, Qafqaz İslam Ordusunu bu bölgəyə göndərdi. Hökumətin 1918-ci il oktyabrın 6-da keçirilmiş iclasında Nazirlər Şurasının sədri F.X.Xoyski Nazir portfellərinin yenidən bölüşdürülməsinin nəticələrini elan etdi. İ.X.Ziyadxanov hərbi işlər üzrə müvəkkil təyin edildi.

I dünya müharibəsində qalib gəlmiş Antanta ölkələri ilə məğlub edilmiş Almaniya-Türkiyə bloku arasında 1918-ci il oktyabrın 30-da bağlanmış Mudros müqaviləsinin ağır şərtlərinə görə Türkiyə

qoşunları Azərbaycanı və Zaqafqaziyanı tərk etdi. 1918-ci il noyabrın 17-də müttəfiq dövlətlər adından general Tomsonun başçılığı altında İngilis hərbi qüvvələri Bakıya daxil oldular. Həmin qüvvələr Azərbaycan qoşunlarının Bakını tərk etməsini tələb etdi. Yaranmış vəziyyətlə əlaqədar olaraq Hərbi nazirlik 1918-ci il noyabrın 22-də Gəncəyə köçərək fəaliyyətini həmin şəhərdə davam etdirdi. Hərbi Nazirliyin Gəncəyə köçürülməsi bu nazirliyin dövlət strukturları ilə əlaqələrində və ordunun formalaşması prosesində müəyyən çətinliklər törətməsinə baxmayaraq, artilleriya generalları Səməd bəy Mehmandarov və Əliağa Şıxlinskinin rəhbərliyi altında aparılan təşkilati işlər öz nəticəsini verdi. Azərbaycan Xalq Cümhuriyyəti Ordusunun əsas qüvvələri Hərbi nazirliyin Gəncədəki fəaliyyəti dövründə, hökumətin 1 noyabr 1918-ci il tarixli qərarı ilə yaradıldı. Həmin qərara əsasən Hərbi nazir portfeli Nazirlər Şurasının sədrinə həvalə edilirdi. Onun müavini artilleriya generalı S.S.Mehmandarov təyin edilmişdi.

Daha sonra qısa müddət ərzində Hərbi Nazirliyin aparatı yaradıldı. Noyabrın 15-də Hərbi nazirin müavini Səməd bəy Mehmandarovun əmri ilə Azərbaycan korpusunun qərargah rəisi polkovnik Həbib bəy Səlimov Baş qərargah və Hərbi nazirin dəftərxanasının rəisi vəzifəsinə təyin edildi. Hərbi nazirin əmri ilə polkovnik Səlimova tapşırılırdı ki, Nazirlər Şurasının təsdiq etdiyi ştata uyğun olaraq Hərbi Nazirliyin Baş Qərargahını və Dəftərxanasını, eləcə də Baş Qərargahın general-kvartirmeyster, növbətçi-general, artilleriya, intendant, mühəndislik, hərbi-məhkəmə, hərbi-təlim, topoqrafiya və nəzarət şöbələrini yaratsın. İntendant şöbəsinin rəsi-polkovnik Seyfulla Mirzə Qacar, Artilleriya şöbəsinin rəisi general-mayor Tlexas, polkovnik Qaytabaşi isə nəzarətçi general vəzifəsinə təyin edildi. Podpolkovnik Vəkilovun müvəqqəti olaraq mühəndislik şöbəsinin rəisi vəzifəsini icra etməsinə icazə verildi. Nazirlər Şurasının 1918-ci il 25 dekabr tarixli qərarı ilə artilleriya generalı Səməd bəy Mehmandarov Hərbi nazir, Azərbaycan korpusunun komandiri, general-leytenant Əliağa İsmayılağa oğlu Şıxlinski isə 1918-ci il dekabrın 29-da Hərbi nazirin köməkçisi təyin edildi. Zəngin hərbi biliyə və təcrübəyə malik S.S. Mehmandarov və Ə.İ.Şıxlinski hərbi quruculuq işlərinə rəhbərlik

etdikdən sonra ölkədə hərbi qüvvələrin yaradılması sahəsində işlər müvəffəqiyyətlə həyata keçirilməyə başlandı. Ölkədə ordu quruculuğuna dair məsələlərə Azərbaycan Parlamenti tərəfindən də böyük diqqət yetirilirdi.

Azərbaycan Parlamentinin 1918-ci il 26 dekabr tarixli iclasında F.X.Xoyskinin sədrlik etdiyi hökumətin bəyannaməsi elan edilmişdir. Həmin bəyannamədə ordu quruculuğu ilə bağlı qeyd edilirdi: "Möhtərəm məbuslar! Sülhsevərlik yanğısı nə qədər böyük olsa da hökumət hüquq və maraqlarının qorunmasında canlı qüvvəyə-orduya arxalanmalıdır. Beləliklə, ərazi bütövlüyünü qorumağa qadir olan hərbi qüvvələrin yaradılması hökumətin qarşısında duran başlıca vəzifələrdən biridir. Bu qüvvələr bütün lazımi vəsaitlərlə:silahla, əsgəri təchizatla, ərzaqla təmin edilməlidir. Hökumət dərhal bunun təşkilinə başlayacaqdır."

S.S. Mehmandarovun 1919-cu il yanvarın 3-də Hərbi nazir vəzifəsində fəaliyyətə başlaması haqqında imzaladığı əmrdə qeyd edilirdi:

"1. Mən bu gün Bakı şəhərindən qayıdaraq Hərbi Nazirliyi idarə etməyə başladım; Azərbaycan korpusunun komandiri general-leytenant Şıxlinskidən xahiş edirəm ki, öz vəzifəsinin icrasına başlasın.

2. 1918-ci il dekabrın 25-də Azərbaycan Respublikasının hərbi naziri vəzifəsinə təyin edilmişəm, bunu hərbi təsisata elan edirəm.

3.Azərbaycan korpusunun komandiri general-leytenant Şıxlinski Nazirlər Şurasının 29 dekabr 1918-ci il tarixli qərarı ilə hərbi nazirin köməkçisi təyin edilmişdir".

Hərbi nazir S. Mehmandarovun 10 yanvar 1919-cu il tarixli əmri ilə Hərbi Nazirliyin nəzdində piyada və atlı diviziyalarının rəislərindən, Baş ştabın rəisindən, Artilleriya və İntendant idarələrinin rəislərindən, qərargahın general-kvartirmeysterdən, növbətçi-generaldan, tapşırıqlar üzrə generaldan və mühəndislik şöbəsinin rəisindən ibarət Hərbi Şura yaradıldı. Qoşunların yerləşdirilməsi, təchiz edilməsi, təlim-tərbiyə məsələlərinə aid bütün məsələlərin işlənib hazırlanması Hərbi Şuraya həvalə edildi. Qeyd edək ki, yenicə yaradılmış

Respublikada həyata keçirilən ordu quruculuğunda yerli şərait nəzərə alınmaqla, Çar ordusu qoşunlarının yaradılması, komplektləşdirilməsi, idarə edilməsi və döyüş hazırlığı prinsipləri tətbiq edilirdi. Bu ilk növbədə onunla izah edilirdi ki, yaranmaqda olan Azərbaycan ordusunun ali zabit korpusunun bir çoxu rus-yapon və birinci dünya müharibəsinin iştirakçıları olmuş və zəngin döyüş təcrübəsi əldə etmiş keçmiş çar ordusunun general və zabitlərindən ibarət idi. Ədliyyə və Daxili işlər naziri X.Xasməmmədovun 1919-cu il fevralın 12-də qubernatorlara göndərdiyi təmimnamədə hərbi xidmətə çağırışın həyata keçirilməsində türk komandanlığının işləyib hazırladığı təlimatın deyil, hərbi mükəlləfiyyət barədə keçmiş Rusiya Nizamnaməsinin əldə rəhbər tutulmasını tövsiyə edilirdi.

Hərbi Nazirliyin qarşısında duran ən vacib məsələlərdən biri də milli hərbi zabit kadırlarının hazırlanması idi. Bu məsələnin aktuallığı xüsusilə onunla izah olunurdu ki, Denikin qoşunları Azərbaycanın sərhədlərinə yaxınlaşdıqca, keçmiş Qafqaz cəbhəsinin və Qafqaz Dairəsinin bir çox rus zabitləri Azərbaycan Respublikasına qarşı kəşfiyyat işləri aparır və təxribat törədirdilər. Doğma xalqına və vətəninə sadiq olan milli zabit kadrlarına son dərəcə böyük ehtiyac duyulurdu. Müstəqil dövlətin öz hərbi qüvvələrinin olmasının zəruriliyini çox dərindən anlayan Ə.Şıxlinski qeyd edirdi:"...Ordu vətənin dirəyidir və oraya ölkənin ən yaxşı qüvvələri daxil edilməlidir." Milli zabit kadrları hazırlayan hərbi məktəbə mövcud təlabat nəzərə alınaraq Hökumətin 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Gəncə sənət məktəbinin təmir edilməsi və onun hərbi məktəb kimi yenidən təchiz edilməsi üçün Gəncə hərbi məktəb müfəttişinin sərəncamına otuz min (30.000) rubl pul vəsaiti ayrıldı. Bundan əlavə Bakı şəhərində üç hərbi məktəbin açılması və onların avadanlıqlarla təchiz edilməsi məqsədilə Hökumətin 27 oktyabr 1918-ci il tarixli qərarı ilə Daxili işlər nazirinin sərəncamına əlli min (50.000) rubl kredit ayrıldı.

1918-ci il dekabrın 1-də Gəncə podpraporşik məktəbinin fəaliyyəti yenidən quruldu və həmin məktəbin statusu genişləndirilərək podpraporşik məktəbindən praporşiklər məktəbinə çevrildi. 1919-

cu ilin oktyabrında bu məktəbinin bazasında piyada, artileriya, mühəndislik, habelə kürd bölmələrindən ibarət Hərbi Məktəb yaradıldı.

Azərbaycan Xalq Cümhuriyyətinin ordu quruculuğunda milli duyum, milli birlik və milli iftixar, vətənə, torpağa bağlılıq əsas prinsiplərdən biri idi. Hər bir zabit və əsgər öz xalqının şanlı döyüş tarixini, özünün kökünü və soyunu bilməli və onlara qırılmaz köklərlə bağlı olmalı idi. Əsgər və zabitlər ilk növbədə vətəndaş olmalı, vətənini, dilini və millətini sevməli, onun keşiyində layiqincə dayanmağı bacarmalı idi. Hərbi nazir Səməd bəy Mehmandarov 1919-cu il 2 aprel tarixli 1559 №li məruzəsində yazırdı:"... bizim hərbi qüvvələr, ümumdünya tarixinin səhifələrinə yazdıqları və indiyə qədər avropa xalqlarının unutmayaraq xatırladıqları qəhrəmanlıqları, özünün şanlı döyüş tarixini bilməlidirlər. Bunlar haqqında ən az danışan və xatırlayan da deyəsən elə özümüzük. Yüz ildən artıq davam etmiş rus hökmranlığından azad olmuş türk xalqına xatırlatmaq lazımdır ki, biz heç də həmişə itaət altında olmamışıq, öz qərarımızı Avropa və Asiyaya qəbul etdirmişik. Olduqca faydalı hesab edirəm ki, türk tarixini yaxşı bilənlərdən bir kəsə tapşırılsın ki, xalqımızın bu günə kimi olan tarixini və əlamətdar hadısələrini qısa şəkildə əks etdirən sadə dildə yazılmış kitablar tərtib edərək dərc etsin... Ziyalılarımızın ən mühüm vəzifələrindən biri xalqı və əsgərləri öz tarixi ilə tanış etməkdir. Bu şübhəsiz ki, xalqın milli heysiyyatını və türk irqinə məxsusluğu ilə iftixarını artıracaqdır."

S.Mehmandarov əsgər və zabitlərin xalqımızın tarixini, qəhrəmanlıq ənənələrini əks etdirən kitablarla təmin edilməsinə xüsusi fikir verir, bu kitabları oxumaq üçün onlara şərait yaradırdı. O, Ali qərargahın Baş idarəsinin yaradılması haqqında 1919-cu il martın 26-da 147 №li əmr imzaladı. Həmin əmrə əsasən I Müsəlman korpusunun keçmiş komandiri general-leytenant Məmməd bəy Sulkeviçə martın 19-dan etibarən Ali qərargah rəisinin vəzifəsini icra etməsinə icazə verildi. Ali Qərargahın Baş İdarəsi aşağıdakı şöbələr əsasında yaradılmışdır: a) general-kvartirmeyster, b) hərbi-topoqrafiya, c) rabitə xidməti. Baş idarəyə qoşunların təşkili, təlimi, dislokasiyası məsələlərinə baxılması həvalə edildi. Baş Qərargahın səlahiyyətlərində isə qoşun-

ların komplektləşdirilməsi, yerləşdirilməsi və daxili təsərrüfat məsələləri saxlanıldı. 1919-cu il martın 28-də Hərbi nazir artilleriya generalı Mehmandarov və Ali Qərargahın rəisi general-leytenant Sulkeviçin general-kvartirmeyster şöbəsinin strukturu haqqında birgə imzaladıqları 157 № li əmrlə əməli-səfərbərlik, hesabat, kəşfiyyat və əks-kəşfiyyat şöbələrindən və rabitə xidmətindən ibarət general-kvartirmeyster bölməsi formalaşdırıldı.

1920-ci il martın 2-də Azərbaycan Ordusunun Qərargahı yaradıldı. Hərbi nazir S.Mehmandarov və Ordu qərargahının rəisi Səlimov tərəfindən imzalanmış 128 №li əmrə əsasən Baş qərargah və Ali qərargah Baş idarəsi birləşdirilərək Azərbaycan Ordusunun qərargahı adlandırıldı. Həmin əmrə əsasən Ali qərargahın Baş idarəsinin rəisi general-mayor Səlimov korpus komandiri hüququ və təminatı ilə Ordu qərargahının rəisi təyin edildi. Hərbi Nazirliyin qərargahlarına, habelə idarə və şöbələrinə müxtəlif vaxtlarda generallardan Həbib bəy Səlimov, İbrahim ağa Usubov, Abdul Həmid Qaytabaşı, İbrahim ağa Vəkilov, Məmməd bəy Sulkeviç, Murad Qirey Tlexas,Firudin bəy Vəzirov, Məmməd Mirzə Qacar, Amanulla Mirzə Qacar, Davud bəy Yadigarov və başqaları başçılıq etmişdir. Eyni zamanda qeyd edirik ki, Azərbaycanın milli ordu hissələrində layiqincə xidmət göstərən zabitlər arasında digər millətlərin nümayəndələri də olmuşdur: polkovnik V.N.Sokolov -I piyada diviziyasının qərargah rəisi; B.K.Bekov - istehkamçı məktəbinin rəisi; S.M.Koçladze - hərbi dəmiryolu məktəbinin rəisi; V.S.Xarkeviç - I arteleriya briqadasının divizion komandiri; polkovnik V.D.Klementyev - qoşunların hərəkətinin müdiri; podpolkovnik P.P. Mikeladze - Bakı müdafiə rayonun mövqe batareyalarının rəisi və başqaları. Şəxsi heyətin tərbiyə edilməsində milli ordunun strukturunda fəaliyyət göstərən din xadimlərinə böyük əhəmiyyət verilərək, Baş Molla vəzifəsi təsis edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti dövlətin təhlükəsizliyini, ölkənin müstəqilliyini və ərazi bütövlüyünü qorumaqdan ötrü ordu quruculuğuna xüsusi diqqət ayıraraq büdcədən mümkün qədər böyük vəsait ayırırdı.1919-cu ildə büdcədən ən böyük vəsait ordu

quruculuğu üçün ayrılmışdır ki, onun da həcmi 399454242 rubl təşkil edirdi.

1919-cu lin sonunda Azərbaycan Ordusunun tərkibində 2 piyada və 1 atlı diviziya var idi. I piyada diviziyasının komandiri general-mayor Cavad bəy Şıxlinski; diviziyanın qərargahına Vasiliy Nikolayeviç Sokolov başçılıq edirdi. I piyada diviziyasına Cavanşir I piyada alayı (polkovnik Vladimir Levestan); Zaqatala 2-ci piyada alayı (polkovnik Əhməd bəy Dibirov); Gəncə 3-cü piyada alayı (polkovnik Cahangir bəy Kazımbəyov) daxil idi. II piyada diviziyasının komandiri İbrahim Ağa Usubov; qərargah rəisi-podpolkovnik Mahmud bəy Zeynalov idi. II piyada diviziyasına 4-cü Quba piyada alayı (polkovnik Həsən bəy Ququşev); 5-ci Bakı piyada alayı (podpolkovnik İsrafil bəy İsrafilov); 6-cı Göyçay piyada alayı (polkovnik Əfəndiyev); 7-ci Şirvan piyada alayı (Lənkəran ehtiyat taboru alaya çevrilməklə) - (kapitan Sultan bəy Hüseynzadə) və 8-ci Ağdaş piyada alayı daxil idi.

Piyada diviziyaların hər biri həmin diviziyanın nömrəsi altında iki divizion heyətdən ibarət artileriya biriqadası ilə təmin edilmişdir.1-ci briqadanın komandiri - Məmməd Mirzə Qacar; 2-ci briqadanın komandiri isə Rüstəm bəy Şıxlinski idi.

Atlı (süvari) diviziyanın tərkibinə komandiri general-mayor Teymur bəy Novruzov olmaqla, aşağıdakı alaylar daxil idi: -1-ci atlı Tatar alayı (podpolkovnik Cəmşidxan Naxçıvanski; -2-ci atlı Qarabağ alayı (polkovnik Məhəmməd bəy Tuqanov); -3-cü atlı Şəki alayı (Xosrov Mirzə Qacar). Həmin diviziyanın tərkibinə həmçinin Kürd atlı divizionu (rotmistr Səlim bəy Sultanov); Kürd atıcı batalyonu (ştabs-kapitan Yunis Şakarov) və atlı-dağ batareyası (podpolkovnik Dunin-Marsinkeviç) daxil idi.

Azərbaycan xalqının və hökumətinin iradəsi ilə müttəfiq dövlətlərin hərbi komandanlığı 1919-cu ilin aprelin əvvəllərində milli qoşun hissələrinin azsaylı kontingentinin Bakıda yerləşdirilməsinə razılıq verdi. İngiltərə hərbi qüvvələri Azərbaycan ərazisini tərk etdikdən sonra Hərbi Nazirliyin rəhbər orqanları 1919-cu il iyunun sonu - iyulun əvvəllərində yenidən Bakıya köçürüldü. 1919-cu ilin yayında Bakıda komendant idarəsi yaradıldı. Bakı şəhəri komendantı general-

mayor Firidun bəy Vəzirov idi.1919-cu ilin payızında təşkil edilən ən əhəmiyyətli hərbi strukturlardan biri Bakının Möhkəmləndirilmiş Müdafiə rayonu idi.Yardılmış bu strukturun başlıca məqsədi Denikin ordusunun şimaldan, xüsusən dənizdən etimal olunan təhlukəsinin qarşısını almaq və bütünlükdə Bakının etibarlı müdafiəsini təşkil etmək idi. Həmin strukturun rəisi general-mayor Murad Girey Tlexas; onun qərargah rəisi polkovnik Hacıbəylinski idi.

1919-cu ilin sonunda Respublikamızın ərazisində nizami ordu hissələri ilə yanaşı qeyri-nizami hissələr-polis yaradıldı. Həmin qüvvələr üzərində rəhbərliyi yerli qarnizon rəisləri həyata keçirirdi.

1920-ci ildə aşağıdakı birləşmələrin yaradılması nəzərdə tutulurdu: 9-cu piyada alayı; 3-cü piyada diviziyanın qərərgahı, 2 qaubitsa batareyası, bir atlı-dağ batareyası, atlı-dağ divizionu idarəsi, divizionu idarə etməklə üç batareya heyətli bir yüngül döyüş divizionu. Əgər bu hərbi hissələrin yaradılmasını başa çatdırmaq mümkün olsaydı, Azərbaycan Xalq Cümhuriyyətinin quru qoşunları təşkilatı baxımdan ordu korpusu təşkil edərdi ki, bu da o dövrün ali taktiki birləşməsi sayılırdı. Lakin məlum səbəblər ucbatından bunu həyata keçirmək mümkün olmadı. 1920-ci il aprelin 27-də XI Qızıl Ordu Azərbaycan Xalq Cümhuriyyəti ərazisinə daxil oldu. Azərbaycan Parlamentinin 1920-ci il aprelin 27-də keçirilmiş axşam iclasında hakimiyyətin kommunistlərə təhvil verilməsi barədə qərar qəbul edildi. S.Mehmandarov 1920-ci il aprelin 28-də tutduğu vəzifəni sovet hakimiyyəti tərəfindən yeni təyin edilmiş hərbi və dəniz komissarı Cingiz İldırıma təhvil verdiyi barədə əmr imzaladı. Əmrdə qeyd edilirdi: ”...vidalaşarkən əziz xidmət yoldaşlarıma vicdanlı və rəşadətli xidmətlərinə görə minnətdarlığımı bildirirəm. Onların yeni hakimiyyətdə də bizim sevimli Azərbaycanımız naminə vicdanla və rəşadətlə xidmət edəcəklərinə şübhə etmirəm. Əlvida, böyükdən tutmuş kiçik əsgərə qədər sizin hamınıza əmin-amanlıq, əməkdə və şəxsi həyatda müvəffəqiyyətlər və xoşbəxtlik arzulayıram.”

Böyük ağrı və təəssüf hissi ilə qeyd etməyə məcburuq ki, Azərbaycan Respublikası sovetləşdirildikdən sonra təkcə 1920-ci ilin iyun-iyul aylarında Fövqəladə Komissiyanın hökmü ilə Azərbaycan Xalq

Cümhuriyyəti Ordusunun 15-dən artıq tanınmış hərbi sərkərdəsi, o cümlədən general-mayorlar – Firidun bəy Camal bəy oğlu Vəzirov, Qaytabaşı Abdulhəmid bəy, Qacar Feyzulla Mirzə, Qacar Məmməd Mirzə, Qacar Əmir Kazım Mirzə, David bəy Yedigarov, Əliyar bəy Həşimbəyov, Həbib bəy Səlimov, Sulkeviç Matvey Aleksandroviç, Tlexas Murad Qirey, Usubov İbrahim Musa oğlu, Həbib bəy Talış-xanov, polkovniklər– Danyal bəy Qalajev, Qacar Sədrəddin Mirzə, Rüstəm bəy Şıxlinski və başqaları edam olunmuş, hərbi sərkərdələrə qarşı repressiyalar 30-cu illərdə də davam etdirilmişdir.

## GENERAL-MAYOR TEYMUR BƏY NOVRUZOV

Azərbaycan Milli Ordusunun yaradılmasının 80 illiyi ilə əlaqədar 1998-ci il iyunun 25-də keçirilmiş təntənəli yubiley mərasimində Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Heydər Əliyev öz çıxışndada qeyd etmişdir: ”XIX-XX əsrlərdə Azərbaycan öz dövlətçiliyindən məhrum olandan sonra, Çar Rusiyasının tərkibində olduğu zamanda Azərbaycan xalqının görkəmli nümayəndələri həmin orduda xidmət etmiş və Azərbaycan oğlunun, əsgərinin hərbi peşəkarlıq sahəsində nəyə qadir olduğunu dəfələrlə sübut etmişlər. Doğrudur, respublikamız Çar Rusiyasının tərkibində olduğu zaman azərbaycanlıları, müsəlmanları orduya cəlb etmirdilər, ordudan azad edirdilər. Biz tarixi təhlil edərkən bunun nə qədər mənfi nəticələr verdiyini görürük. Millətimiz, xalqımız hərbi peşədən məhrum olmuşdu. Ancaq bununla yanaşı, o dövrdə hakim dairələrlə bağlı olan xan sülalələri övladlarını hərbi xidmətə göndərir, bunu özlərinə böyük şərəf hesab edirdilər. Onlar yüksək səviyyəli hərbi məktəblərdə təhsil alaraq böyük rütbələr almağa nail olurdular. Onlar hamısı çar Rusiyasının ordusunda xidmət etmişlər. Azərbaycanlı bəzi görkəmli sərkərdələr, generallar Rusiyanın XIX əsrdə apardığı müharibələrdə iştirak etmiş və qəhrəmanlıq nümunələri göstərmişlər. Bununla bərabər, xatırladığım bu faktların bizim üçün əhəmiyyəti ondan ibarətdir ki, bunlar xalqımızın, millətimizin nəyə qadir olduğunu göstərir. Çar Rusiyasının ordusunda azərbaycanlılar, müsəlmanlar xidmət etmədikləri halda Azərbaycan oğulları rus ordusunun yüksək səviyyəli hərbi məktəblərini bitirib, döyüşlərdə böyük peşəkarlıq, qəhrəmanlıq nümunələri göstərib, general rütbəsi alıb, yüksək ordenlərlə təltif ediliblərsə, bunlar Azərbaycan xalqının, oğullarının nəyə qadir olduğunu göstərir. Bunlar tariximizin Sovet dövründə unudulmuş səhifələridir, faktlarıdır. Ancaq biz bu gün tariximizi bərpa edərkən bunların hamısını öyrənməliyik və xalqımız bunu bilməlidir. Naxçıvan xanları sülaləsindən bir neçə general çox uğurla xidmət etmişlər: general Ehsan xan, general Kəlbəli xan, Hüseyn xan,

İsmayıl xan, Cəmşid xan Naxçıvanskilər. Bakıxanovlar sülaləsindən bir çox generallar Azərbaycanın və ordusunun tarixində görkəmli yer tutmuşlar. Talışxanovlar sülaləsindən bir çox generallar bizim tariximizin səhifələrində öz yerlərini tutmuşlar. General Fərəc bəy Ağayev, general Ağalarov, general Ərəblinski və başqaları - bunlar hamısı XIX əsrdə və XX əsrin əvvəllərində orduda xidmət etmiş yüksək rütbəli generallar, Azərbaycan oğullarıdır. Rus ordusunda böyük hörmət qazanmış Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski tariximizdə adlarını çəkdiyim generallara nisbətən daha çox tanınmışdırlar. Onlar rus-yapon müharibəsində iştirak etmişlər, qəhrəmanlıq nümunələri göstərmişər, sonra isə 1918-ci ildən başlayaraq Azərbaycanda Silahlı Qüvvələrin yaranmasında böyük xidmətləri olmuşdur. Bəli, bu gün məmnuniyyət hissi ilə qeyd etmək olar ki, 1918-ci ildə Xalq cümhuriyyəti, Azərbaycanın ilk demokratik hökuməti dövlət quruculuğu işini çox mürəkkəb və çətin bir dövrdə apardığı zaman Silahlı Qüvvələrin yaranmasına və ordu quruculuğuna xüsusi əhəmiyyət vermiş, qayğı göstərmişdir. Xalq cümhuriyyətinin ikiillik - iki il tam olmamışdır - tarixini bu gün vərəqləyərkən ordu quruculuğu sahəsində nə qədər dəyərli işlər görüldüyü doğrudan da böyük hörmət hissi doğurur.”

1917-ci ilin sonlarında Almaniya ilə sovet Rusiyası arasında hərbi əməliyyatlarını dayandırılması haqqında saziş imzalandıqdan sonra 1917 il dekabrın 5 (18) - də Qafqaz cəbhəsində - Ərzincanda Zaqafqaziya Komissarlığı ilə Türkiyə arasında on dörd maddədən ibarət barışıq imzalandı. Ərzincan barışığının şərtlərinə görə Qafqaz cəbhəsindəki rus qoşunları geri çəkilməyə başladı. Zaqafqaziya Komissarlığı rus ordusunda bolşevik təbliğatının güclənməsinin müəyyən təhlükə törədə biləcəyini nəzərə alaraq 1917-ci il dekabrın 19-da Qafqazdakı rus ordusunun buraxılması haqqında əmr verdi və həmin əmrə əsasən Qafqazdakı hərbi hissələr yalnız milli korpuslar halında saxlanıla bilərdi. Beləliklə, Rus Qafqaz Ordusu ləğv edildikdən sonra ayrı-ayrı milli korpusların – gürcü, erməni, Azərbaycan və rus milli korpusların yaradılmasına qərar verildi. Milli korpusların təcili yaradılması Qafqaz cəbhəsindən geri çəkilən rus əsgərlərinin yerli əhaliyə qarşı törətdikləri terror və soyğunçuluqların qarşısının alınması ilə də

bağlı idi. Gürcü və erməni milli korpuslarının yaradılması işi Azərbaycan milli korpusunun yaradılması işi ilə müqayisədə daha asan və müvəffəqiyyətlə yerinə yetirilirdi. Çünki, "ОЗАКОМ" tərəfindən hələ xeyli əvvəl rus ordusunun Qafqaz cəbhəsi tərəfindən ola biləcək basqının qarşısının alınması bəhanəsilə gürcü və ermənilərə öz hərbi hissələrinin yaradılmasına icazə verilmişdi. Bundan əlavə çarizmin yeritdiyi mürtəce və milli ayrıseçkilik siyasətinin nəticəsi olaraq gürcü və ermənilər müsəlmanlardan, azərbaycanlılardan fərqli olaraq əsgərlikdən azad edilməmiş və nizami rus ordu sıralarında xidmətə çağrılaraq hərbi təlim alırdılar. Onların hərbi xidmət görmüş nizami hərbi hissələri var idi. Bakı Sovetinin hərbi qüvvələrinin əsasını erməni hərbi hissələri təşkil edirdi. Beləliklə, gürcü və ermənilər hər növ silahlara malik hərbi hissələrə yiyələndiyi halda, Azərbaycan milli korpususun yaradılması prosesi hələ yenicə başlayırdı və olduqca ağır şəraitdə gedirdi. Bunun da əsas səbəbi bu idi ki, Çar Rusiyasının ölkədə yeritdiyi milli ayrıseçkilik və mürtəce siyasətin nəticəsi olaraq İmperiya ərazisində müsəlmanlar, azərbaycanlılar əsgərlikdən azad edilmişdi. Bu səbəbdən azərbaycanlıların döyüşdə sınanmış nizami hərbi hissələri yox idi və Azərbaycan milli korpusunun yaradılması işində kifayət qədər çətinliklər, o cümlədən peşəkar hərbi kadrlar problemi ortaya çıxırdı. Azərbaycan türkləri yalnız cahan müharibəsi zamanı könüllü olaraq azərbaycanlılardan təşkil olunmuş bir suvari alayına malik idilər. Azərbaycan Ordusunun yaradılması fövqəladə ağır şəraitdə icra olunurdu. Azərbaycan korpusunu yalnız 1918-ci il aprelin sonlarında general-leytenant Ə.Şıxlinskinin rəhbərliyi altında yaratmaq mümkün oldu.

Milli Ordu quruculuğu tarixində iz qoymuş azərbaycanlı hərbi sərkərdələrdən biri də general-mayor Teymur bəy Novruzovdur. Teymur bəy peşəkar hərbçi, rus ordusunun generalı Mirzə Hacı bəy Novruzovun ailəsində dünyaya gəlmişdir. Atası zadəgan nəslindən olduğuna görə Peterburqdakı Paj hərbi korpusunda təhsil almış, 1849-cu il iyunun iyirmi dördündə ilk zabit rütbəsinə layiq görülmüşdür. O, həyatında peşəkar hərbçi yolunu seçmiş, ilk zabit rütbəsindən general-leytenant rütbəsinə qədər uğurla hərb və döyüş yolunu keçmişdir.

Mirzə Hacıbəy Novruzov rus ordusunda göstərdiyi igidliklərə görə ayrı-ayrı vaxtlarda müxtəlif ordenlərlə, o cümlədən 1856-cı ildə üçüncü dərəcəli "Müqəddəs Stanislav", 1860-cı ildə üçüncü dərəcəli "Müqəddəs Anna", 1873-cü ildə ikinci dərəcəli "Müqəddəs Anna", 1877- ci ildə "Müqəddəs Vladimir" (qılınc və bantla birgə) " İgidliyə görə" (qızıl qılıncla birgə), üçüncü dərəcəli " Müqəddəs Vladimir" (qılıncla birgə), 1882-ci ildə birinci dərəcəli" Müqəddəs Stanislav", 1886-cı ildə birinci dərəcəli "Müqəddəs Anna", 1891-ci ildə ikinci dərəcəli "Müqəddəs Vladimir", 1893-cü ildə uzun illər ordudakı nümunəvi xidmətinə görə fərqlənmə döş nişanı ilə təltif olunmuşdur. 1896-cı il mayın 14 də qüsursuz xidmətinə görə general-leytenant rütbəsinə layiq görülmüş və həmin ildə də istefaya çıxmışdır.

Teymur bəy Mirzə Hacı bəy oğlu Novruzov 1880-cı il aprelin 20-də Yelizavetpol qəzasının Qovlar kəndində anadan olmuşdur. İbtidai təhsilini Tiflis kadet korpusunda almış, 1898-ci ildə Yelizsavetqrad suvari yunker məktəbinə daxil olaraq süvari zabit məktəbini müvəffəqiyyətlə bitirmişdir. Teymur bəy Novruzov 1900-cü ildə rus ordusunda xüsusi atlı qoşun hissələrindən biri olan draqun polkuna yunker kimi daxil olmuşdur. 1901-ci ildə Teymur bəy Novruzova çar süvari qoşununda birinci zabit rütbəsi olan kornet rütbəsi verilir. O, 1905-ci ildən etibarən poruçik, 1909-cu ildən ştabs-ротмистr, 1913-cü ildən etibarən isə rotmistr hərbi zabit rütbəsini daşımışdır.

O, I Dünya müharibəsini Nijeqorodskoy 17-ci Əlahəzrət draqun polkonun 4-cü eskadronunun komandiri vəzifəsində qarşılamışdı. Yeri gəlmişkən qeyd edirik ki, bu polk Qafqaz süvari diviziyasına daxil idi və rus ordusunda ən etibarlı polklardan biri sayılırdı. I Cahan müharibəsi illərində həmin polk bir sıra atlı hücumlarını yerinə yetirərək Cənubi-Qərb cəbhəsinin əməliyyatlarında yaxından iştirak etmişdir. Teymur bəy Novruzov rus ordusunda göstərdiyi igidliklərə görə ayrı-ayrı vaxtlarda müxtəlif ordenlərlə, o cümlədən 1909-cu ildə 3-cü dərəcəli "Müqəddəs Stanislav", 1913-cü ildə 3-cü dərəcəli "Müqəddəs Anna", 2 noyabr 1914-cü ildə 3-cü dərəcəli " Müqəddəs Anna", 24 noyabr 1914-cü ildə 4-cü dərəcəli "Müqəddəs Vladimir" ordenləri, "Georgi xaçı", onların lentləri və qılıncla təltif edilmişdi.

Azərbaycan Xalq Cümhuriyyəti elan olunduqdan sonra T.Novruzov yenicə müstəqilliyini elan etmiş respublikamızın ərazi bütövlüyünün və azadlığının qorunub saxlanılmasında yaxından iştirak etmişdir. O, əvvəl I süvari Tatar polkunun komandiri olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin 2 avqust 1919-cu il tarixli qərarı ilə I süvari Tatar polkunun komandiri polkovnik T. Novruzova xidmətdə fərqləndiyinə görə general-mayor rütbəsi verilmiş, bir qədər sonra isə Azərbaycan Ordusunda Süvari Diviziyanın komandiri təyin edilmişdi. Azərbaycan Ordusunda süvarı hissələrinin yaradılması, komplektləşdirilməsi və döyüş hazırlığının yüksəldilməsi sahəsində T.Novruzovun böyük xidmətləri olmuş, Süvari diviziyasının komandiri kimi süvari polkların formalaşmasında fəal iştirak etmişdir. Azərbaycan ordusuna verilmiş bütün döyüş tapşırıqlarının yerinə yetirilməsində Süvari diviziyasının hissə və bölmələri yaxından iştirak etmiş, Azərbaycanın müstəqilliyi uğrunda inamla vuruşmuşdur. Süvari diviziyanın 1920 ilin martında Şuşada yerləşən alayı daşnaklara və daxili düşmənlərə qarşı döyüş əməliyyatlarında fəal iştirak etmişdi. Teymur bəy Novruzov Cümhuriyyət ordusunun, hələ sağlığında haqqında şərqilər qoşulmuş nadir hərbçilərindəndir. Novruzov sovet işğalçılarına qarşı Gəncə üsyanının (1920) təşkilatçılarından və fəal iştirakçılarından biri olmuşdur. 11-ci Qırmızı ordu çox böyük qüvvə üstünlüyü hesabına bu üsyanı yatırandan sonra Novruzov mühacirət etmək məcburiyyətində qalmışdır. O, Gürcüstandan keçərək Almaniyaya, oradan da Fransaya mühacirət etmiş, bir sıra hərbi təşkilatların sıralarında olmuş, 1938-ci ildə Parisdə keçirilmiş Rus Hərbi Əlillər İttifaqı Qurultayının iştirakçısı kimi Qurultayın idarə heyətinə seçilmişdir.

Rus və Azərbaycan sərkərdəsi general-mayor Teymur bəy Mirzə Hacı bəy oğlu Novruzov 1961-ci il yanvarın 23-də Fransanın Nitsa şəhərindən 30 km aralıda yerləşən Mentonda vəfat etmiş və Nitsa şəhərinin Kokad qəbristanlığında dəfn edilmişdir.

## GENERAL-MAYOR SÜLEYMAN BƏY ƏFƏNDİYEV

Cümhuriyyət dövründə Azərbaycan Milli Ordusunun yaradılmasında müstəsna rolu və xidməti olmuş hərbçilərdən biri də Süleyman bəy Əlisüleyman oğlu Əfəndiyev olmuşdur. Polkovnik S.b.Əfəndiyev yeni yaradılan Azərbaycan ordusu üçün təlimatçılar hazırlayan ilk təlim komandasını təşkil etmişdir. Tiflisdəki müxtəlif təşkilatların Müsəlman alayına qarşı açıq-aşkar müqavimət göstərdiyi, eləcədə keçmiş Zaqafqaziya Komissarlığının təchizat idarələrindən hər hansı bir predmetin alınması son dərəcə çətin olduğu bir vaxtlarda S.b.Əfəndiyev özünün doğma işinə olan istəyi və qətiyyəti sayəsində komandiri olduğu alay üçün nəzərdə tutulmuş əmlakın çox hissəsini Tiflis intendantlığından alaraq Gəncəyə çatdıra bilmişdir.

Azərbaycan korpusunun piyada hissələri müvəqqəti olaraq ləğv edilərkən polkovnik S.Əfəndiyev qərargaha xeyli əmlak və ərzaq ehtiyatları vermişdir. Polkovnik S. Əfəndiyev 2-ci Qarabağ atlı alayının komandiri olarkən bir çox çətinliklərin öhdəsindən gələrək alaya əsil hərbi hissə görkəmini vermiş və onu Hərbi nazirə əla vəziyyətdə təqdim etmişdir. S.b. Əfəndiyevin hərbi fəaliyyəti Hərbi nazir tərəfindən digər komandirlərdən fəqləndirilmiş, Hərbi nazir S. Mehmandarovun məruzəsi əsasında Azərbaycan Respublikasının Nazirlər Şurasının qərarı ilə general-mayor rütbəsi ilə təltif olunmuş və I piyada diviziyasının başçısı təyin edilmişdir. S.b.Əfəndiyev çətin bir şəratdə, istirahətin nə olduğunu bilmədən diviziyanın təşkil edilməsi kimi ağır işi fədakarcasına öz üzərinə götürmüşdür.

General S.b.Əfəndiyev diviziyasının sanitar vəziyyətinin qayğısına da qalaraq lazaretlərin təşkil edilməsinə şəxsən rəhbərlik etmişdir. Xəstələrə daim baş çəkərək onların yanında olmuş, qayğısına qalmış, bir komandir kimi öz təsiri və xeyirxahlığı ilə onların talelərini yüngülləşdirməyə çalışmışdır.

Rusiyada 1917-ci ilin fevralında baş vermiş fevral inqilabı qələbə ilə başa çatdıqdan sonra martın 2-də II Nikolay taxt-tacı tərk etdiyi barədə manifest imzaladı. Martın 3-də Rusiyada yaranmış

müvəqqəti hökumətin qərarı ilə Cənubi Qafqazda mülki hakimiyyət IV Dövlət Dumasında regionun əsas millətlərini təmsil edən deputatlardan təşkil olunmuş Xüsusu Zaqafqaziya Komitəsinə - "ОЗАКОМ"-a verildi. "ОЗАКОМ" 1917-ci il oktyabrın 25-dək fəaliyyət göstərmişdi. Petroqradda bolşeviklərin silahlı üsyanı nəticəsində Müvəqqəti hökumət devrildikdən sonra 1917-ci il noyabrın 15-də J.P.Qeqeçkorinin başçılığı ilə Cənubi Qafqazda yaşayan üç xalqın (Azərbaycan, gürcü və erməni) nümayəndələrindən ibarət Zaqafqaziya Komissarlığı adı altında hökumət yaradılaraq "ОЗАКОМ"un fəaliyyətinə son qoyuldu.

1917 il dekabrın 5(18) - də Qafqaz cəbhəsində - Ərzincanda Zaqafqaziya Komissarlığı ilə Türkiyə arasında imzalanmış Ərzincan barışığının şərtlərinə görə Qafqaz cəbhəsindəki rus qoşunları geri çəkilməyə başladı. Zaqafqaziya Komissarlığı rus ordusunda bolşevik təbliğatının güclənməsinin müəyyən təhlükə törədə biləcəyini nəzərə alaraq 1917-ci il dekabrın 19-da Qafqazdakı rus ordusunun buraxılması haqqında əmr verdi. Həmin əmrə əsasən Qafqazdakı hərbi hissələr yalnız milli korpuslar halında saxlanıla bilərdi. Beləliklə, Rus Qafqaz Ordusu ləğv edilərək ayrı-ayrı milli korpusların – gürcü, erməni, Azərbaycan və rus milli korpuslarının yaradılmasına qərar verildi.

Zaqafqaziya komissarlığının müsəlman, gürcü və erməni milli korpuslarının yaradılmasına dair 1917-ci il 11 dekabr tarixli qərarı milli silahlı qüvvələrin yaradılmasına doğru gedən yolun başlanğıcı oldu. Gürcü və erməni milli korpuslarının yaradılması işi Azərbaycan milli korpusunun yaradılması işi ilə müqayisədə daha asan və müvəffəqiyyətlə yerinə yetirilirdi. Bunun da başlıca səbəbi bundan ibarət idi ki, çar Rusiyasının ölkədə yeritdiyi milli ayrıseçkilik və mürtəce siyasət nəticəsində gürcü və ermənilərdən fərqli olaraq müsəlmanlar, o cümlədən azərbaycanlılar hərbi xidmətə çağırılmır və onlar əsgərlikdən azad edilmişdilər. Azərbaycanlılar hərbi xidmətə çağırılmadığı üçün onların döyüşdə sınanmış nizami hərbi hissələri yox idi. Azərbaycan milli korpusunun yaradılması işində kifayət qədər çətinliklər, o cümlədən peşəkar hərbi kadrlar problemi ortaya çıxırdı. Azərbaycan türkləri yalnız cahan müharibəsi zamanı könüllü olaraq azərbaycan-

lılardan təşkil olunmuş bir suvari alayına malik idilər. Beləliklə, Azərbaycan milli korpusunun yaradılması prosesi hələ yenicə başlayırdı və fövqəladə ağır şəraitdə icra olunurdu.

F.X.Xoyskinin sədrliyi ilə yaradılmış II müvəqqəti hökumətin 26 iyun 1918-ci il tarixli qərarı ilə Müsəlman Korpusunun adı dəyişdirilərək "Əlahiddə Azərbaycan Korpusu" adlandırıldı və bununla da milli silahlı qüvvələrin yaradılması istiqamətində mühüm addım atıldı. Hökumətin 26 iyun 1918-ci il tarixli digər qərarı ilə "Əlahiddə Azərbaycan Korpusu" nəzdində xüsusi tapşırıqlar üzrə general vəzifəsi təsis edildi.

1918-ci ilin iyulundan başlayaraq Azərbaycanda Milli Ordunun yaradılması təşəbbüsünün önündə dayanan ilk hərbçilərdən biri də Süleyman bəy Əlisüleyman oğlu Əfəndiyev olmuşdur.

General-mayor Süleyman bəy Əfəndiyevin vəfatı ilə əlaqədar olaraq Şəfi bəy Rüstəmbəyov 5 mart 1919-cu il tarixli 48№ li "Azərbaycan" qəzetində dərc etdirdiyi "General Süleyman bəy Əfəndiyev" başlıqlı məlumatda böyük hörmət və ehtiramla qeyd edirdi: "Tanınmış ictimai xadim, Azərbaycanın ilk hərbi hissələrinin təşkilatçısı general Süleyman bəy Əfəndiyev xidməti vəzifələrinin icrası zamanı yoluxduğu səpmə yatalaq xəstəliyindən fevralın 21-də Ağdamda vəfat etmişdir. Mərhum Əfəndiyev hələ polkovnik ikən fevral inqilabından sonra öz işini Gəncəyə keçirtmiş və burada onun tərəfindən gələcək Azərbaycan ordusu üçün təlimatçılar hazırlayacaq ilk təlim komandası təşkil edilmişdir. Bütün ölkə ərazisi anarxiya və hərc-mərcliklə əhatə olunduğu, eləcə də ötüb keçən eşelonların vətənimiz üçün təhlükə törətdiyi vaxtlarda mərhum generalın başçılıq etdiyi kiçik bir dəstə ölkənin qorunmasını öz üzərinə götürmüş yeganə mütəşəkkil qüvvə olmuş və o, Şamxor hadisələri zamanı hərbi hərəkata başçılıq etmişdir. Mərhum Əfəndiyev, öz həyatını dəfələrlə təhlükələrə ataraq ömrünü tamamilə vətənə xidmətə həsr etmişdir. Mərhum, Gəncə milli komitəsinin işində bilavasitə iştirak edərək komitənin bütün ciddi çıxışlarının fədakar icraçısı olmuşdur. Şamxor hadisələri günlərində mərhum Süleyman bəy gecə və gündüz döyüş meydanını tərk etməyərək hücüm edən eşelonlara qarşı döyüşmüşdür. O, hərbi mülkiyyətin

soyğunçulardan qorunub saxlanması yolunda da çox işlər görmüşdü. Onun yorulmaz və fədakarcasına fəaliyyəti nəticəsində çoxlu sayda hərbi əmlakın talan edilməsinin qarşısı alınmışdır... O, fasiləsiz olaraq gecə və gündüz qarovul-növbətçi qismində hərbi əmlakın mühafizəsində şəxsən iştirak etmişdir. Mərhumun özü şəxsən əzablı kazarma həyatını yaşayaraq aşağı rütbəlilərə də yenilməzlik nümunəsini nümayiş etdirmişdir."

Məlumatda S. Əfəndiyevin doğma ordumuz üçün məfkurəvi və nümunəvi zabit olduğu və vəzifə başında öz vətəninin maraqlarını qoruyarkən özünün fədakarlığı üzündən epidemiyanın qurbanı olaraq vətənin əsil oğlu kimi şəhid olduğu qeyd edilirdi.

Azərbaycanda milli ordunun yaradılmasında S.b.Əfəndiyevin əhəmiyyətli rolu və xidməti bəzi arxiv sənəd və materiallarında öz əksini tapmışdır. Tarixi sənədlər təsdiq edir ki, S. Əfəndiyevin milli ordu quruculuğu sahəsində fəaliyyəti hələ o, sağ ikən Respublikanın Hökuməti və Hərbi Nazirliyi tərəfindən yüksək qiymətləndirilmişdir.

1918-ci il dekabrın 29-da Azərbaycan Respublikası Nazirlər Şurasının iclasında Hərbi Nazir Səməd bəy Mehmandarovun məruzəsi əsasında Hərbi Nazirliyin nəzdində tapşırıqlar generalı vəzifəsini icra edən polkovnik Süleyman Əfəndiyevə xidmətdə fərqləndiyinə görə general-mayor rütbəsinin verilməsi haqqında qərar qəbul edilmişdir.. S.b. Əfəndiyev - Azərbaycan Respublikası tərəfindən general-mayor rütbəsi verilmiş ilk hərbçi olmuşdur.

Süleyman bəy Əlisüleyman oğlu Əfəndiyev 1864-cü il oktyabrın 5-də Ağdamda anadan olmuşdur. O, ilk təhsilini Gəncədəki progimnaziyada almışdır. S.b.Əfəndiyev 1880-ci ildə Yelizavetqrad süvari məktəbinə daxil olaraq 1885-ci ildə həmin məktəbi müvəffəqiyyətlə bitirmiş və xidmətini polisdə davam etdirmək üçün DİN-nin sərəncamına göndərilmişdir. S.Əfəndiyev hərbi xidmətə Qafqaz süvari ordusunun polis nəzarəti idarəsində başlamışdır. Gənc zabit çar süvari qoşununda əvvəlcə birinci zabit olan kornet rütbəsinə, eskadron komandiri olduqdan sonra 1899-cu il martın 15-də çar ordusunun atlı qoşun hissəsində və jandarmeriyada kapitana bərabər olan rotmistr rütbəsinə layiq görülmüşdü. O, nümunəvi xidmətlərinə görə müxtəlif

vaxtlarda "Müqəddəs Anna" ordeninin 2-ci və 3-cü "Müqəddəs Stanislav" və "Müqəddəs Vladimir" ordenlərinin 3-cü dərəcələri ilə təltif edilmişdir. O, 1907-ci il fevralın 20-də Kutaisi quberniyasının polis – keşikçi dəstəsinə müfəttiş təyin edilmişdir. S. Əfəndiyevə 1912-ci il dekabrın 6-da polkovnik rütbəsi verilmişdir.

Süleyman bəy Əfəndiyev 1917-ci ilin iyulunda Zaqafqaziya Komissarlığının sərəncamı ilə Gəncəyə ezam edilmişdir. O, burada öz vəzifəsini yerinə yetirməklə yanaşı Nəsib bəy Yusifbəylinin başçılıq etdiyi Gəncə müsəlman komitəsinin işində də yaxından iştirak etmişdir. Məhz həmin komitənin səyləri nəticəsində şəhərdə və qəzada ermənilərin törətdikləri qırğınların qarşısı alınmışdır. S.b. Əfəndiyev Gəncə müsəlman milli komitəsinin köməyi ilə hərbi kurslar açmışdır. Burada onun tərəfindən gələcək Azərbaycan ordusu üçün təlimatçılar hazırlayacaq 150 nəfərdən ibarət ilk təlim komandası təşkil edilmişdir.

Bunu da qeyd edək ki, Zaqafqaziya Komissarlığının qərarı ilə Müsəlman Korpusunun komandiri vəzifəsinə 1917-ci dekabrın 2-də çar ordusundan tərxis olunan general-leytenant Ə.Şıxlinski təyin edilmişdir. Artilleriya general-leytenantı Əli ağa Şıxlinski Müsəlman Korpusunun komandiri təyin olunarkən S.b. Əfəndiyev korpusun 2-ci atıçı diviziyasının 5-ci atıcı alayının komandiri təyin edilmiş, bir müddət korpus komandirinin əmri ilə diviziya komandirinin vəzifələrini də icra etmişdir.

1918-ci il mayın 28-də Müsəlman Şərqində ilk demokratik və yeganə parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti yaradılanda Əli ağa Şıxlinski vətəninə qayıdaraq Milli Ordunun yaradılmasında bilavasitə yaxından iştirak etdi. Azərbaycan korpusunun komandiri general-leytenant Şıxlinski Nazirlər Şurasının 29 dekabr 1918-ci il tarixli qərarı ilə hərbi nazirin köməkçisi təyin edildi. Müvəqqəti olaraq Hərbi nazir vəzifəsini icra edən general-leytenant Şıxlinskinin I piyada diviziyasının başçısı mərhum general-mayor S.Əfəndiyevin Milli ordunun yaradılması sahəsindəki xidmətlərini nəzərə alaraq onun dəfn mərasimi xərclərinin dövlət hesabına götürülməsi haqqında" 1919-cu il fevralın 21-də Gəncədə imzaladığı " 89№li əmrdə qeyd edilirdi: "...Tiflisdəki müxtəlif məsuliyyətsiz təşkilatların

Müsəlman alayına qarşı açıq-aşkar müqavimət göstərdiyi və keçmiş Zaqafqaziya Respublikasının təchizat idarələrindən bir şey almaq son dərəcə çətin olduğu bir vaxtda polkovnik Əfəndiyev özünün doğma işinə olan istəyi və qətiyyəti sayəsində alay üçün nəzərdə tutulan əmlakın çox hissəsini Tiflis intendantlığından əldə edərək Gəncəyə çatdırmışdır... Çoxlu qayğılar içərisində onun özü haqqında fikirləşməyə vaxtı olmamış – səpmə yatalaq xəstəliyinə yoluxaraq vəzifə başında qarovul-növbətçi kimi vəfat etmişdir. Allah sənə rəhmət eləsin, əsil vətən oğlu, yorulmaz qulluqçu! Vəfat etmiş general Əfəndiyevin Batum şəhərində yaşayan ailəsi tamamilə vəsaitsiz qalmışdır. O, böyük oğlunun ölüm xəbərini alarkən, ona həvalə edilmiş tapşırığın vacibliyini düzgün qiymətləndirərək vəzifəsini tərk etməmişdir. Mərhumun dəfn mərasimi üzrə bütün xərclərinin dövlət hesabına götürülməsini və onun ailəsinə 5 min rubl birdəfəlik maddi yardımın ayrılmasını əmr edirəm. Eyni zamanda onun ailəsinin ehtiyac hiss etmədən yaşaması üçün kifayət edən pensiyanın təyin olunması haqqında vəsatəti hazırda Bakıda olan Hərbi nazir qarşısında qaldırıram.”

Hərbi nazir, artilleriya generalı Səməd bəy Mehmandarov S.b.Əfəndiyev haqqında yüksək fikir söyləmişdir: "General Süleyman bəy Əfəndiyev təmizlikdə, namusda, qeyrət və fədakarlıqda... idarəmdəki cümlə zabitan arasında ən birinci mövqe tutanlardan idi!”

General-mayor Süleyman bəy Əfəndiyev Azərbaycanın ilk hərbi hissələrinin təşkilatçısı və ilk şəhid general kimi tarixə düşmüşdür. Hazırda Qazax şəhər 1 saylı orta məktəb onun adını daşıyır.

# MÜNDƏRİCAT

Milli-mənəvi sərvətimizin etibarlı saxlancı ........................................ 3
İstiqlal bəyannaməsi ........................................................................... 9
Şərqdə ilk demokratik hüquq dövləti.................................................13
Azərbaycan Xalq Cümhuriyyətində dövlət quruculuğu ....................26
Müstəqillik fədaisi ..............................................................................34
Əlimərdan bəy Topçubaşov................................................................38
Fətəli Xan Xoyski ...............................................................................51
Nəsib bəy Yusifbəyli ..........................................................................63
Məmməd Xan Təkinski. .....................................................................74
Cavad bəy Məlik-Yeqanov .................................................................83
Məmməd Yusif Cəfərov .....................................................................96
Aslan bəy Kriçinski ........................................................................... 105
Azərbaycan Xalq Cümhuriyyətinin ən gənc mühaciri
Ceyhun Hacıbəyli ............................................................................. 117
Azərbaycan Xalq Cümhuriyyətinin fəal publisisti
Üzeyir Hacıbəyov ............................................................................. 132
Azərbaycan Xalq Cümhuriyyəti hökumətlərinin
Xalq Maarifi nazirləri ....................................................................... 139
Həmid bəy Şahtaxtinski.................................................................... 147
Firudin bəy Köçərli........................................................................... 157
Əhməd bəy Ağayev ........................................................................... 172
Üzeyir və Ceyhun Hacıbəyov qardaşları .......................................... 188
Arxivlər açılanda .............................................................................. 202
Atasına layiq oğul ............................................................................. 207
Yusif Vəzir Çəmənzəminli ............................................................... 212
Azərbaycan Xalq Cümhuriyyətində Milli Ordu quruculuğu............ 223
General-mayor Teymur bəy Novruzov............................................. 236
General-mayor Süleyman bəy Əfəndiyev ........................................ 241

“Elm və təhsil” nəşriyyatının direktoru:
***Professor Nadir MƏMMƏDLİ***

*Dizayner:* ***Zahid Məmmədov***
*Texniki redaktor:* ***Ruhiyyə Abbasova***

Çapa imzalanmış: *12.05.2018*
Şərti çap vərəqi: *15,5.* Sifariş: № *198.*
Kağız formatı: *70x100 1/16.* Tiraj: *1000.*

---

Kitab “Universal poliqraf” MMC-nin sifarişi ilə
“Elm və təhsil” nəşriyyat-poliqrafiya müəssisəsində
hazır diapozitivlərdən çap olunmuşdur.
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4